**QALMIŞIQ "ZƏND" ilə "ZƏNN" ARASINDA**

*Osmanlı türkcəsində "xırıldamaq"a nə deyirlər?*

Mənim Vətənim AZƏRBAYCAN!

Millətimin adı AZƏRBAYCAN!

Başı müsibətlər çəkmiş Azərbaycanın yaxası həmişə əllərdə olub. Fərq etməz, ya özgə əlində, ya dost, ya qonşu, həmişə ziyanını görüb. Başı heç vaxt ayırd olmayıb ki, papağını qabağına qoyub dərindən düşünə bilsin, zərərini, faydasını müəyyənləşdirsin. Bütün bu qovxalarda dilimiz, dinimiz, torpağımız zərər çəkib. Atəşpərəstlik, bir ara xristianlıq, yenidən yarı atəşpərəstlik, zorla müsəlmançılıq nəsibimiz olub. "Avesta", "İncil" və "Quran" kimi səmavi kitablardan heç birinin mahiyyətini olduğu kimi dərk etməmişik.

Bunların hamısı ədəbiyyata aiddi, uzun mövzulardı, incələnməlidi ki, millətin xəbəri olsun. Az vaxtın, kiçik bir yazının işi, missiyası deyil.

Uzun müddət ruslarla bir çətir altında olmuşuq, mədəniyyətimizin də, ticarətimizin də inkişafı bir olub. O vaxt da dilimizin başına oyunlar açırdılar. "Oğlu" əvəzinə "oviç" yazdırırdılar. Mahiyyətini başa düşməyən böyük əksəriyyət bunu xoşhaxoşluqla qəbul edir, qürrələnirdi. "Qurban"dan başlayan yüzlərlə ana südü kimi halal sözlərimiz qurbana çevrilməkdəydi. "Qabil"ə də "Qabil" deyirdilər, "Habil"ə də.

Əlqərəz, "Qabil"lə "Habil"i birtəhər yola verdik. Ruslardan qopan yaxamız keçdi qardaş deyib bağrına basdığımız Osmanlı təfəkkürlü zehniyyət sahiblərinin əlinə. Onlar bizdən səkkiz-on dəfə çox, əraziləri böyük. Ticarətimizə, mədəniyyətimizə, dilimizə nüfuz başladı.

Ötən əsrin doxsanlarında bunun qarşısı birtəhər alındı. Nər oğullar sinələrini irəli verdilər, dilimizin saflığını, əlifbamızı qoruyub saxlaya bildilər. Bu gün həmin nər oğullardan çoxu haqq dünyasındadır. Yaşayanlar da qocalıb, ahıllaşıb, mübarizə aparacaq gücdə və halda deyillər.

Təsir altında olan dilçilərimiz o qədər başlarını itiriblər ki, "zənd" sözünü "zənn"lə əvəzləyiblər. Bəlkə də bu sahəni filosofa yox, bir riyaziyyatçıya tapşırsaydılar, dilimiz daha yaxşı qorunardı. Heç kimə sirr deyil ki, Nəsrəddin Tusi Nizami Gəncəvidən daha ibarəli, hikmətli şeirlər yazıb. Ancaq dünya Nizamini filosof-şair, Tusini ustad-astroloq kimi tanıyır. Nə isə...

2023-cü il – rəsmən "Heydər Əliyev ili" elan olunmuş – başa çatır. Haqlı-haqsız Azərbaycan xalqı iki ümummilli lider tanıyır: Məmməd Əmin Rəsulzadə və Heydər Əliyev. Rəsulzadə barədə ustad-jurnalist Şirməmməd Hüseynov bütün araşdırmalarını efirdən səsləndirib. Bu iki liderin hər biri "Azərbaycan" dedi, ömürlərinin sonuna kimi dilimizin saflığını qorudular. İki ümummilli liderin çətiri altında olanlar dilimizin saflığını qoruya biləcəklərmi?

Bizdə "x" hərfi var. Son dövrlər dilimizə güclü nüfuz edərək diffuziyaya uğradan, dəyişməyə çalışan Türkiyədə bu hərf yoxdur. Bunun da, özünün də əvəzində "h" işlədilir. Doxsanlarda dilimizin saflığını müdafiə edən Xalq Yazıçısı Anar bircə kəlmə ilə hər şeyi yoluna qoydu:

**"Hırıldayana hırıldayır deyəcəyik, bəs xırıldayana?"**

Böyük hörmət və ehtiramla:

**Əli BƏY AZƏRİ,**

**baş redaktor**

XƏZAN

Ədəbi-bədii jurnal

C8, N9, 2023

Noyabr-dekabr, 2023

Baş REDAKTOR:

**Əli BƏY AZƏRİ**

**Redaksiya heyəti:**

Şahməmməd Dağlaroğlu, AY Bəniz Əliyar, Xaliq Azadi, Məhəmməd Əli, Rəşid Bərgüşadlı, Damət Salmanoğlu, Hafiz Əlimərdanlı, Ayaz İmranoğlu, Təranə Dəmir, Minarə Sığnaq, Ələsgər Talıboğlu, Zaur Ustac, Əyyub Türkay, Elvin İntiqamoğlu, Gülnarə İsrafil

Baş redaktorun MÜAVİNİ:

Ramiz İSMAYIL

Dizayn: Məhbubə

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Mətbuat prospekti,

529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı

**Əlaqə telefonları:** (070) 575 03 99

**Email ünvanı:** xezan23@mail.ru,

5750399a@mail.ru

**Çapa imzalanıb:** 8 dekabr 2023-cü il

Ədliyyə Nazirliyində 15 yanvar 2016-cı ildə qeydə alınmışdır: 5331

**Jurnal aylıqdır.**

Materiallar elektron variantında, yaxud diskdə və on dörd şriftlə printerdən çıxmış çap variantında (bir nömrə üçün) poeziya və publisistika beş, nəsr on səhifədən çox olmamaq şərtilə qəbul olunur.

JURNALI Azərbaycan Yazıçılar Birliyinin "Bayatı" və KİTABEVİM.AZ kitab mağazalarından əldə edə bilərsiniz.



ELNARƏ AKİMOVA

# ÇAĞDAŞ DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATINDA AZƏR TURAN İMZASI

Azər Turanın "XX əsr - fəryadın metafizikası" kitabına daxil olan əksər yazıları ilə onun hazırda baş redaktoru olduğu "Ədəbiyyat qəzeti"nin səhifələrindən tanışam, əksər yazıları gözlərim önündə yaranıb, onların ilk dinləyicisi olmuşam. Amma bir qism yazılarını ilk dəfə bu kitabda oxudum, bu kitabın səhifələrində vərəqlədim. Bu tamlıq oxuduğum digər yazıları da ayrı estetik biçimdə dərk etməyimə, onları vahid ədəbi konsepsiyanın, məfkurə dalğasının təzahürü olaraq izləməyə imkan yaratdı. Bu kitab mənə "özümlə, türk olmağımla öyünməyə dəyər" dedi, necə gözəl kimliyə, necə şövkətli keçmişə hakim olmağıma qürurlandırdı. Onsuz da bura qədər meydana qoyduğu böyük işlərdən - "İrfan çobanı", "Cavidnamə", "Əli bəy Hüseynzadə", "Xalid Səid Xocayev", "Darülmöminin" kimi əsərlərdən məlum olan Azər Turan obrazı bu kitabla gözümdə daha da bütövləşdi, yenidən kəşf olundu.

Azər Turanın "XX əsr - fəryadın metafizikası" əsərində modernizm cərəyanı, onun dünya ədəbiyyatında qoyuluşu və təzahür şəkilləri modern bir təfəkkürlə araşdırılır. Kitab bütünlükdə XX əsrin estetik dalğası üzərindədir, onun tarixini, inkişaf meyillərini, çağdaş milli və dünya ədəbiyyatı kontekstində mövqeyini öyrənmək baxımından zəngin material verir. Əslində Azər Turanın yaradıcılığının bütün qatlarından keçən estetik qayə - modern dünya savaşı bu kitabda bir daha hüdudlarına yetir. Zəmini eyni mövqedən - millət və yurd sevdası, əzəmətinə heyran qılınan türklük ruhu, kökünə və bütövlüyünə boylanan yaddaş işığı üzərində gəlsə də, bütünlükdə modern düşüncə xətti, dünya mədəniyyəti və sənəti kontekstində davam tapır.

Bu kitabda dünya ədəbiyyatında gedən proseslərin fırtınası əsir. Bu fırtına Azər Turanın "Modernizm dalğası" silsiləsi altında təqdim olunan yazılarında daha çox nəzərə çarpır. Qeyd etmək önəmlidir ki, Azər Turanın "Modernizm dalğası"ndan olan yazıları bir ilkdir. Əvvəla, müəllif problemin aktuallanmasına uzun illərdən bəri çağdaş mövzulara qapalı olan "Ədəbiyyat qəzeti"nin səhifələrində start verir. Daha sonra milli ədəbi sfera üçün o qədər də tanış və funksional olmayan imzaların tədqiq predmetinə çevrilməsi bu məqalələri yeni ədəbi-tənqidi düşüncənin dövriyyəsinə daxil edir. Bu tanıtım həmçinin, bizə öz ədəbiyyatımızı da görüb tanımağa imkan yaradır. Bəli, ədəbiyyat tarixi həm də cərəyanlar tarixidir. Bu kontekstdə araşdıranda tipoloji baxımdan XX əsr Azərbaycan ədəbiyyatı XIX-XX əsr dünya ədəbiyyatına nəzərən səciyyələnir, xüsusilə əsrin birinci iki onilliyi həmin faktların təzahürünü verir, Avropada əsası qoyulmuş cərəyanları, ideya-estetik fəlsəfə sistemlərini təcəssüm etdirir.

Azər Turanın hər iki qütbün ədəbiyyatına, onların özünəməxsus inkişaf qanunauyğunluğuna vaqif olması ona beləcə, müxtəlif analogiyaları yanaşı verməyə zəmin yaradır. Məncə, uzun müddət özü ilə arasına sədd çəkilmiş universal baxış sistemlərinin düşüncə strukturumuza gətirilməsi və bunun sağlam müstəvidən realizəsini tapması XX əsr tarixinin və mədəniyyətinin özünüdərk proseslərini anlamağa, onu bütün məzmun-mahiyyəti ilə meydana qoymağa

imkan verir. Azər Turan haqlı olaraq, XX əsri fəryadın metafizikası kimi simvolizə edir, ümumi əhval və uslub konkretliyi ilə şərh etsək, bu, bütün parametrləri ilə əsrin məzmununa, onun psixoloji hal və vəziyyətinə tam adekvat anlayışdır. Həmin dönəmdə birinci və ikinci dünya müharibələrinin ardınca gətirdiyi iqtisadi-siyasi, ictimai-sosial tənəzzül, bunların fonunda mənəvi böhran yaşayan insanın gerçəkliyi dərkinin yeni forma axtarışlarına meyli, onun avanqard xarakterli konsepsiyalar irəli sürüb klassik modelləri inkara çalışması kimi əlamətlər tamam fərqli sənət hadisəsidir və zənnimcə, Azər Turan yeni kitabında bu fərqliliyi yetərincə dəqiq xarakterizə edir: “Əfsus ki, Azərbaycan poeziyası özünün əlahiddə bir “Sərvəti-Fünun” dövrünü yaşamadı. Yeniləşən ədəbiyyat dünyasında Azərbaycan poeziyası Avropadan 40-50 il geri qaldı. Sonra da modernizmə qarşı açıq və qıcıq dolu savaşını fasiləsiz və amansızcasına sürdürən yetmiş illik sovet dönəmi. Beləliklə, Avropadan demək olar ki, əsr yarımlıq intervalla ayrı düşdük. Tərənnüm kabusu, siyasi sifariş ədəbiyyatın bütün müqəddəs ərazilərini zəbt etdi.”

Müstəqillik dönəmindən sonra modernizm haqqında danışmaq ardıcıl və davamlı şəkil aldı. Yaxın keçmişin ideoloji kontekstində həllini tapmış bəzi nəzəri kateqoriyalar kimi modernizmin də yeni ədəbi baxış sistemində həlli vacib və qanunauyğun proses sayılmalıdır. Azər Turan iki onildən artıq bəhs edilən məsələyə problemin qoyuluş şəklindən başlamadı, onun səbəbləri deyil, nəticələri üzərinə diqqət çəkdi. Boşluq hardadır, milli ədəbi-ictimai düşüncənin hansı qatında? Modernizmin mövcud kontekstini müəyyənləşdirmək, dünyabaxış sistemində mövzuya müraciətin imkanlarını meydana çıxarmaq, yeni paradiqmaların fonunda qərarlaşan prinsipləri qarşılaşdırmaq yolu ilə cərəyanlar məsələsini dövriyyəyə qatmaq. Problemə nüfuz bu istiqamətdə qərarlaşdı və nəticədə milli ədəbiyyatımızın özü üçün önəmli sayılacaq faktlar sırası üzə çıxdı. Məlum oldu ki, Munk və M.Hadi (“Çığırtı” rəsmi və “Əlvahi-intibah” poeması), Ş.Bodler və Tofiq Fikrət (“Leş” və “Gayyayi-vücud” şeirləri), C.Coys və Ə.Hüseynzadə (“Uliss” və “Siyasəti-fürusət” əsərləri) arasında paralellər dünya ədəbiyyatının milli ədəbiyyatımızda salınan izlərini nişan verməyə yararlı materiallardı. Azər Turan milləti, insanı öz kimliyi, keçmişi, keçdiyi yolu, varlığı ilə üzbəüz qoyur. Bu yolda, türkün saçdığı işıqda onun manelərini sökə-sökə kökünə, yaddaşına boylanır, nüvəsinə çatır. Bu mənada, zaman elementi, tarix



konteksti Azər Turanın məqalələrində daim görünən fondur. Milli ədəbiyyatın Zaman səhnəsində oynadığı rol, onun çəkilib-qabarmalarla səciyyələnən obrazı, düşüncə yönü bu kontekstin faktları kimi daim öndədir, onun dünya empirikasından (təcrübəsindən) tutmuş həzm, idrak etdiklərinə qədər bu məqalələrdə yaşanmış şəkildədir. Azər Turan ədəbiyyatda olanları elə tarix kimi bugünləşdirir, çağdaşlaşdırır, onları vahid estetik müstəviyə gətirməklə yalnız milli və dünya mədəniyyətinin ellipsvari qovuşma məkanını yaratmır, həm də kontekstdən yeni problematikaya adlayır: “Türk ədəbiyyatında mifoloji düşüncənin geniş ölçüdə bədii mətnə tətbiqi ilk dəfə 1908-ci ildə “Siyasəti-fürusət”də, dünya ədəbiyyatında isə İlkin intibah dövründən sonra mifolojiyə ilk qapsamlı dönüş - 1914-1920-ci illərdə “Uliss”də gerçəkləşib. Bu mənada XX yüzilin əvvəllərində Azərbaycan ədəbiyyatı Avropa ədəbiyyatından geri qalmırdı. Coysun “Uliss”i öz ideya qaynağını “Odissey”dən, Hüseynzadənin “Siyasəti-fürusət”də yararlandığı bədii üsul isə təbii ki, ideya qaynağını “Odissey”dəki Aiddən (ölülər ölkəsindən) və “İlahi komediya”dan alır. Ümumiyyətlə, Əli bəy Hüseynzadənin mifolojiyə münasibəti türk düşüncə tarixinə həsr olunmuş araşdırmalarda qabarıq görünən həqiqətdir. “Ədəbiyyatımız Əli bəyə qədər belə bir cəhddə bulunmamışdır” deyə yazan Hilmi Ziya Ülken mifoloji düşüncəsinin çağdaş türk ədəbiyyatına gəlişini Əli bəy Hüseynzadənin adına bağlamaqda haqlıydı”.

Bu məqalələrdə modernizm hadisəsi ayrı-ayrı xüsusiyyətlər, yaxud sənətkarlar məcmusu olmayıb ümumi tipoloji keyfiyyətlərə malik vahid proses hadisəsi kimi nəzərdən keçirilir, oxşar əlamətlərin, köklü fərqlərin mahiyyəti elmi-konseptual və sənət dər-

kini tapır. Müəllif ənənəvi mövzuların, yanaşmaların məhdudluğunu yarıb yeni sferalara - birbaşa dünya problematikasına çıxır, yaradıcılığı bütünlükdə bu ehtirasın təcəssümü kimi təzahür edən türk poeziyasının ünlü simalarının nümunələri əsasında dünyada gedən modernizə dalğasının işlənmə formalarını paralel xətlər olaraq təsvirin predmetinə daxil edir: “Türk şerində modernizm XX yüzilin iyirminci illərindən (1927) etibarən 22 yaşlı Nəcib Fazilin yaradıcılığı ilə gəlişməyə başlayır. Qısakürəyin mistisizmə keçişinə - Əbdülhakim Arvasinin timsalında təsəvvüfün çağdaş türk şerinə təlqinlərinə - 1934-cü ilə hələ 7 il qalmışdı. Qısakürəyin tədqiqatçıları daha çox onun modernizmə qarşı dirənişindən danışsalar da, gerçəkdə, belə bir yanaşma Türkiyə ədəbiyyatşünaslığının ciddi kəsirlərindəndir. Əslində, etiraf edilməlidir ki, Nəcib Fazil metafizik cərəyanın qurucusu olmazdan öncə “Kaldırımlar” və “Otel odalarında” şeirləri ilə türk poeziyasına modernizm axımının daxil olmasına ciddi təkan verən ilk şairdir”.

Beləcə, Avropa ədəbiyyatında gedən modernizm prosesinin üzün və sürəkli yolunun Cənab Şihabəddin, Əhməd Haşim, Yəhya Kamal Bayatlı, Nazim Hikmət, Orxan Vəli, Cahit Sıtkı Tarançı, Edip Cansevər, Cəmal Sürəya və başqa şairlərin yaradıcılığı əsasında mənzərəsini verir. “XX əsr - fəryadın metafizikası” kitabında milli ədəbiyyatımızın çağdaşlığı, onun dünya həyatı ilə ayaqlaşa bilməsi uğrunda gizli bir polemika da var. XX əsr ədəbiyyatının Avropa üçün daha çox cərəyanlar tarixi kimi səciyyəviliyi milli həyatımızda da bunun tarixi ölçülərini, gerçəkliyini, izlərini aramağı israr edir. Azər Turan problemin Azərbaycan ədəbiyyatında işlənmə hüdudlarına varır, milli gerçəkliyimizin faktlarını bütün parametrləri ilə XX əsr həqiqətlərinə, sənət axtarışlarına müncər edir, modern dünya savaşına çıxır.

Azər Turanın məqalələrindən tarix, bəhs etdiyi məsələlərin baş verdiyi zaman kəsimi xüsusi xətt olaraq keçir. Məsələn, “1900-cü il. “Tanrı öldü” deyən Nitsşe ağlını itirdi, dəli oldu və öldü. XX yüzil Nitsşenin ölümü ilə başladı”. Bütün yazı boyu oxucu bu tarixin təcəssümü olan faktların sıralanmasına cəlb edilir, tarix canlı materiyaya çevrilir, XX əsrin Nitsşe ideyalarından nəşət tapan düşüncə planı ön plana keçir. Bu məqamlara - tarixi situasiyalara həssaslıq “XX əsr - fəryadın metafizikası” kitabının özünü də artıq sənətə münasibətin modern aktı olmaq baxımından tarixə çevirir.

Birbaşa tarix konsepti üstündə yazılan “Alp Ər Tonqa”, “Oğul atanın sirridir”, “Sultanın süd qardaşı” kimi məqalələr deyil, habelə İskəndər Palanın “Şah və Sultan”, “ədəbiyyatın ilk daş yuxusu - İvo Andriçin “Drina Körpüsü” ilə bağlı ədəbi-mədəni diskursa açıq yazılarda belə tarixiləşmək, tarixi sabaha vurğulama niyyəti ilə üzləşməli oluruq. Bu məqalələrdə Azər Turan yalnız filoloq alim kimi görünmür, daha dərin qatlara enir. Üslub sərtləşir, mahiyyət dərinləşir, fikir mövqeyi daha kəskin və polemik müstəviyə adlayır, tarixidərkin ehtiras və canatımları önə keçir. Məsələn, bilgi və informasiyasının ağırlığına görə fərqlənən, böyük həyəcan və maraqla oxuduğum, tariximiz haqqında çeşidli yeni gerçəklər anladan, ciddi düşüncə sahiblərinin, tarixçilərin fikirlərinə istinadən böyük mətləblərdən soraq verən “Alp Ər Tonqa” məqaləsi qaldırdığı problemlər sırasına görə düşündürür, Zərdüştə və onun “Avesta”sına yenidən nəzər yetirməyin labüdlüyü, yaxud “əsli-nəsli bilinməyən Dəvdək adlı bir şairin Cavanşirin ölümünə yazdığı: “Tamam ram etmişdi böyük Cavanşir, Dünayda nə qədər işğalçı var?” kimi əttökən “mərsiyəsini” erməni dilindən Azərbaycan türkcəsinə çevirib ədəbiyyat tariximizin birinci yazısı edənlər”in nə üçün Alp Ər Tonqaya, yaxud Alp Ər Tonqa barədə bizim öz dilimizdə yazılmış ən qədim türk şerinə sahib çıxmaq istəmir” kimi sualların varlığı bizi tariximizə bağlı daha obyektiv elmi yanaşmalar əsasında düşünməyə vadar edir. Bu suallara cavab vermək əlbəttə ki, tarixçilərin işidir. Amma bu da faktdır ki, bəzən faktların mövcudluğu, mənbələrin yetərincə olması onların doğru təfsirinə varılması üçün bəs eləmir. Bunun üçün həm də milli şüur oyaqlığı, millətini və dövlətini sevmək əzmi öndə olmalıdı. Ona görə Azər Turanın aşağıdakı fikirləri milli heysiyyətdən doğan ağrı nidası kimi səslənir: “Bu yazıya başlayarkən təəssüf qarışıq bir duyğu yaşadım. Kaş bizim tariximizi Zəki Vəlidi Toğan kimi romantik milli ruha, böyük elmi öfkəyə və diapazona malik alimlər yazaydılar. Daha adları hecalara bölüb hər hecanın tərkibindən türk elementini axtarmaqla məşğul olmayaydılar. Cahan tarixinə həm də hər zaman oyanıq olan milli şüurun gözləriylə baxaydılar...” Bu, zaman-zaman yad əllər və düşüncə ilə yazılmış, milli statusundan ayrı düşmüş bir tarixin acılarından ibrət götürməyə çağırışdır. Bu kitabda həmin yad ideologiyaların güdazına getmiş millət fədailərindən sevgi ilə bəhs olunur. O fədailər ki, 1926-cı ilin Bakısını Türkoloji qurultayın ilk ünvanına çevirə bilmiş və rus şərqşünası Bartoldun bu fikirlərini tarixə salmağa şərəfli ömür həsr et-

mişdilər: “Hal-hazırda qurultay Bakıda çağırılır. Qurultayın Bakıda çağırılmasına bir çox dəlillər vardır... Danmaq olmaz ki, əksər əhalisi türk olan cümhuriyyətlərin hamısına nisbətən Azərbaycan cümhuriyyəti və onun paytaxtı Bakı şəhəri universitet həyatını və ümumiyyətlə, elmi həyatı daha yüksək dərəcədə saxlamağa müvəffəq olmuşdur. Digər tərəfdən coğrafi mövqeyinə görə də Bakı istər Moskvadan, Leninqraddan, istərsə də Krım, Tatarıstan, Türkmənistan və sair respublikalardan gələnlər üçün eyni dərəcədə əlverişlidir”.

Azər Turan kitabda repressiya dalğasının məhv etdiyi fikir aydınlarımızın hüznlü tablosunu yaradır. Həm də faciənin qlobal-mənəvi təsviri kontekstində. Bu kontekstdə “Divani-lüğət-it türk”ün ilk tərcüməçisi Xalid Səid Xocayevin güllələnməsi qədər “çarmıxa çəkilmiş ruhun məryəm anası”- Anna Axmatovanın taleyindən keçən stalinizm dəhşətləri bir o qədər həssas yanaşmanın predmetidir. Mühacirətdə yaşayan krım-tatar yazıçısı, “dəniz qoxulu” Çingiz Dağçının yaradıcılığındakı müharibə dəhşətlərinin təsviri qədər yuqoslav yazıçısı İvo Andriçin “Drina körpüsü”ndəki kürəsəlləşmənin modeli - mədəniyyətləri, dinləri birləşdirmək çabası heyrətamiz bir vəsf və duyğusallıqla ifadəsini tapır. Çünki Azər Turan da bütün alizövqlər kimi o nöqtədə dayanır ki, “insanın taleyini, insanın sarsıntısını, insanın suçunu, insanın aldanışını, insanın qəzəbini və sevgisini” yazmağı meyara çevirən sənət tarixin səhnəsində yaşam müəyyənliyi ilə hər zaman diri və əhəmiyyətlidir.

Bir də milli qürur ünvanlarımız... Hər bir millət, hər bir dövlət dünyada duruş gətirmək, öz varlığı, milli kimliyi, dəyərləri ilə görünə bilməsi üçün söykənəcəyi istinad nöqtəsi, qürur ünvanı axtarışındadır. Azər Turanın yeni kitabında millətin aydınlarını tanıtmağa, onların xidmətlərini tarixi-mədəni ölçülərdə konkretləşdirməyə güclü əzm var: Ş.C.Əfqani, İ.Qaspıralı, Y.Akçura, Ə.Ağaoğlu və b. - milli və bütöv düşüncə axtarışlarının konteksti daha çox türklük və islam dünyasının dəyərlərində ifadəsini tapırsa “özgə”ni öyməyə, ya uydurmağa nə hacət? Azər Turanın təxəyyül sərhədsizliyi yalnız dünənlə bu gün arasına deyil, həm də gələcək arasına körpü salır, bədii mətn həqiqətini, şəxsiyyətin miqyasını müxtəlif zaman və məkan qatlarında oxumağa, onu eninə və dərininə genişləndirib tarixi haqqını verməyə yol açır. Çünki milli-ictimai tərəqqinin gəlişməsində tarixi perspektivə zəmin yaradan bu insanların ömür yolu nəinki XX əsrin, hətta bugünümüzün çağdaş ölçülərinin müəyyənləşməsində rol oynayır. Milli cəmiyyət, mədəniyyət və ədəbiyyatın inkişaf istiqamətlərini müəyyənləşdirmək istəyiriksə, onların ideyalarının saçdığı işıqdan bu günə, sabaha yollar aramalıyıq. Bu mənada “XX əsr-fəryadın metafizikası” kitabı həm də bir VƏTƏNDİR! Türk dövlətini quranlar - Alp Ər Tonqa, Bilgə Kağan, Hüseyn Bayqara, Şah İsmayıl Xətai, türk dilinin əzəmətini meydana qoyanlar - Mahmud Kaşğarlı, Əlişir Nəvai, türk tarixini yazanlar və tədqiq edənlər - Zəki Vəlidi Toğan, Fuad Köprülüzadə, türk nəsrinin yaradıcıları - Çingiz Dağçı, Çingiz Aytmatov, Anar, dünya poeziyasının türk şahzadələri - hamısı bir yerdədir. Onlar hamısı bu kitaba cəm olub Vətən qururlar. Kimisi onun dilinin, kimi ədəbiyyatının, kimi tarixinin, kimi də taleyinin keşiyində dayanıb Vətən adlı müqəddəs mehraba tapınmağın nümunəsini verirlər. Azər Turan bu fəzilət sahiblərini bir ocağın başına yığmaq üçün onların addım-addım izinə düşür, etibar etdiyi zəka sahiblərinin, ədəbiyyat tarixçilərinin araçılığı ilə tarixin dərin qatlarına nüfuz edib bizim üçün toxunulmamış, yaxud yarımçıq qalan mövzuları yeni çağın problematikasına daxil edir. Ədəbiyyatda, sənətdə dirilik isə qoyulan nöqtədən deyil, mübahisələrə yol açan sualların doğuluşundan başlayır.

Kitabda Azər Turanın səsləndirdiyi belə bir fikir var: “Hüseyn Bayqaraları tarix hər zaman yetirmir. Onun kimi nadir insanları doğurmaq üçün tarix özünün türk çağını hər dəfə yenidən yaşamalıdır”. Bu fikri eynilə Azər Turana aid eləmək istəyirəm və elə bilirəm onun obrazını yüzə yüz dəqiq ifadə edir. Qürur doğuracaq keçmişin, yaşayan indimizin, varlığı ilə öyünüləcək xalqın canlı simasıdır Azər Turan. XXI əsrin əvvəllində Tanrının onun qələmi və zəkasında aydınlatdığı tarixi əzəmətimiz, “ulusu sevmək fənni”miz”, yenidən yaşanan türk çağımız və modern dünya savaşımızdır. Azər Turan ruh və mənəviyyat etibarilə məqalələrindən dönə-dönə adıkeçən böyük insanların əqidə və inam daşıyıcısıdır. Dövlətinə və millətinə bağlı, içində böyük türk sevdası gəzdirən insanlardandır. Ə.Hüseynzadənin, H.Cavidin, Z.V. Toğan, F.Köprülüzadə və başqa millətsevərlərimizin ömür verdiyi işlərin çağdaş zamana qarışıb yaşamasına və Yola çevrilməsinə qeyrət göstərən fədaidir. Ona görə, adıçəkilən bu imzalardan sonra vergül qoyub, ora cəsarətlə və tərəddüdsüz çağdaş dövr ədəbiyyatından Azər Turan imzasını yazmağın labüdlüyünü meydanda olan işlərin özü diktə edir.



## VAHİD ÇƏMƏNLİ

**ATA YURDUNA**

Hər səhər dönürəm sənli günlərə,
Mənə demədiyin nə sirrin qalıb?
Sənsiz yaşayıram əlli ilimi,
Hələ də üstümdə təsirin qalıb.

Adını özümə ad götürmüşəm,
Laləli düzündən od götürmüşəm.
Bağından, bağçandan dad götürmüşəm,
Canımda nəyindən kəsirin qalıb?

Hərdən yol alıram sən adlı yurda,
Nəslimin ruhları dolaşır orda…
Torpağa dönəcəm bilmirəm harda?
Sorarsan, hayanda yesirin qalıb?

**BAYRAQ**

Vətən göylərində yanan ümidum,
Hünər meydanında sirdaşım Bayraq.
Öz eşqim, öz canım…
Canımda odum,
Atam, anam Bayraq, qardaşım Bayraq.

Rəngin üç olsa da, qan rəngindəsən,
Qaçqın, köçkün də sən, didərgin də sən…
Zəfər döyüşündə ürəimdəsən,
Sənsən cəsarətim, savaşım Bayraq.

Vahidəm, hər zaman dilimdə sənsən,
Yurdumda, yuvamda, elimdə sənsən.
Nə qədər mən sağam, əlimdə sənsən,
Öləndə, ol mənim başdaşım, Bayraq!

**SƏNİ SEVMƏK ÜÇÜN GƏLDİM DÜNYAYA**

Səni sevmək üçün gəldim dünyaya,
Şirinli, şoranlı dadını sevdim.
Meylimi salmadım Günəşə, Aya,
Sinəndən püskürən odunu sevdim.

Gəzdim dağlarında, gəzdim düzündə,
Min bir hikmət tapdım elin sözündə…
Ulduzlu gecəndə, al gündüzündə,
Həzin layla deyən qadını sevdim.

Vahidəm, köksümə sığsa da cahan,
Sənsiz dar gələrdi yer, göy, asiman…
Sənə anam dedim, Can Azərbaycan,
Canıma can qatan adını sevdim.

**GEDƏSƏN**

Sobada odun yox…
Odum da yoxdu,
Bəlkə… bu sobanı yaxıb gedəsən.
Çaydana tökməyə suyum da yoxdu,
Bəlkə… çaydanıma axıb gedəsən.

Hasarlar əyilib, haçası üçüb,
Evimin divarı, bacası uçub…
Şeirimin misrası, hecası uçub,
Bəlkə… vərəqləri yığıb gedəcən.

Bilmirəm, başımda ta nələr oynar?
Bağımda yel əsər, yengələr oynar.
Quru torpaq üstə kölgələr oynar,
Bəlkə… yağmur kimi yağıb gedəsən.

Bağda bağlı qalıb qara Bəyənək,
Çürük salxımlardan əyilib tənək.
Naxırdan qayıdıb Sarıqız inək,
Bəlkə… bu inəyi sağıb gedəsən.

Mən özüm hardaym, xəyalım harda?
Yetmir harayıma ana da, yar da.
Nə işin var idi özgə diyarda?
Niyə xatirəyə sığıb gedəsən

Vahid bu xəzana bağladı ümid,
Xəzan keçib getdi, qoydu naümid…
Vallah, mən deyiləm sən gəzən igid,
Bəlkə…
Vədəsində çıxıb gedəsən?

**GÜNLƏRİN**

Əlimdən qum kimi süzülüb axdı,
Hesabı qum qədər olan günlərin…
Ağrısı, acısı canını yaxdı,
Vədəsiz açılıb solan günlərin.

Üzürəm, dəryanın qırağı gəlmir,
Ağaran saçların darağı gəlmir…
Hardadı dostlarım?
Sorağı gəlmir
Şirin vədlər ilə dolan günlərin…

Ay Vahid, and içir saxta adamlar,
Üşüdür canımı şaxta adamlar.
Macal vermirlər ki, taxta adamlar,
Ucundan kəsirlər qalan günlərin…

**MƏNİM**

Hər gülünü, çiçəyini öpürəm,
Taleyimsən, qədərimsən Sən mənim.
Dağlarında bənövşətək bitirəm,
Sevincimsən, kədərimsən Sən mənim.

Uzaq gəlir gələn illər, bax, — ancaq,
Dünənimə əl uzatsam, çatacaq.
Danış desəm, daşın da dil açacaq,
Boğazımda qəhərimsən Sən mənim.

Zaman özü ağır yazdı yazımı,
Bol-bol verdi şəkərimi, duzumu…
Unuduram yavaş-yavaş özümü,
Mənə qalan dəyərimsən Sən mənim.

Köç edirəm həzin xəzan mehində,
Buludunda, yağmurunda, şehində…
Ürəyimdən qopub gələn «eh"imdə
Məndən betər, betərimsən Sən mənim.

Can, ay Vahid, səfərimə hazıram!
Keçənləri yaddaşımdan pozuram.
Qışına da indi şeir yazıram,
Bülbül kimi ötərimsən Sən mənim…

**OLMUR**

Səni tanımayan nə bəxtəvərdi,
Gözünün yaşları axıb sel olmur.
Səsini eşitmir,
Üzünü görmür,
Hər gün atəşinə yanıb kül olmur.

Dəlitək çöllərdə tənha dolaşmır,
Dost ilə çəpləşmir,
Yadla dalaşmır.
Naləsi, fəryadı dağları aşmır,
Kədəri böyüyüb dəvə, fil olmur.

Vahid, uzaq dayan o şux gözəldən,
Qalan ağlını da verərsən əldən.
Hənirsiz keçməsən sonalı göldən,
Sonra yan almağa bir sahil olmur.

**YAŞADIM**

Nə sevdalar gəlib keçdi başımdan,
Bir kərə yox, min-min kərə yaşadım.
Bu dünyanın yoğurduğu xəmirdən,
Nələr çıxdı, görə-görə yaşadım.

Yerlə, göylə çox çarpışdım, vuruşdum.
Gah zülmətə, gah işığa qovuşdum,
Yolçulardan yolun düzün soruşdum,
Çamurlara girə-girə yaşadım.
Haqsızlığa üsyan edən anımda,
Haqq şahiddi, kimsəm yoxdu yanımda.
Yetimliyin qəmi qaldı canımda,
Həsrət qaldım dürə-zərə yaşadım.

Meyil saldım al-yaşıllı çöllərə,
Adım düşdü uzaq-yaxın ellərə.
Könül verdim çiçəklərə, güllərə.
Nanə, yarpız dərə-dərə yaşadım.

Üz çevirdim üzdəniraq üzlərdən,
Hal əhlini gördüm, duydum gözlərdən.
Mən Vahidəm, dadlı, duzlu sözlərdən,
Uca qala hörə-hörə yaşaım.

**BU EŞQİ**

Bəzədin söz ilə könül mülkünü,
Yığıb ürəyinə tığla bu eşqi.
İstəsən, solmasın bircə yarpağı,
Bəslə şərbət ilə, yağla bu eşqı.

Aqillər göylərin mehrabı dedi,
Acizlər dərd yükü, qəm qabı dedi.
Cahil dodaq büzdü, kor yabı dedi,
Gəl, sən də bir cürə ağla bu eşqi.

Vahid, sevdalıdır hər keçən anım,
Eşq ilə alışdı, kül oldu canım.
Göstər öz külünü sənə inanım,
Dadlı bir vüsala bağla bu eşqi.

**GƏLƏCƏM**

Məni soruşdunmu əsən yellərdən?
Bir axşam yel kimi qopub, gələcəm.
Qar tutan, ot basan cığırlarında
Köhlən atlarımı çapıb gələcəm.

İtdi cavanlığım, zamanda itdi.
Solğun bir ümiddə, gümanda itdi.
Könlüm həsrət adlı dumanda itdi,
Mən onu axtarıb, tapıb gələcəm.

Vahid, nə qazandım qürbət diyarda?
Bilmədim, ölənim, itənim harda…
Ömür karvanımı çəkən qatarda,
Fərhadtək dağları çapıb gələcəm

**ÖYRƏN**

Yenə çırpınırsan göz dəryasında,
Batarsan, əvvəlcə üzməyi öyrən.
Ya da…
Sahillərə çırpar dalğalar,
Sahilsiz göylərdə süzməyi öyrən.

Bir zaman lütfünə çoxdu ümidim,
Ümidsiz qoymusan, indi nə edim?
Bir daş da mənə ver, qoy, çıxım gedim,
Bir daş ürəkliyə dözməyi öyrən.

Çaparaq adladın bu qısa ömrü,
Gah toya döndərdin, gah yasa ömrü.
Zülmətdə yaşadın yarasa ömrü,
Çıraqla Vahidi gəzməyi öyrən.

**ƏZİZİM**

Salamsız, kəlamsız gəldin ömrümə,
Salamsız, kəlamsız çıx get, əzizim.
Bir qala qurmuşdum xəyallarımda,
Özün o qalanı yıx get, əzizim.

Qapılar yan-yana, qaralı, ağlı,
Kiminə açıqdır, kiminə bağlı.
Qala bilmədinsə, canına sağlıq,
Qapıdan son dəfə bax get, əzizim.

Vahidəm, düşünmə sənə möhtacam.
Mən dəli aşiqəm, eşqinə acam.
Sənli də, sənsiz də şeir yazacam,
Bir zərif misraya ax get, əzizim.

**BİRGÜNLÜK QONAĞAM**

Birgünlük qonağam sizin şəhərdə,
Sabah gün çıxmadan çıxıb gedəcəm.
Bəmbəyaz gecənin təbəssümünü,
Dəsmaltək üzümə sıxıb gedəcəm.

Yol azıb deyəsən bu günəşli gün,
Bir qərib yolçunun izinə düşüb.
Mənimlə getməyə hazır əllərin
kölgəsi dərd olub, gözünə düşüb.

Cavab axtarmayaq çətin suala,
Mən dedim…
sən dedin…
Fərqi nədir, nə?
Bu axşam çərşənbə tonqalı qala,
Alovum döşənsin qədəmlərinə.

Tək, tək ulduz kimi sönür ümidlər,
Güman var, sabaha qalmaz biri də.
Hələ anlamıram bu gün nəyim var,
Nəyim olmayacaq sabah bu vədə?..

Birgünlük qonağam sizin şəhərdə,
Sabah gün çıxmadan çıxıb gedəcəm.
Bəmbəyaz gecənin təbəssümünü,
Dəsmaltək üzümə sıxıb gedəcəm.



DAŞQIN MƏMMƏDOV

# ATA ŞUŞA

*“Şuşa İli”nə həsr olunur*

*povest*

İki gün idi Şuşada güllə, mərmi səslərinin arası, demək olar, kəsilmirdi. Şəhərdə çox az adam qalmışdı. Onlardan biri də Üzeyir kişinin ailəsi idi. Ailəsi deyəndə gəlini və nəvələri artıq getmişdilər. Yalnız özü, xanımı və iki oğlu qalmışdı. Oğlanları şəhəri qorumaq üçün könüllü olaraq qalmışdılar. Dar gündə doğma-əziz şəhərlərini tərk edib çıxmağı özlərinə sığışdıra bilmirdilər. Amma nə qədər cəhd göstərib, məcbur etsələr də Üzeyir kişini şəhərdən çıxmağa heç cür razı sala bilməmişdilər. Anaları Nigar da “Kişi getmirsə, mən də getmərəm!”, – demişdi. “Bu 30 ildə bir dəfə də olsun ayrı qalmamışıq. Getdiyi yerlərin hamısına məni də aparıb. Tək getdiyi yerlərdən isə işi gecənin hansı saatında bitibsə, o saatda da geri qayıdıb. İndi mən onu qoyub hara gedirəm? Nə olacaqsa, qoy onunla birgə olsun!” – deyə inad etmişdi.

***

Üzeyir kişi heç nə olmamış kimi hər gün namazını qılmaq üçün Yuxarı Gövhərağa məscidinə gedir, Şuşanın küçələrini bir-bir gəzir, Xan qızının bulağından və başqa bulaqlardan doyunca su içirdi. Sanki ürəyinə dammışdı ki, bu doğma şəhərdən uzun müddət ayrı düşəcək. Əllərini divarlara sürtür, gülləri qoxulayır, may ayının bütün gözəlliyindən ləzzət almağa çalışırdı. Kənardan baxan onun havalandığını düşünə bilərdi.

***

Dan yeri açılana yaxın səngərdə yan-yana döyüşən Kamran üzünü böyük qardaşı Anara tutub:

-Ermənilərin qarşısını bu qüvvə ilə artıq ala bilməyəcəyimiz gün kimi aydındır, – dedi. – Şəhərə girməklərinə saatlar qalıb. Nə qədər gec deyil, sən özünü evə çatdır. Anamızı-atamızı şəhərdən çıxart.

Anar Kamranın gözlərinə baxaraq soruşdu:

-Bəs sən?

-Məndən narahat olma, bölüyümüzlə birgə sağ-salamat çıxacam, – deyə Anar Kamranı sözünü bitirməyə qoymayıb bərk-bərk qucaqladı. Hər ikisinin gözlərindən yaş su kimi axırdı. Anar kiçik qardaşını yaxşı tanıyırdı. Bilirdi ki, o sonadək döyüşəcək.

Onlar bir-birini qucaqlayıb bir neçə dəqiqə bu vəziyyətdə qaldılar. Bu müddət ərzində birgə keçirdikləri günlər film lenti kimi gözlərinin qabağından keçdi.

Kamranı doğum evindən gətirəndə Anarın altı yaşı var idi. O gün indiki kimi yadındadır. Qapının kandarında qarşıladı anasını. Anası Kamranı onun qucağına verdi. O da bu cuppulu qırmızı bəbəyə donuq-donuq baxırdı. “Qardaşını öp, Anarım” demişdi o vaxt anası Anara. O da əvvəlcə bu qırmızı, qabıq vermiş balaca üzü öpmək istəməmişdi. Anasının təkidindən sonra öpmüşdü. Sonra daha pisi oldu, hamı kiçik qardaşını oynatmağa başladı, o isə paxıllıq edirdi. Gizli və aşkar kiçik qardaşını vurur, çimdikləyirdi. Hamı da ona “paxıllıq eləmə, Anar, o, kiçikdir sən isə böyük” deyirdi. “Axı mən də böyük deyiləm!” – Anar fikirləşirdi. Amma az keçməmiş qardaşını sevməyə başladı. Ondan ötrü o qədər qonşu uşaqlarını döymüşdü ki. Qardaşının necə böyüməsinin hər anı gözünün qabağında idi. Ən çox xoşladığı isə anasının işi çox olduğu zaman ona qardaşını yatızdırmaq üçün beşiyini yelləməyi həvalə etməsi idi. Beşik yelləndikcə xumarlanıb gözləri axan və yavaş-yavaş yuxuya gedən qardaşına baxmaqdan doymurdu. Kam-

ranın ilk dəfə məktəbə getməyi, velosiped sürməyi öyrənməsi, dərsdən iki aldıqda anasının onu döyməsinədək. O gündən qardaşı bir daha döyülməsin deyə Anar onun ev tapşırıqlarına daim kömək edirdi.

***

Bir-birinin gözlərinə baxıb ayrıldılar və o gündən sonra Kamrandan bir daha xəbər ala bilmədi. Hər yerdə "itkin düşmüşdür" cavabı ilə yola salındı.

***

Tənginəfəs evə girən Anar anasına səsləndi:

-Ana, atam hardadı, tez yığışın çıxırıq.

Geyimli hazır olan Nigar ana rəngi saralmış halda:

-Sübh namazına gedəndi məscidə, harda olsa iyirmi dəqiqəyə gələr, – dedi.

Anar dilxor halda davam etdi:

-Ay ana, nə sübh namazı, nə iyirmi dəqiqə! Ermənilər artıq şəhərə girirlər.

-Əstəğfürullah elə, bala.

-Ana, sən hazırlaş, yüngülvari nə götürmək istəyirsənsə götür. Mən çıxım atamın dalınca. Ona qalsa məsciddə yatıb-qalxar, – deyə Anar sürətlə maşına tərəf qaçdı.

Nigar ana ağlaya-ağlaya çoxdan hazır olan bağlamasına bir iki şəkil və sənədi qablaşdırmağa çalışdı.

Anar məscidə çatanda Üzeyir kişi məscidin qapısından bayıra çıxırdı. Maşından atılan Anar atasına:

-Ay ata! Səndən başqa heç kim yoxdu burda, tez gəl. Ermənilər tezliklə Şuşaya girəcəklər, – deyərək qoluna girdi.

Üzeyir kişi isə sanki onu eşitmirdi. Sakit, halını pozmadan maşının yanından ötüb keçmək istədi.

-Ay ata, – Anar hirsini güclə cilovlayaraq atasının qolundan tutdu. – Hara belə, maşına min. Gec olacaq sonra, ana bizi gözləyir!

O, atasını, demək olar ki, zorla maşına mindirdi. Evə çatan kimi hər ikisi maşından yerə atılaraq içəri cumdular. Şəhərin ətrafında güllə və bomba səsləri artmağa başlamışdı, küçədə tək-tək maşınlar sürətlə şəhərdən erməni nəzarətində olmayan yeganə çıxış yoluna tərəf şütüyürdülər. Evə girən Anar anasının qoluna girib maşına tərəf apardı. Atasının dalınca qayıtdıqda onu özünə çay süzən gördü.

-Ay ata, sən neyləyirsən? Çay vaxtıdır? Bir az da geciksək, ermənilər bizi əsir götürəcək. Biz bir yana, bəs anam?

Stulu altına çəkən Üzeyir kişi oğlunun sözünə məhəl qoymadan çayından bir neçə qurtum içib ayağa qalxdı. Otaqları bir-bir gəzdikdən sonra qıfılı götürüb həyətə çıxdı. Əlini divardan ayırmadan evinin ətrafına fırlandı. Sonda qapını bağlayıb cəftəsindən öpərək, gözləri yaşarmış halda, xırıltılı səslə "gör bu cəftəyə kimlərin əli dəyib, atamın, anamın, nənəmin, babamın, əmilərimin, dayılarımın, xalalarımın, bibilərimin, qardaşlarımın, bacılarımın, dostlarımın" deyərək kəndara çökdü. Gözləri yaşarmış halda atasına baxan Anarı bomba səsi sanki ayıltdı. Tez atasının qoluna girib yerdən qaldırdı:

-Qalx, atacan. Qalx, gedək. Tezliklə torpaqlarımızı ermənidən geri alacağıq. Bəlkə heç şəhəri ala bilməyəcəklər (amma bu sözünə heç özü də inanmadı).

Kəndarı öpən Üzeyir kişi yenə təkrarladı:

-Gör, bu kəndardan kimlər ayağını basıb; atam, anam, nənəm, babam, əmilərim, dayılarım, xalalarım, bibilərim, qardaşlarım, bacılarım, dostlarım.

Anar atasını zorla həyətdən çıxardıb, həyət qapısını da özü qıfıllayıb açarları atasına verdi. Üzeyir kişi maşına minməmək üçün bir daha dartındı. Anar axır ki, birtəhər atasını maşına mindirdi. Maşını sürətlə şəhərin çıxışına sürdü. Şəhərdən çıxan kimi, arxadan anasının fəryad kimi səsi gəldi:

-Saxla, maşını saxla!

Anar özündən aslı olmadan bu səsin vahiməsindən ayağını qəfil əyləcə qoydu. Hamı bərk silkələndi.

-Kamranımı qoyub hara gedirik?! – deyən ana maşının qapısını açıb düşməyə çalışdı. – A kişi, sən niyə səsini çıxarmırsan? Bəs Kamran necə olacaq?

-Ay ana, bir dayan. Kamrandan bir saat deyil ayrıldığım. Camaat çıxan kimi onlar da geri çəkiləcək.

Nigar ana oğlunun taleyi ürəyinə damıbmış kimi fəryad edib, özünə əl qatmağa başladı:

-Oğlumu qoyub heç yerə getmirəm, mən də qalıram. Onu da burda gözləyək, – deyərək, durmadan ağlayırdı.

Birdən üzünü Üzeyir kişiyə tutub: "sən necə atasan, niyə səsini çıxarmırsan?" – deyə qışqırmağa başladı. Bu onların uzun illik evlilik həyatında ilk idi. İlk dəfə idi ki, ərinin üstünə səsini qaldırırdı. Üzeyir kişi isə tamam başqa aləmdə idi. Yaşlı gözləri ilə keçdikləri hər küçəyə, hər evə, hətta hər ağaca, hər kola, gülə acgözlüklə baxır, baxırdı. Ətrafdan tamam ayrılmış vəziyyətə düşmüşdü. O elə əvvəldən ruh adamı idi. Ömrü uzunu heç kimlə dalaşmamış, heç kimdən küsməmiş, ağzına heç vaxt kobud söz gətirməmişdi. Hər kəsə gülümsəyən bir insan idi Üzeyir kişi.

-Ana, bir azdan bütün yol bağlanacaq. Maşınla çıxa bilməyəcəyik. Yaşlı adamlarsız, sizi ayaqla da apara bilmərəm. Narahat olmayın, Kamran sağ-salamat gəlib çıxacaq, – deyən Anar sürəti artırdı.

Meşənin içindən keçən bu yol əsas yol olmadığı üçün dar və baxımsız idi. Şəhərdən çıxan bütün maşınlar və bəzi hərbi texnikalar da bu yola yükləndiyinə görə tıxac yaranmışdı. Bir qədərdən sonra Anar da bu

tıxaca qoşuldu. Maşınların mühərrik və siqnal səsi, insanların qışqırığı, tez-tez eşidilən bomba səsləri. Maşın karvanı çox ləng irəliləyirdi. Arada bir arxadan Nigar ananın "Kamranım" deyə zarıması eşidilirdi.

Uzun məşəqqətdən sonra Anar ata və anasını əvvəlcədən ailələrini yerləşdirdikləri şimal rayonlarından birində aldığı kiçik evə çatdıra bildi. Özü dərhal geri qayıtsa da Şuşaya girə bilmədi. Şuşa artıq ermənilərdə idi. Anar qardaşı Kamranı çox axtardı, çox soruşdu, gördüm deyən olmadı ki, olmadı. Yalnız onların bölüyünün son ana qədər döyüşdüyünü deyənlər var idi. Bölükdən isə heç kimi tapa bilmirdi. Kamrandan bir xəbərsiz valideyinlərinin üstünə qayıtmağı heç cür ağlına gətirə bilmirdi. Axı necə çıxacaqdı üzlərinə? Necə baxaçaqdı gözlərinə? Təkliyə düşəndə için-için ağlayırdı. Şəhərdən çıxa bilməyibsə, demək ya əsir düşüb, ya da… Bu "ya da"nı heç ağlından belə keçirmək istəmirdi. Bütün axtarışlar boşa gedirdi. Evə getməməyə görə Anar yenidən könüllü şəkildə özünümüdafiə taborlarlarından birinə yazılaraq cəbhədə qaldı.

***

Şuşadan çıxdıqları gündən orta boylu, ağ saçlı, ağ saqqalı, nur üzlü Üzeyir kişinin alnının qırışları artmış və dərinləşmişdi. Gözləri isə daim nəmli olar və harasa uzaqlara dikilərdi. Onsuz da danışmaqla, söhbətlə arası olmayan Üzeyir kişi insanlarla ünsiyyəti demək olar kəsmişdi. Amma gülümsəməyi tərgitməmişdi. Yenə üzündə daim təbəssüm olardı. Nəmli gözləri ilə nə qədər tərs olsa da, bu təbəssüm onu daha da nurani göstərər və dərdini ört-basdır edə bilməzdi. Burda da Şuşada olduğu kimi bağbanlıq edərdi, amma heç kimdən təmənna güdməzdi. Səhər olanda bağ qayçısı və mişarını götürüb evdən çıxar, qarşısına çıxan bütün ağacları, gülləri budayardı. Ağacları, gülləri budayarkən tumarlayar, sığallayardı. Sanki kəsəcəyi budağa görə üzr istəyirdi. Bir də qaş qaralana yaxın evə gələrdi. Sanki bununla dərdini dağıdırdı. Evə çatanda həyət qapısının ağzında oturub gözünü yollara dikərək ağlayan arvadı ilə göz-gözə gəlməməyə çalışaraq:

-Gəl, arvad, gəl içəri, bir çay içək, – deyərdi.

Nigar ana isə gözünün yaşını silərək həmişəki cavabı təkrarlayardı:

-Kamranımdan bir xəbər tapmadınmı, a kişi? – deyərək cavab gözləmədən: – sən keç içəri, gəlin çayını verər. Mən bir az da gözləyəcəm Kamranımı, – deyə əlavə edərdi.

Hər yaxınlaşan adamın Kamran olacağı ümidi ilə sevinclə qarşılayıb, ümidi boşa çıxdıqda ağlayaraq yola salan Nigar ana illəri də beləcə yola salırdı. Bayırda oturmaq, qışın soyuğu, yayın istisi də bir yandan səhhətinə pis təsir etmişdi. Üzeyir kişidən fərqli olaraq onun əvvəlki gözəl-göyçək görünüşündən heç nə qalmamışdı.

***

Üzeyir kişi tamam ayrı aləmdə yaşayır kimi idi. Bəzilərinə elə gəlirdi ki, o havalanıb. Gəldiyi ilk gündən etibarən Üzeyir kişi gözünü yumub yuxuya gedən təki Şuşada olurdu. Bir-bir Şuşanın küçələrini gəzir, qonşularla, tanış-bilişlə salamlaşır və hər gün də Şuşanın bir ayrı məscidində namaz qılırdı. Evdəkilər dəfələrlə onun yuxuda danışıb güldüyünün, necə ürəkdən sevindiyinin şahidi olurdular. "Sabahın xeyir, qonşu. Necəsən? Bəlkə namaza bir yerdə gedək? Allah namazınızı qəbul eləsin!" – cümlələrini demək olar ki, hər gecə təkrarlayırdı. Bəzən isə dəqiq adlarla müraciət edərdi. Hətta evlə sağollaşıb "bu gün axşamadək filan məktəbin bağını budayacam, naharda məni gözləməyin" kimi cümlələr də işlədirdi. Ən dəhşətlisi isə yuxuda Kamranla danışması idi. "Oğlum, harda idin bu qədər vaxtı? İş-güc tökülüb qalıb. Gəl, bala, gəl bir yerdə gedək bağa. Mən ağacları budayım, sən də diblərini bellə". Hərdən Kamranın uşaq olduğu illərə də qayıdırdı, ilk dəfə ayaq tutub yeriməsi, namaz qılarkən onu yamsılaması və s. Belə yuxularda daha şən olurdu, bərkdən gülürdü də. Səhər ayılanda da bir müddət özünə gələ bilmirdi. Çox vaxt elə bilirdi yenə Şuşadadır, yenə köhnə dövrlərdədir.

***

Səhərlər yuxudan gümrah duran Üzeyir kişi evdən çıxdıqda da özünü Şuşada hiss edərdi. Gah Yuxarı Gövhərağa məscidini, gah Aşağı Gövhərağanı, gah da Culfalar məscidini axtarardı. Küçələr düz gəlmədikdə (gələ də bilməzdi) rast gəldiyi adamlardan soruşmağa başlayardı "Yolu deyəsən, səhv salmışam, oğlum, Yuxarı Gövhərağa məscidinə necə gedə bilərəm", yaxud da "Xan qızının bulağı lap bu yaxınlarda olmalı idi, amma tapa bilmirəm, siz bilməzsiz yerini?" Əvvəl bu suallardan çaşan qonşular, yavaş-yavaş məsələdən hali oldular. Üzeyir kişinin ürəyini sındırmadan vəziyyətdən çıxmağa çalışırdılar. "Şuşasından qayıdan" kimi Üzeyir kişinin gözləri yaşarar, nəzərləri uzaqlara dikilərdi.

İllər, beləcə, bir birini qovdu. Nigar ana cəmi yeddi il dözə bildi. "Kamranım, Kamranım. Harda qaldın mənim kiçiyim, körpə balam? Soyuqdurmu yerin, istidirmi bilmədim. Gecələr üstünü kim örtür sənin? Bu ananı niyə gözü yollarda qoydun? Axı sənə toy etməyə hazırlaşırdım", - deyə-deyə bu dünyadan köçdü. Qərib yerdə,

qərib qəbristanlıqda olan baş daşının arxasına oğlunun şəklini vurdular.

***

Üzeyir kişi, amma qocalmırdı, necə var idisə, elə qalmışdı. Yalnız alnının qırışları artmışdı. Nigar öləndən sonra evə lap gec gəlirdi. Boş küçələri tək-tənha dolaşır, dolaşırdı. Nigarsız və oğullarısız ev ona çox sıxıcı idi. Divarlar üstünə gəlirdi. Anar bundan xəbər tutduqda atasına görə ərizə yazıb ordudan təqaüdə çıxaraq ailəsinin yanına qayıtdı. Oğlu gəldikdən sonra Üzeyir kişi bir qədər açılışdı. Hər axşam yatmamışdan öncə Anarla söhbət edərdi. Söhbətlərin mövzusu isə yalnız Şuşa, Kamran və Nigar idi. Şuşanın gözəlliyindən, Kamranın uşaqlığından, Nigarlı günlərin xatirələrindən danışar, doymazdılar. Anarın oğlunun xüsusi təyinatlı qüvvələrdə xidmətə başlaması da ailəyə xüsusi fərəh gətirmişdi. Şuşa işğal olunarkən körpə uşaq olan Kərəm ali hərbi təhsil alaraq xüsusi təyinatlı qüvvələrə könüllü olaraq yazılmış və xidməti pillələrdə sürətlə irəliləyirdi. Tez-tez kəşfiyyata gedən Kərəm keçirdiyi əməliyyatlardan danışmağı sevməzdi. Amma babasını çox sevdiyindən və onun heç kimə sirr verməyəcəyinə əmin olduğundan hərdən bəzi getdiyi işğal olunmuş yerlər barədə azacıq söhbət edərdi. Yerlə bir edilmiş rayonlar və kəndlər barədə danışdıqda Üzeyir kişi gözü yaşlı halda tez onun sözünü kəsərək: “bizim Şuşamız necədir görəsən, onu da dağıdıblarmı?” deyə hər dəfə soruşardı. Hər dəfə “Yox, ay baba, dağıtmayıblar. Şuşaya demək olar toxunmayıblar”, cavabını aldıqda sanki kişinin gözlərinə işıq gələrdi. “Bəs ora səni heç göndəriblərmi?” sualına, “yox, ay baba, hələ göndərməyiblər”, cavabını aldıqdasa üzə vurmasa da nəvəsinin “Şuşaya demək olar toxunmayıblar” sözünə bir qədər inamı azalardı. Bu da dərhal gözlərinin nəmlənməsində özünü biruzə verərdi. Ürəyində “axı hər yeri dağıdıblarsa, Şuşanı niyə saxlasınlar?” deyə fikirləşərdi. Nəvəsi də hər dəfə babasının ürəyindən keçənləri oxuyurmuş kimi “baba, ermənilər ora istirahətə gəlir deyə dağıtmırlar”, dedikdə kişi bir qədər rahatlardı. Amma daim ürəyini didən “əmindən bir xəbər varmı?” sualını heç vaxt nəvəsinə vermirdi.

İllər Üzeyir kişinin əlindən Şuşasını, Kamranını, Nigarını alsa da yuxularına heç nə edə bilmirdi. Hər gecə yuxuda Şuşasına gedən Üzeyir kişi orada, öz evində Nigarı, Kamranı və bütün qohum-qardaşı ilə çox xoşbəxt olurdu. Deyib-gülür, ibadətlərini edirdi. Bəlkə də bu yuxular onu qocalmağa qoymurdu. Sanki bu qədər dərdlə zamana qarşı dayanmışdı. Yaşıdlarından çox cavan görünürdü. Hərçənd elə çox yaşıdı da qalmamışdı.

***

Nəhayət, hamının gözlədiyi o gün gəldi.

27 sentyabr 2020-ci il.

Vətən müharibəsi başlayan gündən Üzeyir kişi televizorun önündən çəkilmədi. Elə televizorun qarşısında kresloda oturduğu yerdə yuxuya gedir, tez də ayılırdı. Cəbhə xəbərlərini ayaq üstə dinləyirdi. Hər dəfə hansısa kəndin, yaxud şəhərin alındığı xəbərini eşitdikdə uşaq kimi atılıb-düşür, sel kimi axan göz yaşlarını heç silməyə cəhd də etmirdi. Hər alınan kənd, şəhər onu Şuşasına yaxınlaşdırırdı.

Müharibənin 42-ci günü idi. Üzeyir kişi yenə ayaq üstə televizorun qarşısında dayanmışdı. Nə idisə bu günkü xəbərlər başqa cür başladı. Prezident Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edərək, əklillər qoydu. Önəmli bir xəbər olacağı Üzeyir kişinin ürəyinə damdı. Hərçənd iki gün idi oğlu Şuşanın azad edilməsi barədə söhbətlər gəzdiyini atasına demişdi. Amma Ali Baş Komandanın dilindən eşitməyənə qədər Üzeyir kişi belə söhbətlərə inanan deyildi. Vaxt uzandıqca onun ürəyi daha sürətlə döyünməyə başlayırdı. Budur, cənab Prezident öz növbəti çıxışına başlayır, Üzeyir kişi televizora daha da yaxınlaşır. “Əziz həmvətənlər, bacı və qardaşlar. Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edilmişdir. Şuşa bizimdir, Qarabağ bizimdir! Əziz Şuşa, sən azadsan!”

Üzeyir kişi çıxışın ardına qulaq asa bilmədi, üzünü tutub əyləşmək üçün özünü stula güclə çatdırdı. Gözlərinin yaşı barmaqlarının arasından süzülüb saqqalını isladırdı. O, bərkdən hönkürürdü. Oğlu qaça-qaça şad xəbəri atası ilə bölüşmək üçün özünü evə çatdıranda, atası hələ də əlləri üzünün arasında, başını dizlərinə tərəf əyərək hönkürürdü. Anar atasının önündə diz çökərək onun başını öz başına sıxıb ağlamağa başladı:

-Ata, ay ata, kaş, anam da bu günü görə biləydi, – deyə bildi.

Atası daha bərkdən hönkürməyə başladı. Hər ikisi uzun müddət danışmadan ağladılar. Anar atasından ayrılıb dostları ilə bu gözəl günü qeyd etməyə getdi. Evə gec gəldi. Atası hələ də bir heykəl kimi televizorun qarşısında ayaq üstə durmuşdu. Anar səhər yuxudan ayıldıqda səhərəcən yatmayan atasını evin ortasında geyinib-keçinmiş və yanında Şuşadan gətirdikləri kiçik bir çamadanla gördü. Oğlunu görən kimi gözlərinə işıq gələn Üzeyir kişi sevincək:

-Anar, tez sən də yığış. Məni Şuşama, oğluma, atama, anama çatdır, – dedi.

Bir anlıq heç nə başa düşməyən Anar key-key atasına baxdıqdan sonra:

-Ay ata, ay canım, sən nə danışırsan? Heç müharibə

hələ bitməyib ki. Hələ, inşallah, müharibə tamam bitməlidir. Ondan sonra oralara gedən yollar minalardan təmizləndikdən sonra dövlətimiz getməyə icazə verəcək, – deyərək atasının əllərindən tutub divanda əyləşdirdi. Özü də yanında oturaraq əllərini buraxmadan sözünə davam etdi. – Ata, sən bir qədər səbrli ol. Əsas odur ki, artıq Şuşa bizdədir. Yəqin ki, müharibə də tezliklə başa çatacaq. Şuşa alındıqdan sonra ermənilərin beli sınıb. Müharibə sona çatıb yollar açılan kimi ən qısa zamanda səni Şuşamıza aparacağam, söz verirəm.

Atası sevimli oyuncağın alınmasını gözləyən uşaq kimi gözlərini oğlunun gözlərinə zilləyib yalvarıcı baxışlarla:

-Deyirsən indi heç cür olmaz? Bəlkə Kərəmlə danışasan? Axı o zabitdir. Onun əli çatmamış olmaz.

-Ata, mən Kərəmlə neçə gündü danışa bilmirəm. Özün də bilirsən, imkan olan kimi məndən qabaq sənə zəng edir. Narahat olma, yəqin ki, bu şad xəbərə görə bir yol tapıb sənə zəng edəcək.

Verilən cavablar atanı tam qane etmədisə də, bir qədər təsəlli taparaq çamadanını qapıya yaxın yerə qoyb evdən bayıra çıxmadığı uzun müddətli fasilədən sonra küçəyə çıxdı.

Küçələr bu dəfə ona daha geniş və gözəl görünürdü. Artıq heç nəyi səhv salmır, Şuşa ilə qarışdırmırdı. Yolda rastlaşan hər kəs onu qucaqlayaraq təbrik edirdi. O da həmişəki gülümsəməsi ilə təbriklərə cavab verirdi. İndi özünü tamam başqa cür hiss edirdi. Onun şəhəri artıq azad idi. Onlar öz doğma yurdlarına qayıdacaqdılar. Axşam nəvəsi Kərəm zəng elədi. Sevincli səslə:

-Gözün aydın, babacan, Şuşamızı azad elədik. Qisasımızı da aldıq. Mən axır ki, Şuşamızda, doğma yurdumuzdayam. Bura siz danışdığınızdan da gözəldir. Özün necəsən, ay baba? – deyərək cümlələri ard-arda düzdü.

Sevincdən əsən əllərində telefonu güclə saxlayan baba:

-Salam, mənim balam. Necəsən? Yaralanıb eləməmisən? – suallarına cavab gözləmədən: – Məni Şuşama nə vaxt aparırsan? – soruşaraq əsas mətləbə keçdi.

-Səbrli ol, ay baba. Hələ heç müharibə qurtarmayıb. İnşallah, tezliklə bunların kökünü kəsək, səni özüm gətirəcəm bura.

Cavab Üzeyir kişini yenə tam qane etməsə də, özünü o yerə qoymadan davam etdi:

-Ay bala, Şuşamızı çoxmu dağıdıb yağılar, bəs bizim ev necədir? Gedə bilmisənmi yurdumuza? – son sözü deyəndə səsi titrəyib gözləri yaşardı. Özü də bu cümləni bir gün deyəcəyinə az qala inamı itirməyə başlayırdı.

-Yox, ay baba, – deyə Kərəm şən səslə cavab verdi, – Şuşanı çox dağıtmayıblar. Evimizə hələ gedib baxa bilməmişəm. Biz başqa istiqamətdəyik. İnşallah, girəvə edib gedib yurd-yuvamıza da baş çəkəcəm.

Kərəm atası ilə, babasının daimi söhbətlərindən, Şuşanı, demək olar ki, küçəbəküçə, evbəev əzbər tanıyırdı.

Şuşanın dağıdılmamasını nəvəsinin də ağzından eşitməsi Üzeyir kişinin ürəyini bir daha sərinlətdi:

-Hə, ay bala, bir də nəsə soruşacaqdım, amma yadımdan çıxdı, – tərəddüdlə dedi.

Əslində baba soruşacağı sualı unutmamışdı. Ata və oğul da onun nə soruşmaq istədiyini yaxşı bilirdilər. O Kamranını soruşmaq istəyirdi, amma Nigar anadan fərqli olaraq heç vaxt soruşmurdu.

Daha bir gün sonra gecə, atasının "Urraa" deyib əl çalma səsinə Anar və evdəkilər yuxudan dik atıldı. Üzeyir kişini "Müharibə qurtardı, müharibə qurtardı!" deyə əlini əlinə vurub yaşına heç uyğun olmayaraq uşaq kimi atılıb düşən görən bütün ailə ona qoşuldu. Hamı bir-birini qucaqlayır, sevincdən ağlayırdı. Bu arada küçədə göyə atılan fişənglərin səsini eşidən bütün ailə bayıra yüyürdü. Gecədən xeyli keçməsinə baxmayaraq qonşular sevdikləri bu ailəni təbrikə gəlir, pir kimi insan bildikləri Üzeyir kişini bir daha qucaqlayıb öpürdülər.

Səhər açılar-açılmaz Anar yenə atasını yol hazırlığını bitirib onu gözləyən vəziyyətdə gördü:

-Sabahın xeyir, ay ata. Elə bil yenə harasa yığışmısan, – deyə gülümsündü.

-Demişdin ki, müharibə qurtarsın, səni Şuşaya aparacam. Müharibə də bu gecə qurtardı.

-Ay ata, demişdim müharibə qurtarsın, yollar açılsın, sonra aparacam. Hələ heç on saat deyil müharibə bitib. Oralarda bilirsən nə qədər mina var? Söz verdiyim kimi səni ilk fürsətdə Şuşaya aparacam. Elə bilirsən mən getmək istəmirəm? Mənim də Şuşa deyəndə ürəyim sızıldayır. Amma nə etmək olar? Səbr etməkdən başqa çarəmiz yoxdur.

Üzeyir kişi yenə məyus halda çamadanı qapının yaxınlığına qoyub bayıra çıxdı. Səkinin kənarında oturaraq gözlərini uzaqlara zillədi. Bu necə ola bilər, Şuşası alınıb, nəvəsi ordadı, özü isə gedə bilmir? Əvvəllər heç olmasa yuxularında doğma Şuşasını gəzir, müvəqqəti də olsa xoşbəxt olurdu. İndi həmin yuxuları da qeybə çəkilmişdi.

Bir neçə gün sonra Kərəm yenidən zəng elədi:

-Salam, ay baba. Necəsən? Sənə şad bir xəbərim var, – dedi.

Baba heç salamı belə almadan:

-Hə, ay bala. Məni aparmağa gəlirsən? Atana nə qədər deyirəm, dirənib-durub ki, mümkün deyil, mina belə getdi, icazə belə gəldi.

Babasına müsbət cavab verə bilməyəcəyindən kövrələn Kərəm dedi:

-Baba, atam düz deyir, hələ ki bura gəlməyiniz müm-

kün deyil. Amma söz verirəm ki, mülki şəxslərdən bura ilk gələnlərdən biri sən olacaqsan.

Baba məyus halda:

-Bəs sən nə şad xəbər verəcəkdin belə? – soruşdu.

-Hə baba, bax mən gedib evimizi tapmışam. Demək olar ki, salamatdır.

Kişinin kefi əməlli açıldı, gözləri parıldadı:

-Nə danışırsan, bala. İçəri girə bildinmi?

-Hə, baba, içəri də girdim. Ev yaxşı vəziyyətdədir. Yaşayış olub deyə, evə pis baxılmayıb.

Yaşayış olub deyəndə Üzeyir kişinin ürəyi çıpındı:

-Kim yaşayıb, ay bala, bir işarə gördünmü?

Sual Kərəmi çaşdırdı, bir qədər fikirləşib:

-Ay baba, kim olacaq, ermənilər yaşayıb da. Nə işarə qoyacaqlar ki, canlarını götürüb qaçıblar, – Kərəm belə desə də, babasının bu sualı nəsə başqa mənada soruşduğunu hiss etdi.

Aldığı cavab heç ürəyindən olmayan Üzeyir kişi bir neçə saniyə susdu. Bunu hiss edən Kərəm onun qəlbini almaq üçün sözünə davam etdi:

-Nədir, ay baba, sevinmədin? Şuşamız alınıb, evimiz də ki, necə qoymuşduqsa, demək olar elədir. Evlər var ki, yalnız bünövrəsi qalıb. Qaldı Şuşaya gəlməyinizə, inşallah, tezliklə o da olacaq, söz verirəm sənə. Gəlib özüm gətirəcəm. Darıxma.

-Nə deyim ki, ay bala. Sən də özünü qoru. Amma çalış, çox gec olmasın.

-Məndən narahat olma, baba. Söz verirəm, səni tezliklə Şuşana gətirəcəm.

Amma bu "tezliklə" söhbəti altı ayadək uzandı. Bu müddətdə vaxtının çoxunu televizorun önündə keçirən Üzeyir kişi Şuşa və Qarabağla bağlı fraqmentlərin heç birini gözündən yayındırmır, hətta dəfələrlə baxmaqdan yorulmurdu. Digər vaxtlarda isə Şuşaya gedəcəyi günün xəyalları ilə yaşayırdı. Tez-tez də evin açarlarını yoxlayırdı. Arada lap istəmişdi ki, nəvəsindən ermənilərin evə necə girdiklərini, qapını sındırıb-sındırmadıqlarını da soruşsun, amma hər dəfə bu sualı verməkdən özünü saxlayırdı.

Altı ay Üzeyir kişiyə iyirmi səkkiz ildən uzun gəldi. Bu nə idi belə, sanki günləri dartıb uzatmışdılar. Gecələr isə sonsuz kimi görünürdü, hərdən elə bilirdi sabah heç açılmayacaq. Atasının çox fikir çəkdiyini görən Anar hətta bir neçə dəfə Üzeyir kişini maşınına mindirib Şuşaya aparan yollardakı son buraxılış məntəqələrə qədər aparır, hələ ki, postdan keçməyin mümkün olmadığını ona öz gözü ilə göstərirdi. Atası bu səfərlərə gedəndə yol boyu dil dodağa qoymasa da, qayıdanda ağzından bir kəlmə söz çıxmazdı. Anar onu nə qədər danışdırmağa çalışsa da, kişi susub durar, nəmli gözləri ilə ancaq getdikcə uzaqlaşan Qarabağ torpaqlarına baxardı. Ara-sıra da gözləri oğlunun gözlərinin içinə zillənər, dəqiqələrlə gözlərini o gözlərdən ayırmazdı. Baxışları ilə yalvarırdı ki, onu Qarabağdan uzaqlaşdırmasın, Şuşasına qovuşdursun. Amma aylar ayları əvəz edirdi.

Nəhayət, Üzeyir kişinin uzun müddət gözlədiyi o xəbər gəlib çıxdı. Evə sevinclə daxil olan Kərəm yaxında olan atası ilə görüşmədən birbaşa babasının üstünə şığıyaraq onu bərk-bərk qucaqladı.

-Baba, ay baba, hazırlaş, gedirik, – dedi! – Gözlədiyin gün axır ki, gəlib çatdı, – sonra babasını buraxıb atasını qucaqlayaraq, – Ata, sən də hazırlaş. Hər ikinizi Şuşaya, doğma Şuşamıza aparacam. İcazə hazırdı.

Gözləmədikləri "qonaq"dan və ən əsası gözləsələr də qəfil olan bu xəbərdən donub qalmış baba və atasını Kərəmin:

-Nə durmusuz, vaxt gedir axı. Nə qədər tez çıxsaq, bir o qədər yaxşıdır, – sözləri sanki silkələdi.

Qulaqlarına hələ də inanmayan babası dilləndi:

-Nə danışırsan, bala? Yəni elə bu gün gedirik?

-Ay baba, nə bu gün, elə bu saat gedirik. Hazırlaşın, çıxaq.

Tez qapının ağzındakı çamadanının üstünə yüyürən Üzeyir kişini göstərərək atası Kərəmə göz vurdu:

-Baban çoxdan hazırdı. Mən də onu çox yubatmaram. Paltarımı dəyişib çıxıram.

Hazır olub Kərəmin avtomobilində yerlərini tutmaları heç yarım saat çəkmədi. Üzeyir kişi sanki sərxoş idi. Yol boyu danışır, gülür, oğlu və nəvəsi ilə zarafatlaşırdı. Yalnız işğaldan azad edilmiş ərazilərə daxil olduqda dağıdılıb məhv edilmiş şəhər və kəndləri gördükdə kefi xeyli pozuldu. O bu yerlərə dəfələrlə gəlmiş, buraların güllü-gülüstan vaxtlarını görmüşdü. İndi isə yerlə bir edilmiş evlər, kəsilib doğranmış bağlardan ibarət viranələrdən keçirdi. Tez-tez dodağının altında "Allah sizə lənət eləsin" deyərək saqqalına məst çəkirdi. Nəhayət, uzaqda Şuşanın dağları göründü. Bu dağları görən kimi yenidən Üzeyir kişinin kefi yerinə qayıtdı. Yenə söhbətləşməyə başladı.

-Heyf, Kərəmə uşaq vaxtı bu dağların havasından doyunca udmaq qismət olmadı, yoxsa gör nə boyda olardı, – deyərək Anara göz vurdu.

Kərəm gülərək:

-Baba, bu havadan udmaya-udmaya atamdan da, səndən də hündürəm. İndi gör, udsaydım nə boyda olardım? – dedi.

-Udsaydın azı iki bu boyda olardın, – babanın sözlərinə hər üçü güldü.

Şuşa azad edildikdən sonra Şuşaya Şuşadan çıxdıqları gündə getmək qismət oldu Üzeyir kişiyə və oğluna. Analarının fəryad edib Kamransız getmərəm dediyi yerdə Üzeyir kişi nəvəsinə maşını saxlatdırdı. Orda ma-

şından düşərək heç nə demədən piyada getməyə başladı. Kərəm etiraz etmək istədikdə Anar oğluna:

-Oğlum, sən get bizi evimizin yaxınlığında gözlə. Yəqin baban bu gün maşına minməyəcək. Elə mən də, – dedi.

Maşından enən Üzeyir kişi bir neçə dəfə dərindən nəfəs aldıqdan sonra aramla şəhərin mərkəzinə doğru irəliləməyə başladı. Həmişə gözəl olan Şuşa may ayında daha füsunkar idi. Hər tərəf gül-çiçək idi. Evlərə, həyətlərə yaxınlaşdıqda hər bir evə, həyətə divara diqqətlə baxaraq bəzən xəyallara dalan Üzeyir kişi hər daşa, hər ağaca əli ilə toxunmağa çalışırdı. Hətta bəzi ağacları, daşları əli ilə dəqiqələrlə tumarlayır, dodağının altında nəsə danışırdı. Anara elə gəlirdi ki, atası bu daşlarla, ağaclarla dərdləşir. Üzeyir kişi evindən öncə özünü qəbiristanlığa yetirdi, bütün qohumlarının sındırılmış daşlarını öpərək oxşadı. Yalnız burda üzünü oğluna tutub danışdı:

-Oğlum, Nigarımı gətirib burda, bax burada (əli ilə yeri işarə edərək) dəfn edərsən. Düz mənim yanımda. Amma aramızda bir adamlıq boş yer saxlayarsan, – deyə yaşarmış gözləri ilə Anara baxdı.

Anar, atasının bu yeri kimin üçün nəzərdə tutduğunu dərhal anladı, amma düz mənim yanımda sözünü hansı mənada dediyini heç cür anlamadı. O, dolmuş gözlərini atasından yayındırmağa çalışdı:

-Ay ata, inşallah, anamızı özün gətirib burada dəfn edərsən. Sən hələ uzun illər bizimlə bərabər olacaqsan, Şuşada nəvə-nəticə toyu edəcəksən.

Ata oğlunun sözünə gülümsəməsi ilə cavab verdi. Demək olar qəbiristanlığın əksər qəbirlərini ziyarət etdikdən sonra evlərinə doğru yol aldılar. Evin qarşısında gözləyən Kərəm hərbçi dostları ilə birgə həyətdə samovar qaynadıb, şirniyyat süfrəsi açmışdı.

Bəzən dünyada ağla gəlməz, məntiqsiz işlər də olur. Üzeyir kişinin də həyətinin darvaza məsələsi bunlardan biri oldu. Ermənilər onun darvazasına dəyməmiş, bir qədər aralıdan başqa bir qapı qoymuşdular. Darvaza o vaxt evdən çıxanda Anar necə bağlamışdısa eləcə də qalırdı. Yəqin hasarın həmin hissəsi dağılmış, ermənilər də təmir əvəzinə başqa bir həyətdən əllərinə keçən bir qapını ora bərkitməklə məsələni həll etmişdilər. Üzeyir kişi açıq olan qapıya deyil, özünün qoyduğu darvazaya doğru getdi. Cibindən çıxardığı açarla bir dəfəyə paslı qıfılı açdı. 28 ildən sonra bir qıfılın əlbəəl belə asanca açılmasının özü də bir möcüzə idi. Həyətə girdikdən sonra dəfələrlə evinin başına fırlandı, əli ilə divarları oxşadı, bir-bir əkdiyi ağaclara baş çəkdi, onları suladı. Həyətdə işini bitirdikdən sonra evə girən Üzeyir kişi otaqların hamısını bir-bir gəzdi, hər otaqda xeyli xəyala dalaraq keçmişə qayıtdıqdan sonra yenidən həyətə çıxdı. Kərəm babasını gətirənədək evin səliqəsinin qeydinə qalmağa da vaxt tapmışdı.

Həyətə çıxan Üzeyir kişi birdən ətrafındakıları unudaraq gür səslə, gözlərindən yaş axa-axa:

-Anam Şuşam, atam Şuşam, Nigar Şuşam, Kamran Şuşam, gül ətirli, bülbül səsli Şuşam! Heç bilirsən, mən sənin üçün nə qədər darıxmışdım?! Körpə uşaq anası üçün darıxan kimi darıxmışdım. Qaranquş yuvası üçün darıxan kimi darıxmışdım. Sənsiz hər günüm bitməz əziyyət idi. Sümüklərim sızıldayırdı sənin üçün, Şuşam mənim. Mən səni yatanda belə unutmadım, bütün yuxularım sənli oldu, Şuşam mənim, atam mənim, anam mənim. Sən nə qədər əziz imişsən! Sən nə qədər şirin, doğma imişsən! Doğrudanmı sənin dəyərini bimək üçün səndən bu qədər müddət ayrı qalmalı idim?!

Üzeyir kişi doluxsunmuşdu. Səsi titrəyirdi. Qəhər onu boğsa da, az qala bir nəfəsə deyirdi:

-Yalnız sənə qovuşmaq üçün ölmədim, ölə bilmədim. Allah da canımı almadı. Şükür sənə, İlahi. Şükür olsun sənə ki, mənə bu günü qismət etdin, Şuşamı gördüm. Bütün dualarımda Şuşanı mənə göstərmədən canımı alma demişdim, sən də almadın. Şükür sənə, İlahi, məni arzuma çatdırdın, – deyə ətrafdakıların çaşqın baxışları altında Şuşası və Allahı ilə danışırdı. Hamının gözündən yaş axırdı.

Sükutu Kərəmin dostlarından biri pozdu.

-Can baba, sənə İsa bulağının suyundan samovar qaynadıb çay dəmləmişik. Gəl birlikdə çay içək.

Baba hamı ilə birlikdə süfrəyə əyləşdi bir neçə stəkan çay içdikdən sonra üzünü Anara tutub:

-Məni qardaşınla son dəfə görüşüb ayrıldığın yerə apar, – dedi.

-Baba, uzun yol gəlmisən, bir tikə çörək ye, sonra yenə hara desən gedək, – deyən Kərəmə heç fikir vermədən baba gözlərini Anara zillədi.

Anar cəld ayağa qalxdı. Kərəm yenidən nəsə demək istədikdə, atası:

-İsrar etmə, oğlum, buranın suyu və havası babana da, mənə də bu dəqiqə ən gözəl yeməkdir, – dedi.

Onlar yenidən maşına əyləşdilər, Kərəmin dostları da bir maşında onların arxasınca yollandı. Anar onları şəhərdən bir qədər aralıda, Şuşaya giriş yollarının birinə yaxın bir əraziyə gətirdi. Maşından düşən hər kəs maraqla bu kələkötür sahəyə baxırdı. Mahir adam buranın illər əvvəl səngər olduğunu ilk baxışdan anlayardı. Anar ərazini atasına göstərərək:

-Ata, qardaşımla sonuncu dəfə bu ərazidə görüşüb, vidalaşmışıq, – dedi.

Atası:

-Yox, oğlum, sən mənə lap dəqiq de. De görüm buranın harasında ayrılmısınız?

Anar yavaş-yavaş irəliləyərək bir çökəyin yaxınlığına getdi:

-Ata, lap dəqiqi bu çökəkdə. İndi dayaz olmağına baxmayın, o vaxtlar dərin səngərlər vardı burda.

Ora yaxınlaşan Üzeyir kişi yerə çöməlib əlini torpağa sürtərək:

-Qardaşın burda yatır, Anar. Öz dostları ilə birlikdə bu əziz torpağın altında yatırlar. Bax, elə burda. Necə qoyub getmisənsə, həmin yerdə də qalırlar. Tapdım, səni oğlum, səni də tapdım. Şükür sənə, İlahi. İlahi şükür ki, oğlum torpaq altda qaldı, qurda-quşa yem olmadı. Şükür ki, onun da dostlarının da bundan sonra bir məzarı olacaq. Şükür ki, anasının və atasının yanında olacaq.

Üzeyir kişinin hər şeyə şükr edərək yanaşması da onu ətrafındakıların gözündə bir daha müqəddəsləşdirirdi. Anar atasının qoluna girərək onu yerdən qaldırdı.

-Ata, indi başlayaqmı qazmağa?

-Yox, oğlum, məni məscidə apar. Buranı sabah qazarsınız.

İki maşın aramla Yuxarı Gövhərağa məscidinə doğru yaxınlaşırdı. Maşının açıq pəncərəsindən vuran mehdən gözlərini qıyaraq ətrafını acgözlüklə seyr edən Üzeyir kişinin saç və saqqalı yellənərək ona başqa bir nuranilik verirdi. Məscidin önünə çatdıqdan sonra hər bir kəs baba ilə bərabər namaz qılmaq üçün dəstəmaz aldı. Dəstəmaz alan Üzeyir kişi üzünü məscidə tutaraq:

-Gövhərim, ağam mənim, gəlmişəm. Bağışla, gec gəldim. Bağışla, bu qədər gecikdik. Amma yenə şükr olsun qovuşdurana. Gör nə qədər insan yurd həsrəti ilə dünyadan köçdü. Gör nə qədər insan evinin açarını son ümidlə, son dəqiqəsinədək cibində gəzdirərək dünyasını dəyişdi. Gör nə qədər şəhid tabutunun üzərinə cehizlik dəstlər sərildi. Qəbul elə məni, ağam, – deyə-deyə məscidə ayaq basdı.

Hamı bir cərgə olub babanın iki tərəfində səf tutdu. Baba ilk duanı hamının eşidəcəyi səslə verdikdən sonra pıçıltı ilə ibadətə başladı. Son rükətin son səcdəsindən hamı qalxdıqda Üzeyir kişinin tərpənmədiyini gördülər. Bir neçə saniyə hamı ürəyinə bəd bir şey gətirmədən gözlədi. Anar ehmalca əyilərək atasının çiyninə toxundu:

-Ata, ay ata! – cəld yerə çökərək atasını özünə sarı dartdı.

Atasının başını yerdən qaldırdıqda onu yüz yaşlı qoca gördü.

Demək uzun illər onu, qocalmağa və ölməyə qoymayan elə Şuşa həsrətinin özü imiş. Anarın gözlərinin yaşı, dili-dodağı qurudu. Atası bir anda azı iyirmi il qocalmış və ölmüşdü.

O, atasını qucağına sıxıb xısın-xısın ağladı.

Onun atası elə Şuşanın özü idi. Ata Şuşa.

**17 may 2022-ci il**



**ARZU ƏYYARQIZI**
**Cəlilabad**

## AĞLATMA MƏNİ

Göz yaşım iz saldı üzümdə, bəsdi!
Ağlatma, qəhərim, ağlatma məni,
Qəmim sevincimin yolunu kəsdi,
Ağlatma, qədərim, ağlatma məni.

Saçıma qonduqda adın dən oldu,
Üzümdə, gözümdə gülüşüm soldu,
Doldu ürəyimə, göz yaşım doldu,
Ağlatma, kədərim, ağlatma məni.

Mən hələ ömrümün azın getmişəm,
Gəncliyin ötürüb, yazın getmişəm,
Gecə ağlamağa vərdiş etmişəm,
Ağlatma, səhərim, ağlatma məni.

## HAQQ MÖHÜRÜN ƏLBƏT VURAR

Dövran məni dəli edir -
Şirdir, ulaq bildiklərim.
Tülküləşib həccə gedir -
Avam bilib, güldüklərim.

Hiylə ilə kələk qurdu,
Çaqqallar da yıxdı qurdu.
Kürəyimdən zərbə vurdu -
Göz yaşını sildiklərim.

Hisslərimlə oynadılar,
Aldatmaqdan doymadılar,

Xətir, hörmət qoymadılar -
Çörəyimi böldüklərim.

Haqq möhürün əlbət vurar,
Hiyləgərə divan qurar.
Halallıqçün boyun burar -
Uğurunda öldüklərim .

**KƏPƏNƏK SEVGİMİZ**

Bu sevgi yaşadı kəpənək ömrün -
Çiçək arzuların ətrini daddı.
İslandı gözlərin rütubətində -
Büzüşüb ürəyin küncündə yatdı.

Ümid işıltısın görüb oyandı,
Son bahar rəngini alıb boyandı,
Sınıq qanadını sarıb dayandı -
Çırpındı uçmağa, həsrətə batdı.

Kəpənək sevgimiz verdi canını,
Yaşadı ömrünün gözəl anını,
İçdi qəlbimizin isti qanını -
Ayrılıq adında vüsala çatdı.

**MƏN**

Gözlərim bir qətrə yuxuya həsrət -
Dünyanın hesabın aparıram mən.
Fikirlər şələsin çiynimə çatıb -
Beynimdə toz-duman qoparıram mən.

Düşür arzularım dumana, toza,
Ürək də az qalır yolunu aza,
Bütün duyğularım boyanır boza -
Dərindən ah çəkib qabarıram mən.

Gecə yuxulayıb gözlərin ovur,
Saatda əqrəb də əqrəbi qovur,
Zaman da Arzunun ömrün sovurur -
Ümidi gözümlə suvarıram mən.

**DÜNYA**

Kimə nə versən də, geri alırsan,
Qanun-qayda budur, deyirsən, dünya.
Səndən heç doymayan, həyat istəyən -
İnsanın ömrünü yeyirsən, dünya.

Namərdin köləsi edirsən mərdi,
Verirsən kasıba, yetimə dərdi,
Yaşamaq ölməkdən daha betərdi -
Əyilməz başları əyirsən, dünya.

Ananın balasın alıb əlindən,
Gömürsən torpağa, qırıb belindən,
Qaranı boyayıb bəyaz, telindən -
Biçərək libası geyirsən, dünya.

De, yaxşı nəyin var, axı deməyə?
De, hansı qiyməti verdin əməyə?
Arzunu tələsmə hələ yeməyə,
Yarımçıq qoyduğu şeirsən, dünya!

**QISILMAĞA GƏLMİŞƏM**

Keçib gəldim ayrılığın gözündən,
Mən köksünə qısılmağa gəlmişəm.
Yorulmuşam bu gərdişin özündən,
Mən köksünə qısılmağa gəlmişəm.

Ovut, ağlamasın gözlərim daha,
Bu gündən ümüd yox, gülüm, sabaha,
Dözmürəm köksümdə inləyən aha,
Mən köksünə qısılmağa gəlmişəm.

Mən səndən ayrılıb getmərəm bir də,
Ürəyim dözməyir sən adlı dərdə,
Xoşbəxtlik yox imiş sənsiz heç yerdə,
Mən köksünə qısılmağa gəlmişəm.

Sənsən mənim təkcə ümüd-gümanım,
Sənsiz qəlbdən əskik olmur dumanım,
Sevgin olub qibləgahım, imanım,
Mən köksünə qısılmağa gəlmişəm.

Saf eşqimin dəryasında üzərək,
Adını qəlbimə yazıb, çizərək ,
Göz yaşımı yanağıma düzərək,
Mən köksünə qısılmağa gəlmişəm.

Arzuya bu dünya sənsiz dar oldu,
Həsrətin küləyi saçımı yoldu,
Vüsala aparan təkcə bu yoldu,
Mən köksünə qısılmağa gəlmişəm.

**TƏKCƏ SƏNSƏN GƏRƏYİM**

Darıxıram, burnumun
Ucu yaman göynəyir.
Həsrət dişin qıcayıb,
Ürəyimi çeynəyir.

Saçımı ağartmışam,
Yollarını gözləyib.

Gizli-gizli yanmışam -
Qədəmini izləyib.

Gözləməkdən yoruldum,
Gəl, ay mənim ürəyim.
Həyatımın dadı yox -
Təkcə sənsən gərəyim.

**YAZIQ**

Yalan tərifləri, saxta alqışı -
Özünə şan-şöhrət bilənə yazıq.
Qıyğacı baxışla baxıb insana -
Lağ ilə əl çalıb, gülənə yazıq.

Haramı halaltək bilib yeyənə,
Nahaqqa haqq verib, haqlı deyənə,
Mənfəət güdərək, qapı döyənə -
Yetim tikəsini bölənə yazıq.

Qeyrəti, namusu ucuz tutana,
Şərəfin qəpiyə, pula satana,
Lal edib vicdanın, rahat yatana -
Ay Arzu, sağ ikən ölənə yazıq.

DEYİL
*(divani)*

Qəm-kədərlə yoğruldunsa,
bəxtin sənə çönən deyil,
Boyun qıldan incə olur, əyilsə də, sınan deyil,
Qədərinə razı olub yaşa ömrü ağlar, gülər -
Səsləmə heç xoşbəxtliyi, uzaqdadır, dönən deyil.

Həyat yolu daş-kəsəkli, ayaq dəyib əziləcək,
Göz yaşları səssiz-səssiz ürəyinə süzüləcək,
Yorğunluğun üz-gözündən
sən dinməmiş seziləcək,
Bu dünyanın od-alovu cəhənnəmdir, sönən deyil.

Gileylənmə əbəs yerə, yaşa, yarat ömrünü sür,
Haqqı vermə nahaqqa sən,
nahaq dönüb olsa da dürr.
Dada yetən tək Allahdır, kömək etdi de, hansı pir?
Allah əcəl göndərməsə, ölüm sənə dinən deyil.

**BAX, BAX**

Tükənib taqətim, bükülüb belim,
Dərdlərdən pərişan halıma bax, bax.
Sal hərdən yadına ötən günləri -
Dur baca ağzında yoluma bax, bax.

Sor, soruş halımı, maraqlan hərdən,
Bəlkə uzaq olam kədərdən, sərdən,
Fikrinə gəlmirmi ölərəm birdən -
Ay zalım, gəl mənim soluma bax, bax.

Olmuşam dərdindən dəli, sərsəri,
Qibləgah bilirəm sən olan yeri,
Nə olar insaf et, əl uzat bəri,
Başımda görünən çalıma bax, bax.

Oturaq yan-yana danışıb gülək,
Həsrəti, hicranı ürəkdən silək,
Yaşayaq bir ömrü, ikiyə bölək -
Başımda al-əlvan şalıma bax, bax.

Heç yerdə tapmazsan məntək əyalı,
Oxu gözlərimdən gələn sualı,
Gözlərəm yolunu əli dualı,
Yazılan bəxtimə, falıma bax, bax.



# AĞAMİR CAVAD – 60

Sədaqət ƏLİYEVA
Fəlsəfə elmləri doktoru

# AĞAMİR CAVAD: "DƏNİZ ADAM"

**Qısa biblioqrafik məlumat:**

**Ağamir Cavad (Ağamir Sadıx oğlu Cavadov) 1963-cü il fevralın 5-də Lənkəran rayonunun Veravul kəndində anadan olub. Lənkəran Dövlət Universitetinin humanitar elmlər fakültəsini bitirib. Ötən əsrin 80-ci illərindən respublika mətbuatında bədii, elmi və publisist yazıları ilə çıxış edir.**

**1990-cı ildə Respublika Yaradıcı Gənclər Festivalının iştirakçısı olub.**

**1994-cü ildə "Füzuli" dramı Lənkəran Dövlət Dram Teatrında tamaşaya qoyulub.**

**1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Yeddi şeir və poemalar, bir publisistik kitabı işıq üzü görüb: "Çəkdiyim şəkillərin ruhu", "Eşq işığı", "İşıq adam", "Yanmış budaq üstə oxuyan bülbül", "Ömrün eşq yolu", "Dəniz adam", "Söz eşqi", "Mədəniyyətimizin fədaisi".**

**AYB Lənkəran Bölməsinin ədəbi məsləhətçisidir. "Söz" və "Şəfəq" jurnallarında redaktor müavini kimi fəaliyyət göstərir. Pedaqoji fəaliyyətlə də məşğul olur.**

**2017-ci ildə prezident təqaüdünə layiq görülüb.**



Çoxdan idi ki, monoqrafiyalara, elmi məqalələrə başım qarışmışdı. O qədər məşğul idim ki, sanki həyatın incə, poetik məzmununun mövcudluğunu unutmuşdum. Doğrusu, vaxtın azlığından heç bunun fərqində də deyildim. Arabir əlimə keçən nağıllardan başqa bədii ədəbiyyatla bağlı heç nə oxumurdum. Mənə elə gəlirdi ki, yaş ötdükcə insanın mənəvi dünyasına nağıllar daha çox uyğun gəlir.

Günlərin birində "Ədəbiyyat qəzeti"ndə Cavanşir Yusiflinin yazısını oxuyanda ilk dəfə hiss etdim ki, deyəsən, mən arada nəyi isə ötürmüşəm. Hətta çox təəccübləndim ki, insan ürəyinin incəliklərini də unuda bilirmiş. Həmin yazını ikinci dəfə də oxudum ki, görüm daha nələr yaddaşımdan silinib gedib. Uzun müddət idi ki, heç canlı-canlı şair- yazıçı da görmürdüm. Əslində elə bunlarsız da mənim dünyam zatən kasad idi, yenə də olsun, hərdən bu ka-




sadlıq özümə də qəlbimi sıxacaq qədər darlıq gətirə bilirdi.

Ağamir Cavadın kitabını əlimə alıram. Kitab "Dəniz adam" adlanır. Adəti üzrə, əvvəlcə kitabın adına çevrilən şeiri tapıb oxuyuram. Deyəsən, yaxşı başa düşmədiyim üçün 2-3 dəfə oxuyub fikrimi cəmləməyə çalışıram. "Dəniz adam"a yenidən baxıram, kitabdakı bəzi şeirlərin üzərində dayanıram, təkrar oxuyuram.

Çoxdandır ki, bədii ədəbiyyatdan, şeirdən uzaqlaşmışam, bəlkə ona görədir, yoxsa başqa səbəbləri də vardır, – dəqiq deyə bilmərəm. Birdən düşünürəm ki, bəlkə müasir şeirlərə ciddi yanaşa bilmədiyimin əsl səbəbi elə bu imiş. Uzun müddət idi ki, müasir yazıların çoxu, poeziya nümunələri də daxil olmaqla, məni öz səmimiyyətinə inandıra bilmirdi. Yaradıcılıq nümunələrinin əksəriyyəti sanki təsadüfi və dağınıq düşüncələrin çevrəsində fırlanır və nəinki müəlliflərin fikirlərinin ciddiliyini oxuculara aşılaya bilmirdi, hətta oxucunun öz düşüncələrinə də bir inamsızlıq yaradırdı.

Yenə kitaba qayıdıram. Maraqlıdır, "Dəniz adam" şeirindən qəlbim doğma, tanış hisslərlə yüklənir. Amma şeirdən alınan təəssüratı tam ifadə etməkdə çətinlik çəkirəm. Düşünürəm ki, məhz bu şeirdə haradansa, uzaq bir əlaqə nöqtəsindən qoparılmış və lirik düşüncəyə yatırılan bir məqam gizlənir. Bu şeirin hissi məzmunu və ifadə etdiyi fikrin mahiyyətini gərək özün düşünüb tapasan, şeir insanın xəyalını həyatla bağlı liruk düşüncələrə bağlayır. Özünü kənarda–təbiətlə paralel şəkildə görürsən...

Kitabı oxuduqca, xəyalən bəzi şeirləri seçib ayırıram, onların ruhani məzmunu diqqətimi çəkir. Qəribə gəlir mənə, bir var həyat hadisəsini şeirə çevirəsən, bir də var ruhun sənin cismani həyatından qabağa qaçsın və səni qabaqcadan şeirə çevriləcək hadisələrlə qarşılaşdırsın. Nə qədər qəribə olsa da, həmin kitabdan aldığım ilk təəssürat belə oldu...

Üstündən xeyli keçibdir, amma hələ də düşünürəm ki, bu "dəniz adam" deyilən, görəsən, kim idi, dəniz özü adamdır, yoxsa həyatda dəniz kimi adamlar olur, – deyə şair kimi və nəyi nəzərdə tuturmuş ki? Birdən düşündüm ki, əgər metaforik yanaşmalarda dağ-adam varsa, dəniz-adam niyə olmasın? Əgər insanlar hər şeyi təbiətdən öyrənibsə və ümumiyyətlə, təfəkkür bənzətmədən – appersepsiyadan formalaşıbdırsa, metaforik düşüncələr, xəyali köçürmələr təkamülün nəticəsidirsə, demək, bədiilik və sənət əbədi mahiyyət daşıyır...

Hər nə isə, dəniz-insan münasibətləri, bu şeirdə ağlıma gəlməyən formada, həm də bitkin bir şəkildə öz həllini tapıb.

Ağamir Cavadın kitabında diqqəti cəlb edən "Bilinmir", "Üşüdü bahar", "Aparıram", "Həmişə ayaq üstə", "Şəkilinə baxıram", "Güzgülər ölmür" kimi düşündürən şeirləri vardır və onlar sayca çoxdur.

Mən isə "ƏDƏBİYYAT NƏZƏRİYYƏSİ" SİLSİLƏSİ" adlanan və on bölmədən ibarət olan şeirləri daha üstün gördüm. Çünki bu şeirlər fərdi hiss və həyəcanları deyil, mövcud ol-

duğumuz cəmiyyətin ictimai şüur səviyyəsini əks etdirir. Çox yəqin ki, on bir adda təqdim edilən bu seirlər hər bir oxucunu ümumdünya mədəniyyətinin daşıyıcısı olduğunu nəzərində saxlayır.

**Həmin silsilədən birinci şeir "Romantizm" adlanır.** Romantizm bizə onun bariz nümunəsi olan "Gənc Verterin iztirabları"ndan tanışdır. Romantizm cərəyanı təfərrüatı və hissi detalizasiyası ilə geniş məzmuna malik olsa da, şeir qısadır. Amma şair on iki misra ilə gözümüzün qarşısında romantizm cərəyanının bədii tablosunu canlandıra bilmişdir. Romantizmin "hər şey yaxşı olacaq" – deyə bəşəriyyətin taleyini ümid dolu hissiyyatın ixtiyarına verdiyini şair çox qısa və aydın şəkildə meydana qoyur, şair də bütün romantiklər kimi inanır ki, nə vaxtsa "iynənin gözündən keçəndə dəvənin boynu düzələcəkdir".

**Bu silsilədən olan ikinci şeir "Modernizm"dir.** Modernizm cərəyanı ictimai fikirdə böyük iz buraxan romantizmin xam xəyallarından cəmiyyəti ayırdı, onu gündəlik həyata və fərdi yaşayışa köklədi. İnsanlar sanki birdən-birə başa düşdülər ki, həyat təkcə insanın başını qatan, onu cəmiyyətdən təcrid edən hissi məzmundan ibarət deyildir, kənarda başqa bir reallıq da mövcuddur.

Modernizmi fərqləndirən əsas cəhətlərdən biri bədbin Avropanı dekadansdan çıxarmaq üçün "təmiz sənət" ideyasının meydana atılması oldu. Kütləviliyi inkar edən düşüncə və sənət üçün yaradılan sənətin əlçatmazlığı məsələsi gündəmə gəldi. Sənətdə monoloqu, dialoqu inkar edib özünün fərdi hiss və həyəcanları ilə kamilləşməyə can atan, asketik düşüncələrdə, qeyri-iradi olan "şüur axını" prosesində qəlbinin incə hisslərini ifadə edən sənət əsərləri meydana çıxmağa başladı. Modernizmdəki şüur axını bizə Qoqolun, Səməd Vurğunun fəlsəfi ricətlərini xatırladır. Tolstoyun yaradıcılığında qəlbin incə pıçıltıları, ruhun sezgiləri, "dialektiki duşi" («диалектики души») deyilən fikir axını daxili monoloqdan tamamilə fərqlənirdi, indi həyat haqqında zəngin fəlsəfi mühakimələr oxucuların ixtiyarına verilirdi.

Avropada Modernizm cərəyanı insana aid olan, insan əli ilə yaradılan estetik dəyərləri inkar edib nihilist dadaizm cərəyanının təməlini qoydu ki, bu da sonradan sürrealist cərəyanın yaranmasını və inkişafını təmin etdi.

Şair "Modernizm" adlı şeirində Ərəfənin narahatlığından yaranan mühiti gözəl ifadə edir. O, göstərir ki, bəşəriyyət hələ modernizmin ruhani dağıntılarının içərisində ikən I Dünya Müharibəsinin əsləhələrini miras almışdı və məhz onların gətirdiyi fiziki və mənəvi ağırlığın təsirindən müharibənin acılarını yaşamalı oldu.

**Silsilənin üçüncü şeiri "Realizm" adlanır.** XIX əsrin 50-ci illərindən başlayaraq, ədəbiyyat və incəsənət həyata daha çox yaxınlaşmağa başladı. Balzak, Mopassan, Qoqol, Qriboyedov, Puşkin, Belinski, Dostoyevski, Lev Tolstoy və digərlərini qeyd etmək olar. Realizm cərəyanı romantizmin yaratdığı illüziyaları dağıtdı və həyatın sərt həqiqətlərinin üstünü açdı. Aydın oldu ki, insan yaşadığı sosial mühitin təsirini inkar edə bilməz, buna sadəcə gücü çatmaz. Həyatın burulğanlı romanları heç bir obraza əzab-əziyyətsiz kənara çəkilmək iqtidarı vermir.

Hər bir adam ona ayrılmış xoşbəxtliklə bədbəxtliyin astanasında, liminalitidə yerləşir. Təbii ki, realizm cərəyanının meydana çıxması, ədəbiyyatı ayaqda saxlayan bütün fundamental dirəklərin – bədiiliyin, tipikləşdirmənin, unifikasiyanın stereotiplərinin tədricən çökməsinə şərait yaratdı. Çünki ondan sonra postmodernizm cərəyanı meydana çıxdı. Məhz, realizmdən sonra mətn sözə, ideya fikrə, kök kökcüyə – daha doğrusu, o məşhur "rizoma"lara çevrildi ki, obraz sərhədlərini, şəxsiyyət mövqeyini itirsin.

**Bu sıradan şairin dördüncü şeiri "Postmodernizm" adlanır.** Postmodernizmin boşluqlarını görən və qələmə alan şair ruhən ona ümid bəsləmir. Postmodernist həqiqət universal deyil və sabit xarakter daşımır. Bəzən bu həqiqət o dərəcədə cılız, utilitar dəyərə çevrilir ki, səviyyəsindən asılı olmayaraq, bütün insanların düşüncəsinə otura bilir, nəinki hər cür mətnə, hətta sensetiv bir cümləyə belə yerləşə bilir. Hamı öz müstəvisində haqlıdır, çünki "qaçan da, qovan da" eyni Yerdən, eyni Kəsdən mədət umur. Postmodernizmin ideyasızlığı cəmiyyəti tədricən mənəvi dəyərlərdən uzaqlaşdırdı, "indi və bu dəqiqə mövcudluq" ideyası xalqı kütləyə çevirdi. Umberto Eko demişkən, "o, həmişə özü olmaqdan qorxurdu, çünki özünə güvənmirdi".

**Sıra ilə şairin bu qəbildən olan beşinci şeiri "Sürrealizm" adlanır.** Ağamir Cavadın sürrealizmi ifadə edən şeirində zatən hər şey vardır, sürrealizmin yuxulu təsvirlərindən tutmuş, S.Dalinin pişiyinə qədər, hamıya, bütün bəşəriyyətə bir yayğınlıq sirayət etmişdir, az-çox "bu yağışda" hər kəs islanıbdır:

Hamının nöqsanı,
Hamının səhvi var,
İrili-xırdalı cinayətkardı hamı,
Bilmirik qınayaq kimi.
Hər şey olduğu kimidi:
elə gördüyün kimi.
elə dərk etdiyin kimi.

Müəllifin sürrealizmi təsvir edən fikirlərini anlamaq üçün sürrealizmin mahiyyətinə aydınlıq gətirmək lazım gəlir. Sürrealizm cərəyanı tədricən incəsənət əsərlərini o dərəcədə reallıqdan uzaqlaşdırırdı ki, bəzi rəssamların şəxsiyyətində ikiləşmə sindromu müşahidə olunurdu. Şüur gerçəkliyin ölçülərini dəyişdikdə həyata baxış da dəyişir və təfəkkürdə dünyanın amorf məzmunu üstünlük təşkil edir. Məsələn, sürrealizmin banisi Salvador Dalinin əsərlərindəki obrazlar bizim standart düşüncə ölçülərimizə uyğun deyil. Biz dünyanı S.Dali kimi görmək üçün təfəkkür ölçülərimizi dəyişməli və haradasa illüzionist müstəviyə keçməliyik.

Lakin modernizm, təkcə bir dahi şəxsiyyətin standartları, ənənəni pozması ilə başa çatmadı, ölçülərin pozulması mütəmadi xarakter aldıqca, kütləviləşdikcə, bütün təfəkkür modelləri haçalanmağa başladı. "İmpressionizm", "modern", "ekspessionizm", "postimpessionizm", "fovizm", "kubizm", "futurizm", daha sonra "abstrakt incəsənət", "dadaizm", "sürrealizm" və s. meydana çıxdı. Bu cərəyanların bir çoxu ifratçı modernizmin daşıyıcıları oldular.

**Ağamir Cavadın "Ekzistensializm" adlanan növbəti şeiri I Dünya müharibəsinin ərəfəsi, müharibənin gedişi və müharibədən sonrakı dağıntılar üzərindən qərarlaşan ekzistensializm fəlsəfəsinə həsr olunmuşdur.** Ekzistensializmin hər iki istiqaməti cəmiyyəti dəyişdirməyə can atırdı. Dini istiqamətin dahisi S.Kerkeqor idi ki, onun davamçıları dünyanı desakralizə etməyə çalışırdılar. Bu dövrdə ictimai fikirdə bir numinozluq ideyası var idi, (numinozluq, lat.numen- tanrıların iradəsi deməkdir) insanların ilahi gücü hiss etməsi, onunla təmas qurması fikirləri çox yayılmışdı.

Seren Kerkeqorun məşhur "Qorxu və ürpəniş" əsərində İbrahim peyğəmbərin həyatı təsvir olunur. Lakin bu adi həyat deyildi, bu həyat imtahan, sınaq üçün seçilmişdi və buna görə çox çətin, ağrılı bir yoldan keçdi. İbrahimin şəxsində inam, iradə və sevgi imtahan olunurdu, o, insanı olanlarla ilahi olanlar arasında qısa bir vaxt ərzində seçim etməli, mövqeni göstərməli idi. İbrahimi hər iki tərəfi itirmək qorxusu dəhşətə gətirirdi, övladını və əhdini. Seçilmiş olması ona aydın olduğu qədər, ona göstərilən etimadın da fərqində idi, sevginin və etimadın ağırlıq dərəcəsindən qəlbi ehtizaza gəlir, tükləri ürpənirdi...

Əlbəttə, bütün etimadı doğruldanlar kimi, İbrahim də mükafatını alır. Lakin İbrahimin məqamını yaşamaq və anlamaq adi düşüncələr, ruslar demişkən, "prostoy smertnı"lər üçün deyil, o qədər etibar etmək üçün, o qədər sevmək lazım idi...

Beləliklə, cəmiyyəti mənən bir tərəfdən, ekzistensializm fəlsəfəsi, digər tərəfdən nihilizm, eskapizm sıxırdı. Qərb dünyası sonu görünməyən və heç vaxt bitməyəcək bu fəlsəfi təlimin təsiri altında idi. Ekzistensializm fəlsəfəsi Fransadan dadaizminin "taxta at"ına yüklənib "postmodernizm", "ekspressionizm", "sürrealizm", "dekadans" adı ilə bütün Avropaya yayıldı, oradan isə dünyanın müxtəlif ölkələrinə daşınaraq fəlsəfi fikrə, ədəbiyyata, incəsənətə yeni məzmun gətirdi.

**Ağamir Cavadın sıra ilə yeddinci şeiri "Yenisi" adlanır.** "Yenisi" adlandırılan bu şeir istedadlı ədəbiyyatşünas alim Tehran Əlişanoğluna həsr olunsa da, əslində ekzistensializmin yeni formalarının mövcudluğunu diqqətə çatdırır. Bu əlaqəni yaxşı tuta bilməsəm də, düşünürəm ki, şair haqlıdır. Çünki Allaha münasibət, hər dövrün özünə uyğun formada təqdim olunur. Lev Tolstoy yazırdı ki, "əxlaq – siyasətdir". Dinə münasibət elə bu nöqtədə siyasətə qarışırsa, demək hər dövrün özünəməxsus ekzistensializm fəlsəfəsi mövcuddur, yəni ekzistensializmin sonu yoxdur.

**Şairin səkkizinci şeiri "Tənqidi realizm"-dir.** XIX əsrdə romantizmlə yanaşı realizmin yeni bir formada, yeni bir məzmunda yayılması müşahidə olunmağa başladı. Bu istiqamətin realizmdən fərqi ondan ibarət idi ki, tənqidi-realistlər deyirdilər ki, insan şəxsiyyətinin formalaşmasında cəmiyyətin, mühitin rolu böyükdür. Xarakterlərin ifadə olunması, onun incəliklərinin açılması mühitlə bağlıdır, hətta təsvir də böyük əhəmiyyət daşıyır.

Üç hissədən ibarət olan şeirdə tənqidi-realist baxış həyatı geniş profildən görür:

Ağıllılar haram yeyir,
Rüşvət alır, var yığır.
Halalını uca tutub
Şeir yazır dəlilər.

Tənqidi realizmin cəmiyyətə açıq münasibəti, Avstriyada S. Sveyqin psixoloji novellalarında, S. Dalinin sürrealist rəsmlərində, V. Van Qoqun əsərlərində, Balzakın, F. Şillerin, L. N. Tolstoyun, F. M. Dostoyevskinin, A. P. Çexovun yaradıcılığında şəxsi düşüncə hüdudlarını aşırı fəlsəfi düşüncələrdə ümumiləşdi. Əslində tənqidi-realizm cərəyanı romantizmə, sentimentalizmə yeni bir ideya əlavə etməmişdilər, sadəcə onlar insan xoşbəxtliyini cəmiyyətin şüur səviyyəsi ilə əlaqələndirmişdilər. Əgər cəmiyyətdə qanunlar və qaydalar hökm sürürsə, demək onlar cəmiyyətin bütün üzvlərinə eyni dərəcədə şamil edilməlidir.

**Ağamir Cavadın sıra ilə doqquzuncu şeiri "Simvolizm"dir.** Simvolizm XIX əsrin sonu, XX əsrin əvvəllərində Fransada dadaizmlə birlikdə meydana çıxan, dekadansdan qaynaqlanan və eyni zamanda romantizmə yaxın bir cərəyan idi. Simvolistlər dünyanın intuitiv dərkini – formanı, rəngi, səsi əsas götürürdülər və dövri qanunların mövcudluğuna inanırdılar. Onlar tarixdə şəxsiyyətin rolunu önə çəkməklə qədim və orta əsr mədəniyyətinə üstünlük verirdilər. Rusiyada V. Solovyov və onun "dünyanın qəlbi" ideyası geniş yayılmışdı. Həmçinin A. Blok məşhur simvolistlərdən hesab edilirdi.

Ağamir Cavad bu şeirində simvolizmin mahiyyətini unifikasiya ilə əlaqələndirmişdir, yəni şair dərketmə prosesinin mahiyyətində duran vahidə gətirmə prinsipini əsas götürür və varlığın yeganə simvolunu Allahın nümunəsi hesab edir. Şair simvolizm cərəyanının mahiyyətini bir şeirin içərisində poetik dillə verə bilir və dünyanın intuitiv dərkinin bütün çalarlarını ila-

hi qüdrətə bağlayır:

Göy bir az Allaha bənzəyir –
ənginliyi ilə.
Ümman bir az Allaha bənzəyir –
dərinliyi ilə...
Dağlar bir az Allaha bənzəyir –
ucalığı, yüksəkliyi ilə.
Şairlər bir az Allaha bənzəyir –
tənhalığı, təkliyi ilə.
Gözəllik bir az Allaha bənzəyir –
ünvanıyla, adıyla.

**Sıradan sonuncu şeir "Futuralizm" adlanır.** Futurizm bir avanqard cərəyan olaraq, XX əsrə aiddir. Avropadan, daha doğrusu, İtaliyadan Rusiyaya keçmişdir. Əsas ideyaları gələcəyə daşına biləcək şeylərə tapınmaqdır, köhnəliklə mübarizədir. Futuristlərdə kapitalizmin texniki inqilabı, urbanizasiyanın yeni dəyərləri, "kütlə psixologiyası"nın formalaşması, sabit cəmiyyətə qarşı çağırış və üsyan əsas mövzulardır. Rusiyada Mayakovski, Xlebnikov və digərləri bu cərəyanın ardıcılları olmuşdur. Əslində bu ideya Şərq təfəkkürünün insan-dünya münasibətlərindən doğan fikirlərindən qaynaqlanmışdır. Harada isə F. Nitsşeni, harada isə Nəsimini xatırladır. İnsanlar yalnız kamil insan, fövqəl-insan həddinə qədər gəlib çatdıqda tanrının bir zərrəsi olduğunu və əslində ona heç bir şeyin lazım olmadığını anlayır:

Mən – ilk dəfə
"Mən varam"– deyən,
Mən – ilk dəfə
özünü dərk edib öyən.
Mənəm əbədi zamanın ilk uşağı,
Mən doğdum qaranlıqdan işığı.
Mən –
"OL" sözünün ölçüsünə sığmayan,
ən kiçik, ən böyük an.
Mənəm köhlənini əbədi çapan
ən böyük zaman.
Səs mən, Ün mənəm.
Haqq mənəm, din mənəm...

Mən Ağamir Cavadın yaradıcılığında səhv-düz bunları gördüm, daha doğrusu, bu qədər gördüm. Kim isə məndən artıq, yaxud əskik də görə bilər. Məsələnin əsl mahiyyəti isə ondan ibarətdir ki, Ağamir Cavad böyük bir ədəbi məktəbin nəinki yetişdirməsidir, həm də layaqətli davamçısıdır. Ağamir Cavad qəlbində bu ədəbi məktəbin ideyalarını, fikir və düşüncələrini, ifadə etdiyindən daha çox, bəlkə də, hələ tam ifadə etmədiyi, hələ reallaşdıra bilmədiyi, yalnız duyğularında yaşatdığı fikirlərin işığını daşıyır. Ağamir Cavadın bütün yaradıcılığına hopmuş bu işığın bundan sonra da onun qələmindən çıxacaq bütün əsərlərindəki zərrəcikləri, onu həmişə seçkinlərdən edəcəkdir. Mənəvi varislik əbədi məzmun daşıyır. Hələ bundan sonra da neçə-neçə gənclərimizin qəlbi bu işıqdan nurlanacaq və bu məktəbin varlığı onlarda davam edəcəkdir.



HAFİZ ƏLİMƏRDANLI

# RÜBAİLƏR

**Sevgini sevgiyə tay etmək olmaz**

Sevgini sevgiyə tay etmək olmaz,
Sevgidən sevgiyə pay etmək olmaz.
Qəlbimdə sevgidir əbədi yalnız,
Sevgini sevgisiz zay etmək olmaz.
19.09.2023

**Hər dəfə Xəyyama əhsən deyirlər**

Bir neçə rübai tülkü dinlədi,
“Mənasız sözlərdir” bərkdən söylədi.
Dörd misra nədir ki, tərifləyirlər?
Hər dəfə Xəyyama əhsən deyirlər.
04.10.2023

**Aldığı ləzzətdən yazar**

Həyatı sevənlər həyatdan yazar,
Aldığı ləzzətdən, ovqatdan yazar.
Qəlbində kin ilə küdurət yığan,
Nə varsa, tərs yozub, təzaddan yazar.
06.10.2023

**İllərə rəng verib dolanmışıq biz**

İllərə rəng verib dolanmışıq biz,
Bir gün sevincimiz, bir gün qəmimiz.
Ömürdən keçəndə bu günlər, amma
şübhə yox, yenə də onlardır əziz.
07.10.2023

**Sevmək bir başqadır, sevilmək başqa**

Sevmək bir başqadır, sevilmək başqa,
Xəyal bir başqadır, gerçəklik başqa.
Sevilib sevənlər xoşbəxtdir, əmma,
Xəyalda dolanmaq məcnuntək başqa.
09.10.2023

**Ömürdür bircə**

Ömrümü yaşadır gündüzlə gecə,
Dəyişir növbəylə, bilinmir, necə.
Nə gecə, nə gündüz bitməyir, əmma,
Bitəsi bir zaman, ömürdür bircə.
11.10.2023

**Arada şərabın adı dolaşar**

Yaradan püxtəyə mey də yaraşar,
Naşılar şərabdan həddini aşar.
Günahkar insanın nəfsidir, heyhat,
Arada şərabın adı dolaşar.
12.10.2023

**Hələ ki, görmədim**

Dünyanı insanın nəfsidir qatan,
Eyləyər xalqları qanına qəltan.
Hələ ki, görmədim tanrı bəndəsin,
Yığdığın özüylə birgə aparan.
12.10.2023

**Ürəyim sevinir bu gün**

Sevinir necə də ürəyim bu gün,
Soruşan varmıdır məndən nə üçün?
Vətən ki, azaddır, daha nə dərd-qəm,
Açılmış nəhayət, açılmaz düyün.
13.10.2023

**Can da susar**

Canan sevən can sevərmi, bir sualdır?
Cavab verməz, can da susar, sanki laldır,
Canan candan əziz olsa, can itirməz,
İstəyərsə canı canan, can halaldır.
14.10.2023

**Ustad gərəkdir**

İstedad olana ustad gərəkdir,
Yüksəyə qalxmağa qanad gərəkdir.
İstedad dağıtmaq eşqiylə olsa,
Fəryad ki, bu anda fəryad gərəkdir.
16.10.2023

**Günlərin öz növbəsi var**

Həyatda günlərin öz növbəsi var,
Sevinclə bərabər, qəm də yer alar.
Səbirli dostlarım mənə söyləyir,
Sevincə yolları qəmli gün salar.
18.10.2023

***“Dolsa eşq qəmiylə hər hansı ürək,***
***Dünyanın ləzzəti ondadır bişək.***
***Hər canda bir dərdli ürək yoxdursa,***
***Qəbirdə bir cəsəd yatmışdır demək”.***
***Məhəmməd Füzuli***
***(tərcüməçi M. Sultanov)***

**Özüməm özümə düşmən**

Eylədim ahu-zar eşqin cövründən,
Bilmədim ağlayım, ya sevinim mən,
Ürəyim sevgiylə dolmasa heyhat,
Sayaram özümü özümə düşmən.
18.10.2023

**Yaşamaq məqamı yetişdi mənə**

Nəhayət, yaşamaq məqamı çatdı mənə də,
Söylə bir sevinim, yoxsa ki, dözüm bu dərdə?
Nə qədər xoş keçsə həyatda günlərim yenə,
Bilinmir hələ də, qazandım, itirdim nədə?
01.06.2023

**Yanan şam sönərsə, yaranar zülmət**

Qəlbini almasın, aman, ətalət,
Arzuna çatmağa qalarsan həsrət.
Yanmasan həyatda, yadına sal bir,
Yanan şam sönəndə yaranar zülmət.
03.06.2023

**Bir ömür nədir ki, yanmasa əgər**

Bir ömür nədir ki, yanmasa əgər,
İlhamdan günlərə qatmasa dəyər,
Kimsəyə bu ömür gərək olarmı?
Xilası yanmaqda, qismətlə gələr.
06.06.2023

**Qorxudur atomla**

Yazmışlar tarixdə oxdan, kamandan,
Hansısa tanınmış bir pəhləvandan.
Kişi tək döyüşmüş, amma cahanı,
Qorxudur atomla indi bir nadan.
06.06.2023

**Ömrümlə yetişsin sona**

Düşdüm mən, nəhayət, eşqin toruna,
Sevinclə qəm-qüssə aldı qoynuna.
Fərəhim ol yardır, qəlbimdə hər gün,
Həsrətim ömrümlə yetişsin sona.
11-12.06.2023

**Mərdlərə ardır**

Həyatda mərd ilə namərd də vardır,
Mərd insan həmişə insana yardır.
Namərdin nahamvar bircə kəlməsi,
Dünyanı qatarsa, mərdlərə ardır.
13.06.2023

**Bir ömür yaşamaq heç asan deyil**

Bir ömür yaşamaq heç asan deyil,
Bir qədər qəm gəlsə, heç ziyan deyil.
Hər qəmin axırı sevinclə bitsə,
İllərdən ürəyim nigaran deyil.
17.06.2023

**Hünər istəyir**

Yaşamaq həyatda hünər istəyir,
Ölməyə nə var ki, zəhər istəyir.
İnsantək yaşamaq ər kişilərdən,
Səbirlə bərabər, ciyər istəyir.
17.06.2023

**Həyat dəyərini payızda alar**

Hər ömrün öz yazı, öz payızı var,
Yazında kimsələr nəsə qazanar.
Payızı səbirlə gözləyən bilir,
Həyat qiymətini bu zaman alar.
20.06.2023

**Sevinclə sevincin öz fərqi vardır**

Qarğaya vəzifə verildi bir gün,
Rəhbərlik eyləsin quşlara bütün,
Sərçə də sevincdən atılıb düşdü,
Qarğanın qohumu olduğu üçün.
23.06.2023

## QƏZƏLLƏR

**Dönər qəlbində sultana**

Mən ki, sənə könül açdım,
çəkdin yaman imtahana,
Bəlkə özün də bilmədin, ağlar qəlbim yana-yana.

Bilməz idim sevgi nədir, bu aləmə çağırdın sən,
Yüz imtahan versəm belə,
oldum həsrət bir gümana.

Eşq aləmi sirlə dolu, hər sevən də aça bilməz,
Ol sirlərə yol tapmağa ürək gərəkdir odlana.
Şeir, qəzəl vəsilədir, bu aləmdə kömək etməz,
Dedilər ki, könül sevsə, gərək cəfaya qatlana.

Cəfalardan əzab olmaz, cəfaları dərk eləsən,
Həyat özü əzab dolu, bu dünyaya göz açana.

Yəqin dildar xəbərdardır, cəfasından heç usanmır,
Çalışır hey Leyli təki, düşsün dastandan-dastana.

Hər əzabın öz yeri var, eşqin əzabı başqadır,
Nədən bilmir, desin gülzar,
son qoyulsun bu hicrana.

Ey Hafiza, çalışma gəl, ömür keçsin cəfalarda,
Dərk eləsə bir gün dildar, dönər qəlbində sultana.
10-11.08.2022

**Sülhə çağır insanları**

Bu dünya ki, Tanrıdandır, nədən insan verir qərar?
Torpaqları zəbt etməyi düşünür hey gizlin, aşkar.

Yaratmağın əvəzinə, dağıdır o, diyar-diyar,
Bayquşlara qismət olur, heyran qalır pərvərdigar.

Sən bir düşün, unutma gəl, kitablara nəzər də sal,
Dünya yenə həmən dünya, neçə fateh olmuş çapar.

Onlardan tək bir ad qalıb, hərdən tarixlərdən gələr,
Dahi ustad Nizamidən qalan miras şölə saçar.

Hər kəlmədə hikmət vardır,
qiymət vermiş ona zaman,
Xeyir ilə Şərdən yazmış, xeyir işə etmiş israr.

Ol ustadın silahıtək, bir qələmdir, bir də vərəq,
Yazdıqları ürəklərdə, məkan-məkan hələ yaşar.

Ey Hafiza, sən də qoşul, sülhə çağır insanları,
Dünya yalnız sülh içində gələn günə yollar salar.
07-08.08.2022

**Təki belə həmişə**

Çatdı sözüm dildarıma, təki belə həmişə,
Cavab aldım sualıma, təki belə həmişə.

Eşidəndə ol xəbəri, rəqib çaşdı gör necə,
Köçdü bahar xəyalıma, təki belə həmişə.

Qədəm qoydum bir aləmə, neçə sirlər açıldı,
Yetişəndə vüsalıma, təki belə həmişə.

Sevdanın çox cəfası var, əsrlərdən gəlir xəbər,
Cəfa sığmaz əhvalıma, təki belə həmişə.

Hər cavabı cana dərman, yəqin ki, gülzar bilir,
Edər çarə o halıma, təki belə həmişə.

Ol eşqimlə yaşayıb, əgər getsəm bu dünyadan,
Bir gün gələr məzarıma, təki belə həmişə.

Hafiz, aləmi yaradan, bir eşq ilə sevdadır,
Qalmaz bu dünya zalıma, təki belə həmişə.
13-15.08.2022

**Zəmanə etsə etibar**

Bir şeir ol afət istər yadigar,
Görüşdük, o gündən verildi qərar.

Qəlbimin sorağı gəlir varaqdan,
Edəndə onları qələm aşikar.

Yazdığım qönçədən, açan çiçəkdən,
Eşidər axan çay, əsən ruzigar.

Bəs edər aldığım cəfalar yəqin,
Yazılan hər sətir ürək yandırar.

Qəzəl də muğamla birgə səslənər,
Məclisdə olarsa kaman, bir də tar.

Dövlətim şeirdir, könüldən gəlir,
Nəsillər oxusa, edər iftixar.

Hər şeir bir inci, qəlblərə açar,
Deyilən hər qəzəl, həsrəti aşar.

Yadigar qalacaq hər deyilən söz,
Zəmanə, Hafiza, etsə etibar.
18-19.08.2022

# Kirman Rüstəmli yaradıcılığından bir yaşıl yarpaq

Kirman Rüstəmli Hüseyn oğlu 1948-ci ilin soyuq bir payız gecəsində (27 noyabr) Qədim Naxçıvan torpağının Cəhri kəndində dünyaya göz açmışdır. Çoxuşaqlı ailədə böyüyən Kirman uşaqlıq vaxtlarında anasından eşitdiyi laylalar, oxşamalar, nağıllar onu ədəbi mühitə səsləmişdir. Müharibədən əlil gələn atasının qayğıları, ailə çətinliklərini bu qarayanız oğlan atasına yaxından kömək etməklə bərabər oxuduğu məktəbdə ədəbiyyat dərnəklərində iştirak edir, divar qəzetlərinə məqalələr yazırdı. O, ayı illərə calayaraq qəlbində baş qaldıran yaradıcılıq arzuları ilə ədəbi mühitə 1972-ildə "Şərq Qapısı" qəzetində işıq üzü görən "Müharibə" adlı şeiri ilə gəlmişdir.

Əli təbaşirli, dili Vətən nəğməli olan Kirman müəllim Naxçıvan Pedaqoji texnikumunda oxuyarkən təhsilini yarımçıq qoyub hərbi xidmətə getmiş, 1969-cu ilin sonunda ordudan tərxis olunduqdan sonra təhsilini davam etdirmişdir. Pedaqoji məktəbin divar qəzetlərində kiçik həcmli şeirlərlə çıxış etmiş, Naxçıvan şəhərində keçirilən ədəbi yığıncaqlarda dinləyici olmuş, söz ustadlarından məsləhətlər götürərək gələcək yaradıcılıq yoluna ilk ədəbi izlər salmışdır. Ali təhsil almaq üçün Naxçıvan Pedaqoji Universitetinə imtahan verərək qəbul olur, ali məktəbi müvəffəqiyyətlə bitirib pedaqoji fəaliyyətini davam etdirir.

Şərəfli müəllim ömrü yaşayan Kirman Rüstəmlinin yaradıcılığında Vətən, torpaq, yurd sevgisi, təbiətin əsrarəngiz gözəlliyi, saf məhəbbətin tərənnümü, müəllim kimi yetirmələrinə olan sonsuz qayğı bir omür onunla qoşa addımlamışdır. Şairin "Şərq Qapısı", "Oxu məni", "Hürriyyət" ,"Haqqın səsi" və sairə qəzetlərdə işıq üzü görən şeirləri, "Türk dünyası şiir seçkisi" kitabında (ASKEF-Türkiyədə çıxıb) "Vaqif Məmmədov xatirələrdə" ("Elm və təhsil", Bakı - 2017) "Göyərçin əllər" poetik toplu ("Elm və təhsil", Bakı - 2018) və sairə kitablarda çıxan əsərləri Naxçıvan ədəbi mühitində yeni bir

imzanın gəlişindən xəbər verir. Onun yaradıcılığında “Dünya”, “Bu köçün mənzili haradır, belə?”, “Səni özümə tanrı bilmişəm”, “Ocağında kül oldum”, “Bakı, sabahın xeyir” “Xal”, “Gedirəm”, “Məni qınama, ana”, “Bənövşəm”, “Sədərəklilər” və sairə belə onlarla şeirlərin rəngarəng mövzusunun əsasında vətənpərvərlik, yurd sevgisi, saf məhəbbətə inam, təbiət, sirli-soraqlı dünyanın bu günü və sabahı durur. Şairin “Bura Bakıdır”, “Bu köçün mənzili haradır, belə?”, “Qoy dərdimi yuyum, adam”, “Sədərəklilər” şeirlərində və sairə əsərlərində vətənpərvərliklə yanaşı torpaqları zaman-zaman bölünmüş, zorla alınmış Göycə, Zəngəzur, Borçalı, Qarabağ və sairə ərazilərinin yad əllərə keçməsinə, əliyalın xalqa qarşı törədilən haqsızlığa etirazı verilir. Onun “Qoy dərdimi yuyum, adam” əsərində:

Torpaq da güllədən yara alarmış,
Qalxanı yoxdur ki, sipər eyləyə.
Dağım da, daşım da yaralanarmış,
İmdad diləyirlər, mən yandım deyə. – əliyalın bir xalqın harayını dünyanın sülhsevər insanlarına çatdırmaq istəyir. Şair “Bu köçün mənzili haradır, belə?”, “Vətənimdə vətənsizəm” və s. şeirlərində bir əsrdə üç dəfə deportasiya olan, od-ocağından qovulan qaçqın və köçkünlərin acı taleyini ürək ağrısı iıə təsvir edir:

Toplayıb illərin ağır yükünü,
Unudub əslini, soyun, kökünü,
Keçirib başına qara börkünü,
Tökülüb yollara verib əl-ələ
Bu köçün mənzili haradır, belə?

Şairin poetik dünyası bütün türk torpaqlarını gəzir. “Harada haqqsızlıq var, orada ədalətin ölümü var”, - deyən Kirman Rüstəmli təklənən xalqının itirilmiş torpaqlarının geri qaytarılmasına olan inam hissinin ölməsindən, məhəbbəti bənövşə ömrü yaşamış qarayaylıq gəlinlərin fəryadında, anaların vaxtsız ağaran saçlarından ürək ağrısı ilə söz açır, hətta, sülhsevər insanlarla bərabər səmalardan da bu haqqsızlığa etiraz gözləyir.

Hər gün itiririk inam hissini,
Analar saçına həna yaxmayır.
Göylərə yüksələn nalə səsini,
Səma da dinləyir, niyə çaxmayır?

Misri qılıncları ilə əsrlərə səs salan oğulları haylayır. “Bu gün vətənə döyüşən oğullar gərəkdir” ideyasını gənclərə aşılayan, yaşlaşdığı üçün öz varlığından küsən şair:



Misri qılınc qından çıxmır, deyəsən,
Kişi ol ki, dəbilqəni geyəsən,
Axı, neçə ildir qəzəbini yeyəsən?
Vuran qolum taqətindən düşüb, oy,
Öz varlığım varlığımdan küsüb, oy.

Şuşada – Cıdır düzündə at oynadan paşinyanları lənətləyir:

Cıdırımda at oynadır yağı, oy,
Biz itirdik yurdu, Qarabağı, oy.

Bu misralar şairin milli oyanışa, birliyə çağırışıdır.

Səngərlərdə yaşa dolan, sinəsini düşmənə sipər edən oğulları alqışlayır.

Səngərdə yoğruldun, sən əsgər oldun,
Müqəddəs torpağa qoydun başını.
Savaşda böyüdün, sən yaşa doldun,
Qorudun Vətəni, vətəndaşını.
(“Şəhidlik” şeirindən)

Üçrəngli bayrağın Ümumimilli lider Heydər Əliyev tərəfindən yenidən Naxçıvan MR Ali Məc-

lisinin binası üzərində dalğalanması ilk müstəqil dövlətimizin banisi Rəsulzadənin “Bir kərə yüksələn bayraq bir daha enməz” ideyalarının yenidən qayıdışını alqışlayan şair “Bayrağım” şeirində Məmməd Əminin obrazını sevərək yaradır, yaşadır və əbədiləşdirir.

Bu torpağın mayasından yoğrulub,
Anasından oğul aslan doğulub.
Hər qarış torpağın şəhidi olub,
Müstəqil dövlətəm bu gün cahanda,
Üçrəngli bayrağam Azərbaycanda.
Və ya:
Şərqə mən gətirdim hürriyyətimi,
Tanıtdım dünyaya Cümhuriyyətimi.
Ürəkdən gələn hər şeiriyyətimi,
Mən yazdım Günəşin erkən çağında,
Üçrəngli bayrağam Azərbaycanda.

Şair yaradıcılığında milli etik adət-ənənələrimizi, doğma yurda bağlılığı, xüsusən də unudulmaqda olan “Səməni halvası”nın dadından söz açır. El qızlarının gözəlliyindən, kənd toylarındakı el adətlərinin təsvirini bədii və poetik dillə verərək keçmişimizi bu günə calayır, ona əbədiyaşarlıq verir.

Xatirə kövrəkdir, yaz bunu, qələm,
Necə də əzizdir o günlər mənə.
Keçmişim yaddaşda canlı bir aləm,
Mən hələ borcluyam dünənim, sənə.

“Kəndim” şeirində “Naxçıvan tarixində sayılıb-seçilən oğulları ilə əsrlərə səs salan doğma Cəhri kəndinin bədii obrazını yaradan şair, kənddəki el adlarını-toponimləri əbədiləşdirir:

Dağın Çalxan Məkkəz dayaq,
Heç dəymədi yad bir ayaq,
Mümkün deyil səndən doymaq,
Cəhri kəndim, Cəhri kəndim....

Ömrüm burda gəlib keçdi,
Bir qızı da könlüm seçdi,
Sənsiz yaşam mənə heçdi,
Cəhri kəndim, Cəhri kəndim.

Özünə məxsus poetik ifadələr, bədii təsvir, ifadə vasitələrindən məharətlə istifadə edən Kirman Rüstəmli “Odlayaqmı”, Gülüm, yarımsan”, “Qadın”, “Yanındayam mən”, “Xallısan”, “Dəlisən ki, dəli”, “Səni seçmişəm”, “Ocağında kül oldum” və s. şeirlərinin əsasını saf məhəbbət, əhdə vəfa, qadına hörmət, anaya ehtiram və s. insana məxsus sevgi motivləri tutur.

Qar kimisən, yanaqların allanıb ,
Kim bəzəyib yaradanda de, səni?
İpək saçın sal deyincə sallanıb,
Gözə gələr baharında de səni.

Bir səyyah kimi Naxçıvan torpağını gəzən, onun əsrarəngiz təbiətinin sirli-soraqlı diyarından zövq alan Kirman Rüstəmlinin “Bənövşəm” şeiri çox lakonik əsərdir. Ilk baharın müjdəsi olan bənövşəyə xitabla:

Adın çəkməm nərgiz məndən inciyər,
Yaz gəlməsə qar altında linciyər,
Səni kimsə dərər, tez mənimsəyər,
Qan ağlaram, xstə ollam bənövşəm.

Gülləri dər, dəstə-dəstə dəstələ,
Mahnı düzəlt, sən onları bəstələ,
Yalqız qalma, hərdən məni də səslə,
Nərgizimdən soraq verim, bənövşəm.

Azərbaycan ədəbiyyatının milli vəzni olan qoşma janrından gözəl əsərlər yazan şair, həmçinin, bayatı və sərbəst mövzularda da qələmini sınamışdır. O, öz əsərləri ilə nəinki Naxçıvan mühitində, Cənubi Azərbaycanda və tük dünyasnda da çoxlu oxucu rəğbəti qazanmışdır. Təbii ki, Kirman Rüstəmli yaradıcılığı getdikcə püxtələşir, bitkinləşir, mövzu rəngarəngliyi artır. O, ustad pedaqoq, yaradıcı şair kimi Vətən, el, xalq arasında mənəvi borcundan bəhrələnərək yazıb yaradacaq, öz oxucularını yeni əsərləri ilə sevindirəcəkdir.

**Ümbülbanu MUSAYEVA**
**Azərbaycan Respublikasının**
**Əməkdar Mədəniyyət işçisi**
**Naxçıvan**



## KİRMAN RÜSTƏMLİ

### BATABATDA BİR GÜN

Bu torpaqda bulud yeri yalayır,
Yağış yağır, sel-su daşır, qalayır.
Arılar da gül-çiçəyi talayır,
Qonaq görcək qucaq açır Batabat,
Zor bulağın Zəfər çalır, Batabat.

Mən burada gül ətrinə büründüm,
Səcdə edib torpağında süründüm.
Ormanında cah-cəlallı göründüm,
“Zor” bulaqdan su da içdim bir qədər,
Yada saldım mən İslamı mükəddər.

Zəncirotu ləçəklənib sap-sarı,
İndi yaydır, ərimәyib dağ qarı.
Biçənəyin alma, heyva, turş narı,
Bu yerlərə bir də qayıt, gəl deyir,
Mərcan gözlü bulaqlarla, əl deyir.

Yurd yerləri, obaları bomboşdu,
Hava sərin, udmaq üçün çox xoşdu.
Kim gəlməyib buralara naxoşdu,
Yaylasında ocaq çatdım, dumanlı,
Kabab yedim, ciyəri də çox qanlı.

Qantəpəri dərman deyil, bəs nədir?
Lalə, nərgiz, dörd yanımız çəməndir.
Batabatım bilin, bizə vətəndir,
Qara yarpız, baldırğanı biçilib,
Səma burda elə bil ki, kiçilib.

Bir gəlmişəm, bir də gəlim dübarə,
Suyu mənim dərdlərimə çox çarə,
Batabatı mən götürdüm “icarə”,
Salvartını verin mənə, dərdləşim,
İlqar edib, mən onunla şərtləşim.

08.07.2022

### ATALAR

Papağı başında qeyrət simvolu,
Müqəddəs bilmişdi getdiyi yolu,
Bir ömür yaşadı, xatirə dolu,
Bu gün qəbri üstə çiçək, butalar,
Beləcə yaşadı bizim atalar.

Döyüşüb düşməndən öcünü aldı,
Soyuna söykənib gücünü aldı,
Bəxtini sınayıb bürcünü aldı,
Əbədi uyuyub, rahat yatalar,
Qəhrəman atalar, o mərd atalar.

Odda doğuldular, odda bişdilər,
Torpağı qoruyub əkib biçdilər,
Namərdi əfv edib, mərdin seçdilər,
Əlində süngüsü, iti baltalar,
Sizi kim unudar, əziz atalar?

Kimi qayıdaraq yaralı gəldi,
Bənizi ağarmış, saralı gəldi,
Qol-qıçı dağılmış paralı gəldi,
Beləsin göylərə atıb, tutdular,
Yaraşır bu büsat sizə, atalar.

28.11.2023

**DAR AĞACI**
**Rüstəm Behrudinin**
**"Dar ağacı" şeirinə nəzirə**

Mən sənə gəlmişəm, bitirim zülmü,
Axıtma göz yaşı, nə mənə acı.
Heç kim arzulamaz belə ölümü,
Çağır cəlladını, ay dar ağacı.

Söylə günahımı, haqqdan qaçmışam?
Asi olmamışam yaradan kəsə.
Təki bircə kərə ağız açmışam,
Günahın demişəm, girərək bəhsə.

Axı nədən dözüm, məhv olur arzum,
Dilimdə qıfıllar kilidlənibdir.
Yediyim bir tikə olubdur zəqqum,
Mənim boğazımda söz bəndlənibdir.

Nə qədər can aldın, bir-bir sayım mən?
Zülmün bitəcəyi yerdə imişsən.
Kəndirin sabunlu necə qayım mən,
Sən məndən də betər dərddə imişsən.

Bilmirəm kim qurub, səni ucaldıb?
Başlardan nə qədər salmısan tacı.
Ölümün nə qədər başı alçaldıb,
Sən də asılarsan, ay dar ağacı.

**SƏNƏ QALİB GƏLƏCƏYƏM**

Ağrını, acını bölmə mənimlə,
Ağrılar bəsimdir həyatım boyu.
Mən ölsəm, ay ürək, ölmə mənimlə,
Barı, sən görəsən bir nəvə toyu.

Hər gün dinləyirəm sənin ritmini,
Nədənsə döyüntün xöşuma gəlmir.
Önünü sağaltdım, digər səmtini,
Volakardin içsəm yenə düzəlmir.

Tutulan hər damar bir ürək tacı,
Tıxandı heç mənə xəbər etmədən.
Xəbərin olmadı, ay yanan bacı,
Köksümdə döyünən bir tikə ətdən.

Daşımaq olmayır dərdləri həmən,
Hər dərdin yükünü daşımaq ağır.
Qalib gələcəyəm mən sənə hökmən,
İstəsən döyün, sus, ya da ki, bağır.

**ADSIZ ŞEİR**

Çox gözəl dolaşır cənnət bağında,
Yüzü yığışsa da sən ola bilməz.
Şamama yetişib atlaz tağında,
Əl atıb dərməmiş o sola bilməz.

Gülüş cilvələnir dodaqlarında,
Yanağın lalədir, rəngi silinməz.
Hər sözün vədəsi, əhd ilqarında,
Üz-üzə, göz-gözə, zaman bilinməz.

Varlığım, dəyərim sənsən həyatda,
Zühurun zülməti nura boyadı.
Qarşıma çıxdığın həmin saatda,
Sandım ki, gerçəyim yuxu, röyadı.

Sevginin meyarın ölçmək olmayır,
Tanrı yaratmayıb belə bir cihaz.
Adəmin dərdiyi alma qalmayır,
Biz ondan dişləyək azacıq, bir az.

Qismət axtarmadım, qismət içində,
Sən demə, qismətim özü gələrmiş.
Nə yolda dayandım, nə də bir tində,
Sən gələn yollara gülüm ələnmiş.

05..11.2023

**DEYİLƏM**

Məni məndən diləmə, məndə mən deyiləm,
Mən bölündüm ikiyiə, gülüm, tən deyiləm.

Zara gəldim dövrün amansız biçimindən,
Hələ bütov olası o gündən deyiləm.

Bütövün parəsi dırnaqla ət kimidir.
Bənzətmə yadə məni, demə, sən deyiləm.

Atdılar oda məni, yanmadım əsla, inan,
Özgə atəşində yanıb bişən deyiləm.

Yağı cənnətimdə bağı viran elədi,
Bu sayaq, ayə, gülüstan, gülşən deyiləm.
O dartdı, bu dartdı, oldum əldə oyuncaq,
Kirman, bəsdir ta, hər ələ düşən deyiləm.

**TORPAĞIN**
**nəvəm Əsəd üçün**

Qaya gördün zirvəsinə buyur, qalx,
Bu cahana öz gözünlə yaxşı bax.
Vətən mənim, sənin ana torpağın,
Sırğa elə, qulağına yaxşı tax.

Çox yoğrulub yad əllərdə torpağın,
Ağı çıxıb, bizə qalmış xorası.
Biçildikcə itilənmiş orağın,
Tiyəsində dorğam olub qorası.

Sən bəsləsən bu torpağın gül açar,
Ətri tutar beşikdəki çağanı.
Torpağa bağlanan qalmayıb naçar,
Doyurub kasıbı, neçə ağanı.

Torpaq - müqəddəs varlıq, anamız kimi,
Qoynunda böyüsən vətənləşər o.
Torpaq nəfəs alır canımız kimi,
Köynəkdir, əyində sətənləşir o.
17.07.2020

**QURBAN OLUM**

Çiçək açdım, nədən solum,
Sən bulud ol, sənə dolum.
İlqarından dönməz yarın,
Baxışına qurban olum.

Qısa olmur gedən yolum,
Daş, kəssəkdir sağım, solum.
Məni anan insanların,
Sevgisinə qurban olum.

Zatı böyük olub ulum,
Müqəddəsdir ana boylum.
Ana qoynun Cənnət bilən,
Xələfimə qurban olum

Məni ötdü mənim soylum,
Gülüşü var doylum-doylum.
Pöhrələnib ağac oldu,
Fidanına qurban ölum.

Uzaq getsin bizdən ölüm,
Pöhrələnsin açsın gülüm.
Bir qarışca torpağımın,
Mən ətrinə qurban olum.
Mən ətrinə qurban olum.
05.06.2023

**ÖLMƏYİ ÖYRƏTMƏDİN, ANA**
***Qənirə Paşayevanın əziz xatirəsinə***

Mənə hər şeyi öyrətdin, ana,
Yıxılmamağı,
Yıxıldınsa qalxmağı,
Bulud olub dolmağı,
Şimşək kimi çaxmağı,
öyrətdin, ana!

Sən mənə öyrətdin,
Insanları sevməyi,
Yüksək kürsülərdən alovlu söz deməyi.
Birinin dərdinə olub məlhəm,
Yarasını yaram bildim,
Oldum onla həmdəm.

Sən mənə öyrətdin
Həyat nağılı,
açdığın süfrə yavanlı, yağlı,
Öyrətdin mənə vətəni sevməyi.
Uzağı yaxın bilib görməyi.
Rişələrim bağlandı torpağa.
Vuruldum sevgimi tapdığım
üçrəngli bayrağa.

Mənə halalı öyrətdin, ana,
Əl uzatmadım harama.
Dövlət, mal yığmadım karıma.
Hər şeyi sən öyrətdin, ana,
Mənə qucaq açdın sən yana-yana.

Mənə her şeyi öyrətdin, ana,
Həyatda qalıb yaşamağı.
Nədən bunu öyrətmədin, ana?
Yaşayıb qocalığı aşmağı?

Səndən çox şey öyrəndim, ana.
Əyilməməyi, əzilməməyi.
Amma, mənə öyrətmədin,
Torpağın altına girməyi,
Qocalmamış ölməyi.
Öyrətmədin, ana,
Öyrətmədin, ana.
Nədən, de, nədən?!

02.10.2023

**SALAM SÖYLƏ**

ASKEF - Azərbaycan üzrə təmçilçisi Sona xanım İsmayılova Xan qızı Natəvanın Şuşada keçirilən 190 illik yubileyində iştirak etmişdir. Hələ iki il bundan əvvəl Sonadan xahiş etmişdim ki, məndən də Şuşaya salam söylə

Məndən də Şuşaya salam söyləyin,
Əlinizi qoyun onun başına.
Harada hay gördüz tutun, qədləyin,
Qanın axıtmayın Vətən daşına.

Şuşa millətimin şərəfi, şanı,
Hər daşı, kəssəyi əzizdir bizə.
Şuşasız yaşadıq hər ili, anı
Dik baxa bilmədik gözlərimizə.

Natavan – xan qızı illər ağlamış,
Onun harayına "can" deyəmmədik.
Analar başına qara bağlamış,
Xoş günümüzdə də heç sevinmədik.

Ulu babalardan qalma diyarım,
Pənah xan nəslinin bitməyib soyu.
Şuşam ləl, cəvahir, qiymət əyarım,
Sən azadsan, azad, oxşayım boyu!

Bitib tükənməyib izi Pənahın,
Haraya baxırsan Xanı görürsən.
Şuşada başqadır danı sabahın,
Sabahın danından Günəş üzürsən.

Çaparlar yenə də çapır kəhərlər,
"Çovkan" oynayarlar Cıdır düzündə.
Hər kəhər belində cəngavər ərlər,
"Quzu ovlayırlar" elin gözündə.

Qarşıla, ay Şuşa, gör kimlər gəlib,
Balayar Sadığı salamladınmı?
Göycənin Sonası bağrını dəlib,
Adilə Nəzərdən salam aldınmı?

Sən mənim mayakım, qütb ulduzumsan,
Şuşasız Qarabağ nəyimə gərək?
Sən mənim ən ləziz şəkər, duzumsan,
Səninlə yaşayaq, səninlə gülək.

Sıldırım qayalar nərdivan imiş,
İllərdir burada həsrət daşlaşmış.
Şuşam, səni qurtarmağa əsgərim gəlmiş,
Azadsan! Bax, Vətən burdan başlamış!

10.09.2022

**HAYDI, HEY!**

Yüz illik bayraqdır havalanır, hey!
Göylərdə mayaqdır, bax, sallanır hey!
Cümhuriyyətimə dayaq, sancaq, hey!
Qalxın ayağına öz türküm gəlir!
Turan yolçusudur, gör kimim gəlir.

Səlcuqdur, Manasdır, Qorqud atadır,
Tarixə kök salmış əsl butadır.
Tarix dəyişsə də qalan bir addır,
Sərdarı Atatürk, ulu xandır, hey!
O, mənim Fatehim, bir imandır, hey!

Heç bir tarix özlüyündə yazılmır,
Bir rəsm üçün qaya, daşlar qazılmır,
Bu insana hörmət, İzzət azalmır,
Şöhrətlənir orda-burda, dildə, hey!
Baş əyirlər qarşısında eldə, hey!

Türk kimliyin damğa vurdu millətə,
Biz sadiqik Atatürkə, dövlətə.
Cümhuriyyəti o gətirdi hörmətə,
Salam ona, alqış ona, haydı, hey!
Yaşayacaq zaman-zaman, saydı, hey!

07.11.2023
Naxçıvan



FƏRHAD ƏSGƏROV (RAMIZOĞLU)

# RÜŞVƏT NECƏ GİZLƏDİLİRDİ?

(hekayə)

Sovet dövründə rüşvətə qarşı ciddi mübarizə aparılırdı. Lakin rüşvətə meyllilər ələ keçməsinlər deyə özlərindən müxtəlif səmərələşdirici təkliflər, üsullar icad edir və həmin üsulların, yolların köməyilə məsuliyyətdən yaxa qurtara bilirdilər. Necə deyərlər, arabir ilişənlər də olurdu. Ancaq bu, ümumi halın heç bir faizini də əhatə etmirdi.

Həmin rüşvətə meyllilərin çoxu artıq dünyasını dəyişib. Lakin onlardan hələ də yaşayanlar və o dövrü nostalji hisslərlə xatırlayanlar var, bir yerə toplaşanda o günlərdən həvəslə danışırlar.

Qocaların toplaşıb nərd vurduqları çayxanaların birində bir neçə nəfər keçmiş igidliklərindən danışırdı...

### Birincinin söhbəti

Rayonların birinə təzəcə prokuror düzəlmişdim. Elə axtarırdım ki, kiməsə ilişim. Axı, yuxarıya verdiyimi çıxarmalıydım. Allah qabağıma bir kolxoz sədrini çıxardı. Onu çox çək-çevirə saldım: yeyinti belə gəldi, sosialist əmlakının talan edilməsi belə getdi, şərəf, ləyaqət... Yazıq hər dəfə yanımdan çıxandan sonra çox güman ki, bir şüşə valerian içirmiş.

Mənimlə “razılaşmağı” çoxdan təklif eləmişdi, ancaq “məzəndəni” bir qədər də artırmaq üçün özüm qəsdən belə get-gələ salmışdım. Nəhayət, elə bir məqam yarandı ki, onunla aramızda ümumi razılıq əlaqə olundu və həlledici günü müəyyənləşdirdik: sabahı gün razılaşdığımız vaxtda kabinetimdə görüşməliydik.

Hələ gəncliyimdən çox ehtiyatlı olmuşam. Məni hələm-hələm aldatmaq, tora salmaq olmazdı. Bu vəzifəyə təyin olunan gün ikinci mərtəbədə yerləşən kabinetimin pəncərəsinin altında kiçik bir bağça düzəltdirib ətrafını hördürmüşdüm. Bircə kiçik giriş-çıxış qapısı vardı, o da birbaşa küçəyə açılırdı.

Səhəri gün vədələşdiyimiz vaxtda kolxoz sədri kabinetimə gəldi. Əlində bir bağlama vardı. O vaxt indiki kimi “diplomat”-zad olmazdı. Hə, kişi bağlamanı mənə verib tez də çıxdı. Şübhələnmişdim. Ancaq mən işimi elə həmişə ehtiyatlı tuturdum. Bağlamanı tez pəncərənin nəfəsliyindən çölə - kiçik bağçaya atdım. Həmin anda orada adam qoymuşdum. O da bağlamanı havada qapıb bağçanın küçəyə açılan qapısından sivişib aradan çıxmışdı.

Heç bir dəqiqə keçməmiş üç nəfər içəriyə daxil oldu. Kolxoz sədri də onlarla birlikdə. Kamali-ədəblə salamlaşıb, özlərini təqdim etdilər və bildirdilər ki, bəs, kabinetdə axtarış aparmalıyıq. Mən dərhal hansı orqandan olduqlarını əlüstü başa düşmüşdüm. Prokurorun kabinetin-

də onlardan başqa heç kim axtarış apara bilməzdi.

Heç bir etiraz-filan etmədən dedim ki, buyursunlar. Öz tərəfimdən də nə kömək lazım olsa edə biləcəyimi söylədim.

Bir neçə saat çəkən axtarış heç bir nəticə vermədi. Daha yer qalmadı ki, yoxlamasınlar.

Nəhayət, hər üçü gözlərini kolxoz sədrinə dikdilər. Yəni, bəs hanı? Yazıq sədri onda görəydiniz. Sifəti göyərmişdi, gözləri ölü qoyunun gözlərinə oxşayırdı, bədəni isə yumağa dönmüşdü. Mən isə bu bir neçə saat ərzində heç onun tərəfə baxmamışdım da... Onların hər üçü gözlərini kolxoz sədrinə zilləyəndə astaca soruşdum:

-Yoxsa, bu mərəkə bunun fitvası ilə baş verir? Axı, onun üçün mən cinayət işi açmışam. O, kolxoz malını yeyib dağıdıb!

Əlbəttə ki, orqan işçiləri məsələnin heç də nəticədə olduğu kimi yox, başqa cürə olduğunu hiss etmişdilər. Ancaq hər şey sübutdan asılı idi.

Onlar üzr istəyib getdilər. Bir neçə gündən sonra kolxoz sədri kolxoz malını dağıtdığına və mənə “böhtan” atdığına görə həbs olundu.

**İkincinin söhbəti**

Mənim isə çox sadə və orijinal üsulum vardı. Mal-material bazasının rəisi işləyirdim. Gündə xeyli rüşvət alırdım. Tez-tez bayıra-içəri girib-çıxmaq olmurdu. Fikirləşib bir üsul tapmışdım ki, həmin üsul məni heç vaxt darda qoymurdu. Hamının gözü qarşısında, kabinetə giriş qapısının yanında böyük bir zibil qutusu qoydurmuşdum. Kim nə “gətirsəydi”, o qutunu göstərirdim: yəni, əlindəkini həmin qutuya atsın. Evə gedəndə oradakıları götürüb aparırdım. Çox səmərəli üsul idi...

**Üçüncünün söhbəti**

Çox gərgin dövrlər idi. Elə bir vəzifədə işləyirdim ki, rüşvəti “krupnu” gətirirdilər. Ölkənin baş şəhərinə uçmalı idim. Təyyarə beş-altı saatdan sonra yola düşəcəkdi. Səhər tezdən alacağım var idi. Xidmətçi qadın erkən gəlib kabinetimi silib süpürmüşdü. Qış fəsli olduğundan dəmir sobanı da yandırmışdı. Palıd odunu çırtha-çırtla yanırdı.

Adətimdir. Sobanın qarşısında oturub maşa ilə yanan ocağı qurdalamaqdan elə indi də həzz alıram. Qapı açıldı, gözlədiyim adam içəri daxil oldu. Cibindən bir kağız bükülüsünü çıxarıb mənə uzatdı. Sobanın qarşısındaca bükülünü götürüb açdım. İki paçka idi. O vaxt üçün bu, çox böyük rəqəm idi. Ona işarə etdim ki, getsin. Lakin gözlərində bir narahatlıq gördüm. O, qapıdan çıxan kimi, nə fikirləşdimsə, sobanın qapısını açıb iki paşkanı və onlara bükülmüş kağızı içəri dürtdüm. Yenə də maşa ilə közü qurdalamağa başlamışdım ki, iki nəfər içəri daxil oldu. Mən sobanın qapısını örtüb təəccüblə onlara baxdım. Ürəyimdə isə başa düşdüm ki, bu, qurulmuş işdir və soba nəzərlərini cəlb etsə, mən batdım.

Onlar məni stulların birinə əyləşdirib kabineti ələk-vələk etdilər. Lakin heç nə tapa bilmədilər. Axı, kimin ağlına gələrdi ki, ocaqda yanan şey onların axtardığıdır.

Axtarış heç bir nəticə vermədiyindən çıxıb getdilər. Mən də xidməti maşınıma minib aeroporta tərəf istiqamət götürdüm. Vaxta hələ xeyli qalırdı. Mənzil başına az qalmış fikirləşdim: “Ay dili qafil, sən nə edirsən? Axı, sonradan ağıllarına gələ bilər ki, heç sobaya baxmayıblar. Qayıdıb yoxlasalar, lap külündən bilərlər”. Sürücüyə dedim ki, yadımdan çıxıb, biletim qalıb kabinetdə. Tez sür geriyə.

Hövlnak kabinetə girdim. Xoşbəxtlikdən hələ kabinetin qapısı açılmamışdı. Tez sobanın qapısını açıb nə görsəm yaxşıdır: paçkanın biri tamam yanıb, o birisinə isə heç nə olmayıb. Təmiz paçkanı cibimə qoydum. Külü isə bir qəzetin arasına büküb özümlə götürdüm ki, yolda ataram.

Yanmayan paçka paytaxtdakı bütün xərclərimi gen-bol ödədi...

**2005-ci il**



DAMƏT SALMANOĞLU

**QƏLƏBƏ MÜJDƏSİ SƏNƏ YARAŞIR**

Şuşada, Laçında hünər göstərib,
Dünyaya səs saldı müzəffər ordum.
Qələbə müjdəsi sənə yaraşır,
Polad - Mübarizlər yetirən yurdum.

Ucaldı bayrağım Qarabağda da,
Düşmən kəsilənlər həddini bildi.
Çəkildi qınına mənfur erməni,
Sərhədini bildi, səddini bildi.

Sən, ey zəfər hissi yaşadan əsgər,
Xalqın ürəyində ucadır adın.
Məğlub millət kimi daha başımız,
Əyilmir önündə özgənin, yadın.

**QARDAŞ**

Ən çətin anında, ağır günündə,
İnsana arxadır, dayaqdır qardaş.
Zülmət gecələrdə, dumanda, çəndə,
Sənə yol göstərən mayakdır qardaş.

Üz-üzə gələndə sevinər, gülər,
Bir anda yox olar qəmin, kədərin.
Harda olursan, ol, çağırsan gələr,
Kəsər yollarını qəza-qədərin.

Ətrini gətirər öz nəfəsində,
Atalı, analı olan günlərin.
Yazı xatırladar payız fəslində,
Açar çiçəkləri solan günlərin.

Hər kim ki, yad bilsə doğma qardaşı,
Özü də bilmədən özünə yaddır!
İsti keçmişini unudub demək,
Ata ocağına, közünə yaddır.

**NECƏSƏN?**

Məni məndən alanım,
İncim, zərim necəsən?
Ömrüm, günüm sevincim,
Dərdim, sərim necəsən?

Ahu gözlü mələyim,
Səksəkəlim, ürkəyim.
Ay süsənim, çiçəyim,
Söylə görüm necəsən?

Yanaqları al yarım,
Qaşları hilal yarım,
Damətə halal yarım,
İlham pərim, necəsən?

**ÖZÜMÜN SINAĞIYAM**

Yenə xəyallarım gəzib dolanır,
Artır bir yarpaq da xəzan bağında,
Kədərlə sevincim əl-ələ tutub,
Ömrümün, günümün müdrük çağında.

Dərdə məğlub olan qara saçlarım,
Sanki bir-birini məzəmmət edir.
Gözümün önündən keçən günlərim,
Kino lenti kimi fırlanır, gedir...

Dünən uşaq idim, heç düşünməzdim,
Sabah qocalığın qonağıyam mən.
Özgə sınaqları ötüb keçsəm də,
Özümün cavabsız sınağıyam mən.

Hanı sevgi dolu gənclik illərim?
Mən onu harada itirib gəldim.
Axı bu yaşa da boş gəlməmişəm,
Ümid qatarımı ötürüb gəldim.

İndi bir arzum var, son mənzilimə,
Əməl karvanımı doldurub gedim.
Bilmədən kiminsə qəlb bağçasına,
Əkdiyim tikanı soldurub gedim.

**BİR MÜDRİK TANIDIM**

Bir müdrik tanıdım - Rəşid müəllim,
Şeirdi, qəzəldi dövləti, irsi.
Hərdən düşünürəm, dönür keçmişə,
Dədə Ələsgərdən alır son dərsi.

Bir müdrik tanıdım - Rəşid müəllim,
Bu dünya könlünü ovuda bilmir.
Bütün ağrıları dinib dursa da,
Göyçə ağrısını unuda bilmir!

Bir müdrik tanıdım - Rəşid müəllim,
Tanıdım - əməli sözü kimidir.
Haqqın aşiqidir, açıqdı alnı,
Kişidi, sözü də özü kimidir.

Bir müdrik tanıdım - Rəşid müəllim,
Arzusu yurduna dönməkdir bir gün.
Vüqarlı dağlarla durub üz-üzə,
Danışmaqdır bir gün, dinməkdir bir gün...

**TANRI TÜRK ELİNƏ YAR OLACAQDIR**

Təbrizim çarpışır azadlıq üçün,
Xainin başını əzməliyik biz.
Boynuna dolayıb edam kəndiri,
Zülmün boğazını üzməliyik biz.

Oyan, Türk milləti, yetişib zaman,
Arxa-dayaq olsun qardaşa qardaş.
Elə nərə çəkək titrəsin cahan,
Tarixə həkk olsun bu haqlı savaş.

Yüz illər əsarət qandalındayıq,
Bu zillət heç sona yetməyəcəkmi?
Dünyaya göz açan məsum körpələr,
Sabaha ümidlə getməyəcəkmi?

Bir tək inamım var kövrək qəlbimdə,
Bütöv Azərbaycan var olacaqdır!
Azadlıq ətirli şərəfli yolda,
Tanrı Türk elinə yar olacaqdır!

**İLAHİ, SƏN ÖZÜN ƏLİNİ UZAT**

Yenə çalxalanır dünya dəniztək,
Pozur səssizliyi, pozur dalğalar.
Günahsız insanlar qərq olub gedir,
Tarixi qan ilə yazır dalğalar.

Evsiz körpələrin sular altında,
Donur baxışları, susur dilləri.
İlahi, sən özün əlini uzat,
Əlini tutmağa çatmır əlləri.

Buludlar qaralıb, yağış yerinə,
Göydən yer üzünə yağır bombalar.
İnsanlıq sığmayan cahan mülkünə,
Necə rahatlıqla sığır bombalar?!

**DUYASAN GƏRƏK**

Sinədə döyünən bir ürək varsa,
Nə vaxtsa sevgidən payını alar.
Harama göz dikib, nəfsə uyanlar,
Ömürdən günlərin sayını alar.

Gün keçər, ay ötər, illər dolanar,
Zaman axınında qocalar insan.
Yığdığı var-dövlət tutmaz əlindən,
Şərəfli adıyla ucalar insan.

Gözü nurdan düşməz, qəlbi fərəhdən,
Həqiqəti duyub, haqqı görənin.
Hər iki dünyası zülmətə dönər,
Aldanıb şeytana könül verənin.

Damətin sözləri deyildir yalan,
Oxuyub, hiss edib, duyasan gərək.
Qəlbi günahlardan paklamaq üçün,
Gözünün yaşıyla yuyasan gərək.

**YAZI, YAYI VAR**

Hər işə kəm baxıb, dodaq büzənin,
Zatında, lovğalıq, dikbaş huyu var.
Halalı nəfsindən uca tutanın,
Qürurlu keçmişi, əsli, soyu var.

Edib təkəbbürlük, özünü öymə,
Əyilməz başını nəfsinə əymə,
Çalış insanların qəlbinə dəymə,
Bəşərin ölçüsü, haqqı, sayı var.
Ömür yollarını keçəndə düz keç,
Könül sarayına köçəndə düz köç,
Həyat yoldaşını seçəndə düz seç,
Hər kəsin öz tayı, öz də payı var.

Damət, bu zamanın gərdişinə bax,
Təzadla bəzənir, vərdişinə bax.
Ana təbiətin gedişinə bax,
Payıza yenilən yazı, yayı var.
29.09.2023

**KİM BAHAR VERƏCƏK,
KİM YAY VERƏCƏK**

Bu zalım həyatdan küsən körpəyə,
Tək-tək ümidləri kəsən körpəyə,
Soyuqdan titrəyib, əsən körpəyə,
Kim bahar verəcək, kim yay verəcək?

İnsan yaranandan həqiqəti var,
Uşağın nə dini, nə milləti var,
Nəvaziş adında bir həsrəti var,
Ana qucağını kim pay verəcək?

Şəhərin ünvansız küçələrində,
Mərhəmət axtarır neçələrində.
Həyatın qaranlıq gecələrində,
Kim nurlu qəlbindən saray verəcək?

Ata əllərindən tutub gəzməyib,
Çiçək toplamayıb, gülü üzməyib,
Baxıb haqsızlığa bir gün dözməyib,
Dil açıb hayqırsa, kim hay verəcək?

**ƏLƏSGƏRİN**
**Dədə Ələsgərə**

Sinəsində dil açıbdır,
Telli sazı Ələsgərin.
Gözəlləri vəsf edibdir,
Şeiri, sözü Ələsgərin.

Haqq yolundan dönən deyil,
Zirvəsindən enən deyil.
Min il keçsə sönən deyil,
Sənət közü Ələsgərin.

Peyğəmbərin duasından,
Öz elindən, obasından,
Zərrə alıb Mövlasından,
Nurlu üzü Ələsgərin.

Ünvanı yox gedən köçün,
Varmı deyən ünvan seçin?
Müqəddəsdir Damət üçün,
Yolu, izi Ələsgərin.

**ÜRƏK ALOVA BÜRÜNƏR**

Günlər düşər ömrümüzdən,
Yarpaq-yarpaq yel aparar.
Həsrət çəkən gözümüzün
İşığını il aparar

Sərt əsdikcə payız yeli,
Üşüyər qəlbin telləri.
Solar vüsal ümidləri,
‘’Hicran “adlı sel aparar.

Baxışlarda məna sönər,
Taleyin də üzü dönər.
Ürək alova bürünər,
Odu sönən kül aparar.

Bir gün ömrün qışı gələr,
Saçlarına qar ələnər.
Sevib yerini bilənlər
Ziyarətə gül aparar.



**İBRAHIM YUSIFOĞLU**

**Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü,**
**Prezident təqaüdçüsü,**
**AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı**

# ADƏM ASNININ HEKAYƏ YARADICILIĞI

*"İşıqlı yol"dan başlayan tanışlıq*

Keçən əsrin altmışıncı illərinin sonunda Şərur rayonunda "İşıqlı yol" qəzeti dərc edilirdi. Sədərək kəndindən Xok kəndinədək böyük bir ərazinin 72 kəndinin daxil olduğu bu rayonun kənd təsərrüfatı ilə yanaşı bütün sahələrini işıqlandıran "İşıqlı yol" öz səhifələrində oxucu, o cümlədən məktəb şagirdlərinin məktublarına geniş yer ayırırdı.

O illərdə adıgedən qəzetdə imzasına tez-tez rast gəldiyim məktəblilərdən biri də **Adəm Qulu oğlu Əkbərov** idi. Onun yazılarında doğulub boy atdığı, dağlar qoynuna sığışmış, çox qədim tarixi abidəsi ilə məşhur olan Qarabağlar kəndinin füsunkar gözəlliyindən, kənd həyatından, tanınmış elm və sənət adamlarından, kənd təsərrüfatında çalışan sadə zəhmətkeşlərdən bəhs olunar, müdrik baba və nənələrimizin söz boxçasından əldə etdiyi nəsihətamiz nümunələr oxuculara çatdırılardı. Bütün bu mövzular kənd camaatına tanış və doğma olduğu üçün sevilə-sevilə oxunardı.

Adəm Əkbərov məqalələri ilə yanaşı hələ o illərdə nəzmə də maraq göstərərdi. Xatırlayıram ki, bir dəfə, 1967-ci ildə "İşıqlı yol"da "Gəl, baharım" adlı şeiri dərc edilmişdi. Uzun illər sonra onun yaradıcılığı ilə yaxından tanış olarkən öyrəndim ki, bu, onun mətbuatda dərc olunan ilk şeiri imiş.

Orta məktəb illərindən jurnalist olmaq arzusuna düşsə də, qismət onu başqa istiqamətə yönəltmiş, orta məktəbi bitirən il Neft və Kimya institutuna qəbul olmuş, Almaniya Demokratik Respublikasında hərbi xidmət keçmiş, sonra isə SSRİ DİN-nin Vilnüs şəhərindəki xüsusi məktəbinə qəbul olmuşdur. Həmin məktəbi fərqlənmə diplomu ilə bitirərək leytenant rütbəsi almış Adəm respublikamıza qayıdaraq bir müddət Cəzaçəkmə Müəssisələrində müxtəlif vəzifələrdə çalışdıqdan sonra qəbul imtahanlarını müvəffəqiyyətlə verərək SSRİ DİN-nin Akademiyasına daxil olur və 1987-ci ildə əla qiymətlərlə oranı bitirir.

Erməni qəsbkarlarına qarşı döyüşmək üçün öz istəyi və israrlı xahişi ilə 1991-ci ildə Naxçıvan DİN-ə təyinat alıb Sədərək kəndi uğrunda gedən döyüşlərdə iştirak edən A.Əkbərov 1992-ci ilin yayında Penitensiar Xidmətin çağırışı ilə yenidən Bakıya – Cəzaçəkmə Müəssisəsi rəisinin birinci müavini vəzifəsinə qayıdır. Uzun illər Penitensiar xidmətdə qulluq edir, Cəzaçəkmə Müəssisəsinin rəisi vəzifəsinədək yüksəlir və 2006-cı ildə polkovnik-leytenant rütbəsində, öz xahişi ilə, təqaüdə göndərilir.

**Adəm Asnı imzalı yazılar**

Babalarımızın bir gözəl deyimi var: "Niyyətin hara, mənzilin ora". Tale Adəmi arzusunda olduğu jurnalistikadan fərqli yolla aparsa da, o, asudə vaxtlarında şeirlər yazır, daim mütaliə edir və təqaüdə çıxdıqdan sonra "Xalq qəzeti", "525-ci qəzet", "Azərbaycan", "İki sahil", "Vışka", "Ədalət" qəzetlərində, "Azərbaycan" jurnalında mütəmadi olaraq publisist yazıları, şeirləri, hekayələri dərc olunur.

Azərbaycan Yazıçılar Birliyi və Azərbaycan Jurnalistlər Birliyinə üzv qəbul olunan Adəm doğma kəndi olan, çox şeirlərində vəsf etdiyi Qarabağlar kəndində, dağın döşündən çağlayan, bol sulu olduğu üçün "Asnı çayı" adlandırılan Asnı bulağının adını özünə ədəbi təxəllüs kimi götürür və müxtəlif vaxtlarda yazılmış təmsil, satirik hekayə və lətifələri toplanmış iri həcmli "Ovqat", həmçinin "Duyğuların ifadəsi" adlı şeirlər kitabı 2017-ci ildə işıq üzü görür.

"Duyğuların ifadəsi"nə "Həvəskarın peşəkarlığı" başlıqlı ön söz yazmış filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi, akademik Nizami Cəfərov, həmçinin "Ovqat"a "Adəmin sözü və sözün adamı" ön sözün müəllifi, AMEA-nın müxbir üzvü və Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Əbülfəz Quliyev Adəm Asnının yaradıcılığını yüksək qiymətləndirmişlər. Kitablar oxucuların ixtiyarına verildikdən sonra da, hər iki kitab haqqında müxtəlif qəzetlərdə dərc olunmuş məqalələrin müəllifləri də ön sözlərdəki fikirlərə şərik çıxmiş, kitabların müəllifinin yaradıcılığını şərh etmişlər.

Tanınmış, görkəmli ədəbiyyatçılar tərəfindən yaradıcılığına verilən dəyərdən, mətbuatda getmiş müsbət rəyli məqalələrdən ruhlanan Adəm Asnının 2018-ci ildə şair-publisist, əməkdar jurnalist Əbülfət Mədətoğlunun "Fikri, hissi sözə çevirən Adəm" sərlövhəli ön söz yazdığı "Bir röya həsrətində" adlı şeirlər, 2020-ci ildə isə xalq şairi Nəriman Həsənzadənin "Həyata – işığa çağırışlar" başlıqlı ön söz yazdığı "Sığallı xatirələr" adlı kitabları nəşr olunur. Yenə də mətbuatda gedən yazılarda hər iki kitab haqqında yüksək fikirlər əksini tapır.

Adəm Asnının yaradıcılığı üzvü olduğu Azərbaycan Yazıçılar Birliyi tərəfindən də qiymətləndirilmiş, o, Prezident təqaüdünə və Rəsul Rza mükafatına layiq görülmüşdür.

Sonda Adəm Asnının yaradıcılığına verilən qiymətləri iki görkəmli ədibdən iqtibas gətirməklə bitirmək istərdim.

Akademik Nizami Cəfərov: "Adəm Asnının şeirləri ilə tanış olduqdan sonra ona, özünün təvazökarlıqla israr eləməsinə baxmayaraq, "həvəskar" deməyə dilim gəlmir. Adəm Asnı şairdir... Adəm zəngin etnoqrafik yaddaşı olan qələm adamıdır". "Əminliklə demək olar ki, Adəm filosofluq etməyə qüdrəti çatan, bundan çəkinməyən fikir, mühakimə adamıdır". "Adəmin şeirlərinin əksəriyyəti mənə böyük zövq verdi, zənginləşdim... Və bir daha əmin oldum ki, Azərbaycan poeziyasında özünü "həvəskar" sayan elə peşəkarlar var ki, ədəbi prosesi onlarsız təsəvvür etmək, sadəcə mümkün deyil..."

Xalq şairi Nəriman Həsənzadə: "Təsvir olunan məişət tərzi, insani münasibətlərin müxtəlif məqamları, adət, ənənə, xasiyyət... hamısı təbiidir". "Bu ümumiləşmə - ədəbi tapıntı kimi də qiymətləndirilə bilər. Çünki həyatdan-həyata-işığa çağırışdır". "Adəm Asnının nəsri – onun təsviri, təhkiyəsi, çümlələrarası nəfəsi əsl xalq dili olduğu üçün zəngindir, koloritlidir, ifadəlidir". "Adəm Asnının oxunaqlı hekayələri, ağıllı mükalimələri, gözəl də mükaliməsi var – ünsiyyət. Heç biri oxucunu yormur".

Bənzər fikirlərə professor Əbülfəz Quliyevin "Adəmin sözü və sözün adamı" məqaləsində də rast gəlirik: "Digər maraqlı cəhət də Adəmin təmsillərində dialekt, şivə sözlərinə geniş meydan verilməsindən ibarətdir. Dialekt sözləri ədəbi dili zənginləşdirir. Bu mənada Adəmin təmsillərində dialekt nümunəlrindən yerli-yerində sənətkarlıq məharəti ilə istifadə edildiyini böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm".

Adəm Asnının "Sığallı xatirələr"ə giriş sözündə yazdığı, hörmətli N.Həsənzadənin də iqtibas gətirdiyi kimi, müəllifin "zəhmətinin, düşüncə və hisslərinin, fikir və təəssüratlarının, qəlb çırpıntılarının, əziyyətinin, hadisələri qavrayışının, həyata baxışının məhsulu" olan

**Hekayələrinin bir neçəsinə nəzər salaq**

Ədibin **"Sığallı xatirələr"** adlı kitabında müxtəlif mövzularda yazılımış iyirmi iki hekayəsi toplanmışdır. Bu hekayələrdə "...rayonun ən böyük kəndi, min evi olan" Qaraqaş kəndindən "Rusiyanın şimalında, çox da böyük olmayan, lakin iri sənaye müəssisələri və böyük elmi araşdırmalarla məşğul olan elm ocaqları ilə məşhur təmiz, gözəl, qışı soyuq, yayı sərin keçən Lesnoy şəhəri"nə qə-

dər bir ərazidə baş verən hadisələr, uşaqlıq illərinin kövrək xatirələri, sadə və zəhmətkeş kənd adamlarının təmizliyi, xeyirxahlığı tərənnüm olunur.

"Sığallı xatirələr"dəki hekayələrin bir neçəsi xalq şairi N.Həsənzadənin kitaba yazdığı ön sözdə təhlil edilərək yüksək qiymətləndirilmişdir. Digər bir neçə hekayəyə isə mən işıq salmaq, kitabdan aldığım təəssüratları oxucularla bölüşmək istədim.

Adəm Asnının həyat yolu ilə tanış olan oxucu "Dönüş" hekayəsinin müəllifin uzun müddət Cəzaçəkmə Müəssisəsində (CM) iş təcrübəsinin təsiri ilə yazıldığını dərhal başa düşür. Belə ki, hekayədə CM-lərin daxili qaydaları, məhkumlarla iş prinsipi, islah prosesi, bu prosesdə tətbiq edilən metodlar, məhkumların azad həyata hazırlanması, məhkum Zülfüqarın timsalında məhkumların keçirdiyi hiss və həyəcan, qəlb çırpıntıları geniş qələmə alınmışdır. Bütün bunlar o qədər sadə və inandırıcı təsvir olunur ki, sanki oxucu özü kənardan hadisələri seyr edir.

Hekayənin qəhrəmanı, kənddə doğulub böyümüş Əhməd xeyirxahlıq və düzlüyün simvolu, peşəsinin cəfakeşidir. O universitetin hüquq fakültəsini bitirdikdən sonra Ədliyyə Nazirliyinin nəzdində olan xüsusi kurs keçir və CM-də dəstə rəisi vəzifəsində işləyir. Bir gün Əhmədlə bir sinifdə oxumuş Mərdan CM-yə gələrək Əhmədlə görüşür və məlum olur ki, Mərdanın bacısı oğlu Zülfüqar Əhmədin işlədiyi CM-də cəza çəkir, həm də elə Əhmədin rəisi olduğu dəstədədir və hazırda daxili intizam qaydalarını pozduğu üçün on beş günlüyə cərimə təcridxanasına salınmışdır. Əhmədi axşam yeməyinə dəvət edən Mərdan onu bacısı - Zülfüqarın anası Səidə ilə tanış edir. Restoranda, süfrə arxasında söhbət zamanı Bakıya gəlməkdə əsas məqsədinin Zülfüqarı Əhmədə tapşırmaq olduğunu bildirən Mərdan onun cərimə təcridxanasından buraxılmasını, heç olmasa daha yüngül cəza təyin etməyi xahiş edir. Öz işində məsuliyyətli olan Əhməd uşaqlıq dostuna izahat verir: "Qanun hamı üçün qanundur, heç kimə fərq qoymur. Daxili qayda-qanunu pozan hər bir məhkuma bunun üçün cəza verilir. Həmin cəzanın sən deyən kimi ağır-yüngüllüyü isə məhkumun qayda-qanunu nə dərəcədə pozmasından asılıdır".

Əhmədin cavabından, sözünü yerə salmağından bacısının yanında pərt olan Mərdan gələn dəfə kənddən sovqat-filan gətirəcəyini vəd edəndə isə Əhməd əsəbiləşsə də, büruzə verməyib sakit səslə davam edərək: "Onu guya mənə tapşırdığınızı deməsəniz, vallah, daha yaxşı olar, arxayınlaşmaz, ayağı daha da yer almaz", - deyə cavab verir və ayağa qalxaraq xudahafizləşib çıxır, işarə ilə xörəkpaylayanı çağırıb yeməyin pulunu ödəyərək restoranı tərk edib gedir.

Əlbəttə ki, Mərdan da, bacısı Səidə də Əhməddən narazı qalır. Lakin hadisələrin sonrakı inkişafı Əhmədin haqlı olduğunu sübut edir. Belə ki, Əhməd heç nəyə fikir vermədən öz vəzifəsini yerinə yetirir, Zülfüqara fərdi yanaşaraq əvvəlcə onun qayda-qanun pozuntusuna niyə tez-tez yol verdiyinin səbəbini öyrənir, ata-anasına baş çəkmək adı ilə məzuniyyət hesabına iki günlüyə işdən icazə alıb kəndə gedir, Zülfüqarın sevdiyi Məhbubə ilə görüşərək ondan Zülfüqara tez-tez məktub yazmasını xahiş edir.

Budur, on beş günün tamamında cərimə təcridxanasından azad olunan Zülfüqarı Əhmədin iş otağına gətirirlər. Onunla söhbət edib bir daha qaydaları, bu qaydaları mütəmadi olaraq pozmağın daha ağır hüquqi nəticələrini izah edən Əhməd sonda Zülfüqara bir məktub verərək cərimə təcridxanasında olduğu müddətdə məhkuma məktub almağa icazə verilmədiyi üçün saxladığını deyir.

Sonda Mərdanın da, Səidənin də öz səhvlərini başa düşdükləri, Əhmədə minnətdar olduqları aydın olur. Əhməd öyrənir ki, Zülfüqar işləyə-işləyə institutu bitirib, kənddə dərs deyir, Məhbubə isə ona həm əsl dost, həm də gözəl həyat yoldaşıdır.

Hekayə belə bir sonluqla bitir: "Əhməd qeyri-ixtiyari köks ötürdü və ürəyində bir vaxt kəndə getmək, Məhbubə ilə söhbət etmək, ona vəziyyəti izah edib Zülfüqara məktub yazdırmaq üçün məzuniyyətinin iki gününü boş yerə "xərcləmədiyinə" sevindi.

Hekayə oxunub qurtardıqdan sonra qeyri-ixtiyari olaraq oxucuda qəhər, qəlbdə kövrək hisslər, gözlərdə nəm yaranır, baxışlar uzağa tikilir və düşünürsən ki, nə yaxşı ki, nə yaxşı ki, dünya yaxşı adamlardan xali deyil.

Ədibin "Gülsatan" hekayəsində hadisələr Rusiyanın Lesnoy şəhərindən başlayıb Bakının rayonlarından birində bitir. Lesnoyun universitetin-

də hüquq təhsili alan Samidlə tələbə yoldaşları 8 Mart günündə gül alıb qadın müəllimləri təbrik etmək qərarına gəlirlər. Bu məqsədlə kimin nəyə gücü çatırsa qəpik-qəpik pul toplayırlar. Universitetin qarşısındakı gül bazarında gül satanlar başqa millətdən olduğu üçün bu işi görməyi Samiddən xahiş edirlər. Hamının "Jenya" çağırdığı Yevgeniy Samidə deyir:

-Bir gülü bir qonaqlıq qiymətinə satan həmyerlilərindir də, get öz dilinizdə başa sal ki, tələbəyik, pulumuz azdır, bəlkə ucuz ala bildin.

Gül satılan yerə gələn Samid Azərbaycan dilində:

-Gəl qardaş, gəl. Təzə-tər güllərdir. Axşam dərib səhər reysi ilə göndəriblər. Bu güllərdən həm də Azərbaycanın ətrini alacaqsan, - deyərək onu səsləyən gülsatana yaxınlaşır.

Çoxdan eşitmədiyi doğma dilində müraciət eşidən Samid "qəlbində qəribə bir sevinc duyur, elə bil ki, neçə illər darıxdığı könül oxşayan bir musiqi eşidir". "Eşitdiyi bu sözlərdən Azərbaycanın ətrini almışdı. İlk dəfəydi ki, qəriblikdən bir göynərti yaşadı", "ona elə gəldi ki, bu qərib ölkədə həmyerlisi ona "qurbandır sənə" deyəcək, bəlkə də inciyəcək ki, mən sənə gül satsam, ayıb olar. Onda ağlına gələn fikir bu oldu ki, yığdıqları pulları Jenyaya verib deyəcək: Nahaq lağ edirdin, di al, istəyirsiniz uşaqların pullarını qaytaraq, ya istəyirsiniz bir çay süfrəsi təşkil edək", yazan müəllif gülsatanla qiymət məsələsində razılaşa bilməyən Samidin necə pərt olduğunu, həmyerlisi ilə görüşün, ana dilində danışdığının doğurduğu sevincin kədərlə əvəz olunduğunu, onun keçirdiyi hissləri ustalıqla təsvir edir: "Samid fikrə getdi. Nə edəcəyini bilmirdi. Tələbə dostları ona gülməyəcəkdilərmi?" "Kim də olmasa Jenya zarafata salıb bir-iki söz ilişdirəcəkdi. Qərara aldı ki, gülün baha olduğunu, həmyerlilərinə isə rast gəlmədiyini desin".

Burada bir cəhəti qeyd etmək yerinə düşər ki, həm hekayənin Samidlə gülsatanın söhbəti təsvir olunan hissəsində, həm də sonda müəllif oxucunu intizarda saxlamağı bacarır və detektiv əsərlərdə olduğu kimi hadisələr birdən-birə, həm də oxucunun gözləmədiyi istiqamətdə cərəyan edir.

Belə ki, gülsatandan ayrılıb getmək istəyən Samidi təsadüfən oraya gələn, gülsatanla şərik olan Valid vəziyyətdən çıxarır – gülsatanın etirazına rəğmən qərənfillərdən bir dəstə götürüb Samidə verir və "Sən heç ondan soruşmusan ki, nə qədər pulu var?", - deyə sual edən gülsatana "Pulla versəydim, gülləri sayardım", - cavabını verir. Yenə etiraz etməkdən qalmayan, dəstədə azı otuz ədəd gül olduğunu bildirən gülsatana "Əlli ədəd yaz mənim ayağıma" deməklə etirazı boğur və "Fikir vermə, əmoğlu. Biz özümüz yoluna qoyarıq", deyərək pərtliyi aradan qaldırmaq üçün Validə gülümsəyir.

Oxşar vəziyyət, - lakin bu dəfə gülsatanın Samidə işi düşməsi ilə, - hekayənin sonunda yaranır. Aradan iyirmi il ötür. Bakının rayonlarından birində hakim işləyən Samid qonşusu ilə dalaşmış bir nəfərin cinayət işinə baxmalıdır. Həmin şəxsin cəzasını yüngülləşdirmək üçün Samidin yanına xahişə gələn qardaşının Lesnoydakı gülsatan olduğunu Samid sonradan bilsə də, gülsatan Samidi dərhal tanıyır, lakin vaxtı ilə ona etdiyi etinasızlığa, şərikinin ona pulsuz gül verdiyinə etdiyi etiraza görə kim olduğunu bildirmir.

İkinci maraqlı və intizarlı məqam isə hekayənin məhz bu hissəsidir. Oxucu hadisələrin necə nəticələnəcəyini, Samidin gülsatanın qardaşı barədə hansı hökmü verəcəyini səbirsizliklə gözlədiyi, müxtəlif variantlar uydurduğu halda, hadisə tamam başqa istiqamət alır. Gülsatanın təcili olaraq Lesnoydan çağırdığı Validi görən Samid onu dərhal tanıyır və:

-Narahat olma, Valid, nə kömək imkanım olsa edəcəyəm, amma qanun daxilində, - deyə onu əmin edir və həqiqətən də qonşuya dəymiş ziyanın ödənilməsindən tutmuş şikayətin geri götürülməsinədək bütün məsələləri həll edib gülsatanın qardaşını məhkəmə zalından azadlığa buraxır.

Valid Samiddən ziyanın kimin, haçan ödədiyini soruşur və hekayə Validlə Samidin maraqlı dialoqu ilə bitir. Samid:

-Özünü yorma, Valid, ziyanı elə sən ödəmisən.

-Məən? Mən heç ziyanın nə qədər olduğunu da əməlli bilmirəm. Qonşuları bir söz deyir, bunlar bir söz. Nə vaxt ödədim ki?

-Hələ iyimi il bundan əvvəl ödəmisən, Valid, bir dəstə qərənfillə.

Digər hekayələr kimi, "Gülsatan"ı da oxuduq-

dan sonra uzun müddət onun təsiri altında qalır, birinin hərəkətinə təəssüflənir, digərinin hərəkətini isə təqdir edib sevinirsən. Sonda isə əmin olursan ki, atalarımız nahaq yerə "Balığa kömək et, at dəryaya, balıq bilməsə də, Xaliq biləcək", "Örkən nə qədər uzun olsa da, axır gəlib doğanaqdan keçəcək" və s. bu kimi müdrik kəlamları boş yerə deməyiblər.

A.Asnının oxucunu təsirləndirib sözün əsl mənasında kövrəldən **"Təsəlli"** və **"Zavallı Məsud"** adı iki hekayəsi öz orijinallığı ilə diqqətimi daha çox cəlb etdi.

Taleləri oxşar olan, - hər ikisi analarını erkən yaşda itirmişdir, - iki qonşu, iki dostun – Talehlə Həmzənin gənc həyatından bəhs edən "Təsəlli" hekayəsini həyəcansız, intizarsız oxumaq mümkün deyil. Əsgəri xidmətdən sonra birlikdə çalışdıqları tikintidə Həmzə Talehi real ölümdən xilas etsə də özü həlak olur. Talehin isə bir ayağı dizdən aşağı kəsilir. Xəstəxanadan çıxarkən ilk işi birbaşa Həmzənin məzarı üstünə getmək olan Talehin daxili təlatümü, Həmzənin ölümündə özünü günahkar saymağı, içərisini gəmirən hisslər "...uşağım analıq tapdağında böyüməsin" deyə həyat yoldaşının ölümündən sonra evlənməyib oğlunu tək böyüdən atası Kamandarın oğlunun halına necə acıdığı, pərişanlıq hissi o qədər inandırıcı verilmişdir ki, oxuduqca etinasız qalmaq olmur. İstər-istəməz oxucunun ürəyindən Talehin yanında olmaq, ona təsəlli vermək, dostunun ölümündə heç bir günahının olmadığına onu inandırmaq kimi bir istək keçir.

Bir müddət evdə oturub özünə qapanan Taleh, nəhayət, yaşadığı sarsıntıdan "özünə gəlir". Hələ orta məktəb illərində bayram və şənliklərdə dostu Həmzə ilə birlikdə gözəl ney çalan, ifaları həmişə alqışlarla qarşılanan Taleh yenidən ney düzəldib ustalığını bir az da cilalayır. Bir müddət sonra isə hər gün səhər şəhərə gedib axşamüstü qayıtmağa başlayır. Atasının və Həmzənin atası Mahmud kişinin bu gedişin səbəbi barədə suallarına isə "eləbelə" deyərək cavabdan yayınır. Ancaq daha iki gündən – həmkəndliləri Talehi şəhərdə görəndən sonra sirr açılır. Məlum olur ki, Taleh adamların gur, gediş-gəlişin sıx olduğu yerlərdə stul qoyub əyləşir və ney çalır. Ötüb keçənlərdən bəziləri qarşısındakı karton qutuya pul atır, bəziləri bir müddət dayanıb dinləyir və sonda qutuya kağız əsginas atırlar.

Bu söhbəti eşidən Kamandar çox mütəəssir olur. Bütün günü oğlunun gəlişini gözləyən ata axşam yeməyindən sonra ehtiyatla camaatın guya Talehin şəhərdə diləndiyi barədə danışdığını bildirib deyir:

-Oğul, de ki, bu yalandır.

-Kim deyir onu, ata?

-Nə bilim, ay oğul, camaat danışır. Yerin də qulağı var. Deyirlər sən dilənirsən ki, özünə protez ayaq düzəltdirəsən.

-Yalan deyirlər, ata, mən dilənib eləmirəm.

-Mənim canıma and iç, de sən öl, inanım...

-Həmzənin ölümü bəsimiz olmadımı, ata? O yazıq mənim yerimə öldü... Mən dilənmirəm, ata, oturub ney çalıram. İnan ki, həmin dəqiqələrdə mən kimin mənə yaxınlaşdığının, dinlədiyinin, ötüb keçdiyinin heç fərqində belə olmuram. Öz aləmimdə, çox vaxt da Həmzə ilə birlikdə oluram.

Bununla da söhbət bitir. Yazıq ata fikirləşir ki, yəqin Taleh özünə protez düzəltdirmək və evlənmək üçün pul toplayır.

Hekayənin sonunadək elə mən də o cür düşünürdüm. Lakin sonda məlum olur ki, Taleh yığdığı pulla mərmərdən Həmzənin qəbirüstü və başdaşını düzəltdirirmiş.

Hekayənin əvvəlində belə bir fikir var ki, bəziləri bütün ömrünü var-dövlət içərisində, eyş-işrətdə keçirsə də, həyatda rast gəldiyi, yaşadığı bircə çətin günü, bəziləri isə bütün ömrünü çətinliklər içərisində, məhrumiyyətdə, sıxıntıda keçirsə də həyatda yaşadığı bircə sevincli günü heç vaxt unuda bilmir. Uşaq yaşlarından ana nəvazişindən məhrum qalan, yaxın dostunun faciəli ölümünü gözü ilə görən, gənc yaşında bir ayağını itirən Taleh də ikinci "bəzilərdəndir".

Hekayə belə bir sonluqla bitir: "Ötən günlərin acı xatirəsi, dostunun, elə özünün də başına gələnlər onu nə qədər yandırıb yaxsa da, Həmzənin başdaşındakı şəkli ilə göz-gözə dayandığı bu dəqiqələri, bu günü ömrünün ən bəxtəvər günü kimi ölənədək unutmayacaqdı" Taleh.

Xalqımız həmişə öz adət-ənənələrinə sadiq qalmış, onu yabançı təsirlərdən qorumuşdur. Dədə-babalarımız xalq yaradıcılığının bənzərsiz folklor nümunələrini, adət və ənənələrimizi nəsildən

nəslə ötürməklə onları yaşatmış, nənələrimiz böyük sevgi ilə onları nəvələrinə öyrətmişlər.

Adəm Asnının **"Yad"** və **"Vida"** hekayələrində məhz adətlərimizə xilaf çıxan və bununla da onları böyüdüb boya-başa çatdırmış valideynlərinə mənəvi əzab verən "müasir" gənclərdən bəhs olunur. Lakin hadisələr bir-birini təkrar etmir. Hər iki hekayənin qəhrəmanı rus qızı ilə evlənib Rusiyada yaşayır. Hekayələrin mövzu bənzərliyi bununla yekunlaşır. Hadisələrin sonrakı inkişafı fərqli cərəyan edir. Uzun illər sonra atasının dəfn mərasiminə gələn, "Vida"nın qəhrəmanı Əlqəşəm məhz adətlərimizi bilməməsi səbəbindən anasını xoşagəlməz vəziyyətə salsa da özü tragikomik vəziyyətə düşür. "Yad" hekayəsinin qəhrəmanı Ələsgər isə adət-ənənələrimizi bilsə də, rus qızı olan həyat yoldaşı bu adətləri bilmir və bununla da, həm Ələsgəri çətin vəziyyətə salır, həm də onun ata-anasını pərt edir.

Oğlu Ələsgərin Rusiyada rus qızıyla evləndiyini öyrənən Dadaş əmi ilə ömür-gün yoldaşı Gülsüm xala arasında qovğa olur. Ər-arvad arasındakı həmin söhbətdən göstərmək istədiyim bir hissə zənnimcə, maraqlı olar.

Dadaş əmi söylənir:

-Soxdu papağımı yerə. Bu boyda kənddə, qohum-qardaşda qız başına qəhət idi. Utanmır, gedib bir rus qızının evinə girib, qoltuğunda qalmaq heç kişiyə yaraşan iş deyil. Elə bilir arvad alıb, ta demir ki, ərə gedib.

Gülsüm xala ürəyində ərinə haqq qazandırsa da, bir ana kimi Ələsgərə qahmar çıxmağa çalışır:

-Ay kişi, cavandı. Urus olanda nə olar. Yəqin ürəyi tutub, istəyib, evlənib də. Dünya dağılmayıb ki.

-Kim ona deyirdi ki, evlənməsin. Adət var, qayda var. Biz görmüşük ki, kiçik oğul ata ocağında qalar. Ocağın işığını sönməyə qoymaz. Uruset istəyirdi, istəsin. Heç olmasa gəlib bir halal süd əmmişin tapaydı, alıb aparaydı özünnən. Gedib urusetin gözünü çıxarıb. Camaatın uşağı gedib quş gətirir, bizimki də bayquş. Barı adını daşıdığı babasının ruhuna hörmət qoyaydı. Rəhmətlik ağlı kəsəndən ölən günədək namazından, orucundan qalmadı. Mən düşünürdüm ki, dədəmin adıdır, sonbeşiyimizə qoyarıq, onun kimi mərd, həm də mömin olar. Ta demədim ki, bu gedib hələ adını da dəyişəcək. Yəqin indi dədəmin qəbirdə sümükləri də göynəyir.

-Ad dəyişmək nədir, kişi? Sən də ağ eləmə görək.

-Ağ eləmirəm, arvad. Gözün aydın. Yanından gələn kəndçilərimiz danışıblar mənə. Ələsgər indi olub Aleksey.

Əlavə şərhə ehtiyac varmı? Dadaş əminin dedikləri başdan-başa adətlərimizin izahı, təbliği deyilmi?

Uzun müddətdən sonra, nəhayət ki, ərinin hirsinin soyuduğunu görən Gülsüm xala:

-Ay kişi, gəl bu daşı ətəyindən tök. Olan olub, keçən keçib. Çağır gəlsinlər bir nəvəmizi, Ələsgəri, gəlinimizi görək, - deyib ondan icazə ala bilir. (Fikir verin, burada da adətimiz, - evin kişisinə hörmət, - qabardılır).

Lakin oğlunu, nəvəsini, gəlinini görmək üçün onları həsrətlə gözləyən Gülsüm xala bu görüşdən pərişan olur. Belə ki, rus dilini bilmədiyi üçün gəlini ilə, "balama canım qurban" dediyi nəvəsi ilə Ələsgərin, o evdə olmayanda isə məktəbdə rus dilindən dərs deyən qonşu Sürəyyanın vasitəsi ilə danışır. Bir gün Ələsgər evdə olmayanda Gülsüm xala bir neçə gün əvvəl böyük oğluna rus hərfləri ilə "La ilahə illəllah" kəlməsini və kəlmeyi-şəhadəti yazdırdığı kağızı gəlini Qalinaya verir və Sürəyyaya deyir ki, bunları əzbərləməyi xahiş etdiyini ona tərcümə etsin. Sözləri hərf-hərf və çətinliklə oxuyan Qalina:

-Az qalır adamın dili qırılsın. Bu nədir belə? Bunları bilmək vacibdir? Onsuz da iki gündən sonra geri qayıdırıq. İki-üç kəlmə öyrənməklə nə dəyişəcək ki? - deyə xahişi yerə salır.

Yazılanların nə demək olduğunu Sürəyyadan öyrəndikdən sonra isə:

-Siz mənim razılığımı aldınızmı? Kim sizə dedi ki, mən müsəlman olmaq istəyirəm? Mənim belə bir fikrim yoxdur, - deyib qəti etiraz edir.

Bunu görən Gülsüm xala heç olmasa ikinci arzusunu yerinə yetirmək – nəvəsini sünnət etmək üçün "Bəs iki gün nədir, a bala, heç olmasa bir həftə qalsınlar, uşağı sünnət edək" sözlərini tərcümə etməyi Sürəyyadan xahiş edir. Lakin Sürəyya gəlininin cavabını tərcümə edəndə xahiş etdiyinə peşman olur.

-Gülsüm xala, deyir ki, sizin uşağa yazığınız gəlmir? Bu, uşağa qarşı qəddarlıqdır. Deyir ki, gərək buna uşağın özü razılıq verə. Deyir birdən böyüyəndə onu niyə bu günə saldığımızı soruşsa nə cavab verəcəyik?

-A qızım, o uşaq nə qanır ki, hələ bir irazılıx bildirə?

-Bu da onu deyir. Deyir qoy böyüsün, on altı, on səkkiz yaşlarında özü necə istəsə elə də edək.

Gülsüm xala:

-Mən bundan sonra on-on beş il yaşayacağammı, a bala? - deyib otaqdan çıxır.

Ertəsi gün isə səhər yeməyindən sonra Qalina əşyalarını yığışdırmağa başlayır. Gülsüm xalanın:

-A bala, bəs deyirdiniz hələ iki-üç gün qalacaqsınız, nə oldu, hara tələsirsiniz? - sualına Ələsgər:

-Sağlıq olsun, yenə gələcəyik, - deyərək cavabdan yayınır.

Hekayəni oxuduqdan sonra adam Dadaş əminin də, Gülsüm xalanın da halına acıyır. Min bir əziyyətlə böyütdükləri övladın ata-anasına da, adətlərimizə də etinasızlığı təəssüf doğurur. İstər-istəməz adətlərimizə sayğısız olan Ələsgər kimi gənclərə getdikcə daha çox, həm də təkcə Rusiyada yaşayanlar arasında deyil, elə böyük şəhərlərimizdə də rast gəlinməsi gələcəyimiz üçün nigarançılıq, narahatlıq yaradır.

Etiraf edim ki, hekayələrin hansı barədə yazmaq üçün çox düşündüm. Çünki seçim etmək çətindir. **“Mişka”, “Dərs”, “Son arzu”, “Qonşular”, Qaranquş yuvası”, “Çıxış yolu”** və digər hekayələr oxucunu elə çulğalayıb ağusuna alır ki, hər biri barədə fikir bildirmək, təəssüratlarını kiminləsə bölüşmək istəyirsən. Buna görə də əvvəlcə yiğcam bir yazı yazmaq fikrində olsam da, hekayələrin təsirindən doğan xəyallar məni qanadlarına alıb hadisələrin baş verdiyi məkana, qəhrəmanların yanına, Qaraqaş kəndinə, Rusiyanın Lesnoy şəhərinə elə apardı ki, bir də gördüm ki, geniş bir yazı alınıb.

Zəngin hekayəçilik ənənələrinə malik olan ədəbiyyatımızda bu janr üzrə öz yerini tutmaq nə qədər çətin olsa da, Adəm Asnı buna qismən nail olmuşdur. Onun bu yolda öz cığırı, öz izi var və bu yolda qələm dostumuza uğurlar arzulayır, onun qələmindən çıxan yeni hekayələri gözləyirik.



## ADƏM ASNİ

# MƏZƏN OLSUN

*hekayə*

Qaraşın olduğu və əsgəri xidmətdən qayıdandan sonra on ilə yaxın bir müddətdə atasının yolunu davam etdirərək kəndin naxırını otardığı üçün kənd camaatı onu “Qaraca çoban” çağırırdı. Adı Knyaz idi, amma kənddə çox adam ona Qaraca deyirdi, adını elə belə də bilirdilər. Bu ayamanın ona kim tərəfindən, nə vaxt verildiyini bir kimsə, heç Knyaz özü də bilmir və onu ayaması ilə çağıranda da incimirdi. Son illər kənddə mal-qaranı çox adam satıb-sovduğundan azalmışdı deyə naxırçıya ehtiyac olmadığından Knyaz da, necə deyərlər, çomağı atmalı olmuşdu. Nə yaxşı əsgəri xidmətdə olanda tank sürməyi öyrənmişdi. Kolxoz dağılandan sonra baxımsız qalmış traktoru ucuz qiymətə alıb özəlləşdirmiş və çörək pulunu da bu traktordan çıxarır, bir təhər ailəsini dolandırırdı. Kənddə hamı Qaracanı zəhmətkeş, öz tükünün üstündə dolanan, həm də zarafatcıl kimi tanıyırdı. İki oğul, bir qız atasıydı. Böyük oğlunun on, kiçik qızının da dörd yaşı vardı. Anası cavan rəhmətə getdiyindən körpə Knyaz nənəsinin himayəsində böyümüşdü. Atası da Rusiyaya getdiyindən heç onun da üzünü görməmişdi.

Uşaqlarının üst-başları köhnə, nimdaş olsa da, səliqəli və təmiz geyinərdilər. Kasıb dolansalar da yemək-içməklərinə korluq verməzdilər. Qaynanası Zərnişan hərdən gizlicə onlara “Allah verəndən” gətirib gəlsə də, qaynatası bir dəfə də olsun qapıla-

rını açmamışdı. Bu da səbəbsiz deyildi. Qaynatası müəllim olmasa da, hamı onu "Məmmədəli müəllim" deyə çağırırdı. Məmmədəli rayon icra hakimiyyətində hansısa şöbədə işləyirdi. Vəziyyətləri, dolanışığı pis deyildi. Knyaz hələ əsgəri xidmətə getməmişdən əvvəl onun qızı Əsmərlə əhdi-peyman bağlamış, xidmətini başa vurub qayıtdıqdan altı-yeddi ay sonra ona elçi göndərmişdi. Amma Məmmədəli müəllim elçilərin yanında Mirvari nənəyə:

-Nəvəni cilovla. Mənim çoban-çoluğa veriləsi qızım yoxdu. Bircə Qaraçımız çatmır, – deyə kəskin cavab verib elçiləri təkcə əliboş deyil, həm də tam naümid qaytarmışdı. Amma Əsmər də Əsmər idi... atasının acığına Knyaza qoşulub qaçmışdı. Məmmədəli müəllimin çox asıb-kəsməyinə, hədələyib "tutduracam" deməyinə cavab olaraq gedib qanuni kəbin kəsdirmiş və gələn polislərə izahat da yazıb vermişdi ki, Knyaz mənim həyat yoldaşımdır. Zorla qaçırmayıb, özüm qoşulub qaçmışam.

Bu hadisədən sonra Məmmədəli müəllim ailə üzvlərinə:

-Kənddə hörmət-izzəti olan, qalstuk bağlayan üç kişidən biriyəm. Papağımı yerə soxan Əsmər adda qızım yoxdur, – deyə Əsməri övladlıqdan "silmiş", ailə üzvlərinə onunla ünsiyyət saxlamağı qadağan etmişdi.

Bir axşamçağı mətbəxdə əlləşən Əsmər böyük oğlunun həyətdə kiminləsə danışdığını eşitdi. Bir azdan oğlunun səsi gəldi:

-Ay ana, Mislim əmi səni çağırır! – Hamının "Mislim" dediyi, Knyazın yaxın dostu, həm də qonşuları Müslüm Əsməri görüncə salamlaşdı:

-Salam, Əsmər bacı. Necəsən? Uşaqlar necədi?

-Sağ ol, ay Mislim qardaş. Dolanırıq. Həyətdə niyə durmusan? Keç içəri. Knyaz da gələr indilərdə.

-Yox, gedirəm. Qaraca dedi sənə çatdırım ki, axşam evə gəlməyəcək, nigaran qalmayasan.

Evləndikləri illər ərzində birinci dəfə idi ki, həyat yoldaşının axşam evə gəlməyəcəyini eşidən Əsmər heç bilmədi nə desin. Onu narahatçılıqdan Müslümün sözləri qurtardı:

-Bacı, nigaran qalmayın. Qonşu kənddə bir iş tapıb. Bəlkə də elə daimi iş oldu deyə əldən vermək istəmir. Traktorun qabağına kürək bağlayıb. Böyük bir sahəni hamarlayacaq. Dedi ki, evə gedib-gəlməyə vaxt itirmək istəmir. Havalar istidir, gecəyarısına qədər işləyib elə traktorda yatacaq ki, səhərin sərinində də işə davam eləsin. Sabah bu vaxta gələcək. Di, sağ ol. Bir şey lazım olsa çəkinmə. Mirvari nənəyə salam de.

-Mislim qardaş, bəs o yazıq ac, susuz...

-İşi ona tapşıran Əlizadə müəllim özüdür. Qaracanın dediyinə görə kababa qədər göndərməyə söz verib.

Əsmər evə daxil olduqda Mirvari nənə ilə söhbət edən anası Zərnişan soruşdu:

-O gələn kimiydi, qızım? Qaraca gəldi?

-Yox, ana, Mislim idi. Knyaz xəbər göndərib ki, axşam evə gəlməyəcək.

-Xeyir ola, a bala?

-Əlizadə müəllim qonşu kənddə iş tapşırıb. Knyaz mənə onun haqqında danışıb. Neçə illərdir ki, tanışdılar. Yəqin sözünü yerə salmaq istəməyib.

-Yaxşı, qızım, mən də durum gedim, atanın işdən gələn vaxtıdı… Sağ ol, ay Mirvarı bacı, – deyə Zərnişan ayağa qalxdı. Onu yola salan Əsmər:

-Vallah, ay ana, deyəcəyəm otur çörək ye, sonra get… Qorxuram ona kimi atam gələr, bizə gəldiyini bilib deyinər.

-Əşşi, indi atanın gözü heç nə görmür, yadına belə şeylər düşmür. Başı yaman qarışıqdı.

-Xeyir olsun, ana?

-On-on beş gündür ki, rayona təyin edilmiş yeni icra başçısı neçə nəfəri işdən çıxarıb. Atan da narahatdır ki, onu da çıxaracaq. Ordan-burdan soraqlaşıb təzə başçıya söz deməyə adam axtarır. Son vaxtlar yaman fikirlidi, gözünə heç nə görünmür. Elə bil işlədiyi iş onun boyuna biçilib. Dedim, o olmasın, ayrı iş olsun, ilan vurmuşa döndü, dindiyimə peşman elədi.

Ertəsi gün axşamüstü evə gələn Knyaz həyətə daxil olub qayınatasını görüncə şaşırdı. Məmmədəli müəllim darvazanın ağzındakı tut ağacının altında oturmuşdu. Nəvələri – Knyazın uşaqları da yanında. Oğlanları sağ və solunda dayanmış, qızı isə dizinin üstündə oturmuşdu. Hər üçünün əynindəki paltarların qəttəzə olduğu o dəqiqə gözünə çarpdı. Qızının əynindəki qısaqol, nazik bluzkanın heç üstündəki qiymət kağızını da qoparmamışdılar, boynunun arxasından kürəyinə sallanırdı. Uşaqları onu görüncə səs-səsə verdilər:

-Ana, atam gəldi…

-Ata, bax, babam gəlib…

-Bax, mənə şalvar, köynək alıb.

-Bax, mənə də.

Sonra oğlanlar sözləşiblərmiş kimi birlikdə eyvana yüyürdülər və təzə, yaraşıqlı bir velosipedlə geri dönüb sevinclə Knyaza göstərdilər:

-Ata, bax gör babamız bizə nə alıb…

Knyaz quruyub qalmışdı. Nə deyəcəyini, nə edəcəyini, qayınatasına necə müraciət edəcəyini belə bilmirdi. "Əmi"mi desin, "müəllim"mi. Ümumiyyətlə nə desin axı. Yaxşı ki, Məmmədəli müəllim özü onu bu vəziyyətdən çıxardı:

-Hə, nə durmusan? Bala, düşündüm ki, daha umu-küsüdən keçib və tale, qismət ilə barışmaq lazımdı, – deyib ayağa qalxdı çəkinə-çəkinə ona yaxınlaşan Knyazla əl tutub görüşdü və tez də üzünü eyvana tərəf tutub:

-Hə, gəl görək, a qızım, – Əsmərə səsləndi və yenidən Knyaza müraciətlə: – Gedirik bizə, – dedi.

-Xeyir ola, əmi? – Knyaz karıxmış halda mızıldandı. – Nənəmi evdə tək qoya bilmərəm. Qoy Əsmər uşaqlarla getsin. Düzü, mən də… bir az yorulmuşam.

-Nənən evdə yoxdur. Onu günortadan aparmışam bizə, anamla söhbət edirlər.

Knyaz heç nə anlamır, bütün bunların nə demək olduğunu kəsdirə bilmirdi. Yarım saat sonra hamılıqla Məmmədəli müəllimin həyətinə daxil olanda daha böyük sürprizlə qarşılaşdı Knyaz. Əsmərin iki dayısı, bir əmisi və onun iki oğlu da burada idi. Hamısı irəli gəlib Knyazla görüşdülər, hal-əhval tutdular. Məmmədəli müəllim eyvanın aşağısındakı manqala işarə ilə qardaşı uşaqlarına:

-Hə, gecdir, başlayın görək, – göstəriş verib hamını eyvana dəvət etdi, – qalxın yuxarı.

Eyvandakı böyük, üstünə ağ süfrə döşənmiş masanın arxasına keçdilər. Knyaz yan tərəfdəki taxta kürsünün üstündə əyləşmiş nənəsi və Məmmədəli müəllimin anası ilə salamlaşıb, görüşəndən sonra oturmaq istəyirdi ki, Məmmədəli müəllim ona:

-Yox, yox, buraya buyur, – deyə Knyazı baş tərəfə, yanına çağırdı.

Bir azdan isti kabab gətirdilər və məclis başladı. Məmmədəli müəllimin təklifi ilə ilk badələri Knyazın sağlığına içdilər. İkinci, üçüncü badələr də Knyazın uşaqlarının, nənəsinin sağlığına qaldırıldı. Cavanlar kababı isti-isti gətirir, məclis qızışırdı. Nəhayət, hamı yeyib doyduqdan sonra Məmmədəli müəllim cavanlara müraciətlə:

-Di hə, yığışdırın, bir çay verin içək. – dedi. – Samovar qaynayıbmı?

-Qaynayıb, əmi, – qardaşı oğlanlarından biri dilləndi, – manqalın közündən də atmışam, qaynardır. Çay da dəmləmişəm.

Çay süfrəsi arxasında ordan-burdan bir az söhbət etdikdən sonra Məmmədəli müəllim Knyazın işləri ilə maraqlandı:

-Eşitdim təzə iş tapmısan. Zərnişan xalan mənə deyəndə çox sevindim. Nə işdir elə?

-Heç əşi. Heyvalı kəndi ilə bizim kəndin arasında Ağ göl var ha, bax, orada bəzi işlər görəcəyəm.

-Yaxşı tanıyıram. Palantökən dağın ətəyindəki meşənin kənarında, Məlhəmdərəyə yaxın. Səfalı yerdir. O gölə axan Aynabulağın başında çox oturmuşam. Balam, oralar əkin-biçin yeri deyil axı. Orada nə iş?

-Əlizadə müəllim orada iyirmiyədək villa tikdirəcək. Yol çəkdirəcək, idman meydançaları düzəltdirəcək. Özü deyirdi ki, Ağ gölün də böyür-başına mərmər döşətdirib edəcək təbii baseyin. Deyir, burada hər fəslin öz gözəlliyi var. Hərənin də bir zövqü olduğu üçün hər fəsildə istirahət etmək istəyən tapılacaq. Hazır olandan sonra elə reklam elətdirəcək ki, il boyu burada dincələnlər olacaq. Aylarla əvvəldən yer sifariş edəcəklər.

-Bəs sənin işinin adı nə olacaq? – Məmmədəli müəllim soruşdu.

-Əlizadə müəllim deyir ki, girəcəkdə, darvazanın ağzında ayrıca bir otaq tikiləcək mənim üçün. Deyir orada qalarsan, gecələr nəzarət edərsən, gəlib-gedəni qarşılayıb yola salarsan. Deyir ki, gələnlərə kömək edib aparıb villasını göstərəndə, elə yola salanda da, hörmət edəcək, çaypulu verəcəklər. Özü də yaxşı maaş verəcək.

-Bəs sən bu Əlizadə müəllimi haradan tanıyırsan, oğul? – qayınatası təkrar sual etdi.

-Bu, köhnə söhbətdir, əmi. On ilin söhbətidi. Bir dəfə o tərəflərdə naxır otarırdım. Günorta çağı malları apardım Ağ gölə ki, həm su içsinlər, həm də günortanın istisi sınınca kölgəlikdə uzansınlar. Elə ilk dəfə də Əlizadə müəllimi orada gördüm. Dörd nəfər idilər. Maşınlarının baqajında ayaqları bağlı bir çəpiş var idi. Sən demə, Aynabulağın başında yeyib-içməyə gəliblər. Yolda çəpiş alıblar, ancaq

deməyinən heç biri də onu kəsməyi, soymağı bilmirmiş. İstəyirmişlər gedib bizim kənddən, ya da Heyvalıdan bir nəfər tapıb gətirsinlər. Məni görəndə dedilər ki, səni elə Allah yetirib. Nə isə, çəpişi kəsib soydum. Kababdan bişirdim, yedilər. Bir şaqqa ət qalmışdı, onu da mənə verdilər ki, apar evinə. Cibimə də yüz manat pul qoydular. Ondan sonra Əlizadə müəllim hər dəfə Aynabulağa gələndə mənə sifariş edirdi ki, filan vaxtı ol orada, mən də gedirdim. Kabab bişirir, qulluq edirdim.

-Hə, lap yaxşı, lap gözəl. Axır ki, sənin də bir daimi iş yerin olar. Daha durub onun-bunun qapısında işləməzsən. Xeyirli olsun, – deyə Məmmədəli müəllim əlini Knyazın kürəyinə vurdu.

Bir az da söhbət edib dağılışmağa başladılar. İllərdir onunla üzü-üzə gəlməyən, kəlmə kəsməyən, qapısını açmayan qayınatasının bu mehribançılığından heç nə anlamayan Knyazın etirazına baxmayaraq Məmmədəli müəllim onları küçəyədək ötürdü. Ayrılarkən Knyazın qoluna girib bir kənara çəkdi və əlini onun çiyninə qoyub mehriban səslə dedi:

-Mənə bax, Knyaz, sənin bu yoldaş Əlizadə ilə tanışlığın lap yerinə düşdü. Biz səninlə rayonda elə işlər görəcəyik ki, ha. Görüşəndə ona de, məni hələlik öz şöbəmizə rəis təyin eləsin.

-Əmi, Əlizadə müəllim kimdir ki, səni rəis qoysun?

-Necə yəni kimdir, adə? Rayonun ağası deyilmi?

-Kim? Əlizadə müəllim? Nə olsun ki, maqazini, restoranı var? Bəyəm bununla rayonun ağası olurlar?

-Adə, ağzında başçı deyirsən. İcra başçısı. Hər şey onun əlində deyilmi?

-Əlizadə müəllimi icra başçısı qoyublar? Nə vaxtdan?

-Heç bir ay olmaz. Bilmirdin?

-Bu gün Ağ gölə, işlərə baş çəkməyə gəlmişdi ki... Dayan görüm, əmi, təzə icra başçısının adı, soyadı necədir ki?

-Əlizadə Nəcəf.

-Deyirəm axı, belə bir şey olsaydı, mənə deyərdi. Əmi, mənim tanışımın soyadı yox, adı Əlizadədir. Həsənov Əlizadə.

-Nəə? – deyib əlini Knyazın çiynindən götürən Məmmədəli müəllimin üzünün ifadəsini, sifətinin əyildiyini qaranlıq olduğundan Knyaz görmədi.

Məmmədəli müəllim "tfu!" edərək sağollaşmadan dönüb ağır-ağır evə doğru addımladı.

İki gün sonra kənddə hamı bu hadisədən danışırdı, çoxları da Knyazın bunu bilərəkdən etdiyini düşündüyü üçün söhbət mütləq "məzən olsun, Qaraca" ilə bitirirdi.

Daha bir-iki gün sonra Ağ göl ətrafında aparılan işlərdən camaatın xəbər tutmasına və Knyazın öz dostlarına "sən öl" vurub bu işin "qurma" olmadığına and içməsinə baxmayaraq, bu barədə söhbət düşsə yenə də eyni sonluqla bitirdi – məzən olsun, Qaraca.

# VİDA

## *hekayə*

Məşədi Əlməmməd kişi səhər tezdən durub qarısı Zübeydə arvadla sübh namazını qıldıqdan sonra yenidən yatağa uzanmış və özü demiş, bir-iki saatlığa huş aparmışdı. Yatağından qalxanda artıq saat səkkizi keçmişdi. Sırıqlısını çiyninə atıb axşamdan su ilə doldurub otağın bir küncünə qoyduğu vedrəni də götürüb evdən çıxdı. Tövləyə baş çəkdi. İnəyin altını təmizləyib vedrəni onun qarşısına qoydu. Axurda qalmış saman və quru yonca qırıntılarını təmizlədi, təzə yem verdi. Qış şaxtalı olsa da, tövlənin soyuq olmadığından necə deyərlər, ağzı qızdı. Geriyə döndü. Dəhlizdəki əlüzyuyanda yuyunub içəri keçdi. Ömür-gün yoldaşı Zübeydə arvad da öz adəti üzrə artıq çay süfrəsini açmışdı. O, elə süfrə arxasında da ərini söhbətə tutdu:

-Ay Məşədi, ağsaqqal kişisən. Şükür, camaat arasında da hörmətin var. Səni eşidirlər. Deyirəm bəlkə Qızıllı ilə bir sən də söhbət edəsən. A kişi, heç belə də iş olar? Üç gün də meyit saxlayar, ölünü belə urvatsız eliyərlər?

-Doğrusu, ay arvad, mən Qızıllının qırımından gördüm ki, deyəsən, dediyindən dönən deyil. Amma molla Mir Hadi ilə birlikdə bu gün bir də ağzını arayaram.

Qızıllı arvad Əlməmmədkişigilin ata-baba qonşusu idi. Əri Qələndər kişinin üç gündür ki, rəhmətə getdiyinə baxmayaraq Qızıllı arvad meyiti dəfn etməyə icazə vermir, gözləyirdi ki, aman-zaman tək oğlu Əlqəşəm gəlib atası ilə vidalaşsın. Ondan əv-

vəl iki uşaqları dünyaya gəlməmiş tələf olmuşdu. Əlqəşəmi, necə deyərlər, əllərinin içində böyütmüş, bütün güclərini onun yağ içində böyrək kimi böyüməsinə, təhsilinə sərf etmişdilər. Əlqəşəm əvvəl institutu, sonra isə Moskva şəhərində aspiranturanı bitirmişdi. Orada birlikdə oxuduğu bir rusla da evlənmiş və elə Moskvada dövlət qulluğunda, yaxşı vəzifədə çalışırdı. Qızıllı ana ciyərparası Əlqəşəmi ali təhsilli, savadlı bir övlad kimi görmək istəyirdi və elə bilirdi sümüklərinin yiyəsi də Əlqəşəm olacaq. Daha ana fərqinə varmırdı ki, sevə-sevə böyütdüyü oğlu elinin bir qızının qisməti - əri olmadı və öz xalqına, millətinə, böyüdüyü kəndə yox, özgələrə xidmət edir, xeyir verirdi. Ata-anası, doğma eli kimi, dilini, adətini də yadırğamışdı.

Məşədi Əlməmməd kişi səhər yeməyini yeyib çay içdikdən sonra Qızıllı arvadgilə yollandı. Molla Mir Hadi və bir neçə kənd ağsaqqalı artıq burada idi. Həyətdə qurulmuş çox da böyük olmayan çadırda odun sobası yanırdı. Əlməmməd kişi salam verib əyləşdi. Cavanlardan biri ona çay gətirdi. Mir Hadi dodaqaltı dua oxuyub ucadan “Fatihə” deyə səsləndi. Hər kəs dua edib salavat çevirdikdən sonra söhbət hərlənib-fırlanıb mərhumun üstünə gəldi. Molla:

-Ay Məşədi, - deyə Əlməmməd kişiyə müraciət etdi, - deyirəm bu gün də keçsə qorxuram sonra bir amması çıxa. Meyit şişər eləyər... gəlsənə, sən də bir Qızıllı ilə söhbət edəsən. Mən deyəndə deyir hava soyuqdur, heç nə olmaz.

Əlməmməd kişidən bir-iki yaş kiçik olan, iyirmi ildən artıqdır ki, təqaüddə olduğuna baxmayaraq əvvəllər uzun müddət kənd məktəbinin direktoru işlədiyindən indi də hamının “müəllim” deyə müraciət etdiyi Əzim müəllim:

-Vallah, siz bilən məsləhətdir, ancaq arvada dəfn sözünü deyən kimi daş atıb başını tutur, - deyə söhbətə qoşuldu, - Məndən xahiş etdi, Əlqəşəmə zəng elədim, zəng çatmadı. Sonra Qızıllı başqa bir nömrə verdi ki, bəs iş telefonudur. O nömrədən də bir qız cavab verdi ki, bəs Qaşam Qalandaroviça net na rabote.

-Nə dedi, nə dedi? - Əlməmməd kişi soruşdu.

-Dedi ki, Əlqəşəm işdə deyil, xaricdə - Fransadadır. Mən də məsələni izah edib öz telefon nömrəmi verdim, xahiş etdim ki, Əlqəşəmlə əlaqə yaradıb çatdırsin ki, mənə zəng etsin.

-Nə oldu? Zəng etdi? - Əlməmməd kişi təkrar soruşdu.

-Zəng etdi. Heç yarım saat keçməmiş zəng etdi. Qızıllı bərk-bərk tapşırmışdı ki, sadəcə atasının vəziyyətinin ağır olduğunu deyib təcili gəlməyini tapşırım. Ölüm xəbərini ona qəfil bildirməyim ki, Allah eləməmiş uşağa bir şey olar. Ancaq telefonda mənimlə danışan qız artıq atasının ölüm xəbərini Əlqəşəmə deyibmiş. Mən eləcə bu xəbəri ona təsdiq edib tez gəlməyini tapşırdım.

Ortalıqda çay paylayan cavan oğlanın Əzim müəllimə yanaşıb:

-Qızıllı xala deyir bir dəqiqəliyə bayıra çıxsın, - deməsi söhbəti kəsdi və Əzim müəllim qalxıb çadırdan çölə çıxdı. Ancaq çadırın böyründə etdikləri söhbət onsuz da içəridə aydınca eşidilirdi:

-Ay Əzim müəllim, keçib zəhmətdən, Allah atana rəhmət eləsin, bəlkə bir də zəng edəsən? Yəni Firəngistandan gəlmək belə çətindir? Deyirəm Allah eləməmiş, qulaqlara qurğuşun, bəlkə uşağın başına bir iş gəlib.

-Narahat olma, ay Qızıllı, dünən axşam da danışdım. Özü zəng vurmuşdu...

-Narahatdır da, anası ölmüş, əli çatmır, nayrandı dana, - Qızıllı arvad doluxsundu, - nə dedi anası ölmüş?

-Dedi ki, sabah, yəni, bu gün səhər Bakıya çatacaq. Təyyarədən düşən kimi də birbaşa kəndə gələcək. Bakıdan da buraya nə var ki, uzağı üç saatlıq yoldur. İnşallah, gələr.

Əzim müəllim çadıra qayıdıb əvvəlki yerində əyləşdi. Qızıllı arvad isə evə - qadınlar yığışan otağa getdi. Bardaş qurub oturduqdan sonra sual dolu nəzərlərlə ona baxan qonşu qadınlara:

-Danışdım. Axşam anası ölmüş özü zəng edibmiş. Bu gün gəlib çıxar, inşallah, - deyə xəbər verdikdən sonra bərk-bərk tapşırıq da verdi:

-Bura baxın, uşaq gələndə hərəniz bir tərəfdən haray-həşir salıb qanbağır etməyin onu. Qoy ağlayıb toxtasın, vidalaşsın.

Günortadan azca keçmişdi. Bu müddət ərzində molla Mir Hadidən savayı məclisdə olanların hərəsi bir saatlığa, saatyarımlığa “bir evə dəyim, gəlirəm” deyərək gedib qayıtmışdı. Bir neçə nəfər ağsaqqal və nisbətən yaşlılar çadırda, cavanlar isə çöldə söhbət edirdilər. Bu vaxt cavanlardan biri içəri daxil olub Əlqəşəmin gəldiyini xəbər verdi.

Hamı qalxıb çadırdan çölə çıxdı. Mir Hadi cavanlara son tapşırığını verdi:

-Elə ki, bir az toxtadı, mən işarə edən kimi irəli keçib cənazəni qaldırarsınız. Qalanını mən deyəcəyəm. Tabutu üç dəfə qaldırıb yenidən yerə qoyub sonra çıxaracağıq. Quranını oxumuşam. Cənazə namazını da dəfn edəndə qılacağıq.

Qara rəngli xarici maşın doqqazın ağzında dayandı, Əlqəşəm maşından enib həyətə daxil oldu. Digərlərindən bir az irəli çıxmış molla Mir Hadi və Əlməmməd kişi ilə salamlaşıb elə onların müşayiəti ilə evə daxil oldu. Qızıllı arvad təkcə “Sən gələn yollara anan qurban, bala, gəl, evimiz yıxılıb” deyə bildi. Hönkürtüsünü, demək istədiyi ağı və oxşamanı uddu – həm oğlunu çox həyəcanlandırmaq istəmədi, həm də Mir Hadi ilə Əlməmməd kişidən həya etdi. Yaxınlaşıb başını Əlqəşəmin sinəsinə söykədi və için-için ağlamağa başladı. Əlqəşəm əlini anasının çiyninə qoyaraq susub baxırdı. Bir müddət beləcə baxdıqdan sonra:

-Otets umer da (atam ölüb hə)? Nu çto podelayeş (nə etmək olar ki), - anasını özündən yüngülcə kənarlaşdırıb, - uspokoysya, mama (sakit ol, ana), Allax rexmet elesin! - deyərək yaxınlaşıb qapının ağzında dayanmış mollanın yanında durdu.

Molla Mir Hadinin rəngi şaxtadan yox, əsəbdən avazımışdı. “Beləcə özümüz öz kökümüzdən uzaqlaşırıq” - düşündü, öz-özünə, dodaqaltı:

-Elə bundan ötrü üç gündür gözləyirdilər? - deyinərək üzünü cavanlara tutdu:

-Hə, keçin görək, keçin yapışın. A bala, sən keç qabağa. Sən isə arxadan yapış. Siz ikiniz bu tərəfə keçin.

Cavanlar mollanın dediyi kimi etdilər.

Birinin çaşqınlıqla, digərinin təəccüblə, bir başqasının maraqla ona baxdığını görən Əlqəşəm hiss etdi ki, nə isə deməli, nə isə eləməlidir. Və birdən:

-İndi isə üç... – deyə tabutu üç dəfə qaldırıb yerə qoymağa göstəriş vermək istəyən mollanın sözünü kəsib dilləndi:

-Ras, dva, tri, vzyali (bir, iki, üç, götürün).



## SEYMUR SÖNMƏZ PAŞAYEV

### QIZ QƏHƏT DEYİLMİŞ ULU GƏNCƏDƏ

Yadıma salanda ötən illəri,
Sallanır yaxamdan bəxtin əlləri...
Sonradan bildim ki əzəldən bəri,
Sevənlər xoşbəxtmiş ulu Gəncədə!

Mənim qəm dastanım ömürdən uzun,
Aldım sorağını uzaqdan yazın.
Nədənsə bir vaxtlar gözəl bir qızın,
Keçmədi qarşımdan yolu Gəncədə!

Dönəndə ilk eşqim əlçatmaz dağa,
Qurxdum ki, tuş gələm qəfil qınağa...
Nə sola çevrildim, nə də ki, sağa,
Oldum kor bəxtimin “qulu”, Gəncədə!..

Sevdalı ürəyim büküldü qəmə,
Üzümü söykədim dərdə, sitəmə.
Qız  qəhət deyilmiş burda heç demə,
Vaxtında olmadım halı, Gəncədə!

### SƏNİ MİSRALARA KÖÇÜRMÜŞƏM MƏN

Bir vaxtlar baxdıqca hey sağa, sola,
Deyirdim sevdiyim qismətim ola.
Elə bu istəklə çıxmışdım yola,
Heç demə qol-qanad açırmışam mən!

Ayları, illəri verdikcə yelə,
Dolaşdım yolları belədən-belə...

Hardan biləydim ki, o vaxtlar elə,
Bəxtimin dalınca qaçırmışam mən!

Yadımda qalmadın uçuq dam kimi,
Yamanca dadlıydın şirin tam kimi...
Sevdalı könlümdə titrək şam kimi
Eşqinlə hey işıq saçırmışam mən!

İzin pozulmayıb itən "vərimdə",
Doğmasan hələ də nəzərlərimdə.
Hər şeir yazanda "can dəftərimdə"
Səni misralara köçürmüşəm mən!

**İNDİ**

Durub nə deyəsən ahıla, gəncə,
Qısılıb abır da, həya da küncə.
Üzümüz tamarzı qalıb sevincə -
Dərd-qəmdən bir libas geyirik indi!

Cəng-savaş meydanda qanlı tamaşa,
Daha güvənmirik ağıla, huşa.
Yalanlar hoppanıb çıxıbdı başa -
Doğru söz deyəni söyürük indi!

Dəyişib çoxunun danışıq tərzi,
Günbəgün dünyanın artır mərəzi...
Pərsəngə sığınır mizan-tərəzi -
Baxıb, dizimizə döyürük indi!

Məzlumdan yan keçir haqqın işığı,
Açılmır çoxunun ta qırışığı...
Kasıba baxırlar üstdən aşağı -
Pullu adamları öyürük indi!

Kövrək ürəyimiz sızlayır hər an,
Həyatdan bezirik üzüldükcə can.
Bu necə zəmanə, bu necə dövran -
Şeytana da mələk deyirik indi!

**GƏLİB... GEDİRSƏN**

Nədən incimisən, de görüm nədən,
Sızlayan göz yaşım ovcumda dən-dən.
Heç nə anlamadım mən bu sevgidən -
Hərdən qonaq kimi gəlib, gedirsən!

Sənin baxışların zəhərtək acı,
Görəsən, həsrətin yoxmu əlacı?
Baxsan da üzümə bəzən qıyqacı,
Demərəm dərdimdən ölüb gedirsən!

Dönmüsən ömrümün qarlı qışına,
Dözməyir ürəyim ta savaşına...
Bəlkə iztirabım gəlir xoşuna,
Bəlkə də halıma gülüb gedirsən!

Səmtindən halıyam dərdin, qəmin də,
Dilini bilirəm ağlı kəmin də...
Bilmirəm, deyəsən, öz aləmində,
Seymurun adını silib gedirsən.

**SONRA...**

Var-dövlət eğqiylə azca alış, yan,
Ölümə məhkumsan həyatda hər an.
Ay ötər, il keçər... unudulursan -
Üçündən, cüməndən, qırxından sonra!

Dağlar bir təkanla əriyə bilməz,
Qızıl torpaq altda çürüyə bilməz.
Yalan ayaq açar, yeriyə bilməz -
Rəngin avazıyar, qorxundan sonra!

Çıxma cızığından bəxtin dinəndə,
Sızlarsan gözünün nuru sönəndə...
Qəfildən bəxtinin üzü dönəndə -
Dərd gəlir fələyin çarxından sonra!

Gözyaşın ovcuna düşəndə dən-dən,
Xatırla suçunu, günahını sən...
Axı, nə danışıb, nə deyəsisən -
Taleyin hökmündən, "nırx"ından sonra!

Tənhalıq hər işdən çətinmiş, çətin,
Gec-tez çıxar üzə gizli niyyətin.
Pay umma bir daha bəxtin, qismətin -
Dəhnədən quruyan "arxından" sonra!..

**ŞAİRLƏR**

İlham pərisini tutanda dilə,
Söz qoşar nərgizə, xarıbülbülə.
Baxıb heyran olar çiçəyə, gülə,
Çəməni heyrətlə süzər şairlər.

Xəyal aləmində qərq olar bir az,
Könlünü oxşamaz hər gələn avaz.

Heç nəyə ötəri boylanıb baxmaz,
Hər sözdə bir məna gəzər şairlər.

Qatar hər kəlməyə zümzüməsini,
Sözlə cilalayar öz həvəsini...
Sübh çağı mehin də “addım” səsini,
Anlayar, hiss edər, sezər şairlər.

Gözəllik seyrinə çıxar hər yanda,
Kiməsə vurular elə bir anda...
Ülvi məhəbbətlə qanadlananda,
Eşqin “dəryasında” üzər şairlər.

Bir az dəlisovdu, bir az çılğın, kür,
Sözlə gördüyünün şəklini çəkir,
Kəlməsi incidir, kəlamı bir dür,
Aləmi misrayla bəzər şairlər.

**GECƏLƏR DARIXIR ADAM...**

Sevgiylə isinir ürək də, can da,
Tanrıya üz tutur qaçan, qovan da.
Tək bircə istəyi baş tutmayanda -
Arzular dalınca hey baxır adam!

Bəxtin də üstünə hərdən gün düşür,
Kədərdən, qüssədən saça dən düşür.
Bəzən dil dolaşır, söz düyün düşür -
Bir anda yanılıb, karıxır adam!

Yaxına qoymasa qəzəbi, kini,
Gizli təlatümlər sıxmır qəlbini...
Hərdən cilovlaya bilir səbrini -
Hərdən də özündən tez çıxır adam!

Hardasa bir eşqin atsa daşını,
Yaşayır ömrünün soyuq qışını...
Gündüzlər birtəhər qatır başımı -
Gecələr elə hey darıxır adam!

**MƏHƏBBƏTİMSƏN**

Dilimdən heç zaman düşməyir adın,
Könlümün şahı da, sultanı da sən.
Heç vaxt bükülməsin qolun, qanadın,
Ömrümün xoş keçən hər anı da sən!

Gözümü yollara dikmişdim bir vaxt,
Məni sevindirdin öz gəlişinlə.
Axır ki, üzümə güldü tale, bəxt,
Oxşadın ruhumu avand işinlə...

Asılıb durmuşam baxışlarından,
Axtarıb tapdığım odum, közümsən.
Sübh çağı üfiqdə söküləndə dan,
Mən elə bilmişəm görən gözümsən...

Heyranam bal kimi söz-söhbətinə,
Könlümü oxşayır eşqin, həvəsin.
Dözərəm yolunda hər vaxt çətinə,
Təki saf eşqimiz gözə gəlməsin!

Sevdalı qəlbimdə eşqin bir inci,
Bəxtim, səadətim, ülviyyətimsən.
Sən mənim, bəlkə də, elə birinci,
Bəlkə də sonuncu məhəhbbətimsən...

**SƏNİN DE, QÜRBƏTDƏ NƏ İTİN AZIB?**

Yolları enişli, yoxuşlu, uzaq,
Eşqi, məhəbbəti, sevgisi sazaq.
Zülməti pusquda duran yalquzaq -
Sənin de, qürbətdə nə itin azıb?

Mənə nə harayın, nə səsin çatır,
Heç deyən oldumu yerində otur?
Qəm-qüssən, əzabın günbəgün artır -
Sənin de, qürbətdə nə itin azıb?

Bəlkə taleyindən küsüb getmisən,
Təklik amanını kəsib, getmisən?
Qəfil bir qarayel əsib, getmisən -
Sənin de, qürbətdə nə itin azıb?

De, bəlkə ordakı hava bal dadır,
Bir anlıq “sevgimi” səni aldadır?
Zənn etmə xoş günün sağda, soldadı -
Sənin de, qürbətdə nə itin azıb?

Vaxtikən geri dön, elinə qayıt,
Şehli çəməninə, gülünə qayıt.
Qayıt, baldan şirin dilinə qayıt -
Sənin de, qürbətdə nə itin azıb?

**MƏN BELƏ ADAMAM...**

Bir cürə göz açır dünyaya hərə,
Hərdən sızlamışam heç nahaq yerə.
Gözlərin özü də tablo-mənzərə,
Məst edib bir məftun baxışlar məni.

Kövək bulud kimi bəzən dolmuşam,
Gah susmuşam, gah xəyala dalmışam.
Payızda bambaşqa adam olmuşam,
Dəyişib bir anda yağışlar məni.

Hələ itməyibdi zülmətdə köçüm,
Hərdən vulkan kimi qaynayır içim...
Allahdan bəxşişdi yenilməz gücüm,
Heç vaxt əyə bilməz qarğışlar məni.

Yayda da yoluma duman-çən düşüb,
Arzu da, istək də məndən gen düşüb...
Yaş ötüb, gün keçib, saça dən düşüb,
Səsləyib alnımdan qırışlar məni.

Ürəyim tərtəmiz, addımım mətin,
Təkcə əsiriyəm saf məhəbbətin.
Qaçmaram dalınca ucuz şöhrətin,
Tanıyır yaxından tanışlar məni.

**SƏNƏ DEYİLƏSİ AYRI SÖZÜM YOX...**

Bilmirəm heç sənə nə deyim axı,
Sənin dönüklüyün hesaba gəlməz.
Pisliyin gizliysə əli-ayağı,
Onu hardasa yox, öz qəlbində gəz.

Yollara boylanıb hey gəzdim səni,
Yerini demədən qeyb olub getdin.
Belə etibarsız bilməzdim səni,
Bir səbəb vardımı, məni tərk etdin?..

Sənə etibarsız deyimmi indi,
Bəs, sevdalı anlar harada qaldı?
Qəlbinmi hökm etdi, üzünmü döndü,
Üstünü nə yaman tez zülmət aldı?

Bir vaxt gözlərimin didəsi idin,
Daha bircə qalam odum-közüm yox.
Onsuz da gec, ya tez gedəsi idin,
Sənə deyiləsi ayrı sözüm yox...

İndi də üstümü qoy, zülmət alsın.
Mənim dözümüm var onsuz da dərdə.
Yoxluğum sonuncu hədiyyən olsun,
Saxlasan qoy qalsın xatirələrdə...

**AĞLIMDAN**

Nədənsə dünyaya gələndən bəri,
Mənasız bilmişəm keçən illəri.
Sönüb ümidimin közərtiləri -
Yığıram ovcuma külü ağlımdan!

Sınadım həyatda dostu-həmdəmi,
Kimsə yaxınına qoymadı qəmi.
Xəyalım dağlara üz tutan kimi -
Keçir bir dərənin seli ağlımdan!

İllərin sazağı saçlarımda dən,
Sabahım gözümdə zülmət donlu çən.
Arabir harasa tələsəndə mən -
Yellənir bir qızın əli ağlımdan!

Ehtiyac çiynimdə ağırdan ağır.
Bilmirəm neyləyim indi mən fağır...
Bəzən bir dəli-gic suallar doğur -
Gör, bir nələr keçir dəli ağlımdan!

**ZƏFƏRİN MÜBARƏK, AZƏRBAYCANIM**

Qəddini dikəltdi anam Qarabağ,
Rahat nəfəs alır bu gün aran, dağ.
Gəlir Xankəndindən indi xoş soraq,
Zəfərin mübarək, Azərbaycanım!

“Dəmir Yumruq” azadlığın simvolu,
Dünya gücümüzdən xəbərdar, halı.
Əzəl gündən getdiyin yol, haqq yolu,
Zəfərin mübarək, Azərbaycanım!

Ali Baş Komandan zəfər müjdəli,
Düşmənin yurduma ta çatmaz əli.
Yadlar qarşımızda gözü kölgəli,
Zəfərin mübarək, Azərbaycanım!

Hər şəhid bir qəhrəmanlıq dastanın,
Qazilərin damarında al qanın.
Qitə-qitə dildə gəzir ünvanın,
Zəfərin mübarək, Azərbaycanım!

Xankəndi, Ağdərə qamətin, qəddin,
Əsgəran, Xocalı keçiməz səddin.
Düşmən Xocavənddə ta aşmaz həddin,
Zəfərin mübarək, Azərbaycanım!

Ucadan ucadır bayrağın sənin,
Gəlir uzaqlardan sorağın sənin.
Gör, necə gözəldir növrağın sənin,
Zəfərin mübarək, Azərbaycanım!

Xar etdi düşməni mərd oğulların,
Dostlara bəllidir andın, ilqarın.
Qələbə əzmindir tükənməz varın,
Zəfərin mübarək, Azərbaycanım.

**ELİNİ SEVDİM SƏNİN**
**(Mahnı mətni)**

Deyim, sevdim nəyini,
Mən həssas ürəyini,
Al-əlvan çiçəyini,
Gülünü sevdim sənin.

Doğmasan mənə hər an,
Həm ürəksən, həm də can.
Bir mehlə sığallanan
Telini sevdim sənin.

Hər kəlmən közərən od,
Sən mənə deyilsən yad...
Könlümü edəndə şad,
Dilini sevdim sənin.

Həm nərgizsən, həm süsən,
Həm xallı kəpənəksən...
Əlim dəyəndə əsən,
Əlini sevdim sənin.

Eşqimiz bir ovuc dən,
Göyərməsin o nədən?..
Səni mənə bəxş edən
Elini sevdim sənin.

**OLSUN, OLMASIN...**

Hələ yaşasan da gendə,
Avazın var səsdə, ündə.
Surətin gözüm önündə -
Özün de, qalsın, qalmasın?

Dərdə tablaşdığım gündən,
Heç nədən çəkinmirəm mən.
Gözəl, sənin həsrətindən -
Gözlərim dolsun, dolmasın?

Günlər yeyin, anlar atlı,
Aylar, illər yel qanadlı...
Eşqimizin toy-büsatlı -
Sonluğu olsun, olmasın?

Səni unudarmı ürək,
Pıçıltın da mənə gərək...
Hərdən payız yarpağıtək -
De, rəngim solsun, solmasın?

Nisgil mənim, uğur sənin,
Gözlərimdəki nur sənin.
Söylə görüm  Seymur sənin -
Qadanı alsın, almasın?..

**ÜZÜN MƏNDƏN DÖNDÜMÜ?**

Hər sükut lal səs-səmir,
Qəlbim nə daş, nə dəmir.
Mən deyəni, bəxt demir,
Bu bir ömür-gündümü?

Çiynimdə qəm şələsi,
Qınamıram heç kəsi...
Bəxtin qara kölgəsi,
Üstümüzə endimi?

Həyat doğmalı, yadlı,
Ötən anlar qanadlı.
Özün de, sevgi adlı
Ocağımız söndümü?

Sevgi də bir cığır-iz,
Onu tapmadıqmı biz?
İməkləyən eşqimiz,
Bircə dəfə dindimi?

Közərdi naləm, ahım,
Açılmayır sabahım...
Axı, nədir günahım,
Üzün məndən döndümü?

# ONUN VERDİKLƏRİ...

### *Rüstəm Muğanlı yaradıcılığı və “O” şeirlər kitabı haqqında*

Belə bir məsəl var: “Allah birini verəndə, birini də alır”. Bu xalq deyiminin şairlərlə bağlılığı digər istedad sahiblərinə nisbətən daha təsirlidir. Onun söz ustalarına verdiyi bitib-tükənməyən söz payı bir cəhətdən xoşbəxtlikdir, bir cəhətdən yox. Şair hamı kimi sərbəst deyil: söz onların ürəklərin sıxır, söz onları vaxtından tez qocaldır. Bütün bu sıxıntılara rəğmən, onun ümidləndirən də, həyata bağlayan da, ruhlandıran da sözdür. Söz şairin həm sevincidir, həm qəmi...

Rüstəm Muğanlı da O tərəfindən sözlə mükafatlandırılan istedadlı şairlərdəndir. Söz onun gəncliyini əlindən alsa da, ölməzlik vəd edib. O ölməzlik ki, söz yaşadıqca yaşayacaq.

Bir misra qalacaq sonda hərəyə -
Kiminə xoş sözlər, kiminə tikan,
Dar gələr insana yerdəki məkan.

Rüstəm Muğanlının sözünün canı vətən təəssübkeşliyindən, ötən xoş çağların həsrətindən, yazılmamış sevgi qanunlarından, Onun mərhəmətindən və qorxusundan ibarətdir:

Mən könül həsrətin dindirən səsəm,
Dəmir bir qəfəsəm,
Məzlum bir kəsəm...
***
Gözəl üzü gözəldir,
Mənsə qəlbən gözələm.

Allaha inam bu gün də ədəbiyyatın diqqət mərkəzində olan mövzulardandır. Bəzən Onun verdikləri şairə az görünür və əlavə istəklərini nəzmə çəkir:

Dərya təlatümlü, tufanlıdır, ah,
Sən özün bizləri hifz elə, Allah.
Başqa bir ümid də qalmayıb, vallah,
Təkcə sən gəlirsən göz qabağına.
***
Bu yağışın qəsdi nədir?
Bəsdi yağdın, bəsdi... Nədir?
Bir xəfif yel əsdi – nədir?
Tanrı yerə qonaq gəlir!
***
Muğanlıyam, bilmirəm,
Nə istəyim Allahdan -
Bir az hüzur, bir az eşq,
Uzaq olum günahdan.
***
Ömür Allahdan haqdır,
Haqq yolunda çıraqdır.
İmtahandır, sınaqdır,
Qismətlə ömrü yaşa.

Sözün kəsəri qılıncdan da artıqdır:
Kəsərli qılıncdır yazdığım sözlər,
Kəsir qabağı da, kəsir dalı da.
Kəsərli sözümdən tük salır quşlar,
Atlar ayağından salır nalı da.

Havasını udduğun, suyunu içdiyin, çörəyini yediyin torpağı vəsf etmək vəfa borcudur:

Ay dostum, qardaşım, şair yoldaşım,
Dağdan yaz, daşdan yaz, Muğandan yazma.
Xətrinə dəyməsin, ərk ilə dedim,
Sən aran elinə bələd deyilsən -
Qoy Muğan torpağın özüm vəsf edim.
***
Qəlbi geniş, qonaqpərvər xalqı var,
Süfrəsi bal, duz-çörəkli İmişli.
Qədirbilən könüllərdə taxtı var,
Şəhərlər içində təkdi İmişli.

Yurda bağlılıq, Vətənin keşiyində əsgər kimi dayanmaq, şəhid ruhuna ehtiram, Azərbaycanın dövlət rəmzlərini yüksəkdə tutmaq nümunəvi vətəndaşlıq mövqeyinin bariz nümunəsidir:

Əgər bacarsa idim səninlə danışmağı,
Deyərdim ki,
Sən mənə Şuşamdan soraq gətir.
Əgər bacarsa idim küləklə danışmağı,

Deyərdim –
Cəbrayıldan, Laçından soraq gətir.
***
Biz əsgər oğluyuq, əsgər doğulduq,
Qanlı vuruşlarda bişdik, yoğrulduq.
Sənin keşiyində hünərlə durduq,
Yer bilir, göy bilir, ey ana vətən.
***
Ruhunuz şad olsun qəhrəmanlarım -
Şahlar, Zülfü, Zakir, Aqşin və Tural!
And olsun torpağa, axan qanlara,
Bərqərar olacaq yurdda istiqlal!
***
Vüqarımız, qürurumuz, oğlumuz:
Qəhrəmanlıq dastanıdır Mübariz.
Vətən üçün şəhid olsa da, hərgiz
Şəhid olmaq ad, ləyaqət deməkdir.
***
Sənin qismətində ağrı-acı var,
Analar məzara düzür, qərənfil.
Sənin ləçəyində şəhid qanı var,
Çiçəyin qan ətri verir, qərənfil.

Moşu xoşbəxtliyə qafiyə tapa bilməsə də, Rüstəm Muğanlı xoşbəxtliyi geniş mənada analiz etməyi bacarır:

Könül də verəndə ver gözəl qıza,
Eşqini qaldırsın aya, ulduza.
Süleyman Rüstəmə, Cabir Novruza
Oxşamaq xoşbəxtlik deyilmi, şair?
***
Qəlbim nurla doldu, gözüm işıqla,
Sən demə xoşbəxtlik vurulmaqdaymış.

Dünya-insan münasibətləri əvvəllər necəydisə, indi də elədir. Dəyişən yalnız nəsillərdir:

Şumlayıb torpağı dərdimi əkdim,
Taleyim gülmədi, iztirab çəkdim.
Xətrimə dəydilər, boynumu bükdüm,
Könlümün könlünü al, qoca dünya.
***
Yazmışam, yazıram, yazacam hələ:
Hələ neçə-neçə kəskin şeirlər,
Hələ neçə-neçə odlu sətirlər -
Olacam dünyada mən fövqəlbəşər,
Yenəcəm dünyanı mən pillə-pillə...
***
Bu dünyanı Allah tikib,
Şeytan bizdən bac istəyir.
***
Kiminin buz kimi soyuq ürəyi,
Kiminin atəşi, közüdü dünya.
***
Bəlkə də acizəm bu dünyada mən,
Bəlkə də başqa bir dünyadır yerim.

Rüstəm Muğanlı yaş etibarı ilə ənənəvi poeziyanın nümayəndəsi sayılsa da, onun formaca və məzmunca müasir olan şeirləri də az deyil:

Nədir, nədir bu işvə-naz,
Dayan, ay qız, belə olmaz:
Elə yandım, elə yandım...
***
Bir bulaqda yuyununca,
Bir ovuc üzə vurunca
Dondu əlim, dondu üzüm...
***
Kişi gərək kişi ola,
Çörək verə, çörək ala.
Kişi getməz namərd yola,
Kişi olsa...
***
Ürəyini sıxma heç,
Kişi gərək mərd ola.
Möhnətə sinə gərə,
Qaya kimi sərt ola.
***
Əğyar varsa,
Orda qəm var.
Sən tək şairi deyil, azadlıq mücahidi,
Çağdaş ədəbiyyatın
Şeir Tanrısı idin...

***Elvin İNTİQAMOĞLU***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü***

# RÜSTƏM MUĞANLI – 55



Vətənpərvər şair, dəyərli gülməcələr, felyotonlar və hekayələr müəllifi Rüstəm Muğanlı 55 yaşının dadını yaşamaqda, daha kamil və müdrik düşüncə ilə yaradıcılıq fəaliyyətini davam etdirməkdədir.

**Rüstəm Muğanlı (Rüstəm Əlövsət oğlu Hüseynov)** 14 noyabr 1968-ci ildə İmişli rayonunun Gövhərli kəndində bu işıqlı dünyaya göz açıb.

1975-ci ildə birinci sinifə qədəm qoyan Rüstəm 1985-ci ildə Çahar kənd orta məktəbini bitirərək kamal attestatı almışdır. Yaradıcılığa erkən yaşlarından başlamışdır. İlk qələm təcrübələri məktəbdə buraxdıqları divar qəzetlərində "sınaqdan" keçirilmişdir. Sonra təkmilləşdikcə məqalələri ilə yanaşı şeirləri də rayon qəzeti səhifələrində görünməyə başladı.

Rüstəm Muğanlı mütəmadi olaraq yaradıcılığa bağlandıqdan sonra onun qələminin məhsulu olan bədii nümunələr sosial şəbəkələrdə oxundu, dillər əzbəri oldu.

Bədii nümunələr "Qızıl Ulduz" və "Haqqın sədası" qəzetləri ilə yanaşı "Göyərçin", "Xəzan" və "Azad qələm" jurnallarında oxucuların görüşünə tələsdikcə Rüstəm Muğanlı daha da pərvazlanır, yeni-yeni əsərləri ilə oxucularını sevindirməyə çalışırdı.

Tezliklə onun şeirləri antologiyalara daxil edildi. Sorağı ölkənin hüdudlarını aşdı. Türkiyədə hazırlanan "Şairlerden bir demet" poeziya antologiyasında Rüstəm Muğanlının da şeirləri yer aldı.

Rüstəm Muğanlı xeyli vaxtdır ki, poeziyanın çoxşaxəli hissələri üzrə yazıb yaradır. İndi onun yaradıcılığında qəzəllər, bayatılar, təmsillər, qoşmalar, satiralar və şeirin digər növləri öz yerini tutur.

İndiyə kimi 3 şeirlər kitabı nəşr olunaraq oxucuların ixtiyarına verilib. Həmin kitablar: "Ata və oğul", "O", "Bir ürək dolusu sevgi" adlanırlar.

Rüstəm Muğanlının yaradıcılığı ədəbi tənqidin də diqqətindən kənarda qalmayıb. Uşaq şeirləri haqqında Aygün Cəfərovanın yazdığı məqalə "525-ci qəzet"də dərc olunub. Yaradıcılığı və "O" kitabı haqqında Elvin İntiqamoğlunun yazdığı məqalə isə "Bəydəmir.ru" saytında yerləşdirilib.

Rüstəm Muğanlı poeziya ilə yanaşı nəsrlə də məşğuldur. Felyotonlar, hekayələr və roman yazmaqla yaradıcılığını davam etdirir.

**"XƏZAN" ədəbi-bədii jurnalın redaksiya heyəti RÜSTƏM MUĞANLINI 55 yaşının tamam olması münasibətilə təbrik edir, ona can sağlığı, uzun və faydalı ömür, bol-bol yaradıcılıq uğurları arzulayır və yaradıcılığından iki hekayəni oxucuların hüzuruna çıxardır.**



RÜSTƏM MUĞANLI

# DAYANACAQ

*hekayə*

Payızın ilk günləri olsa da, hava soyuq keçirdi. Səmadan asılan günəşin ılıq şəfəqlərinin istisi belə yerdə bir o qədər hiss olunmurdu. Gün axşama doğru əyildikcə, hava daha da soyuyurdu. Havaların soyumasını heç kəs qəbul etmək istəməsə də, soyuq hava varlığını adamlara öz bədənləri üzərində hiss etdirməyə başlamışdı. Bakının cənub şəhərlərinə xas olmayan iliyə işləyən küləyi havanı bir az da soyuqlaşdırırdı. İlin elə vaxtı idi ki, bayırda bir neçə saat qalan adamların bənizi ağarmağa başlayırdı. Bu vəziyyət insanların geyimlərində də özünü aşkar büruzə verirdi. Bəziləri numayişkaranə surətdə hələ evdən qısaqol köynəkdə çıxırdılarsa da, bəziləri də qalın köynək və nazik gödəkcə geyinmişdilər. Şübhəsiz ki, yay istilərinə öyrənmiş insanlar - payızın adamı üşüdən küləyinə inad nazik geyinmiş olanlar, digərlərinə baxıb öz daxillərində "kaş, mən də gödəkçə geyinəydim" deyə düşünməmiş deyildilər. Belə soyuq payız günlərinin birində Rasim idarədən çıxıb avtobus dayanacağına doğru addımlayırdı. O dayanacağa yaxınlaşanda saat 6:31 idi...

Dayanacaqda elə də çox adam yox idi. Barmağının arasındakı siqareti könülsüz-könülsüz sümürən arıq, çəlimsiz, sivri nazik burnunu qısaqol köynəkdə olan sısqa oğlan, başına çit, güllü yaylıq bağlamış yaşı təxminən əlli-altmış civarında olan yaşlı, köntöy bir qadın, üz-gözündən laqeydlik, narazılıq tökülən, öz aralarında nə haqqındasa xısın-xısın pıçıldaşan iki gənc qız və böyük, eybəcər qarnı, arxaya çıxmış yanbızları, eyni zamanda pencəyinin didilmiş qollarından ilk baxışdan sürücüyə oxşayan təxminən 40 yaşında narahat, kobud görkəmli bir kişidən başqa gözünə heç kim dəymədi. Dayanacağın içərisinə qoyulmuş dörd-beş nəfərlik səliqəli, dəmir skamyada heç kimin oturmadığını hələ uzaqdan müşahidə etmişdi. Görünür, skamyada heç kimin oturmamasında havanın soyuq olmasının da öz təsiri var idi. Rasim keçib dayanacaqdakı skamyada oturdu. Cibindən ucuz, filterli siqaretini çıxarıb birini yandırdı. Siqaretdən bir qullab götürüb, siqaret tutduğu əlinin pəncəsini üzünə söykəyərək, dirsəyini dizinə dayadı. Kənardan olduqca düşüncəli və qayğılı görünən Rasim, həqiqətən də keçmişin acı xatirələri ilə gələcək üçün qurduğu şirin xəyalların arasında ümidsizcəsinə çırpınırdı. Lakin nə xatirələri, nə də gələcək üçün qurduğu xəyalları tam deyildi. Düşündüyü xəyalları başa vurmamış, yaddaşının uzaq küncündəki bir xatirə yadına düşür, xəyalları yarımçıq qalır, xatirələrini hafizəsində vərəqləyir, lakin sonluğunu olduğu kimi deyil, yenə də xəyal edirdi. Sanki xatirələrlə, xəyalların növbələşməsi Rasimin həyat tərzinə çevrilərək, düşüncəsinə hakim kəsilmişdi. Bu növbələşmə arasında get-gəllər ona düşüncəli adam görkəmi vermişdi. Rasim dayanacaqda da adəti üzrə düşünməkdə idi ki, onu bu düşüncələrdən ayıran, qarşısında durub gülümsəyən, olduqca zövqlə geyinmiş, şabalıdı rəngli yarıqıvrım saçlarını çiyinlərinə tökmüş, iri, qara gözlü, mehriban və sevimli üz cizgiləri olan, təxminən 28-30 yaşlarındakı gözəl bir xanım oldu.

-Salam.

Rasim düşüncələr burulğanında çabalayarkən

eşitdiyi bu səsə əhəmiyyət vermədi. Yəqin müraciətin ona deyil, başqa birisinə edildiyini zənn etmişdi. Gənc xanım Rasimin onun salamını eşitmədiyini düşünərək təkrar etdi:

-Salam.

Rasim barmaqlarının arasındakı siqaretdən bir qüllab da vurmaq istədi. Lakin siqaret yarıya qədər yanıb, sönmüşdü. O siqaret kötüyünü dayanacaqda qoyulmuş zibil qutusuna atıb başını qaldırdı. Yalnız indi qarşısında dayanan gənc, zərif qadını görüb salamın ona verildiyini anladı. Bir qədər təəccüb qarışıq asta səslə dilləndi:

-Salam. Biz tanışıq?

Gənc xanım o qədər sevincli görünürdü ki, Rasimin verdiyi sualı sanki eşitmədi. Rasimə onun nəyə sevindiyi məlum olmasa da, sevincli olması xanımın üz-gözündən və mehriban səsindən kifayət qədər aydın sezilirdi. Yenidən özü sual vermək qərarına gələn gənc xanım mehribancasına soruşdu.

-Siz şairsiz?

Bu an Rasimin də üzündə təbəssüm yarandı. Lakin bu təbəssüm o qədər ani oldu ki, bunu heç kəs sezmədi...

***

...Rasimin nənəsinin üç oğlu var idi. Nənə övladlarına bildirməsə də, Rasimin atası olan böyük oğlunu digər iki oğlundan daha çox istəyirdi. Bunun da öz səbəbləri var idi. Çünki nənənin böyük oğlunun atası sevərək ailə qurduğu ömür-gün yoldaşı, bətnində olan uşağın doğulmasını görmədən 1941-1945-ci il müharibəsinə getmiş, gedəndən az müddət sonra onun qara kağızı gəlmişdi. Həlak olan birinci həyat yoldaşının adını da doğulduqdan sonra böyük oğluna vermişdilər. Nənənin ikinci evliliyindən də iki oğlu olmuşdu. Rasimin atası ilə nənəsi hər gün saatlarla bir-biri ilə söhbət edər, lakin nə yorulub-bezməz, nə də doymazdılar. Bu ana-bala məhəbbətinə həsəd aparmamaq mümkün deyildi...

Ana-bala arasındakı bu səmimiyyət digər iki qardaşa da sirayət etmiş, böyük qardaşlarının ögey olmasını nə hiss etməmiş, nə də hiss etdirməmişdilər. Rasim anadan olanda da əmiləri o qədər sevinmişdilər ki, bütün tay-tuşlarını, yoldaşlarını yığıb, yeni doğulmuş körpənin şərəfinə bir neçə gün qonaqlıq vermişdilər. Rasim əmilərinin sevgisini həmişə onlar faciəli şəkildə dünyadan köçən günə qədər öz üzərində hiss etmişdi. Rasimin natamam xatirələrinin bir küncündə əmiləri də var idi. Bu xatirələrin sonluğu yenə də həmişə xəyallara dönüb reallıqdan uzaqlaşırdı...

***

...Anidən qarşısında peyda olmuş gözəl bir xanımın onunla mehribancasına söhbət etməyə başlaması, Rasimə bir qədər qəribə görünsə də, daxilində bu haldan anlaşılmaz bir məmnunluq hiss etdi. Elə bu hissiyatla da qarşısındakı zərif, gənc xanımı gözucu süzməyə başladı. İlk baxışda nəzərinə çarpan şabalıdı rəngli yarıqıvrım saçlarını çiyninə tökmüş, iri, qara gözlü, mehriban və sevimli üz cizgiləri olan, olduqca zövqlə geyinmiş, təxminən 28-30 yaşlarında olan bu zərif, incə və gənc xanımın həm də al yanağı, fındıq burnu, təbii, qırmızı dodaqları, xırda dişləri, iri sinəsi, kifayət qədər gözəl və mütənasib bədən quruluşu var idi.

-Əyləşin, - deyə Rasim nəzakətlə skamyada onsuz da heç kəsin oturmaq istəmədiyi boş yeri göstərdi.

Gənc xanım sevincək və cəld hərəkətlə keçib Rasimin yanında əyləşdi. Rasim hiss etdi ki, qadının Rasimlə qısa salamlaşmasından sonra keçib yanında oturması, dayanacaqdakı adamların da diqqətini çəkdi. Əvvəlcə sısqa oğlan siqaretini sümürərək, burnunu bir neçə dəfə çəkib təəccübdən bərəlmiş gözlərini Rasimə zillədi. Gənc qızların pıçıltılarına ara verib bir-birinə baxaraq mənalı tərzdə gülümsəməsi də Rasimin diqqətindən yayınmadı. Pencəyinin qolu didilmiş kişinin qəribə, ikrah doğuracaq bir hərəkətlə qanrılıb onları nifrətlə süzməi də gözündən qaçmadı. Bayaqdan boş qalmış skamyaya heç gözünün ucu ilə də baxmayan çit, güllü yaylıqlı qadın isə gəlib gənc xanımın yanında əyləşdi. Rasim dayanacaqdakı bütün bu canlanmanı görməzdən gələrək gənc xanıma müraciət etdi:

-Sualıma cavab vermədiz...

***

...Olduqca yaraşıqlı, boy-buxunlu, idmançılara xas mütanasib bədən quruluşu olan Rasimin gülümsər üzü, dərin mənalı gözləri, ciddi və bir qədər kədərli baxışları var idi. Onu lap gənc vaxtlarından ilk dəfə görən adamların yaddaşında dərin və unudulmaz iz buraxırdı. Yaşı iyirmini yenicə keçməsinə baxmayaraq, onunla söhbət etmək tanıyanların qəlbinə bir fərəh hissi verirdi. Onunla ən doğma, əziz adamları kimi söhbət edirdilər. Mehriban və olduqca ünsiyyətcil bir insan olan Rasimi ilk dəfə görən gənc qızların ona vurulmaması mümkün deyildi.

Həm tanrının verdiyi xarici görkəm, boy-buxun, yaraşıq, həm də ağıllı, səlist, məntiqə söykənən mənalı danışığı onun kamil bir insan olduğunu göstərirdi. Bütün gənc qızlar xəyallarında məhz belə bir oğlanı arzulayır, belə bir oğlanla münasibət qurmağa çalışırdılar. Davranışlarındakı nəciblik və ləyaqət onun kübarlığının təsdiqi idi. Bütün bu müsbət keyfiyyətlərlə yanaşı üzündə bir işıq, bir nur sezilirdi. Rasimin ümumi xarakteristikasına nəzər saldıqda, onu yaxşı adam kimi xarakterizə etmək olardı. Gözlərinin dərinliklərində donub qalmış susqun kədəri isə, atasını və əmilərini faciəvi avtomobil qəzasında itirməsindən "yadigar" qalmışdı. Rasim doğmalarını itirəndə onun heç yeddi yaşı yox idi. Bu nisgil Rasimin qəlbində özü böyüdükcə böyümüş, əbədi yuva qurmuşdu. Gözlərindəki heç vaxt gizlədə bilmədiyi kədər də bununla bağlı idi ...

Gənc xanım yenə də gülümsədi. Onun zərif gülüşü sanki dayanacaqdakı soyuq payız havasını isidir, ətrafa yazın ilk aylarında bitən çiçəklərin xoş rayihəsini yayırdı. Rasim onu düşüncələrdən ayıran bu gənc xanıma daha gözucu deyil, səmimiyyətlə baxırdı. Qəlbində bu gənc xanıma qarşı bir mehr baş qaldırır, baxışlarından qayğı qarışıq bir məhəbbət süzülürdü. Artıq, çit, güllü yaylıqlı qadının qulaqlarını skamyada oturandan bəri onlara tərəf çevirib hər deyilən sözü eşitmək vəziyyətinə gətirərək, yaylığını başının arxasına sürüşdürüb qulaqlarını açması da Rasimi narahat etmirdi.

-Hansı sualınıza?

Əslində Rasim ondan başqa cavab gözləyirdi. Dayanacaqdakı söhbətin lap əvvəlindən onu məftun etmiş gənc xanımın əvvəlcədən onu tanıyıb-tanımaması sualı beynini məşğul edirdi. Hətta ani də olsa tanışlıqlarının başlanğıcını bir anlıq xəyal da etmişdi. Lakin natamam xəyallara vərdiş etmiş Rasimin yaddaşının dərinliklərində bu gənc xanımla bağlı heç bir xatirənin olmaması xəyalların xatirələrlə növbələşməsini əngəlləyirdi. Bir neçə uğursuz cəhddən sonra Rasim yaddaşındakı xatirələri vərəqləyərək bu gənc xanımla bağlı nə isə tapmaq cəhdlərindən əl çəkdi. Beləcə, bu dəfə də xəyalları yarımçıq qalaraq natamamlığını qorudu...

Əslində gənc xanımın verdiyi cavab Rasimi qane etməsə də, bir o qədər də narahat etmirdi. Sanki elə bu cavabı gözləyirmiş kimi gözlərinin dərinliyində bir işıq közərdi. Diqqətlə baxan olsaydı, üzündəki təbəssüm cizgilərini aydın hiss edərdi...

***

...Tay-tuşları və yoldaşları arasında savadı, aydın zəkası və ədalətli mövqeyi ilə hörmət qazanan Rasim dostlarının təkidinə rəğmən onlarla çox vaxt keçirməzdi. Əsas məşğuliyyətləri kitab oxumaq, şeir yazmaq, bir də futbola baxmaq idi. Asudə vaxtlarını isə, kənd ağsaqqallarının yığışdığı çayxanaya gedib yaşlı insanlarla həmsöhbət olmaqla keçirərdi. Telefonla ümumiyyətlə, uzun danışmağı sevməzdi. Hətta gizli sevdaya düşmüş qızların aramsız zəngləri olanda da telefona yaxınlaşmazdı. Arada dəstəyi qaldıranda zəng edib susan qızların kimliyi də ona maraqlı gəlməzdi, bir neçə dəfə "alo" deyib dəstəyi asardı. Bu vəziyyət şəhərə köçəndən sonra da davam etmişdi. Bəzən təəccüblənirdi ki, onun telefon nömrəsini necə əldə edirlər? Axı ondan heç kim telefon nömrəsi istəməmiş, özü də heç kimə nömrə verməmişdi. Evdə tək olanda "görünür bu işin də ustaları var" - deyərək, özü-özü ilə zarafat edirdi. Telefon zənglərinin yaratdığı narahatlığa o qədər vərdiş etmişdi ki, bir müddət zəng gəlməyəndə "yəqin telefonları kəsiblər", ya da "telefon xarab olub" - deyə şübhələnirdi. Lakin bütün bunlar ötəri qayğılar idi. Şəhərdə iş tapmaq onun əsas qayğısı idi...

***

...Nəhayət ki, Rasimin də üzünə təbəssüm qondu. Söhbətə başladıqları andan o qədər də çox söz danışmamışdılar. Ümumiyyətlə, cəmi bir sual vermişdi. Ola bilməzdi ki, gənc xanım hansı sual olduğunu bilməsin. Rasim istədi ki, bu söhbətə elə burada da son qoysun. Lakin özünün də anlamadığı bir hiss ona daxildən gənc xanımla söhbəti davam etdirməsini diktə edirdi. Ona elə gəlirdi ki, bu gənc xanımla haradansa tanışdılar. Ola bilsin ki, o özü tanımasa da, gənc xanım onu tanıyır. Bu haqda artıq bir neçə dəfə düşünmüşdü. Düşündüklərini təkrar düşündükcə, gəldiyi qənaətə əminliyi daha da artırdı. Gənc xanımın mehribancasına gülümsəməsi isə, bu əminliyi qətiləşdirirdi. Birdən özündə bu xoş simalı gənc xanıma qarşı bir yaxınlıq hiss etdi. Ona elə gəldi ki, doğma bir adamıyla söhbət edir. Hətta ürəyində bildiyi bütün yaxşı sözləri bu gənc və gözəl xanıma demək zərurəti hiss etdi. Boğazında düyünlənmiş sözləri deməyə hazırlaşırdı ki, ona qarşı ünvanlanmış bir sual istəklərini dilinə gətirməyə mane oldu:

-Siz də 65 nömrəli avtobusu gözləyirsiz?

Çit, güllü yaylıq bağlamış qadın idi soruşan. Rasim ona cavab verməmişdən əvvəl ilk dəfə idi ki,

yaşlı bir insanla söhbət etmək istəmədiyinin fərqinə vardı. Sual o qədər yersiz və vaxtsız verilmişdi ki, hətta diqqətli müşahidəçi Rasimin gözlərindəki donmuş kədərin bir anlıq qəzəbə çevrilib tez də dəyişməsini sezərdi.

-Xeyr, - dedi.

-"65" gəlir, ona görə soruşdum - deyə qadın özünə bəraət qazandıraraq, qalxıb Rasimlə gənc xanıma baxa-baxa avtobusa tərəf getdi. Sonra nə fikirləşdisə - "basa-basdı, növbəti avtobusla gedərəm, - deyib, qayıdıb əvvəlki yerində əyləşdi. Oturmamışdan əvvəl isə yenə də "sizi dinləməyə hazıram" vəziyyətini aldı.

Dayanacaqdakı sısqa oğlan siqaretindən bir qüllab da alıb, burnunu bir neçə dəfə çəkdi. Pencəyinin qolu didilmiş kişinin gözlərindəki nifrətəbənzər mənasız baxışların yerini maraq əvəz eləmişdi. Əslində o da çit, güllü yaylıqlı qadının vəziyyətini almışdı. Böyük ehtimalla rəfiqə olan iki gənc qızın da gözlərində qibtə dolu bir maraq var idi...

***

...İxtisasına uyğun iş tapmasa da, Rasim şəhərdə bir tikinti şirkətində işə düzəlmişdi. Fəhlə işləmək üçün getdiyi şirkətin rəisi təsadüfən Rasimi görmüş, sorğu-sual etmiş, bəyənmişdi. Təhsili və savadına bələd olduqdan sonra Rasimə şirkətin ofisində məsul bir vəzifə vermişdi. Rasim də işlədiyi müddətdə etimadı doğrultmuş, həm vəzifəsinin, həm də maaşının yüksəlməsinə nail olmuşdu. Artıq şirkətin bütün maliyyə işlərini o həll edir, şirkətin böyüyüb daha da inkişaf etməsi üçün əlindən gələni əsirgəmirdi. Qısa müddətdə ofisdəki işçilərin, xüsusilə gənc xanımların gözdəsi olmuş, sözlərində, söhbətlərində özünə yer etmişdi. Ofisdə iki xanım bir yerdə söhbət edirdilərsə, mütləq idi ki, Rasim haqqında da öz aralarında nə isə danışırdılar. Cavan, yaraşıqlı, subay bir oğlanın gənc xanımların sevimli mövzusu olmasından da təbii heç nə ola bilməzdi. Rasim qulağına çatan bu ılıq söhbətlərdən sıxılır, çalışırdı ki, şirkətdəki iş kabinetindən yalnız zəruri hallar istisna, mümkün olduqca kənara çıxmasın. Kişi-qadın mövzuları Rasimi heç vaxt cəlb etmədiyi kimi, şirkətdəki qadınların söz-söhbətinə də maraq göstərmirdi. Hətta bəzi hallarda "sizin işiniz-gücünüz yoxdur?" -- deyə ciddi iradını da bildirirdi...

***

...Rasim bayaq hiss etdiyi doğmalıq hissinin eyforiyasını artıq özündən atmışdı. Təmkinlə gənc xanıma tərəf çevrilib:

-Cəmi bir sual vermişəm, - dedi.

Rasimin duyğularının qarışmasına səbəb heç də onun yüngül, dayaz fikirli və qadın düşkünü olmasına dəlalət etmirdi. Tam əksinə, artıq əlli yaşı arxada qoymuş Rasim, heç vaxt qadın düşkünü olmamış, yetkin bir insan olaraq şit, bayağı hərəkətlər və ləyaqətsizlik etməmişdi. Fəqət qarşısındakı bu incə, zərif görünüşlü gənc xanım onun bütün frekanslarını pozmuşdu. Bu ana olan tək istəyi isə, bu gənc xanımla əvvəlcədən tanış olub-olmamasını bilmək idi. Bu qeyri-müəyyənlik onu sıxır, tədricən qarşısındakı gənc xanımın əsirinə çevirirdi. Bu hal onun danışarkən sözlərindəki bəlağəti və qətiyyətliliyi nəzərə çarpacaq dərəcədə azaldırdı. Heç cür xatırlaya bilmirdi ki, qarşısında dayanmış bu gənc və gözəl xanım onu necə və haradan tanıya bilər...

***

...Gənc Rasimin otuza yaxın yaşı olsa da, atası və avtomobil qəzasında itirdiyi əmiləri kimi sevdiyi qızı da itirməsi onun tənhalığa meyl etməsinə səbəb olmuşdu. Rasim hər kəsdən uzaq gəzərək, bir daha heç kəsi sevməmək qərarına gəlmişdi. Qohumları, dostları və iş yoldaşları onu bu sarsıntıdan çıxarmaq üçün dəfələrlə evlənməsi üçün təkid etsələr də, Rasim sevdiyi qızı unuda bilməmiş və qəti olaraq evlənməyəcəyini bildirmişdi. Qohum-əqraba, dost-tanış da onun bu qərarı ilə istər-istəməz razılaşmağa məcbur olub kənara çəkilmişdilər. Yaxınları Rasimin qərarının doğru olduğunu qəbul etməsələr də, hamının öz problemlərinə başı qarışmış, tədricən Rasimin evlilik məsələsi unudulmağa başlamışdı. Diqqətdən kənarda qalan Rasim isə tənhalığa alışmış, xatirələr və xəyallar aləmində çıxılmaz burulğana düşmüşdü. Bu mövzu hər yadına düşəndə isə, öz-özünə "camaatın öz dərdi-səri az deyil ki, mənim də dərdimi çəksinlər", - deyə, mövzunu yaddan çıxarmağa çalışırdı. Elə bu səbəbdən idi ki, o öz xoşbəxtliyini real aləmdə deyil, xəyallarda tapmağa ümid bəsləyirdi. Onun üçün dünyanın ən gözəl yeri xatirələri, ən gözəl istirahət isə, xəyalları ilə baş-başa qalmaq idi. Ən kədərli xatirələrini xatırlayarkən belə, özünü şirin xəyalların qoynuna ataraq, dünyanın ən xoşbəxt adamına çevrilə bilirdi. Bir anda üzündəki kədər yoxa çıxır, nur saçan üzü ziyalanır, sevincə qərq olurdu. Evliliklə bağlı təkid edənlərə Rasimin hüzn dolu yarıciddi, yarızarafat "mənim sevdiklərimi Allah əlimdən alır, bir daha heç kəsi sevməyəcəm' - deməsi isə,

ən daşqəlbli insanları da kövrəldirdi...

***

...Gənc xanım yenə zərif tərzdə gülümsəyib dedi:

-Tanışlıq barəsindəki sualınızı deyirsiniz?

Bu dəfə Rasim onu deyəsən, kiməsə oxşatdı da. Sonra da bir başqasına, sonra bir başqasına, sonra... Ona elə gəldi ki, söhbət etdiyi bu zərif gülüşlü xanım hətta onun anasına da bənzəyir. İstədi, "siz bizim qohumlardan deyilsiz ki?" - deyə soruşsun. Amma soruşmadı. Bu axmaq sualı başından qovduğu üçün sevindi də. Hətta o qədər sevindi ki, öz gülünc fikirlərinə qarşı doğan acı gülüşünü də saxlaya bilməyib güldü.

-Üzr istəyirəm, yadıma bir əhvalat düşdü, - deyərək vəziyyətdən çıxdı.

Gənc xanım: - eyb etməz, - deyərək etinasızlığını bildirdi. Rasim yenidən ciddiləşdi. Yenə də onun üçün xarakterik olan düşüncəli adam görüntüsünə qayıtdı. Bir siqaret çıxartdı, lakin yandırmayıb yenidən cibinə qoydu. Ətrafına nəzər saldıqda, çit, güllü yaylıq bağlamış qadının ona narazılıqla baxdığını hiss etdi. Elə bil qadın hansısa bir tapşırığı yerinə yetirməmiş övladını və yaxud nəvəsini tənbeh etməyə hazırlaşırdı. Rasim elə hiss etdi ki, qadın bir himə bənd olan adamlar kimi məqam gözləyir ki, onu danlasın. Sısqa oğlan ikinci siqaretini yandırmışdı. Rasim onun da gözlərində özünə qarşı izah verə bilmədiyi bir duyğu sezdi. Pencəyinin qolu didilmiş kişi artıq üzü yola deyil, üzü dayanacağın içinə baxaraq dayanıb açıq-aşkar hadisələrin sonluğunu nümayişkaranə surətdə gözləyirdi. İki gənc qız isə, Rasimlə gənc xanımın söhbətinə maraq göstərdiklərini o qədər hiss etdirirdilər ki, öz aralarındakı pıçıldaşmaları kəsib, dayanacaqda tam sakitlik yaranmasını təmin etmişdilər. Dayanacağa yeni gələn 10-11 yaşlı uşağının əlindən tutmuş orta yaşlı qadın isə, gözlərini geniş açaraq növbəylə dayanacaqdakı adamları öz süzgəcindən keçirirdi. Qadın ondan əvvəl dayanacaqda nə baş verdiyini təxmin etməyə çalışırdı. Onun daxili içgüdüsü dayanacaqda ondan əvvəl nələrinsə baş verdiyini xəbər verirdi. Yeni gələn qadının dayanacaqdakı insanları süzməsindən hiss olunurdu ki, başqalarının həyatı ilə maraqlanmağı o da sevir. Elə bu maraqla da keçib skamyadakı boş yerdə əyləşdi...

***

...Rasimin işlədiyi şirkətin rəisi iyirmi ildən artıq idi ki, Rasimlə bir yerdə işləyirdi. Bu vaxta qədər aralarında heç bir narazılıq olmamışdı. Lakin bu yaxınlarda qohum olduğu yeni qudasının təkidlə Rasimin vəzifəsini, öz oğlu üçün istəməsindən sonra, çox çalışsa da, tərs qudasını və onun özündən də tərs oğlunu başa sala bilməmişdi. "Ya filan vəzifəni mənim oğluma verməlisən, ya da gəl qızını apar" - deyən qudasının zəhərli sözlərini udmağa məcbur olmuşdu. Kişi həm Rasimlə kəsdiyi duz-çörəkdən keçə bilmir, həm onun əməyini itirmək istəmir, həm də qızının xətrinə tərs qudasına üz döndərə bilmirdi. Odla su arasında qalan rəis, düşdüyü vəziyyət haqqında Rasimlə danışmağa mənəvi əzab çəkirdi. Ancaq vəziyyətin nə yerdə olduğunu Rasim kimdənsə öyrənmiş, iş gününün sonunda işdən azad olunması haqqinda yazdığı ərizəsini müdirin stolunun üstünə qoymuşdu. Başqa vaxt olsaydı, rəis bu ərizəni heç vəchlə qəbul etməz, onun işdən niyə çıxmaq istəməsinin səbəbini soruşar, ona mane olmağa çalışardı. Lakin indiki məqamda bu ərizə rəisə göydəndüşmə olmuşdu. Rasimin ərizəsini niyə məhz bu ərəfədə verməsini təxmin etsə də, heç nə soruşmadan üstünü yazmışdı. Rasim işdən çıxıb fikirli halda avtobus dayanacağına doğru irəliləyirdi. İdarələrindən avtobus dayanacağına qədər qırx-əlli metr məsafə olardı. Lakin bu az məsafə belə onu yorurdu. Nə ayaq üstə durmağa, nə də yeriməyə gücünün olmadığını hiss edirdi. Aralıdan dayanacaqdakı skamyada kimsənin oturub-oturmadığına baxdı. Heç kim oturmamışdı...

***

...Rasim dayanacaqdakı adamların ona zillənmiş baxışlarından əsəbləşirdi. Bu gün onun üçün ağır gün olmuşdu. Bəlkə də bu ağırlığın yükünü qaldıra bilməməyindən idi ki, üzünü gənc xanıma tərəf çevirərək dedi:

-Əslində mən heç vaxt qadın tanışım olsun, istəməmişəm.

Ağzından çıxan sözlərin nə qədər yersiz olmasını sözü dedikdən dərhal sonra anladı. Lakin artıq söz deyilmiş və bu sözləri tək qarşısındakı gənc xanım deyil, həm də dayanacaqdakı digər adamlar da eşitmişdilər. Rasimin yersiz etirafından doğan təəssüf hissi gənc xanıma büruzə verməməyə çalışsa da, üzdüyü üz cizgilərinin dəyişməsindən hiss olunurdu. Gənc xanımın gülərüz siması bir andaca uzun müddətdən bəri yağmağa hazırlaşan bulud kimi dolmuşdu. Boğazında sanki udmaq istədiyi, lakin nə qədər cəhd etsə də, uda bilmədiyi bir tikə qalmışdı. Bu tikə

hər hansı bir qida deyil, qəhər idi. Gənc xanım Rasimdən gözləmədiyi etirafı eşitmiş və bu etirafın acılığını həzm etməkdə çətinlik çəkirdi. Bir az da keçsə idi, dolmuş gözlərindən axan göz yaşlarını saxlaya bilməyəcəkdi. Dayanacağa qəribə bir sükut çökmüşdü. İlk sükutu pozan dayanacağa yeni gələn ananın heç dəxli olmayan bir şeyə görə uşağını acılaması oldu. Qadın dayanacaqdakı situasiyanı tez dərk etmişdi. Acığını uşağından çıxması isə, o qədər də xoş görünmədi. Qadın özü də bunu hiss edib skamyadan qalxaraq dayanacaqdan kənara çıxdı. Sısqa oğlan kimə əsəbləşdiyi məlum olmasa da, əlindəki siqareti əsəbi jestlə zibil qutusuna atdı. Sanki siqaret kötüyü ilə zibil qutusunu vurub aşırtmaq istəyirdi. Ardınca da bir neçə dəfə burnunu çəkərək, o da dayanacaqdan kənara çıxdı. Rəfiqə olduğu ehtimal olunan iki gənc qız dərindən bir ah çəkərək, yarımçıq qalmış söhbətlərini pıçıldaşaraq davam etdirməklə, onlar da dayanacağın içərisindən kənarına çıxdılar. Qızların da üzlərindən ən az gənc xanımın təəssüfləndiyi qədər təəssüf hissi oxunurdu. Əvvəldən yarı dayanacaqdan çöldə, yarı içəridə dayanmış pencəyinin qolu didilmiş kişi başını astaca yelləməyə başlamışdı. Onun gözlərində yenidən maraq hissini nifrətəoxşar hiss əvəzləmişdi. Çit, güllü yaylıq bağlamış qadın könülsüz və incik səslə dedi:

-”65” gəlir...

-”Mən də “65”-i gözləyirdim”, - deyən gənc xanım da qalxaraq, çit, güllü yaylıq bağlamış qadınla eyni vaxtda dayanacaqdan çıxdılar.

Avtobus gəlib dayandı. Gənc xanım, çit, güllü yaylıq bağlamış yaşlı qadın, iki gənc qız, sivri, nazik burunlu arıq, çəlimsiz, qısaqol köynək geyinmiş sısqa oğlan, pencəyinin qolu didilmiş, qarını və yanbızları çıxmış kişi və yeni gələn uşaqlı qadın avtobusa mindilər. Dayanacaqda skamyada oturan Rasimdən başqa heç kim qalmadı. O saatına baxdı. Saat 6:37 idi. Cibindən ucuz, filterli siqaretini çıxardıb birini yandırdı. Dərin bir qüllab vurub baş verənləri düşünməyə başladı. Yaşadığı bu gününü əvvəldən axıra qədər gözləri önündə canlandırdı. Sonda yenidən xəyallar qurmağa başladı. Həmişəki kimi bu olanlar da tam deyildi. Rasimin natamam xatirələrinə bir yenisi də əlavə olunmuşdu.

“65” nömrəli avtobus dayandı. Rasim qalxaraq yarıya qədər yanıb sönmüş siqaretini zibil qutusuna atıb avtobusa mindi... Boş yer çox idi...

10-15.11.2022

# YUXU

satirik hekayə

Birinci hissə

Allah axırını xeyir eləsin... Bu gecə röyamda qəribə bir yuxu gördüm. Gördüm ki, qonşum Əlisəttar kişi keçmişə gedib-qayıda bilən “zaman maşını” düzəldib, istədiyi vaxt gedib rəhmətlik ata-anasını sağ-salim görüb qayıdır. Hətta, kişi ürəyi istəyəndə yeddi arxa dönənini də ziyarət edib, hal-əhval tutur.

Kişi (yuxuda) “o zamanlar”dan elə qəribə şeylər danışırdı ki, adamın içində istər-istəməz gedib o gözəl zamanları görmək istəyi baş qaldırırdı. Ağsaqqal arada lap ağını çıxarırdı. Guya o gedib-gəldiyi yerlərdə hər tərəf gül-çiçək, yaşıllıqlar, təbiətin öz təbii görkəmində necə gözəl görünməsi onu valeh edirmiş. O dövrün insanları da guya çox istiqanlı və alicənabmışlar.

Mən, doğrusu, bu deyilənlərin hamısına inanmırdım, amma maraq da bir tərəfdən məni götürmüşdü. Əşşi, hər şeyi qoyaq bir tərəfə, necə ola bilər ki, hamı təbii qidalar yesin, saf su içsin, sağlam həyat sürsün?! Bu da heç cür ağılabatan şeyə oxşamırdı. Kişi bəzən elə qəribə şeylər deyirdi ki, lap ona yazığım gəlirdi. Deyirdim yəqin ya qocalıqdandır, ya da ki, Allah eləməmiş ağlı çaşıb. Ağsaqqal isə söhbəti davam etdirərək deyirdi ki, guya hamı bir-biriylə can deyib, can eşidir. Böyük-kiçiyə hörmət ən üst səviyyədədir. Birinin bir problemi varsa da, heç şikayətə, filana ehtiyac olmur. Elə ağsaqqallar problemləri dinləyib çözüm yolunu göstərirlər. Hamı da ağsaqqal sözünə əməl edir. Camaat da razılıqla ağsaqqal sözündən çıxmadan, qayda-qanun çərçivəsində xoşbəxt və firavan yaşayırlar. (Yuxunun bu yeri elə xoşuma gəlmişdi ki, sonralar yuxunun bu yerini dəfələrlə təkrar görməyi arzulamışdım).

Əlqərəz, Əlisəttar kişinin “nağılları” hamını maraqlandırırdı. Hətta qonşu kəndlərdən də ona qulaq asmağa gələnlər var idi. Bu “nağıllar” kənddə hamını yığmışdı Əlisəttar kişinin başına. Uşaqdan-böyüyə hər kəs Əlisəttar kişinin düzəltdiyi bu qəribə maşını görmək və danışdığı maraqlı əhvalatlara qulaq asmaq həvəsində idi. Gör işin harasıdır ki, qonşu kənddə yaşayan Gülnisə arvad nəvələrinin köməyi

ilə xeyli yolu piyada gələrək bu maşına baxmaq azarını "öldürmüşdü". Hətta bir az da irəli gedərək, əlini bir dəfə bu maşına toxundurmağın müqabilində yekə bir çil xoruzu Əlisəttar kişiyə verməyi boyun olmuşdu. O da insafən yaxşı adam idi. Arvadın xətrinə dəyməyib icazə vermişdi ki, əlini vursun maşına. (Sonralar yuxumda gördüm ki, guya o çil xoruz bişiriləndə Əlisəttar kişi məni də dəvət edib. Çünki, qonşum mənim xətrimi çox istəyird'i).

Yaxşı yadımdadır, (heç yuxuya oxşamırdı) elə həmin çil xoruzu yediyimiz gün idi, bir yarımlitrlik də vurmuşduq. Utana-utana Əlisəttar kişidən xaiş elədim ki, icazə versin düzəltdiyi "zaman maşını" ilə bir dəfə də mən keçmişə səyahət edim. (Qonşum maşına heç kəsi yaxın buraxmırdı). Bilirdim ki, o öz düzəltdiyi maşını canından da çox istəyir. And içdim ki, özü göstərdiyi şeylərdən başqa, əlimi heç nəyə vurmayacağam. Əvvəl razı olmadı. Çox yalvar-yaxardan sonra, kişi razılığa gəldi, amma heç kəsə bildirməmək şərti ilə. Yalnız bir dəfə keçmişə gedib-qayıtmalı idim.

"Səhər saat altıda gələrsən", - dedi. Sevincək razılaşdım. Gecə ilan vuran yatdı, mənim gözümə yuxu getmədi. Səhər obaşdandan hələ saat heç altı olmamış kəsdirdim Əlisətar kişinin darvazasının ağzını ki, bəs gəlmişəm. O da söz vermişdi deyə, yerindən qalxıb deyinə-deyinə gəldi yanıma. Bir xeyli maşının düymələrini başa saldıqdan sonra soruşdu:

-Hara gedəcəksən?

Əvvəlcə tutuldum. Hara gedəcəyimi heç fikirləşməmişdim. Nagahani olaraq ağlıma gələn cavabı dilə gətirdim.

-Şairfason adamam da, Əlisəttar əmi. Mümkünsə ya Nizamini, ya da Xaqanini canlı görmək istəyirəm.

Kişi maşının içində bir az qurdalandıqdan sonra dedi:

-Nizami də, Xaqani də çox uzaqdır. Qorxuram yanacaq gedib-qayıtmağa bəs eləməsin. Amma istəsən Nəsiminin yaşadığı dövrə göndərə bilərəm.

Tez razılaşdım.

-Eybi yox, Nəsimi də olar. Təki o rəhmətliklərdən biri ilə canlı söhbət etmək imkanım olsun.

Bundan sonra Əlisəttar kişi maşını işə saldı. Maşın bir az uğuldadı, bir az zırıldadı, sonra sakitləşdi. Əlisəttar kişi mənə işarə elədi ki, hər şey hazırdır. Sonra da yanına çağırıb dedi:

-Oğul, gəl min maşının içinə, sənə son tapşırıqlarımı da verim.

Həyəcandan əlim-ayağım əsirdi. Qonşumun məsləhətlərini dinlədikdən sonra birtəhər həyəcanımı boğaraq maşının içinə keçdim. Yerimi rahatlayıb maşının qapısını örtdüm. Allahın adını çağırıb əvvəlcədən mənə göstərilmiş olan düyməni basdım. Maşın yerində dingildəməyə başladı. Bir nərilti, bir gurultu qopdu ki, gəl görəsən (kafər başına olsun). Sonra maşın ildırım sürəti ilə fırlanmağa başladı. Qorxumdan iki əlim ilə üzümü tutub, gözümü yumdum. Sonra daha nələr olduğunu görə bilmədim. "Bu nə qələt idi mən etdim" - deyə fikirləşməyə başlamışdım ki, maşın tədricən sakitləşib sürətini azaldaraq dayandı. Eniş vaxtı yüngül taqqıltıdan hiss elədim ki, torpaq üstündə dayanmışıq. Bir gözümü azca açıb barmaqlarımın arasından bayıra baxmağa başladım. Hər şey qaydasında olana oxşayırdı. Maşının qapısın açıb, ehtiyatla aşağı düşdüm. Gördüyüm mənzərədən yerimdə donub qalmışdım.

**İkinci hissə**

Xəyal belə edə bilməyəcəyim gözəl bir bağın içində idim. Hər tərəfdə gözəl və ətirli güllər səliqə ilə əkilmişdi. Gül-çiçəyin ətri ətrafa yayılıb insanı məst edirdi. Hansısa peşəkar bağban əli burada öz işini yüksək ustalıqla görmüşdü. Cürbəcür dadlı meyvə ağacları ətrafda göz oxşayırdı. Sanki cənnət bağının ortasında idim. Bağ özü isə, yamyaşıl çəmənlik ilə əhatələnmişdi. Bir müddət bu gözəl mənzərəyə tamaşa etdikdən sonra, yavaş-yavaş eyforiyadan azad olmağa çalışdım. Uzaqdan bir dəstə gənc oğlan və qızların şən səsləri gəlir, musiqi sədaları eşidilirdi. Çal-çağır məclisi olduğunu guman etdim. Ehtiyatla səs gələn tərəfə getməyə başladım. Yaxınlaşdıqca musiqi səsləri daha aydın eşidilməyə və adamların üz cizgiləri daha açıq görünməyə başladı. Gənc xanəndə qız, onu tar və kamançada müşaiyyət edən iki gənc olduqca istedadlı təsir bağışlayırdılar. Xanəndə qız Nəsiminin qəzəllərindən oxuyurdu. Ətrafda xeyli gənc oğlanlar və gözəl qızlar rəqs edirdilər. Bir qədər kənarda qoyulmuş mizin arxasında mötəbər və nurani bir kişi xanəndə qızın ifasını dinləyirdi. Mizin üstündə şərab, şirniyyat və bir neçə yarıyazılmış vərəq var idi. Ətrafdakıları müşahidə etməkdə idim ki, birdən həmin mötəbər adam başını qaldıraraq məni gördü. Əli ilə mənə "yaxın gəl" işarəsi verdi. Mən bir qədər çəkinsəm də ona tərəf yaxınlaşdım. Mötəbər adamın işarəsi ilə mənə də bir

kətil gətirdilər. Daha sonra mənim gəlişimdən təəccüblənib dayanmış musiqiçilər yenidən yarımçıq saxladıqları musiqini davam etdirməyə başladılar. Bu arada mötəbər adam da mənimlə söhbət edirdi. Kim olduğum, hardan gəlib, hara getməyim barəsində suallar verməyə başlamışdı. Cavablarım onu qane etməsə də, gülümsəyirdi. Hətta paltarlarımın "qəribəliyi" ilə də maraqlanmışdı. (Əynimdə ən məşhur brend firmadan qolukəsik köynək və cins şalvar var idi). Təəccüblə əlavə etmişdi ki;

-Əgər pulun yoxdursa, sənə təzə libas verək, bu nə paltarlardır belə!?

Mən, əlbəttə ki, qayğıkeşliyinə görə nurani simalı mötəbər kişiyə təşəkkürümü bildirərək, çox nəzakətlə minnətdar olduğumu dilə gətirmişdim. Lakin vaxtımın da azlığının fərqində idim. Odur ki, nurani kişiyə çox ehtiramla Nəsimini görmək istədiyimi bildirdim. Kişinin üzündə bir təbəssüm oynadı. Dedi:

-İndi bildim niyə belə geyinmisən. Məni görməyə gələn dərvişlərin əksəriyyəti qəribə libaslarda gələrək diqqətimi özlərinə çəkməyə çalışırlar.

Mən artıq böyük Nəsimini tanımışdım. Dərviş olmadığımı, bura yalnız Nəsimini canlı görmək, onunla söhbət etmək üçün gəldiyimi demək istədim. Lakin zamanım tükənirdi. Mübahisə etməmək üçün susdum. Çünki doğrudan da zamanım az qalmışdı. Sadəcə olaraq ona hansı zamandan gəldiyimi və yaratdığı əsərləri necə sevdiyimi söylədim. Öz dilindən heç olmasa bircə misra şeir eşitmək istəyimi xahiş etdim. Sağ olsun, məni qırmadı. "Məndə sığar iki cahan, mən bu cahana sığmazam, Gövhəri la-məkan mənəm, kövnü məkana sığmazam", - beyti ilə başlayan qəzəlini öz mübarək səsi ilə əzbərdən oxudu. Çox xoşbəxt idim. Sonra məndən gəldiyim yerin şairləri barədə soruşdu. Dedim:

-Çox gözəl şairlərimiz var. Torpaq yetişdirir, maşallah.

Adlarını soruşdu. Həyəcandan heç birinin adı yadıma düşmədi, Elzadan başqa. Məndən rica etdi:

-Bir şeir söylə o el qızından.

Karıxıb qalmışdım. Bildiyim hər şey yadımdan çıxmışdı. Sonra zehnim bir az aydınlaşdı. Son günlər internetdən oxuduğum və sosial şəbəkələrdə məşhurlaşan "ənəlhəqq" şeiri yadıma düşdü. Başladım uca səslə şeiri ustad Nəsimiyə söyləməyə. Kişinin gözləri hədəqəsindən çıxmaq dərəcəsinə qədər bərəlmişdi. Mən oxuduğum şeirin xoşuna gəldiyini zənn edərək, "sürt, sürt" hissəsini şövqlə oxuyurdum ki, kişi başına-gözünə döyə-döyə barmağı ilə məni göstərərək qışqırmağa başladı.

-Şeytan, şeytan!

Sonra baş götürüb qaçmağa başladı. O arxaya baxmadan qaçır, ətrafındakılar da ardınca yüyürürdülər. Mən nə olduğunu anlamış deyildim. Təəccüb və təəssüf hissi ilə Nəsiminin və ətrafındakı musiqiçilər dəstəsinin qaçaraq uzaqlaşmasını peşmanlıqla seyr edirdim. Onlar tamam gözdən itəndən sonra, ayağa qalxdım. Nə üçün qaçıb getdiklərinə heç bir məna verə bilməsəm də, geri qayıtmalı olduğum üçün dallarıyca getmədim. Kor-peşiman "zaman maşını"na tərəf geri qayıtmağa başladım. Vaxtım dolmamış öz dövrümüzə qayıdıb, "zaman maşını"nı Əlisəttar kişiyə qaytarmalı idim. Maşına çatıb içinə daxil oldum. Hər şeyi necə qoymuşdumsa, elə də olduğuna əmin olduqdan sonra düyməni basıb maşını işə saldım. Yenə də həmin gurultulu, nəriltili səs başladı. Yenə də qorxudan gözlərimi əllərimlə bağladım. Arada elə bil bayıldım da...

Elə bu dəmdə qəribə səs tembri olan qadın səsi ilə musiqi sədası eşidildi. Daha sonra kimsə məni silkələməyə başladı. Gözlərimi qorxa-qorxa açıb baxdım ki, həyat yoldaşım başımın üstündə dayanıb gülə-gülə deyir:

-Nə çox yatdın, ay kişi? Dur, pürrəngi çay dəmləmişəm. Televizorda da yaxşı veriliş başlayıb. Sənin xoşladığın müğənni – Elza oxuyur. Bəlkə şeir də dedi...

**SON**

09.01.2018



## İLDIRIM ƏLİŞOĞLU

### GECİKMİŞ PEŞİMANÇILIQ...

Nədir boylandıran səni arxaya,
Bizli illərəmi qaçırsan indi?
Bizi bizdən alan o "yağlı" eşqin,
Boyuna ayrılıq biçirsən indi...

Daş-qaşa bükülü ondakı duyğu,
Qışda da əriyən qar imiş, düzmü?
Mənim şalvarımda olan yamaqlar,
Onun sevgisində var imiş, düzmü?

Elə öyrənmişdi sinəm başına,
Deyirdin yollarım çıxır qoynuna.
Nəydi unutduran vədələrini,
Dolandı qolların "varın" boynuna?

Aldadırmış məni bu xoş şirinlik,
Əriyib tökülən noğulmuş demə.
İnanıb umduğum vəfa, etbar,
İnsanı ovudan nağılmış demə...

Çevirmə üzünü, çevirmə mənə,
Məndə sənə yetdik "bəlkə?" qalmadı.
Mənim iç dünyamı dağıdıb getdin,
Orda sən tanıyan "ölkə" qalmadı...

...Nədir boylandıran səni arxaya,
Bizli illərəmi qaçırsan indi?..
Bizi bizdən alan o "yağlı" eşqin,
Boyuna ayrılıq biçirsən indı...

### Xəzri

Səhər saçlarıma sığalın çəkir,
Axşam ümidimi üşüdən Xəzri.
Billəm,"icazəsiz" yarpaq tərpətməz,
Bizə cığallıqlar yaşadan Xəzri ...

Bir az meh gətirsin, bir az da sevgi,
Öpsün üzümüzü bu yaz səhəri,
Sərək altımıza, sərək sahili,
Yusun qəlbimizdə dəniz... səhəri...

Görərsən, dalğalar dəlidi burda,
Cumub sillələyir boz qayaları.
Xəyanətmi görüb, bivəfalıqmı?
Silir üzlərindən o boyaları!..

Kədərə bürünüb tənha bir söyüd,
Yolur saçlarını , yolur külək də.
Elə sıxıbdır ki, onu bu təklik,
Çatmaz harayına, çatmaz fələk də.

Necə zərif imiş bu sahil qumu,
Yoxsa aşiq olub yalın ayağa?
Bir az məzəliymiş bu ləpələr də,
Udur şüaları, dönür mayaka!..

Ruhun dərmanıymış dəniz kənarı,
Tapgınan yerini, köçünü sal sən.
Unut dərdi, səri, tulla həsədi,
Həyatın bir gözəl gününü çal sən!..

**Xəzərsahili parkda ğördüklərim...**

Nələrə qadirmiş insan əlləri,
Xeyirdən əmr alsa, uğura dönür.
Nə zaman keçirsə şərin girinə,
Fəlakətə gedən cığıra dönür...

Külək dalğaları elə qovurdu,
Sahil "yeriyirdi" dəniz boyunca.
Çoxdan həsrət idim tamaşasına,
Dedim, bir dayanım, baxım doyunca.

Güzgüsün tutmuşdu göydələnlərə,
Binalar özünə "baxırdı" sanki.
Xəzər çirkabından utanar deyə,
Sahil yanağına yaxırdı çirki...

Günün bu vədəsin sevmirdi, nədi,
Ağaclar kölgəsin çəkmişdi geri.
Güllər də, deyəsən, baxmırdı mənə,
Yəqın sanmışdılar gəlmənin biri...

Tək bir qağayı da gözə dəymirdi,
Yoxsa, maşınlarmı hədələmişdi?
Onların ən gözəl balıq ümidin,
Neftli ləkələrmi pərdələmişdi?

İçinə çəkilib İçəri şəhər,
Qorumaq istəyir özəlliyini.
Bilir, fürsət gəzir pul hərisləri,
Hərraca qoyarlar gözəlliyini...

Qəlbimdə nə qədər fırlandı tənqid,
Qıymadım incidə burda elləri...
Önündə əyilib min yol öpərdim,
Belə gözəlliyi quran əlləri!..

**Giley...**

Çox getdim bəxtin üstünə,
Üzümə belə baxmadı...
Taleyə kimlik göstərdim,
Yazıma belə baxmadı...

Yönəldim göylərə sarı,
Tökdü saçlarıma qarı,
Dedim, şükr eləyim barı,
Sözümə belə baxmadı...

Xata gəldi, qanun dedim,
Qada gəldi, qanun dedim,
Gəda gəldi, qanun dedim,
Düzümə belə baxmadı...

Bildim, Tanrıdı dərd güdən,
Seçir, kimlərdi loş gödən,
Biyətdən dərisi gedən,
Dizimə belə baxmadı!

Bu İldırımmış üzülən,
Dedim, Haqdandı pozulan,
Dərdi damcıyla yazılan,
Gözümə belə baxmadı!..

**Məni görmədin...**

Bu sevgini qəlbimə kim atıbmış, bilmədin,
Kədəri bol, sevinci kəm atıbmış, bilmədin.
Ürəyimi dərdlərə yem atıbmış, bilmədin,
Kölgəndim başın üstdə, fərqinə varmadın ki –
Məni heç görmədin ki...

Sehirli gözəlliyin bağlamışdı dilimi,
Sevdim "bəlkə"lərini, sevdim belə zülümü...
Gözüm sözə baxmadı, sənə çəkdi yolumu,
Bir udum nəfəs dərib, üstündə durmadın ki –
Məni heç görmədin ki...

Mənə buynuz göstərən fələyə düşdü yolun,
Riyalarla süslənən kələyə düşdü yolun,
Zəncirləri qızıldan tələyə düşdü yolun,
Yaşlı yanaqlarıma əlini sürtmədin ki –
Məni heç görmədin ki...

Evciyimə cızdığın yazını özlədim çox,
Yanağımda üşüyən izini özlədim çox,
Məni əsirin edən nazını özlədim çox ,
Bizi bizdən eləyən inadı qırmadın ki –
Məni heç görmədin ki...

Səni öpən küləyin sığalı qalıb məndə,
Dəcəl duyğularımın cığalı qalıb məndə,
Laqeyd baxışının "Sağ ol"u qallb məndə,
Qəlbim açıqdı hər vaxt...
Bircə yol girmədin ki –
Məni heç görmədin kı...
Məni... heç görmədin ki...

**Çətin yaz ...**

Bahar köçün salıb yenə içimdə,
Orda hər gülümün duvağı sənsən.
Sənin gözlərində kim var bilmirəm,
Mənim gözlərimin qonağı sənsən...

Bilirəm, bu yağış göz yaşın deyil,
İçimdə kədəri yuyardı, bəlkə...
Bu buludlarsa da, bir şey söyləmir,
Qəlbim pıçıltını duyardı, bəlkə.

Dana da bilmirəm sevgimizi də,
Düşübdü bulağın dodaqlarına...
Yoxlaya bilmirəm salxım söyüdü,
Ətrini hopdurub yarpaqlarına.

Yenə də can çəkir açılan səhər,
Yəqin ki, yuxumun qaçdığın görüb.
Ayağın bizlərdən kəsilən gündən,
Qapımı küləklər açdığın görüb...

Bağımda, bağçamda yoxluğun bitir,
Çiçəklər götürüb səpdiyin nazı.
Çəkir ayrılığın dar ağacına,
Çətin adladaram, mən belə yazı!..

**Qalıb**

Mərdlərlə kəsilən çörəyin tamı,
Ağzımda dadıynan, duzuynan qalıb.
Kimlər nə edibsə, hopub yaddaşa,
Hərə əyrisiynən, düzüynən qalıb!..

Bu həyat önümdə yoxuşuynanmış,
Baharı gül-çiçək naxışıynanmış,
O gözəlin sehri baxışıynanmış,
Gülüşü yadımda nazıynan qalıb.

Hələ də yurdumun çatıqdı qaşı,
Düşüb paxılların başına daşı,
Xocalımın qanla boyanan qışı,
Qəlbimin üstündə közüynən qalıb...

Həyat az da olsa, görübdü usta,
Kimi rəngdə yaşar, kimisi səsdə,
Kimi mizrab-mizrab bitib sim üstdə,
Kimi şeirə dönüb sözüynən qalıb.

Əlləri min ildir uzanır göyə,
Əzilən bəndəyə duran yox yiyə,
Haqqına inamı itməsin deyə,
İldırım bükülən diziynən qalıb!..

**Nəsə**

Bu ümid, işığın səndənmi alıb,
Sozalır, sozalır, üzülmür, nəsə?
Elə “döydürmüsən” can dəftərimə,
Silirəm adını, pozulmur nəsə...

Sanki arzularım borana düşüb,
Üşüyür içimdə, donur içimdə.
Görsə baxışını, özün unudur,
Əllərin qaldırır donur içimdə...

“Tonqalı qalayıb” simlərin üstdə,
Kərəmi odlayan neçə aşıq var.
Ürək sərhəd bilməz, umar hər zaman,
Tonqaldan sevdaya yaşıl işıq var...

Getdiyin cığıra həsrət dolanıb,
Aralı deyil ki, önümdən keçir.
Təbəssümün yüklü, öpüş “karvanın”,
Mənə göz vuraraq yanımdan keçir.

Nə vaxt düz atmadın addımlarını,
O vaxt yolumuzda bitib əyrilik.
Sənin “mükafatın” sevgisiz ürək,
Mənim “mükafatım” olub... ayrılıq...

...Bu ümid, işığın səndənmi alıb?
Sozalır, sozalır, üzülmür nəsə...
Elə “döydürmüsən” can dəftərimə,
Silirəm adını, pozulmur nəsə...

**Sevgidən yazma**

Dedilər, ayıbdır, yazma sevgidən,
Ayna tut üzünə, yaşına bax, sən.
Dedim, planetdi, qitədi ürək,
Bir get Afrikanın qışına bax sən...

Dağlara çevrilib neçə xatirəm,
Yıxılır üstümə, uçur üstümə...
Gizlənə bilmirəm duyğumdan belə,
Körpə uşaq kimi qaçır üstümə.

İçimdə ümmana dönür ağrılar,
Gəmi axtarıram üzüb çıxmağa.
Kədər çağrılmamış qonağım olur,
Çalışır sevgimi əzib çıxmağa!

Kimlər bənzətməyib sönməz Günəşə
Gözlərdən od alıb yanan ürəyi.
O yol dəniz keçir, okean keçir.
Çoxları gözləyir bir səmt küləyi.

Bu hiss hara getsə, mesajsız gedər,
Yer tutub otursa, xəbərin olar.
Yaş, o olmasa da, vüsal gözlərəm,
Bilsəm də, "son yola" səfərim olar..

...Dedilər, ayıbdır, sevgidən yazma,
Ayna tut üzünə, yaşına bax sən.
Dedim, planetdi, qitədi ürək,
Bir get, Afrikanın qışına bax sən...

**Qoşma...**

A dəli könlümün dəli istəyi,
Qovum ürəyimdən hayana səni?
Qalıb ümidimin qapısı bağlı,
Necə yönəldərəm o yana səni?

Doladın duyğumu xəyallarına,
Kədəri çevirdin mənim yarıma,
Yoltək saldın məni ayaqlarına,
Qoy barı çatdırım duyana səni...

Qoymadın içimdə özgə gül bitə,
Vüsala aparan bir qatar ötə.
Atdın İldırımı, atdın qürbətə,
Qarğıdı özgəyə qıyana səni!

# NƏZAKƏT CAVADOVA

## ...SƏN MƏNİM ŞƏHİDİMSƏN... MƏN İSƏ ON MİLYONAM...




Mən heç ağlamağı sevən biri olmadım ki...

Hər zaman ağlamağı acizlik, zəiflik kimi qəlbimin ən dərin guşəsində gizlədərək gülümsədim. Xoşbəxtlikdən Uca Allah təbəssümün çox yaraşdığı bir çöhrə ərmağan etdiyindən heç kim gözəlliyin arxasında gözəgörünməz sirr, gizli bir məna axtarmadı. İnsanlıq gözəlliyi seyr etməyi sevir axı...

Bu sətirləri yazarkən qarşımda taleyin hansı gərdişi ilə olduğunu bilmədiyim, "Çərxi Fələyin" uşaq evinə yönəltdiyi bir gənc var. "Var" deməyim mucərrəddir... Həm var, həm də yoxdur. Daha adı Səbuhi də deyil... Şəkildən mənə boylanan tər-təmiz baxışları -- "indi mənm adim Səbuhi deyil, Şəhid"dir – deyə pıçıldayır.

Bir qədər əvvəl oxuduğum bir xəbərlərdə qardaşının dediyinə görə atası POLKOVNİK-LEYTENANT imiş. Taleyin nə qəribə oyunları, oxşarlıqları varmış. Mən də bir hərbçi ailəsində dünyaya

göz açanda tez bir zamanda valideynlərimi itirəcəyimdən xəbərsiz oxşar bir həyatı yaşamışam. Heç miraj kimi də xatırlamadığım valideynlərimin əvəzinə tale iltifat göstərib alicənab, comərd, fədakar, ikinci valideynlər yetirdi mənə. Sevilərək, şiddətin, yoxsulluğun nə olduğunu bilmədən, başqalarının həsəd aparacağı yüksək təhsil verilərək... Bioloji valideynlərim üçün göz yaşı axıtmadan... Hətta, tale yenidən bir iltifat göstərib əsl valideynlərimi seçmək şansı versəydi, heç düşünmədən hazırkı valideynlərimi seçərdim. Bu səbəbdən də böyük, sonsuz, ölçüyəgəlməz bir təşəkkür borcum var ki, heç bir ölçü etalonu ilə ölçmək mümkün deyil... Taleyin işlərini heç bilmək olmur... İlk dəfə tələbəlik illərində biləndə ki, həqiqi valideynlərimin əhatəsində böyüməmişəm, o an ağlıma gələn: "Mən də belə alicənab, möhtəşəm bir valideyn olacağam", - fikri olmuşdu. İlk dəfə o zaman özümə söz verdim ki, mən də valideynlərini itirmiş bir körpəyə sahib çıxıb, isti qucağımı ona açacagam.

Yenə də qarşımdakı fotoda mənə boylanan Şəhidimizlə sohbətləşirəm. "Kaş ki" - ifadəsini çoxdan leksikonumdan çıxarsam da... Kaş ki, ətrafındakı qohumlardan biri comərd çıxıb sizə də sahib dursaydı... Kaş ki, bir körpənin pərişan saçlarına sığal çəkməyin savabını qazanıb, günahlarından azad olsaydılar. 94 yaşında rəhmətə qovuşan ağzı dualı, namazını, orucunu heç boş buraxmayan, el ağsaqqalı babam hər zaman: "Bu iki şeyi unutmayın" -- deyə nəsihət edər, -- "bu iki günaha batanı Uca Allah bağışlamaz", deyərdi. "Bir yetimin mal-dövlətinə sahib çıxanları və bir də bir övladının qazancını digər fərsiz övlada yedirib israf edənləri"... Nələr olmuş, nələr keçmiş ətrafında... Oxuduğum xəbərlərdə atan üçün verilən təqaüdə sahib çıxan əmilər və artıq yadlaşmış xalalar, bibilər... Hamısından da bol-bol vermiş YARADAN... O tərəfdən heeeç əskiyin olmamış! Ehh... Biz bilməsək də Uca Allah bilir... Gəl, başqa mövzuya keçək biz. Bütün bunlar sənin böyük adına yaraşmayan xırda, keçmişdə qalan mövzulardır... Bilirsən, əzizim, gəl ikimiz danışaq. Sən və mən... Vətən niyə uzun ömürlü olur, bilirsənmi? Heç vaxt, heç kimlə bu mövzuda dialoqa girməmişdim. Qismət indiyə və səninləymiş. Bütün yarıda qırılan, nakam gedən ömürlər üst-üstə yığılaraq Vətənin ömrünü uzun edərmiş. Nakam gedən ömürlər Vətənin ömrünə bir şans, bir can bağışlarmış. Davamlı olaraq yığılan bu canlar isə Vətəni uzun ömürlü edərmiş!.. İndi Vətənin bir parçası olan sən, bunu məndən daha yaxşı bilirsən axı! Vətənin hər qəlb atışında sən də varsan!

"Başın sağ olsun, Vətən" deyərik. Deyərik və ötüb keçərik. Biz gedərik, bir ananın təsəllisi isə, bir zamanlar bəzəksiz-düzəksiz, yarıac-yarıtox, Nüsrət Kəsəmənli demiş "Biri vardı, biri yox" olan, ölümündən sonra isə bəzəkli və sahibi çox olan bir məzar olar... Burda bir yanlışlıq oldu, mən "ölüm" dedim, Şəhidlər ölməz axı... Qohumlar, qonşular, məktəb və tələbə yoldaşları fəxr edər: "Qürur yerimizdir, biz heç bilməmişik ki, bir qəhrəmanla uzun illər çiyin-çiyinə yaşamışıq, biz ən yaxın dost, sirdaş, yoldaş idik", deyərlər. Halvalar çalınar, imamlar Qurandan ayələr oxuyar... Küçələrdə gecələyən bəziləri isti yeməkdən yararlanar, kimlərsə savaba batar... Gəlib gedənlər çəkilər, yol-iz boşalar... Hamı dağılıb evinə gedər. Yaralar qaysaq bağlayar.

Fövqaladə bir hal baş verəndə yenə yada düşər Şəhidlər...

Yalnız bir ana hey ağlayar...

O da... əgər anası varsa...!!!

Ağlamağı sevən biri olmasam da, hər səni düşünəndə gözümdə nəm, boğazımda ağrılı bir düyün olur, Şəhidim.

-Sən, mənim Şəhidimsən. Mən isə On milyonam!

---

## MƏXFİLİK QRİFİ

*Ruhuna toxunan insanı tap: Danışanda gözləri gülən və səni olduğun kimi sevən.*
*Leo Buscağila*

Bəzən bir bahar günəşinin doğuşundan, bir qönçə gülün açmasından, bir rüzgar əsintisindən, bir leysan yağışının təsirindən sehrlənmiş hisslərimiz bizi anlamadığımız məchul qaranlıqlara sürükləyər.

Hüdudsuz dəniz sonsuzluğunda çırpınan, tüğyan edib, dünyaya sığmayan hisslər burulğanından qaçmaq istəyərsən!

Bir dostluq adı altında daldalanmaqdan…

Anlamadığın, qaçıb, gizlənmək istədiyin duyğuların biruzə verilməsindən qorxub qarşındakını incidərsən!

-Əcaba, anladımı, -- deyə sorarsan özündən…

Anlayarsa bir ayıb… Anlamasa min ayıb! – Duyğusuz biri – deyib təəssüflənərsən də…

Günəşin yayılan bir telinə, axan bir bulud toplusuna baxıb:

-Əcaba, o da seyr edirmi..? – deyə sual edərsən özündən. – Baxırsa, xatırlayırmı məni…

Xəfif əsən bahar küləyinin gətirdiyi rayihəni sinəsinə çəkərək:

-Bu onun qoxusu – deyirmi?

Qəsdən onu maraqlandıran mövzulardan, bəzən də incə duyğulardan söhbət açarsan. Düşünərsən – Mən olmayanda məni xatırlasın – deyə…

Bəzən bir etiraf istəyərsən… Sirli sehirli bir ahənglə:

-Bir etiraf istəyirəm, etiraf güclü xarakterli insanlara xas olan xüsusiyyətdir – deyərsən. – Etiraf etməkdən çəkinməyin, bəlkə qarşınızdakı adam məhz onu gözləyir – deyə israr edərsən! Bəlkə də israr yox, təhrik edərsən…

–Məgər hər kəlməmizdə, hər salamımızda, hər açılan sabahımızda etiraf etmirikmi?

Hər sübh pəncərədən salam təbəssüm...

Hər axşam gözlənir… səhər gələn gün!” – deyər.

Sonra isə bir paylaşım edər:

“Verib də ala bilmədiyim bir nəfəs. İşığını qeyb etmiş bir ulduz… Atəşini itirmiş bir günəş… Her şey yarım, hər şey əskik…”

Əminəm ki, yalnız bir seyirçisi var!

İkimiz də dərinliklərdə qeyb olmadan, nəzərlərimizi yayındırıb, xəyallarda ciddi-ciddi baxışaraq qəlblərimizin istəklərini etiraf edərik! Bəzi şeylər var ki, demək olmur. Bəzi şeylər var ki, anlaşılması susqunluqdan keçər.

Qəlbin o qədər şad olar ki, sadəcə susarsan. Gözlərinin dərinliyində xoşbəxtlik reverans edərək sevgi serenadası oxuyar. Susarsan… Şükürlər edərsən. Nə yaxşı ki, varsan deyə… Nə yaxşı ki, qəlbimizin sevinclə atması üçün gözəl şanslar verirsən deyə…

Və qəlbin qayğısız, dəcəl uşaqlar kimi atəşfəşanlıq edər… Gözlərini yumub ecazkar musiqi sədalarının müşayiət etdiyi mavi buludlar dünyasına düşərsən.

Hər halıyla ecazgar olduğu üçün sevə-sevə dinlədiyimiz musiqiyə bənzəyər insan ömrü. Gah kədərli, gah çılğın, gah sevincli... Sevgi kimi musiqinin də irqi, ölkəsi, sərhədi, statusu, rəngi olmasa da, insan ruhunu qidalandıran gözlə görülməyən nəsə olar... Yetər ki, qəlbimizə musiqi dünyamızın pəncərəsindən girən biri ilə dinləyəsən.

Bəzən bir günəşin doğuşundan, bir ulduzun axmasından, bir baxışdan sehrlənmiş hisslərimiz bizi anlamadığımız qaranlıqlara çəkər…

Bəzən baş verəcək hadisələrin qarşısını almaq üçün qaçmağa çalışarsan. Duyğuları sınıq-salxaq sandıqlarda basdıraraq uzaqlaşmaq istəyərsən, məhəllədən, şəhərdən, hətta ölkədən… əlvida demədən....

Yalnız sevdasına sadiq qəlbin üzgün-üzgün əlvida söyləyər…

Hərdən bir-birimizə üfüqlərdən boylanarıq. Göydəki aya, günəşə, ulduza baxdığımız kimi. Əlçatmaz. Suya həsrət səhra kimi...

Düşünərik orda birisi var. Məni hər zaman xatırlayan və sevən.

Biz başqa-başqa qütblərdə yaşayanlarıq. Var olan və heç zaman qovuşmayan. Bəlkə belə əlçatmaz olması bu qədər cazibədar edir?.. Bəlkə mən safam və yalnız mən belə düşünürəm. Bəlkə çözə bilməmişəm səni! Əsla... Bəzən bilərəkdən kobud görünmək istəyinin fonunda həssas, sevgi dolu bir ürək gördüm. Başqasının görmədiyi, çözmədiyi və yalnız mənim duyub, hiss etdiyim, sevgi dolu və sevgiyə möhtac bir sən gördüm.

Heç nəyi öz rəngində, öz yerində olmayan, hər şey yarım, hər şey əskik...

Əlvida.

Hər şey bu qədər gözəl ikən, safkən, duyğusalkən... Qəlbimin ən dərin guşəsində sevgi varkən... Hər ikimizin sorumluluqları varkən... Yolumuzu gözləyən bir neçə cüt göz varkən!

Sonu bilinməyən qaranlıqlara girmədən…

Xəyalları, xatirələri kirlətmədən...

Bir-birimizi sevgi ilə, qəlb dolusu xatırlamaq varkən... Əlvida deyə bilməmək varkən, yol yaxınkən.

Əlvida...

Düşün ki, orda birisi var. Səni hər zaman sevən, xatırlayan birisi...

Qaçmaq istəyərsən bu şəhərdən. Qaçmaq istəyərsən dünyaya sığmayan duyğularından! Sezilmədən... Üzərindən məxfilik qrifi götürülmədən.

mart, 2021



MƏHƏMMƏD ƏLİ

**Nə ömürdür yaşayıram?**

Öz içimdən qəlpələndim,
Nə ömürdür yaşayıram?
Artır hər gün qəmim, dərdim
Nə ömürdür yaşayıram?

İllər keçdi, doldum yaşa,
Dəydi başım daşdan-daşa.
Ümidlərim çıxdı boşa,
Nə ömürdür yaşayıram?

Bağ saldım, zay çıxdı barı,
Azdı könül qəm-qübarı.
Qaldı mənə göz yaşları,
Nə ömürdür yaşayıram?

Demə özüm bilə-bilə
Verdim ömrü əsən yelə.
Əriyirəm gilə-gilə,
Nə ömürdür yaşayıram?

Qəm yuvası - könül taxtım
Yazılmışdır belə baxtım.
Gözləyirəm gələn vaxtı
Nə ömürdür yaşayıram?

10.11.2023



NAİBƏ YUSİF

# ASTANA

*hekayə*

Göy gurultusu səngimək bilmədi. İldırımın qaranlıq səmada buraxdığı iz vahimə saçdı. Bunun ardınca qatarın polad relslərlə savaşını xatırladan taqqıltı ara vermədən onun qulaqlarını döyəclədi. Gözlərini açıb gecənin vahiməsindən canını biryolluq qurtarmağa çalışdı, amma kirpiklərini bir-birindən aralamağa göz qapaqlarının gücü çatmadı. Hiss etdi ki, ixtiyarı tamamilə əldən gedir, qəribə bir boşluq onu ağuşuna alır, nə isə bütün vücudunu silkələyir, başının arxası hər tərpənəndə yastı dəmirə sürtülür. O, ötüb-keçənləri yadına salmağa çalışdı, amma hər təkanda bütün əzalarını bürüyən dəhşətli ağrıdan huşunu itirdi. Növbəti dəfə ayılanda kiminsə təəssüflə dediyi sözləri xatırladı:

-Heyif, Elkam, səni də itirdik.

-Sən nə deyirsən? O, sağdır, hələ nəfəsi var...

-Düzdür, nəfəsi var, amma bu qədər ağır yara ilə onu Qubadlıdan Füzuliyə salamat çatdırmaq mümkün deyil. Qəlpə bütün bədənini doğrayıb, bəlkə də, son dəqiqələrini yaşayır... Bunu da şəhidləri aparan maşına qoyun.

Nə qədər ehtiyatla götürsələr də, dəhşətli ağrıdan qıvrılan Elkam gözlərini açdı, Seyfəddini başı üstündə görüb ona nəsə demək istədi, amma deyəcəyi sözlər yarıaçıq dodaqlarında təbəssümə çevrildi. Seyfəddinin: - Komandir, sən yaşayacaqsan, hələ birlikdə çox yol gedəcəyik! – sözlərini zorla eşitdi. “Ural” markalı maşın təkanla yerindən qalxanda isə

onun üçün bütün dünya qaraldı. Bu qaranlıq mühitdə nə qədər qaldığını yan-yana uzadılmış şəhidlər kimi o da bilmədi.

-Yəqin ki, mən də şəhidəm, artıq ağrılarım da yavaş-yavaş azalır. Böyük yolçuluğun lap astanasındayam. O Böyük nura çatmağıma az, lap az qalıb. Artıq onun ətrini də duyuram. İlahi, bu nə parlaqlıqdır, nə gözəllikdir! Yolumun üstündəki kölgə də, yəqin ki, tuba ağacınındır. Bircə oraya çatsaydım, sinə dolusu nəfəs alardım, rahatlanardım...

Hə, Elkam, bura sənin cənnətindir. Tüstülü, dumanlı dünyanı həmişəlik tərk edirsən. Həyatın yenidən başlayır.

O, qəddini düzəltdi, yeni dünyasına qucaq açaraq astanadan keçmək, nur selinə qarışmaq istəyirdi ki, Elmiranın səsini eşitdi:

-Elkam, atanın xəbəri varmı?

-Nədən?

-Sənin orduya yazılmağından.

Elkam gülümsündü:

-Ana, sənin xəbərin vardımı?

-Yox. İndi xəbər tutdum. Axı sən təzə evlənmisən. Həm də evin tək oğlusan. Heç olmasa...

-Nə olsun ki, təzə evlənmişəm. İçimdən gələn səs mənə rahatlıq vermir, ana. Ayağımı hər dəfə torpağa basanda utanıram.

-Nədən utanırsan, ay bala?

-Torpaqdan utanıram, ana, onun duasını ala bilmədiyim üçün xəcalət çəkirəm.

Gözlərində giləlınən yaşı görəndə dayana bilmədi, anasını qollarının arasına aldı. Qapının ağzında boynunu buran gəlinə baxaraq:

-Məndən ötrü narahat olma, birinci dəfə deyil ki, orduya getməyim. Bilirsən ki, mühafizə bölüyündə baş əsgər olmuşam. Müəyyən qədər təcrübəm də var, - deyib anasının əllərindən öpdü, - üstündə gəzdiyim torpaq dayağım, Allah köməyim olacaq. Bizim üçün dua et, ana.

O, çantasını əlinə aldı, gözlərində kədər yatan anasını bir də qucaqladı:

-Gülümsə, ana, oğlunu gülə-gülə yola sal ki, sizdən arxayın olum.

Arxasınca atılan suyun şırıltısına geri qanrıldı. Elmira ana gülümsəyərək əlini yellədi:

-Sağ get, salamat qayıt, oğlum. Allah səni qorusun...

***

Yenidən bəyaz bir dünya onun üzünə gülümsədi. Ətri bir-birinə qarışan çiçəklərin rayihəsi ruhuna xoş bir sərinlik çilədi. Quşların səsi aşkar eşidilməyə başladı. Ağ göyərçinlər qanadlarını tərpətdikcə sərin meh könlünü oxşadı, artan ağrıları yenidən səngidi. Elkam bəyazlıqda əriyən bu quşların arxasınca irəliləmək istədi, lakin:

-Sənin nə qəribə adın var? – sualını eşidib ayaq saxladı.

Yanaşı addımladığı tabor komandiri Məmmədov sualı versə də, cavab gözləməyən adamlar kimi əlindəki durbinlə düşmən mövqelərini nəzərdən keçirirdi. Manqa komandirindən səs çıxmayanda mülayimcəsinə soruşdu:

-Adının mənası nədir?

-Doğrusu, hansı anlamı verdiyini mən özüm də bilmirəm. Amma bildiyim odur ki, anam Elmira ilə atam Kamalın adlarının ilk hissəsindən yaranıb.

-Belə de, çox qəribə səslənir. – Komandir bir də diqqətlə qarşı tərəfi nəzərdən keçirdi: - Yolumuz irəliyədir. O dağları görürsənmi? – və cavab gözləmədən sözünə davam etdi, - Biz o yüksəkliklərdə qərar tutmalıyıq, Qubadlı hökmən alınmalıdır.

Axşamayaxın yüz əlli nəfərlik şəxsi heyət yola düşdü. Ermənilər qorxudan kəndləri boşaldıb qaçmışdılar. Sarıyataq və Bala Soltanlı kəndlərinə çatanda şəxsi heyət iyirmi beş nəfərlik dəstələrə bölündü. Elkamgilin dəstəsi Qubadlı istiqamətində hərəkət etmək əmri aldı.

Payız olduğu üçün havada az da olsa sazaq vardı. Əsgərlər uzun yolu piyada qət edib Həkəri çayının üstündəki körpüyə çatdılar. Sahilləri birləşdirən körpü partladıldığı üçün çayı keçmək çətinləşdi. Çayın sahili minalardan təmizləndikdən sonra göndərilən “Ural” əsgərləri sol sahilə keçirdi. Dayanmaq qəti qadağan idi. Elkam sol tərəfdə yerləşən palıd meşələrini görəndə Talış dağlarını xatırladı, onunla yanaşı addımlayan Seyfəddini dümsüklədi:

-Tanış gəlirmi? – o, əli ilə dağları bəzəyən ağacları göstərdi.

Seyfəddin təzəcə görürmüş kimi ağacları seyr etdi, sonra əlini-əlinə vuraraq dedi:

-Bayaqdan qəribə hiss keçirirəm ki, buralara mən nə vaxt gəlmişəm? Doğrudan ey, bizim meşələrə nə qədər bənzəri var?

Qabaqda gedən Milli Qəhrəman Həmid Şükürov əlini qaldırıb ayaq saxlayanda hamı susdu. Qarşıdan ermənicə danışıq səsləri gəlirdi. O, rişxəndlə güldü:

-Bizi necə ovlayacaqlarından danışırlar, daha dü-

şünmürlər ki, ən böyük tələ quran Allahdır. Bizi qoruyan da odur.

Döyüş başladı.

Qəfildən yaxalanan ermənilər çaşqınlıqdan nə ölülərinə, nə də yaralılara baxdılar, sağ qalanlar geri qaçmağa başladılar. Komandirin səsi eşidildi:

-Onları sağ buraxmaq olmaz, Elkam, Seyfəddin siz mənimlə gəlin, qalan əsgərlər sağ tərəfdən irəliləsin.

Birinci yüksəklik ələ keçirildi, ikinci yüksəkliyi almaq da çətin olmadı. Amma üçüncü yüksəklik birdən-birə od püskürdü. Komandir səsləndi:

-Mərmi qəlpələrindən qorunmaq üçün hərə özünə səngər qazsın.

Bir-birindən bir neçə metr aralı qazılan adam boyu səngərlər hazır olanda üç tərəfdən yağan güllələr və mərmilər göz açmağa imkan vermədi. Arxa tərəfdəki qayalıq dilə gələndə isə komandir tam mühasirəyə düşdüklərini anladı. O, yerini dəyişmək istəyəndə snayperdən atılan güllə alnını dəldi. Elkam ona tərəf sürünüb çağırdı:

-Komandir! – o, komandiri arxası üstdə çevirdi. Məmmədovun gözləri asta-asta yumuldu.

-Yaman yerdə axşamladıq, qardaş, buradan o yana yol yoxdur, - Peyman zənlə Elkama baxdı. - Allah kərimdir, bilmək olmaz son necə olacaq, ay Peyman. Mən ümidsiz deyiləm. Əsir düşmək niyyətim də qətiyyən yoxdur.

-Elə mənim də, - Peyman qürurla cavab verdi.

Yaxınlıqda partlayan mərminin zərbəsindən qulaqları tutulan Seyfəddin deyilənləri eşitməsə də, silahını yerə qoymamışdı.

-Sən mənim səngərimə keç, mən bir qədər qabağa sürünəcəm, - deyib Peyman yerini dəyişdi. Elkam səngərini dəyişən kimi növbəti mərmi düz onun çıxdığı səngərə düşdü.

-Bu yerdə deyiblər ey, "anan namaz üstə imiş", - qonşu tabordan olan əsgərin səsini erməni qırıcılarının gurultusu batırdı.

Xoşbəxtlikdən atılan bombalar arxa qayalıqlarda gizlənən snayperlərin mövqelərini darmadağın etdi. Elkam təbəssümlə Peymanın üzünə baxdı. İndi yaralıları arxaya aparmaq olardı. Yaralılar köçürüləndən sonra döyüş meydanında cəmi dörd nəfər salamat əsgər qaldı. Mövqeyi əldən verməmək qəti qadağan idi. Üçü də:

-Kömək gələnə qədər duruş gətirərik, inşallah, - deyən əsgərə tərəf baxdı.

Qolundan qəlpə yarası alsa da, o, gümrah görünürdü. Elkam qonşu tabordan olan əsgərin dediklərini başı ilə təsdiqlədi. Düşmən tərəfdən üç "Ural" maşını görünəndə əsgər ermənilərdən qalan qumbaraatanı çiyninə qaldırdı:

-Öz silahınız sizə qənim olacaq, - deyib qabaqdakı maşını nişan aldı.

Mərmi birinci maşının yaxınlığında partlayanda digər maşınlar dayandı və geri dönüb sürətlə uzaqlaşdı. Qulaqları eşitməsə də, Seyfəddin əlini əsgərin kürəyinə vurdu:

-Vallah, oğulsan e! Bir saatdan sonra yüz nəfərlik dəstə azad edilmiş yüksəklikdə möhkəmləndi. Elkamgil dincəlmək üçün geri göndərildi...

***

-Kim inanardı ki, biz o cəhənnəmdən çıxa biləcəyik?

-Vətən torpağına cəhənnəm deməzlər.

-Torpağa cəhənnəm deyən kimdir ki? Mən döyüşü nəzərdə tuturam.

-Hə, əsl cəhənnəm idi, - deyib Seyfəddin siqaretinə dərin qullab vurdu.

-Uşaqlar, siqaret çəkməyin, düşmən gecəgörmə cihazları ilə istənilən an yerimizi öyrənə bilər, - yoldaşlarından on-on beş metr kənarda dayanıb köməyə gələn əsgərləri qarşılamağa hazırlaşan Elkam sözünü bitirər-bitirməz lap yaxınlıqda bir raket mərmisi partladı. Partlayışın dalğası onu bir neçə metr yuxarı qaldırıb yolun sol tərəfindəki gicitkənliyə tulladı...

O, ayaq tappıltılarına ayıldı, heç bir yerində ağrı yox idi.

-Bəs nə üçün buraya düşmüşəm? Yuxumu görürəm, ya bu, həqiqətdir?

Elkam əlini yerə dayaq edib qalxmağa, var gücü ilə "mən buradayam" deməyə çalışdı, amma nə qolu tərpəndi, nə də səsi çıxdı. Əlindən buraxmadığı avtomatının qundağını yerə dayadı, lüləsindən tutmaq istədi, yenə bacarmadı, cismindəki ağrıları yalnız indi hiss etdi. Duydu ki, ruhu cismini tərk etməyə hazırlaşır. Yenə həmin bəyazlıq, yenə həmin astana...

Bu dəfə də üzünə dəyən yumşaq şillələr onu bəyaz dünyadan ayırdı:

-Hə, qəhrəman, bu qədər yatdın, daha bəsdir. Oyanmaq vaxtıdır.

Göz qapaqları açıldıqca Elkamın gözü qarşısında sayrışan ulduzlar yavaş-yavaş yoxa çıxdı. Ağ xalatlı həkimləri görəndə zorla da olsa, gülümsədi...

25.01.2023



## RAMİZ İSMAYIL

### DÜNYA GÖZƏL DÜNYADIR

*Hüseyn Arifə rəhmət*

Vəfasız deməyin qoca dünyaya,
Öz ruhu, öz qəlbi, öz vəfası var.
Duya bilsən dünya gözəl dünyadır,
Bir dərdi versə də yüz dəvası var

Dünyada gözəllik hərədə bir cür,
Zirvədə bir cürdür, dərədə bir cür.
Ovçunun sindiyi bərədə bir cür
Kabab iyisi var, köz havası var.

Qartal – quslar şahı – göydə süzəndi,
Yaşılbaş sonalar göldə üzəndi.
Ceyranlar Muganda, Mildə gəzəndi,
Kəkliyin qayada öz yüvası var.

Ağ saçlar ağıllı başda gözəldi,
Ağıllı başlarda saç da gözəldi.
Payız da gözəldi, qış da gözəldi,
Yenə könüllərdə yaz havası var.

Dünya hər biçimdə, ölçüdə gözəl,
Çəmən də gözəldi, xalça da gözəl.
Lilpar da gözəldi, dolça da gözəl,
Ayna bulaqların öz avazı var.

Meşənin öz yeri, bağın öz yeri,
Şorun şor yeri var, yağın öz yeri.
Aranın, yaylağın, dağın öz yeri,
Duman havası var, buz havası var.

Ramiz gözəlliyi, gözəli sevir,
Saralıb solsa da xəzəli, sevir.
Tarı, kamançanı, qəzəli sevir
Qəlbində laylalı saz havası var.

08.10.2023, Xırdalan şəhəri

### İNDİ NƏDƏN YAZIRSAN?

*(özümə)*

Cavanlıqda məhəbbətdən yazardın,
Tənha şair, indi nədən yazırsan?
Gözəllərdə vəfa yoxdu deyirdin,
Qoca vaxtı tər sinədən yazırsan!

Damarında qanın coşub-daşanda,
Tərif dedin bulaqların başında.
Ömrün, günün payızında, qışında
Gül-çicəkli mənzərədən yazırsan.

Əlin qələm tutmur, dilin söz daha,
Taleyindən gileylənmə, döz daha.
Neyləyəsən – nurdan düşüb göz daha,
Boylanırsan pəncərədən – yazırsan!

Təsbeh oynat, dərdin bəlkə dağıldı,
Tərlan vaxtın xatirədi, nağıldı.
Güvənc yerin, təskinliyin ağıldı,
Tanrı verən xəzinədən yazırsan!

Şair sözlü, Ramiz adlı biri var,
Ürəyində buz bağlayan sirri var.
İndən belə nə mənası, xeyri var?
Bağrın olub zədən-zədən, yazırsan!
Tənha şair, indi nədən yazırsan?

10.09.2023, Xırdalan şəhəri

**YAZIRAM**
*(özümə cavab)*

İndi nədən yazdığımı soruşdun
Hökmə qulam, itaətdən yazıram.
Səcdə qılıb yaradanın lütfünə
"Şükür" deyib ibadətdən yazıram.

İsti vurur, təntidikcə nəfəsim,
Yazmaq üçün hardan olsun həvəsim.
Bir özüməm, bir quruca qəfəsim,
Məcbur olub ətalətdən yazıram.

Sim pas atıb, kökdən düşüb sazım da,
Qış kimidir baharım da, yazım da.
Ağ kağızda yetim qalıb yazım da
Həqiqətdən, ədalətdən yazıram.

Bu dünyanın müəmması bilinməz,
Tələbatı, təmənnası bilinməz,
Dələduzu, üləması bilinməz
Hərdən çaşıb siyasətdən yazıram.

Olüm haqdı, gileylənmək nahaqdı,
Ramiz, qəlbin durnagözlü bulaqdı.
Söz mülkümün "qibləgahı" Budaqdı*,
Hücrəsini ziyarətdən yazıram.
12.09.2023, Xırdalan şəhəri

* - *Ustad şair Budaq Təhməz nəzərdə tutulur*

**AY QOCA DÜNYA...**

Məndə küsmək adət deyil əzəldən,
Mən səndən küsmədim, ay qoca dünya.
Özümdən küsmüşəm yeri gələndə,
Mən səndən küsmədim ay qoca dünya.

Şumal oğlan idim, gənc idim mən də,
Eşq adlı kövhər də, inci də məndə.
Hərdən gileylənib incidim mən də,
Mən səndən küşmədim, ay qoca dünya.

Dağların dağ boyda tabı məndədir,
Duyğunun təmizi, safı məndədir.
Ruhlara açılan qapı məndədir
Mən səndən küsmədim, ay qoca dünya...

Bulağın başında isti yandırdı,
Ocaq dura-dura tüstü yandırdı.
Ümid bəslədiyim küsdü, yandırdı,
Mən səndən küsmədim, ay qoca dunya.

Bir kasıb bağbanam, bağım da yoxdur,
Sinəmdə çal-çarpaz dağım da çoxdur.
Köksüm qəmlə dolu, ahım da coxdur
Mən səndən küsmədim, ay qoca dünya.

Mən görmüşəm ürək üzmək nə imiş,
Ağız əyib, dodaq büzmək nə imiş,
Nahaq yerə umub küsmək nə imiş
Mən səndən küsmədim ay qoca dünya.

Bir ana bir dünya gözəli doğdu,
Ramizi bu dünya gözəli boğdu.
Özü dara çəkdi, öz əli boğdu,
Mən səndən küsmədim, ay qoca dünya.
21.10.2023, Xırdalan şəhəri

**YAŞA HƏLƏ...**
*Hüseyn Arifə rəhmət*

Cavan ömrü yelə verdin,
Qoca ömrü yaşa, Ramiz.
Gül-çiçəkli yaz sevirdin
Gəlib cıxdın qışa, Ramiş!

Gəzdin məğrur ərən ömrü,
Tanrı qismət verən ömrü.
Nə deməkdir Kərəm ömrü,
İndi düşdün başa, Ramiz.

Saç ağarıb, dümağ qardı,
Qız qaytaran vaxtın vardı.
Gözün görmür, qulaq kardı,
Dərdin gəlib qoşa, Ramiz!

Dilin bala batmasa da,
Ürəyinə yatmasa da,
Əlin aşa çatmasa da,
Başın catıb daşa, Ramiz!

Həyat bir də düşməz ələ,
Bu gününə şükür elə.
Tezdi, doydum demə hələ,
Hə bacarsan yaşa, Ramiz.
26.10.2023, Xırdalan şəhəri



ƏHMƏD HAQSEVƏR

# ŞEİRDƏN YOĞRULAN XANIM

*Lilpar CƏMŞİDQIZININ yaradıcılığından*

Çağdaş Azərbaycan qadın şairlər arasında kifayət qədər imzasını tanıda bilmiş Lilpar Cəmşidqızının yaradıcılığını iki hissəyə bölmək olar – heca və əruz şeirlərinə. Bəri başdan bunu qeyd edim ki, hecada və ya əruzda yazılmasından asılı olmayaraq hər iki sahə öz-özlüyündə möhtəşəmdir. Lilpar xanımın yaradıcılığına boylanarkən əvvəlcə heca şeirlərindən başlamaq daha düzgün olardı.

Lilpar xanımın heca vəznində yazdığı şeirləri əsasən aşıq yaradıcılığından qaynaqlanır. Yəqin ki, şeirlərindəki səmimiyyət və saflıq da burdan irəli gəlir. Şairə xanım “Şair ömrü” şeirinin elə ilk bəndindəcə şair ömrünün mahiyyətini poetik bir şəkildə tam dolğunluğu ilə aça bilmişdir:

Tanrıdan güc alan bir mələyəm mən,
Elə bil səmadan Yerə enmişəm.
Sözlərim gül-çiçək, sinəmsə çəmən,
Nə gözəl şeirə, sözə dönmüşəm.

Lilpar xanım fikirlərini gözəl ifadə edə bilir. Həmin şeirdən daha bir bəndə diqqət yetirək:

Bir sevinc işığı gəlir gözümə,
Həyat da gül açır, sanki dirçəlir.
Bər-bəzək vururam hər bir sözümə,
Şeirdən qoluma güc, qüvvət gəlir.

Bəli, şairə şeirlə yaşadığını, şeirlə nəfəs aldığını çox gözəl ifadə edə bilmişdir. Şeirin, poeziyanın sayəsində şairənin yolundan bütün çətinliklər çəkilir, yox olur;

Yazıram, əriyir qəlbimdə qübar,
Yenidən gəlirən sanki cahana.

Bu beyt də həmin şeirdəndir.

“Xəyallarım” qoşmasında vüsal dəminin xoş anları necə də gözəl təsvir olunur:

Salmayaq bir daha ayrılıqdan söz,
Dəyməsin sevgimə yad nəfəs, yad göz.
Mənim ürəyimdə alışdıqca köz,
Yar qoyur odunu közümün üstə.

Lilpar Cəmşidqızı sevgidən və yurd həsrətindən daha çox yazır. Şeirlərində ruh yaxınlığı olsa da, təkrarçılıqdan qaçmağa çalışır. Hər şeirini yeni bədii detallarla, tapıntılarla zənginləşdirir. Onun şeirləri cəlbedici və oxunaqlıdır. Lilpar xanımın “Qərib məzarlar” adlı şeirinin bir bəndinə nəzər yetirməklə şairə xanımın poetik gücünü görmək mümkündür:

Doğma torpağından ayrı düşənlər,
Qərib məzarların sakini oldu.
İnsanlar qayıdar yenə yurduna,
Hər qərib məzarı qayıtmaz yoldu.

Görün, erməni vəhşiliyinin əlamətlərini şeirinin

bircə bəndində necə də məharətlə göstərə bilmişdir Lilpar Cəmşidqızı. “Sən mənim sevgimə bürünüb yaşa”, “Uzaqda tək qalmış arzu kimisən”, “Boğuluram suya düşmüş xəyaltək”, “Əllərim uzanıb yoluna sarı” … - Lilpar xanımın şeirlərində bu cür poeziya libasına bürünmüş misralar çoxdur. Lilpar xanımın şeir dili sadə, axıcı və şirindir. Şairə xanım çox məhsuldar işləyir. O şeirlər içində nisbətən zəifləri də ola bilər. Ümumilikdə baxanda yaxşıların sayı olduqca çoxdur. Ədəbi yaradıcılığının inkişaf dövrünü keçirən Lilpar Cəmşidqızının öz uğurlarına qəzəlləriylə yol açdığını demək mümkündür. Son dövr Azərbaycan ədəbi səmasında parlayan qadın qəzəlxanlar Sona Xəyal Maştağa, Mahirə Nərimanqızı Mahi, Naibə Yusif, Sürəyya Nəsib, Mehriban Məhərrəmova, Aynur Qafarlı, Xatirə Xatun kimi şairələrtək Lilpar Cəmşidqızı da öz layiqli yerindədir. Onun qəzəllərini sevən, dəyər verən böyük oxucu kütləsi vardır. Özümü də o kütlə içərisində gördüyümdəm çox məmnunluq duyuram. Əruz vəzninin müxtəlif bəhrlərində yazmış olduğu poetik və dolğun qəzəllərini böyük maraqla izləyənlərin sayı daim artmaqdadır.

Bülbültəki ah ilə fəğan eyləyirəm mən,
Kor olsun əgər baxsa gözüm bir gülə sənsiz.

Həzəc bəhrində yazılmış qəzəlin bu beyti necə də sadə və sadə olduğu qədər də şirindir. Hansı bəhrin hansı növündən asılı olmayaraq onun yazdığı qəzəl yenə şirin, ritmlə səsləşən, kiçik bir əruz xətası belə olmadan “doğulacaqdır”. Fikrimizin təsdiqi üçün onun qəzəllərindən nümunələr gətirək:

Gülü sevginin cücərmir, onu bəsləmək çətindir,
Gözümün yaşın içəndən, quruyub çölüm, düzüm də.

Nə gülüşlərim qalıbdır, nə də bəxtəvər zamanlar,
Əzilib təbəssümümdən qırışıb, solub üzüm də.

Bu iki beyt Lilpar xanımın yazdığı rəməl bəhrinin “fə’ilAtü fAilAtün fə’ilAtü fAilAtün” qəlibində (növündə) olan qəzəlindəndir. Axıcılıq, şirinlik, uzun və qısa hecalı sözlərin yerlərinə tam qq oturdulması gözəl ahəngdarlıq yaradır. Bu xanımın əruz yaradıcılığında bir fərqli əlamət də nəzərə çarpmaqdadır. Mənə tanış olmayan, ilk dəfə rastıma çıxan bir qəzəlin hansı bəhrin hansı növündə (qəlibində) olduğunu təyin etmək üçün bəzən həmin qəzəlin beş-altı misrasını oxumalı oluram. Lilpar xanımda bu problem, ümumiyyətlə yoxdur. Niyə? Çünki qəlibin tələb etdiyi uzun və qısa hecaların ardıcıllığına elə ilk misradan tam və dəqiq şəkildə əməl edir Lilpar Cəmşidqızı. O, deməк olar ki, süni sait uzatmalarından istifadə etmir. Lilpar xanımın, bu gözəl şairəmizin həzəc bəhrində yazdığı “qan verir” rədifli qəzəlinin iki beytində bunu aydın şəkildə görmək mümkündür:



Nədən sənin təbəssümün donub,
dodaqda can verir? -
Gözündə qaynayan bulaq axıb yanaqda can verir.

Dedin, gülüb danışmısan o gün toyunda həsrətin,
Düşünmədinmi qismətin qalıb qıraqda, can verir?

Lilpar Cəmşidqızı əruzun bütün bəhrlərində və növlərində yazır. Qəzəlxanlar arasında bir az çətin bəhr sayılan MÜZARE bəhrində də şairə xanımın neçə-neçə qəzəli vardır. Onun bu bəhrin “məf’Ulü fA’ilAtü məfA’İlü fA’ilün” qəlibində (növündə) gözəl qiraətçimiz, eyni zamanda şair və görkəmli yazıçı olan Arzu xanım Balsəs Heydərovaya həsr etdiyi qəzəlində bu xanımın obrazını yarada bilmişdir:

Tanrım gözəl yaratmış bu dünyada, tərtəmiz,
İlhamı çoxdu sevgi-məhəbbətli Arzunun.

Lilpar yazır qəzəldə bu sözlərlə Balsəsə,
Şərbətdi, həm də bal, səsi hörmətli Arzunun.

Yuxarıda qeyd etdiyim kimi, Lilpar xanım üçün bəhrlərin heç bir fərqi yoxdur. Onun müxtəlif bəhrlərdə yazdığı qəzəllərin mətlə beytlərindən istifadə edərək bir neçə nümunə verməklə qəzəlxan şair kimi tanınan Lilpar Cəmşidqızının qəzəl yaradıcılığında rəngarəngliyini göstərməyə çalışaq.

Gedib bəlalı günlər, Vətən zəfər çalıbdır,
Şəhidlərin qisasın igidlərim alıbdır.
(Həzəc: məfA'ilün fə'Ulün məfA'ilün fə'Ulün)

Zülməti yardıq, açılıbdır səhər,
Torpağı aldıq, bitəcək qəm-kədər.
(Səri: müftə'ilün müftə'ilün fA'ilün)

Həsrət məni salmış oda, qəlbim köz olubdur,
Yandıqca könül yarələrim göz-göz olubdur.
( Həzəc: məf'Ulü məfA'İlü məfAİlü fə'Ulün)

Gündoğandan işıqlandı səhər,
Şöləsindən gözəlləşir bu şəhər.
(Xəfif: fA'ilAtün məfA'ilün fə'ilün)

Söylədiyim hər qəzəl burda rəvayət deyil,
Qafiyəsiz bir rədif fikrü məharət deyil.
(Münsərih: müftə'ilün fA'ilün müftə'ilün fA'ilün)

Oxucunu yormamaq üçün nümunələri burda saxlamağı məsləhət bildik. Yoxsa, siyahını uzatmaq olardı yenə. Axı Lilpar xanım Azərbaycan ədəbiyyatında işlənən 11 bəhrin növlərindən əlavə törəmə qəliblərdə və digər xalqların ədəbiyyatında işlənən əruz bəhrlərində də qəzəllər yazmışdır.

Bir şair kimi imzasını tanıtmış Lilpar Cəmşidqızı Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvüdür. İndiyədək onun qoşma, gəraylı və müxtəlif şeirlərdən ibarət 4 kitabı, son olaraq 2021-ci ildə "Divan"ı çapdan çıxmışdır. Lilpar xanımın "Divan"ına ön sözü dəyərli şairimiz İlqar Fəhmi yazmışdır. Bizim məqalədə sitatlar gətirilən qəzəllərin heç biri o divanda getməmişdir. Lilpar xanımın yeni yazdığı qəzəllərin sayı olduqca çoxdur, bəlkə də, yeni bir "Divan" təşkil ediləcək qədərdir. Sevimli şairəmizə yeni uğurlar arzulayırıq.



## BƏXTİYAR ABBAS İNTİZAR

### SALAVAT

Gedirəm bu fitnə, yalan dünyanın
Hər vəchlə büsbütün baxıb içindən.
Yolboyu gərdişim bambaşqa oldu,
Gəldim dağ çayıtək axıb içindən.

Rahat yaşamağa öyüm çatmadı,
Saray tikdirməyə səyim çatmadı,
Bir məsum olmağa heyim çatmadı,
Zülmət ağuşunun çıxıb içindən.

Hələ ağ olmayıb belə ağ qədər,
Hələ dağ olmayıb Qarabağ qədər.
Ürək salamının yükü dağ qədər,
Salavat yığıram sıxıb içindən.

30.10.2021

### ŞƏKILDƏ

Hər şeyin altı var, üstü var, Qağa,
Dünya yaradılıb kəsir şəkildə.
Baxma xəritəyə, ürəyin əsər,
Bir kürə fırlanır, əsir şəkildə.

Aman vermədilər, yazım şerimi,
Bir çimir yuxuyçun, salım yerimi...
Hara çırpalayım tozum-kirimi,
Yapışıb qalmışam əsir şəkildə.

Köklənib duyğuya tapıram aman,
Gələndə misralar, tuturam mizan.
Başlasa deyərəm könlümdə tufan,
Yoxsa sözüm gəlir nəsir şəkildə.

Vaxtın gözəlliyi mənə qısılıb,
Hicranın böyüyü alna yazılıb.
Başımın üstündən yüz baş asılıb,
Bütün dünya sönüb tək bir şəkildə.

Ey Yar, Bəxtiyaram, çıxmışam yola,
Çətin rüzgar məni heyimdən sala.
Əlimi üzmərəm, haqqa and ola,
Vədə gözləyirəm təkbir şəkildə.

31.10.2023

## ÇƏTİNDİ

Beytul maldan çək gözünü, a yetim,
Öz payını asan almaq çətindi.
Ürəklərdə eşq atəşi səngiyib,
"Şur" oxumaq, Segah çalmaq çətindi.

Al əlinə yola çıxsan bir çəlik,
Hər tərəfdən açılıbdı min dəlik...
Bulaşırsan itə, qurda gündəlik,
Baş endirib namaz qılmaq çətindi.

Bir ümid yox payızından, qışından,
Baş açmazsan dəccalların işindən...
Budayırlar sərvi boyu başından,
Bu yerlərdə uca olmaq çətindi

29.08.2023

## AMANNAMƏ

Papaqları soxubdular yerə, oy,
Tuman verin, başımızı girləyək.
Fitnə gəlir Səqifədən bu günə,
Guman verin, başımızı girləyək.

Gözə gələn, ağıl kəsən yarsıdı,
Yer də, göy də sanki bizə qarşıdı...
Səba yeli bizi yaman qarsıdı,
Yaman verin, başımızı girləyək.

Mina kimi hər yan tələ, gözləyək,
Ömür etmir vəfa, hələ gözləyək,
Şeytan bizi salıb ələ, gözləyək,
Zaman verin, başımızı girləyək.

Zəhərlənib yediyimiz çörək də,
Vaksinlənib, sevgi yoxdu ürəkdə,
Başımıza nələr gəlir, görək də...
Aman verin, başımızı girləyək.

Qəzza yanır, odda insan qaynayır,
Fələk baxıb öz işini tək sayır...
Qollar qalxıb şər havası oynayır,
Kaman verin, başımızı girləyək.

24.10.2023

## DEYİR

Mənə qulaq asın, axır zamandı,
Zamanın dərdini pir aşıq deyir.
Siyasət nə desə aldanmaq olmaz,
Hər şeyi planlı dolaşıq deyir.

Daha ziyan ilə işlər bazarlar,
Hər yana yaxılıb süni azarlar.
Şairlər çoxalıb, artıb yazarlar,
Yüzdə doxsan beşi bulaşıq deyir.

Sabaha inam yox, bərk deyil belim,
Bir zamin yerim yox qoyulsun əlim.
Hələ ki, işləkdi bu duzlu dilim,
Haqqdan qafillərə yaraşıq deyir.

24.08.2021

## SİNƏM

Hələ görən yoxdu əhdin üzünü,
Torpağı sevgidən, daşı nur sinəm.
Yenə üz qoyubdu qeybin yoluna,
Məni də aparır, daşınır sinəm.

Qəfəsə yığmışam yağılarımı,
Əl qoysam yer üzü dağlılar imiş.
Ruhuma oxuyum ağılarımı,
Ömür bayatıma əsinir sinəm.

Yenə yaşamağın dəbimi gəlib?
Ağrının köntöyü, çəpimi gəlib?
Bir də qan qusmağın təbimi gəlib?
Məftunluq halımda isinir sinəm.

Bəlkəlik içindən deyilən səs nə,
Cavab olmayıbsa bu səsi kəs... nə,
Qaşları oxşayım, kipriyə bəs nə,
Həsrətdən, hicrandan aşınır sinəm.

Daha kimlik deyil belədən beləm,
Dünyayla bir şərik malım yox böləm.
Əlim ürəyimə çatmayır öləm,
İçdən şirin-şirin qaşınır sinəm.

21.08.2019

**AŞAĞI**

Bir insan ömürü nəsibim olub,
Əllidən yuxarı, yüzdən aşağı.
Ən gözəl təbəssüm şirindi baldan,
Buxaqdan yuxarı, üzdən aşağı.

Mən ki intizardan doya bilmədim,
Bir qalib imzamı qoya bilmədim,
Dünyanın ətrini duya bilmədim,
Burundan yuxarı, gözdən aşağı.

Köçüb xatirələr, yeri qalıbdı,
Mənası dəyişib quru qalıbdı,
Hələ deyəcəyim duru qalıbdı,
Duyğudan yuxarı, sözdən aşağı.

21.08.2020

**EDƏRDİM**

Dünya elə qəliz deyil,
Tamamilə dərk edərdim.
Dağıdıb şeytanbazarı,
Keçmişlərə görk edərdim.

Açardım hər cinayəti,
Ötürməzdim xəyanəti.
Qopardım qiyaməti,
Şiddətini bərk edərdim.

Həkk edərdim gözdə nəmi,
Var hər işin özəl çəmi.
Ağrıları cəhənnəmin
Sazağına kürk edərdim.

Səhv qoyulub burda qiymət,
Yozulub tərsinə hikmət.
Verilməyib mənə qüdrət,
Yer üzünü sirk edərdim.

21.08.2021

**SÖYÜDLÜ**

Bir izin ver kölgələnim,
Heç halımı sorma, bağban.
Müəmmalı baxışınla,
Ürəyimi qırma, bağban.

Bu nə tufandı, bu nə sel,
Yox ağızda diş, başda tel...
Bilmir kəsilmək qara yel,
Üzü tərsə durma, bağban.

Bəxtiyara vermə öyüd,
Nə bir ələ, nə bir üyüd...
Söyüdlüdə bitməz söyüd
Gəl özünü yorma, bağban.

28.07.2023

**QALIBDI**

Çox gözlədim, sən gəlmədin,
Vaxt-vədəyə az qalıbdı.
Vəfamız dönməsin tərsə,
Ortalıqda söz qalıbdı.

Göz-qulaqdan uzaqda biz,
Ürək birgə, ayrı bəniz...
Yığışdırıldı süfrəmiz,
Qalan təkcə duz qalıbdı.

Əl üzmüşəm göydən, yerdən,
Dönəcəkdir bu üz birdən.
İtə bilmirəm nəzərdən,
Üzərimdə göz qalıbdı.

Kalan susdum, çox az dedim,
Heç bilmirəm nələr edim...
Sözümü söyləyib gedim,
Desinlər ki, iz qalıbdı.

Gəlib çatdı ölüm-itim,
Gedim, gedim gorda bitim...
Əyilibdi qədd-qamətim,
Təkcə ruhum düz qalıbdı.

12.07.2023

## ELƏMİ?

Özbaşına qalan millət!
Başın qaşınır, eləmi?
Tor qurumuş gözlərində
Yaşın qaşınır, eləmi?

Qarakəndə nifrin yağır,
Tutan tutur, yığan yığır.
Kürəyində qabar, yağır,
Döşün qaşınır, eləmi?

Adına adlar qoyublar,
Başına yadlar qoyublar.
İçinə odlar qoyublar,
Dışın qaşınır, eləmi?

Yoxun imiş işlək yerin,
Yaylaq yerin, qışlaq yerin
Canında çox dişlək yerin,
Dişin qaşınır, eləmi?

Çoxdu qazdırılmış quyun,
Min-mindi talendə düyün.
Xocalıda havan, suyun,
Daşın qaşınır, eləmi?

26.08.2021

## GƏLMİŞƏM

Dünyanın lap o başından
Ha basa-basa gəlmişəm.
Bu boyda uzun ömürü
Yolları qısa gəlmişəm.

Dünyadan qiymət almağa,
Tək sözdən miras qalmağa,
Əbədi qalib olmağa,
Üç günlük yasa gəlmişəm.

Mətləblərin qısasıyam,
Çox danışsam qusasıyam.
Son döyüşün Musasıyam,
Əlimdə əsa gəlmişəm.

Doğruyam, yalanım yoxdu,
Sevgidə planım yoxdu,
Çarmıxım-filanım yoxdu,
Məsihi İsa gəlmişəm.

05.11.2020

## OLAM

Mən ki, insan yaranmışam
Düşünmə ki, maket olam.
Nə bir hədiyyə deyiləm,
Nə bir kəsə paket olam.

Arzu-diləyə yetməyə,
Özüm özümdə bitməyən...
Dünyadan uçub getməyə,
Gərək ancaq raket olam.

Kaş ki, məşhər yeli əssin,
Bütün fitnə sönsün, sinsin.
Ay Allah səsini kəssin,
Dillən ki, bir sakit olam.

02.11.2021

## GEDİRƏM

Mən çox gözəl bilirəm
Hara doğru gedirəm.
Yayda dağlara sarı
Qara doğru gedirəm.

Eşq badəsi içməyə,
Öz gülümü seçməyə,
Qıl körpüdən keçməyə,
Nara doğru gedirəm.

Kölgə olub sürünən,
Təkəm qəmə bürünən,
Yoxluq kimi görünən
Vara doğru gedirəm.

Dünya mənə deyil xoş,
Doymadım, oldum meyxoş.
Görüşünə əliboş
Yara doğru gedirəm.

10.09.2023

**ÇIXIR**

Yenə bərk tərləmişəm,
Kürəyimdən duz çıxır.
Yanıram öz içimdə
Nəfəsimdən köz çıxır.

Baxıram ətrafıma,
Çürüyümə, safıma.
Qalıbdı ınsafıma,
Söz əlimdən düz çıxır.

Tər güllər tez solur ki,
Yaman üzlər gülür ki…
Elə işlər olur ki,
Baxanda lap göz çıxır.

Dünyanın dərd örtüyü,
Çoxdu şeytan dürtüyü.
Yeddi ilin sürtüyü
Ərə gedib qız çıxır.

26.08.2018

**QAN ŞEİRİ**

Siz ağıllı qırışmal,
Mən aşiqəm, bu səyəm.
Siz tər basmış dodaqda,
Mən gül üstə busəyəm.

Dəyişibdi yaraqlar,
Gecıkibdi soraqlar.
Siz yellənən bayraqlar,
Mən Musada əsayam.

Haqqa yamaq tikilmiş,
Şərin qəsri tikəlmiş.
Siz çarmıxa çəkilmiş,
Mən qeyb olmuş İsayam.

Doğuluşum qəhərdən,
Şəhadətim səhərdən,
İmam Həsən zəhərdən
Qan qusduğu kasayam.

23.07.2020



**ƏVƏZ KÜSKÜN**

# SAMOVAR ƏHVALATI

**hekayə**

***Xalq şairi Musa Yaqub və akademik Xalid Əlimirzəyevin əziz xatirələrinə***

İsti iyul ayı idi. Məzunyyətə çıxmışdım. Kəndə getmək qərarına gəldim. Adətim üzrə səhər erkən oyandım. Səhər yeməyini yeyib evdən çıxdım. Hava çox isti idi. Avtobusa minib avtovağzala gəldim, məzuniyyət vaxtı olduğuna görə avtovağzalda qələbəlik idi. Kassaya yaxınlaşıb Qəbələyə bilet istədim. “Avtobus indicə yola düşüb, növbəti avtobus bir saatdan sonra olacaq”, dedilər. Bu dəm çiynəmə əl toxunanda çevrilib baxdım.

-Hara gedirsiz? – Qarabuğdayı, qəşəng görkəmli bu oğlan soruşdu.

Dedim:

-Qəbələyə çatmamış, Buynuz kəndinə gedirəm.

-Getdik, - deyib əlimdən tutdu. – Mən özüm Qəbələyə gedirəm.

Kassadan ayrılıb oğlanla yanaşı şəhərarası avtobus dayanacağı tərəfə getdik. Yolun sağ  tərəfində duran qara rəngli “Mersedes” maşınının yanında dayandıq, çevrilib:

-Necədir, gedə bilərik? – Mən suala cavab verməmiş, o, cibindən maşının açarını götürüb sağ tərəfdəki qapını açıb nəzakətlə “buyurun”, - dedi.

Keçib sürücünün yanında, sərnişin yerində oturdum. Şəhərdən çıxana qədər heç birimiz danışmadıq. Şəhərdən çıxandan sonra mən:

-Qardaş, gəl yola körpü qoyaq, - dedim.

Sürücü nə dediyimi yaxşı başa düşüb:

-Hə, düz deyirsiniz, mən kondisioneri xoda salım.

Sürücü hanısa düyməni basdı. Elektrik mühərrikinin xəfif səsi maşının salonuna əks-səda verdi. Həlim sərinlik sifətimə dəydikcə bir rahatlıq hiss etdim. Sürücü sözə başladı:

-Qardaş, yaşamaq çətinləşib. Səhərdən gözləyirəm ki, bir müştəri tapım, heç olmasa, benzin pulunu çıxarım. Hamı avtobusa üstünlük verir, hər maşına minmirlər, öz təhlükəsizliklərini qoruyurlar.

-Eh, nə qədər qovrulsan da hər şey qismətə bağlıdır, - dedim.

Gülə-gülə mənim dediklərimi təsdiqlədi.

Yol uzunu müxtəlif mövzuda söhbət edə-edə heç bilmədik ki, nə vaxt çatdıq Buynuz yoluna.

-Hə, çatdıq.

Sürücü maşını yolun sağında, kənarda saxladı. Əlimi cibimə saldım ki, sürücüyə pul verim, gülümsəyib "lazım deyil, mən sizi yola yoldaş kimi götürmüşəm", - dedi. Nə qədər çalışdımsa, o, pulu götürmədi. Sağollaşıb ayrıldıq.

Bu dəm siqnal səsinə çevrildim. Kənd uşaqlarınan idi. Maşın saxlayıb: - Gəlin, - dedi. Kəndə isə cəmi üç kilometr yol idi. Sürücü mənimlə səmimi görüşdü. Keçib maşına mindim. Bir neçə dəqiqədən sonra kəndə çatdıq. "Sağ ol" dedim.

Evə çatıb həyətdəki su krantına yaxınlaşıb əl-üzümü yudum. Tut ağacının kölgəsində qoyulmuş stulda əyləşdim. Evdə heç kim yox idi. On dəqiqə keçmiş olardı ki, oğlum gəlinimlə gəldilər, görüşdük.

-Bostanda idik. – dedilər.

Vedrədə təzə-tər həyət tərəvəzləri vardı. Gəlin samovara baxıb, "hələ soyumayıb", – dedi və ocaqdan samovara bir neçə köz atdı. Evə keçib, podnosda çay dəsgahı üçün qab-qacaq, müxtəlif şirniyyatlar gətirdi, Çay süzüləndə üzümü gəlinimə çevirib zarafatyana:

-Acın zəhləsi sudan gedər, - dedim.

Gəlin tez salat hazırladı. Ocaqdan üstündəki kiçik qazanı gətirib:

-Toyuq bişirmişik, - dedi.

Qazanın qapağı götürülən kimi xörəyin işdahaçan ətri ətrafa yayıldı.

Nahardan sonra Musa Yaqubun yanına getmək qərarına gəldim.

Saat ikiyə qalırdı. "Saatın tamamında şairin yanında olaram", - deyib ayağa qalxdım. Nahar üçün gəlinə təşəkkür edib həyət qapısından küçəyə çıxdım.

Şairin darvazası qarşısına çatanda düz saat iki idi. İçəri keçdim. Girişdən sağ tərəfindəki quraqlığın altında şairin ömür-gün yoldaşı Zöhrə xanım qaz peçinin qarşısında sanki öz-özü ilə danışırdı.

-Salam, Zöhrə xanım. Nə olub yenə, deyəsən, öz-özünlə danışırsan.

-Aaa... Nə yaxşı gəldin, - deyə mənimlə sevincək görüşdü. – Danışmayım nə edim axı? Musanın qonaqları var. Yeyib-içib çıxdılar dağdağan ağacının altına. Samovarı qaynadıb ora aparmalıyam. Bayaqdan fikirləşirəm ki, qaynar samovarı ikinci mərtəbəyə, ordan da dəmir körpü ilə dağdağanın dibinə necə aparım? Yaxşı ki gəldin.

Çevrilib samovara baxdım. Samovarın başından qaynar buxar havaya qalxırdı. Samovarın iki qulpundan yapışıb dəmir pilləkənlə yuxarı qalxdım. Təbiətin yaratdığı daş stolun ətrafında şairlə qonaq daş stullarda əyləşmişdilər. Şair cəld yerindən durub samovarı qoymaq üçün yer göstərdi. Samovarı göstərilən yerə qoyub, şairlə görüşdüm.

Musa Yaqubun qonağını elə uzaqdan tanımışdım. Şair məni qonağa təqdim etmək istəyəndə, qonaq:

-Tanıyıram, - dedi. – Səhv etmirəmsə, üçüncü dəfədir görüşürük.

Qonaq hörmətli akademikimiz Xalid Əlimirzəyev idi. Əl uzadıb mənimlə səmimi görüşdü.

-Bağışlayın, gedim çaya lazım olanları da gətirim, - deyib dəmir körpüyə qayıtdım.

Zöhrə xanım çay dəsgahına nə lazımdırsa bir podnosa düzmüşdü. Podnosu götürüb geri qayıtdım və stəkanları bir-bir kənara qoyub, əvvəlcə şirnyyatları yerbəyer etdim, çay süzüm deyə, stəkanları götürdüm. Çevriləndə samovarı yerində görmədim. Şairdən:

-Samovar hanı? – deyə soruşdum.

O da özünəməxsus bir əda ilə, dağdağanın ətəyindən axan dəyirman arxını göstərdi və gülə-gülə:

-Xəbərin olmayıb, samovarı dərəyə dığırlamısan, ində də samovar hanı deyirsən.

Baxdım və gördüm ki, samovar başı aşağı arxın içindədir. Xeyli gülüşdük, Şair üzünü mənə çevirib yazıq görkəmi ilə:

-Get, gör qazın üstündə qaynar çaynik varsa, götür gəl. – dedi.

Zöhrə xanımın yanına qayıdana kimi doğruya oxşar bir yalan hazırladım. Zöhrə xanım məni görüb:

-Daha nə lazımdır? - deyə soruşdu.

Gülə-gülə söyıədim:

-Bilmirəm mənimmi, ya da ki, Dədənin (Musa müəllim ailədə Dədə adı ilə təqdim olunurdu) şalva-

rının balağına samovarın lüləyi ilişib, suyun hamısı axıb çıxıb gedib. Qaynamış çaynikin varsa, ver aparım.

Zöhrə xanım gülə-gülə ərinin qarasına deyindi:

-Bilirəm, Musanın işidir. Daim nəsə bir hoqqa çıxarmalıdır. Qazın üstündəki ağ böyük çayniyi apar.

Çayniyi götürüb tez yuxarı çıxdım. Stəkanlara çay süzdüm. Özüm də daş stullardan birində oturdum.

Çay içə-içə müxtəlif mövzuda söhbətlər etdik. Xalid müəllim mənim də arada şeir yazmağımdan xəbərdar idi. Üzünü mənə tutub:

-Yaxşı olar ki, "Şeh damcısı" şerini bizim üçün söyləyəsən, - dedi.

Düzü sıxıldım:

-Mən sizin qarşısınızda necə şeir deyə bilərəm? - deyə dilləndim.

Bu dəmdə şair üzünü mənə çevirdi:

-Gör səndən şeiri kim istəyir? De, gəlsin.

Başladım.

Yenə doğma elə düşdü güzarım,
Canımda qalmadı azar-bezarım.
Doğma, isti yuvam, soyuq məzarım,
Nə yaxşı varsınız bu yer üzündə.

Çəmənlikdə lalə sanki mayakdır,
Sübhə kimi o yatmayır, oyaqdır.
Yel əsdirir, otlar ona dayaqdır,
Az qalır ki, çənən yansın közündə.

Şeh damcısı ot üstündə incidir,
Elə bilmə otları şeh incidir.
Sığal çəkir, təmizləyir, çimdirir,
Puçur-puçur təri qalıb üzündə.

Çox qılınclar qaldı qında korşaldı,
Neçə dəfə dünya doldu boşaldı.
Heç deməyin Əvəz vaxtsız qocaldı,
Cavanlığım daim yaşar sözümdə!

Şeiri oxuyub qurtardım, şair əlini əlinə vurub alqışladı:

-Bax, budur poeziya! Nizami Gəncəvidən başlayıb bu günə qədər hamı parlayan şeh damısını görüb, amma bu cür onu kəşf eyləyən olmayıb.

Xalid müəllim şairin sözünə qüvvət verdi:

-Bilirsən, axı o sənin əmin oğludur. Onun da dünyaya, təbiətə baxışı səndə olduğu kimidir.

Xalid müəllim sonra üzünü mənə çevirib sözünə davam etdi:

-Halal olsun! - dedi. – Qaldı ki, samovar çayına, sağlıq olsun, gözləyək samovarın təmir olunmasını.

Şair aciz bir görkəm alıb:

-Yaxşı, neyləyək? - dedi.

–Sən maşının açarını mənə ver, hər şey yaxşı olacaq, - dedim.

Şair açarı vermək istədi, amma birdən onu quraqlığın altındakı sütundan asdığını yadına saldı. Çay dəsgahı qab-qacagını yığışdırıb aşağı düşdüm. Zöhrə xanım təşəkkür etdi. Qalıb nahar etməyimi söylədi.

-Yeyib gəlmişdim: - dedim. – Amma bir stəkan sərin su olsa, içərdim.

Zöhrə xanım soyuducunun qapısını açdı, orada su olmadığını görüb evdəkində olmamış olmaz dedi və evə sarı getdi. Sütundan açarı götürdüm. Zöhrə xanım evdən də əliboş qayıtdı.

-Eybi yox, - deyib yerimdən durdum. Dağdağanın dibinə qədər uzanan dəmir körpüyə çıxmadan arxın üstündəki taxta körpüdən keçib samovar tərəfə gəldim.

Samovar arxın içində idi. İstəyirdim Zöhrə xanım görmədən onu aparıb maşının yük yerinə qoyum. Gözləyirdim ki, Zöhrə xanım evə girsin. Alındı. Zöhrə xanım evə girən kimi samovarı götürüb maşının yük yerinə qoydum və tələsik dağdağanın dibinə qayıtdım. Şair mənalı-mənalı mənə baxıb əl işarəsi ilə nə edə bildiyimi sual etdi. Mən də əl işarəsi ilə hər şeyin əla olduğunu bildirib yerimdə oturdum. Xalid müəllim şairə baxıb:

-Bu kişi olmasaydı işimiz heç yaxşı olmayacaqdı, - dedi.

Bu dəm yoldan siqnal səsi gəldi, Xalid müəllim:

-Mənim maşınım gəldi, - deyib ayağa qalxdı.

Biz də onunla bərabər dəmir körpü ilə həyətə düşdük. Xalid müəllim Zöhrə xanıma minnətdarlıq edib, sağollaşdı və çöl qapısına tərəf addımladı.

Xalid müəllim maşına minməzdən öncə əlini mənə uzadıb:

-Sağ ol, Küskün Əvəz. Yaxşı olardı ki, sən Küskün sözün Cəsarət sözüylə əvəz edəsən.

Gülüşdük. Şair də onun sözünə dəstək verdi:

-Allah qoysa, dəyişib Əvəz Cəsarət qoyar, - deyib əlini Xalid müəllimə uzatdı və: - Gözləyəcəm, gələrsən, - deyib səmimiyyətlə görüşdülər.

Xalid müəllim mənim də əlimi sıxıb maşına mindi. Maşın bizdən uzaqlaşanda mən də getmək istədim. Birdən yadıma düşdü ki, maşının açarı cibimdədir. Açarı şairə uzadıb sağollaşanda zarafatla:

-Sən hələ burdasan? Gedib iki-üç günə qayıdacağam. Bu samovar əhvalatından yaxamı qurtar deyib

əlini mənə uzatdı və görüşüb ayrıldıq.

Məzuniyyət nə vaxt başa çatdı, heç bilmədim. Sabaha Bakıya qayıtmalıyam. Əşyalarımı yığışdırdım ki, telefonum səsləndi. Musa Yaqub idi:

-Qayıdıram, bizə tərəf gəl, - dedi.

Qapıdan çıxdım. Yavaş-yavaş kənd yuxarı qalxırdım ki, arxadan siqnal səsi gəldi. Çevrilib baxdım. Şairin maşını idi. Saxlayıb məni də götürdü. Görüşdük:

-Hə, vəziyyət necədir? Zöhrə xanım samovar barədə heç nə bilmir ki?

-Əşşi, o qədər işi var ki, yadına samovar düşür? - dedim...

Qapısına çatıb həyətə girdik. Zöhrə xanım səsimizə bayıra çıxdı:

-Gəl çıx da, - deyib sevindiyini büruzə verdi.

Şair isə cavabında dedi:

-De görüm, yeməyə nəyin var? Öldük acından.

Zöhrə xanım gülə-gülə:

-Nə xəbərdi bir çat, sönra yemək istə, - deyə gileyləndi.

Şair həyətdəki bulaq suyunda əl-üzünü yuya-yuya danışırdı:

-Bakıda ən çox arzuladığım bu sərin su idi.

Elə bu an Zöhrə xanım dəsmal gətirdi. Yuyunub qurulandıq. Quraqlığın altında səliqə ilə düzülən stulun birini çəkib əyləşdim. Şair Zöhrə xanımdan evdəki soyuducudan araq gətirməyi xahiş etdi. Zöhrə xanım sual dolu baxışlarla şairə baxıb sanki:

-Buradakı soyuducuda var da. Gərək evdən gətirim? - dedi.

Şair:

-Bu başqa, evdəki başqa. Nə biləsən, ay yazıq?! – dedi.

Zöhrə xanım evə girən kimi maşının yük yerdən samovarı gətirib pərdənin arxasındakı rəfə qoydum və yerimdə oturdum. Zöhrə xanım peçin üstündəki çaynikdən çay süzmək istəyirdi ki, şair:

-Çay hələ qalsın, soyuducudan su ver içək, samovarı qaynadarıq, - dedi.

Zöhrə xanım şairin gəlişinə plov dəmləmişdi. Qazanın qapağı götürülən kimi plovun ətri ətrafa yayıldı. Yaxşıca yeyib-içdik. Şair Zöhrə xanıma:

-Hə, indi samovarın vaxtıdır, - deyib, mənə göz vurdu. Zöhrə xanım pərdənin arxasından samovarı götürdü və birdən:

-Bu ki bizim samovar deyil, - deyib təəccüblə bizə baxdı: - Deyin görüm, bu nə oyundur mənim başıma gətirirsiz?

Şair halını pozmadan:

-Axı nə olub? – deyə sual etdi.

-Ay Musa, vallah, bu samovar bizim deyil! Kimsə samovarı dəyişib.

-O hansı axmaqır ki, köhnə samovarı aparıb, yerinə təzəni qoysun? - deyib şair təfsilatıyla əhvalatı Zöhrə xanıma danışdı.

Xeyli gülüşdük... Təəssüflər olsun ki, o günlər bir də qayıtmayacaq. Mənə isə o günlərin şirin xatirələri qalıb.

2014-cü ilin soyuq noyabr ayı idi. Yasamalda yaşayan qohumumgildən qayıdırdım. “Elmlər akademiyası” metrosuna tələsirdim. Metroya otuz-qırx metr qalmış metrodan çıxıb iri addımlarla məni tərəfə gələn Xalid müəllimi tanıdım. Onun tələsdiyini, universitetə tərəf gəldiyini nəzərə alıb istədim özümü tanımazlığa qoyum, üzümü yana çevirmək istəyirdim ki, uzaqdan məni salamladı, yaxınlaşıb mənə əl uzatdı, çöhrəsində unudulmayacaq gülüş hiss etdim.

-Aradan çıxmaq istəyirdin? – dedi.

-Yox, Xalid müəllim, o nə sözdür, sizi görüb necə aradan çıxa bilərdim?

-Kəndə gedib-gəlirsənmi? – soruşdu.

-İki gündür kənddən qayıtmışam: - dedim.

-Hə, Musa necədir? Daha samovarı aşırtmır ki?!

İkimiz də ucadan güldük.

-Yayda Musanın qonağı oldum. Zöhrə xanım ikimizin də aşının suyunu verdi. Gileyləndi ki, həmin gün niyə açıb demədiniz ki, samovar aşıb, arxın içinə düşüb. Güya sizə nəsə deyəcəkdim?

Xalid müəllim birdən qol saatına baxdı:

-Məni bağışla, mühazirəm var. Allah qoysa, qismət olsa, Musa ilə bir yerdə, yaxşıca oturub samovar çayı içə-içə söhbət edərik, - deyib əlini mənə uzatdı. İri, ətli əlinin içində əlim görünməz oldu. Əlimi sıxıb:

-Yaxşı, salamat qal! - deyib iri addımlarla uzaqlaşdı.

İndi də onun əlinin hərarəti, o cüssəli qaməti, iri addımlarla addımlaması xatimdədir.

Çox təəssüflər olsun ki, 2016-cı ilin yanvarında Xalid müəllim əbədi olaraq həyata gözlərini yumdu. Bir daha onuna görüşmək mənə qismət olmadı.

Allah hər ikisinə rəhmət eləsin. Əcəl heç kimə güzəştə getmir və heç nəyə də baxmır. Neçə ki, Musa Yaqub bir şeirində deyir:

Ay Musa, bir daha şimşəyin çaxmaz,
Ömür çay kimidir, geriyə axmaz.
Əcəl şairliyə, qələmə baxmaz,
Görərsən, səni də torpaq apardı.

10.10.2023, İsmayıllı rayonu, Buynuz kəndi



XATİRƏ SƏFƏR

**Yenidən doğulmaq**

Qəlbimdəki dumanı dağıtdın ki, Allahım,
Yenidən düz yolumu aydın görümmü deyə?
Yıxdın, yerlə bir yeksan etdin bütün dünyamı
Divar-divar özümü yenə hörümmü deyə?

Gəldi döndü başıma qaçıb getmiş idrakım
Üsyanlar qırdı mənim belimin qabırğasın.
Dedilər ki, ay insan, olma belə naşükür,
Qayıt, yoluna qayıt, düşmə Tanrıya ası.

Allahın tək dərgahı dönəcəyin ocaqdır,
Nə dilərsən, dilə sən "cahanın ağası"ndan.
Sən ki, əzəldən bəri saxtalığı sevmədin,
Odur ki, bərk-bərk yapış Allahın yaxasından.

07.05.2023

**Atacan**

Dönmüşəm körpəcə qız uşağına,
Yadıma birbəbir düşür o çağım.
Sən idin ilk dostum, ilk müəllimim,
Sən mənim ən uca, güvənli dağım.

Mən, görən, layiqli övlad oldummu?
Görən, neçə dəfə xətrinə dəydim?
Uşaqkən etdiyim xətalarımdan,
Hər dəfə önündə başımı əydim.

Böyüdüm, atacan, məhəbbətinlə,
Qayğınla qol-budaq açdı ürəyim.
İllər yaşım üstə yaş gətirsə də,
Yenə qucağına qaçdı ürəyim.

22.09.2022

**Nakam sevgi**

Mən həsrət nəgməsi bəstələyirəm...
Səsini duyduğum o andan bəri...
Mən elə dualar edim gərək ki,
Yaradan zamanı döndərsin geri.

Sən vərdiş eylədin gəlib getməyə,
Gedişini indi nəyə yozum mən?
Səninlə qurduğum xəyallarımı,
De hansı silgiylə silib, pozum mən?

Hər dəfə vurursan zəif yerimdən,
Qalır qursağımda bu sevgi tikəm.
Səni ürəyimə həkk eyləmişəm,
Bir ömür yetməz ki, mən onu sökəm.

09.01. 2021

**Xocalı**

Hansı rəng ilə əvəz edəsən ki,
Yarım(çıq) qalan həyatların,
sönmüş günəş işığını...
hansı ahlarla səsini
ucaldasan göylərə ki,
Görə bilsinlər
körpə balaların gözlərinin oyuğunu...
Qulaqların kar olan,
ürəklərin daş olan dövrü idi Xocalı.
Əgər cana qıymaq idisə,
bəs nə idi bu vəhşətin amalı?
Məgər belə tale də
alınlara yazılarmı?
İnsanların qəbirləri

diri-diri qazılarmı?
Əlim yazmaz bu taleyi,
dilim deməz olanları.
Dəhşət necə bürüməsin
ordan geri qalanları?
Bütöv olan həyatların
paramparça qırıqları.
Məhv etmişdi insanlığı
İblis, şeytan varlıqları.
Yox, yox, hələ inanmiram,
Onlar deyil şər qüvvələr.
Heç olmaya Allahından
Qorxur hələ əcinnələr.
O varlıgın tək adı var –
ermənidir, erməni.
Həmin günsə çıxdı yoxa
Duaları qəbul edən,
Eşitmədi, görmədi....

**Duam**

Məni qoyma öz halımla çarəsizcə baş-başa
Gəl eyləmə aram ilə taleyimə tamaşa.
De ki: "qulum, al yenidən bu yazdığım qisməti,
Doya-doya çalışasan buyurduğum tək yaşa!"

Çoxdan olub istəyimi bağladığım, yumduğum,
Səndən başqa yox kimimsə bel bağlayıb umduğum.
Bilirsənmi, sənsiz ömrüm olubdur dağım-duğum,
Mən ki, SƏNdən çox razıyam, əksini bilmə haşa!

Qarışmazlar İlahinin işlərinə əzəldən,
Başdan yarat hücrə-hücrə, damla-damla təzədən.
Dünya malın ucaldaraq gözlərimdə bəzədən
Əhd edim ki,
rast gəlməyim heç vaxt daha bir "kaş"a

11. 12. 2020

**Səni sevirəm**

Səsin qulağımın ən xoş sədası,
Gülüşün ruhuma paydır, birdənəm.
Sürmüşəm yarama sən adlı məlhəm,
Sabaha ağrısı qalmaz bir dənə.

Qolların anamın qucağı kimi,
Nəfəsin duyduğum ən isti ocaq.
Başımı dizinə qoysam o andan,
Bütün küskünlüyüm unudulacaq.

Dodağın cismimin atəş yeridir,
Yandırar toxunsa bütün dərdimi.
Görən, sevənlərin eşqi, sevdası,
Vüsala çatdımı, sona ərdimi?

Bizim məhəbbətin adını deyim?
"Bir qara eşq "olsun gərək ki, ismi.
Sən necə sevirsən xəbərim yoxdur,
Amma hər nəfəsdə doğulur cismim.

17.07.2022

**Ümidsiz sevgi**

Bəzən sevdiyin dəniz boğar səni suyunda,
O sevişir zənn edər qoynunda çırpınınca...
Kəsər bütün dalğalar nəfəsini bir anda,
Hiss etmərsən ölürsən kipriyin qırpınınca.

Tərk edər ruhun səni, ayaq açar yeriyər,
Ən dərinə batırar sevdiyini bu dəniz.
Demə unudar səni, demə heç xatırlamaz,
Coşar fırtınalarda qalar səndən boş bir iz.

Dil açmayan dənizin dibində ölümlər var,
Bitmiş romanları var, yarımçıq hekayəsi.
Hər gecə batmış ruhlar dalğalarla güləşər,
Batırar qulaqları ümidsiz sevgi səsi.

......2023

**Huzur köşəm**

Qurtulub gündəlik qayğılarımdan,
Tutdum sənə sarı yolu, huzurum.
Dualar yolladım Allah evinə,
Sarıldı boynuma qolun, huzurum.

Küskün həyatıma gəldin pay kimi,
Sən işıq, sən həyat, can verdin mənə.
Bu necə sevdadır düşdüm, İlahi,
Yox oldu, qalmadı dərdim bir dənə.

Sən demə, illərdir gözlədiyim kəs,
Elə sənin ruhun, özün imişsən.
Sən mənim başıma bu dar dünyada,
Gələn ən uğurlu, xeyirli işsən!



**RUQİYƏ İSMAİLOVA**

**Azərbaycan Respublikasının
Dövlət Turizm Agentliyi
"Basqal" Tarix-Mədəniyyət Qoruğu,
ekskursiyaçı**

# BASQALDA APARILAN ELMİ-ARXEOLOJİ QAZINTILAR

***"Dünyada böyük dövlətlər var, amma böyük abidələr yarada bilmirlər. Çünki abidələrin memarlıq qiyməti ilə bərabər, bizim üçün bəlkə daha da böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu, təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da göstərir"***

***Heydər ƏLİYEV, Ümummilli lider***

**Açar sözlər : İsmayıllı, Basqal, arxeoloji abidələr, tədqiqat**

Azərbaycan dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biridir. Ölkəmizin ərazisində aşkar olunan arxeoloji abidələr ən qədim dövrlərdən başlayaraq müasir dövrədək burada baş verən sosial-iqtisadi dəyişiklikləri izləməyə imkan verir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra respublikamızda, istər mədəniyyət sahəsində, istərsə də arxeoloji tədqiqat və kəşfiyyat işləri yeni inkişaf dövrünü yaşadı. Bunun nəticəsi olaraq ölkəmizin bir neçə bölgəsində tarixin müxtəlif dövrlərinə aid çoxsaylı arxeoloji abidələr aşkar edildi ki, bu abidələrin tədqiqi Azərbaycanın qədim dövr tarixini, bu ərazidə baş verən mədəni-tarixi prosesləri öyrənmək üçün əsaslı rol oynadı.

Belə arxeoloji qazıntılardan biri də Azərbaycanın dilbər guşələrindən sayılan İsmayıllı rayonunun Basqal qəsəbəsində olmuşdur. Antik və orta əsrlərə aid abidələrlə zəngin olan bu qəsəbədə aparılan arxeoloji tədqiqatlar və qazıntılar nəticəsində tarixin açılmamış yeni səhifələri ortaya çıxdı. Burada elə yaşayış məntəqələri var ki, onlar orta əsr şəhər mədəniyyəti elementlərini bu günümüzdək özündə yaşadır. Özünəməxsus memarlıq abidələri ilə seçilən Basqal qəsəbəsinə qonşu olan kəndlərdə də orta əsrlərə aid bir neçə türbə, qala və istehkam qalıqları tapılmışdır. Qəsəbədə aparılmış 1927-ci ildə arxeoloji qazıntılar zamanı Şamaxı xanlığının XVIII əsrin sonu, XIX əsrin əvvəllərinə aid gümüş sikkələri və pul vahidləri, habelə Qalabaşı adlanan ərazidə isə Rusiya çarı I Pavelin adına kəsilmiş 1797-ci ilə aid pul vahidləri aşkar edilmişdir. Bu, Basqal və ətraf kəndlərin Şirvanşahlar (869-1538), Səfəvilər (1501-1736) və Şirvan xanlığı (1747-1820) dövründə iqtisadi-siyasi cəhətdən böyük rol oynadığını göstərir. Bu tapıntılar XVIII əsrin sonlarından etibarən Basqal və ətrafının ipək ticarəti mərkəzinə çevrildiyinin əsas sübutudur.

Ötən əsrin 60-70-ci illərində arxeoloq Fazil Osmanovun rəhbərlik etdiyi ekspedisiya heyəti

“Qalalar” adlanan ərazidə, habelə qonşu Kürdüvan kəndində aparılmış arxeoloji qazıntılar sübut edir ki, qəsəbədə və ətrafında hələ tunc dövründən etibarən məskunlaşma olmuş və bizim eranın I-II əsrlərinə aid yaşayış izlərinin olduğunu müəyyən etmişdir.

Basqal qəsəbəsinin qədim hissəsini əhatə edən bu ərazilər 1989-cu il 28 iyul tarixindən Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə “Dövlət Tarix və Mədəniyyət Qoruğu” elan edilmişdir. Hazırda qoruğun sahəsi 76 hektar təşkil edir. 2018-ci il tarixindən etibarən “Basqal” Dövlət Tarix-Mədəniyyət Qoruğu Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin tərkibində fəaliyyətini davam etdirir.



**Şəkil 1.**
**Professor Qafar Cəbiyevin Şeyx Məhəmməd məscidində apardığı arxeoloji qazıntı zamanı**

Bu arxeoloji qazıntıların davamı olaraq 2019-cu ildə Dövlət Turizm Agentliyinin təşəbbüsü ilə AMEA Arxeologiya və Etnoqrafiya İnistitutunun Ağsu-İsmayıllı arxeoloji ekspedisiyası və professor Qafar Cəbiyevin rəhbərliyi ilə Basqal qəsəbəsində tədqiqat işlərinə başladı. Bu tədqiqat işləri ilk dəfədir ki, rəsmi şəkildə həyata keçirilirdi. İlkin olaraq “Basqal” Tarix-Mədəniyyət Qoruğunun ərazisində yerləşən bazar meydanı, hamam və məscid kompleksi, Qalabaşı adlı istehkam tipli abidədə qazıntı işləri aparılmışdır. Basqalın yerləşdiyi zəngin təbii-coğrafi şərait insanların yaşaması üçün əlverişli iqlim, həmçinin qəsəbənin su mənbələrinə yaxınlığı ətraf yerlərdə yaşayışın hələ tunc dövründən etibarən başladığını söyləməyə əsas verir.



**Şəkil 2.**
**Basqal qəsəbəsində aparılan arxeoloji tədqiqatlar**
**(2019-cu il)**

Burada olan bir neçə yaşayış məntəqələrində, o cümlədən Qızlartəpə, Qalalar və Kürdüvan kimi ərazilərdə aparılmış arxeoloji qazıntı işləri antik və ilk orta əsrlərə aid zəngin maddi mədəniyyəti özündə əks etdirən həyat tərzindən xəbər verir.

2019-cü ilin oktyabr ayınadək davam edən arxeoloji qazıntılar zamanı isə Basqal qəsəbəsinin tarixinə dair elmi cəhətdən çox mühüm əhəmiyyət kəsb edən müxtəlif tapıntılar aşkar olunmuşdu. Bunlardan biri də qəsəbənin Bazar meydanı adlanan ərazisində 1531-ci ilə aid edilən Şeyx Məhəmməd məscidinin daxilində olmuşdur. Belə ki, bu məsciddə XI əsrdən etibarən formalaşmış olan və həm stratiqrafik, həm də xronoloji baxımdan biri digərini tamamlayan altı tikinti qatı qeydə alınmışdır. Ayrı-ayrı tikinti qatlarına uyğun olan bina qalıqları və məişət avadanlıqları son min il ərzində Basqal ərazisində intensiv yaşayış olduğunu təsdiqləyir. Aparılan arxeoloji tədqiqatlarda qədim diyarın tarixi, yerli əhalinin mənəvi dünyası, təsərrüfat və məişəti ilə bağlı bir çox suallara aydınlıq gətirdi.



**Şəkil 3.**
**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva İsmayıllı rayonunun Basqal qəsəbəsinə səfəri zamanı**
**(2022-ci il 12 avqust )**

Bu qazıntıların davamı olaraq 2021-ci ildə DTA-nin təşəbbüsü ilə yenidən AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən arxeoloji tədqiqatlar yönündə bir ay boyunca nəzərdə tutulan bütün işlər başa çatdırılmışdır. Burada aparılan qazıntılar zamanı bir çox şirli saxsı parçaları, saxsıdan su tüngünün qalıqları, qəbir daşı qalıqları, qolbaq parçaları, şirli gil qabların qırıntıları və.s arxeoloji tapıntılar aşkar olunub. Aşkar edilən bütün eksponatlar "Basqal" Tarix-Mədəniyyət Qoruğunun ekspozisiya fonduna təhvil verilmişdir.

Əsrarəngiz təbiəti, qədim tarix və mədəniyyəti, yüksək qonaqpərvərliyi ilə seçilən Basqal qəsəbəsi xalq sənətkarlığını qoruyub saxlayan və bu günə qədər yaşadan sənətkarlıq mərkəzlərindəndir. Hətta məşhur xalq sənətkarı Bülbül Basqal torpağını "Kiçik Şuşa" adlandırmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və xanımı Mehriban Əliyeva tərəfindən daima diqqət mərkəzində olan İsmayıllı rayonunun Basqal qəsəbəsi ərazisində qədimliyi saxlamaq şərti ilə abadlaşdırılma istiqamətində də bir çox işlər görülmüşdür.

2022-ci ildə Basqal qəsəbəsinə səfər zamanı Prezident İlham Əliyev görülən işlərlə yaxından tanış olmuş və demişdir: "Basqal qəsəbəsinin inkişafı, Basqalın tarixi irsinin qorunması ilə bağlı bir neçə il bundan əvvəl mənim tərəfimdən xüsusi Sərəncam verilmişdir. Bu Sərəncam əsasında Dövlət Turizm Agentliyi burada artıq bir müddətdir ki, işlər aparır. İşlərin təqribən 50 faizi başa çatıb və bu gün hər kəs bunu görə bilər. Basqal bizim qədim kəndlərimizdən biridir, özünəməxsus tarixə malik olan bir yerdir. Əlbəttə, mən çox istəyirdim ki, həm bu yerin tarixi siması qorunsun, eyni zamanda, burada yaşayan insanlar üçün daha yaxşı şərait yaradılsın".

Basqal qəsəbəsi ərazisində aparılan kompleks elmi tədqiqatlar zamanı bəşər tarixinin müxtəlif inkişaf mərhələlərinə aid zəngin maddi mədəniyyət qalıqları aşkar edilmiş və Azərbaycan ərazisinin ən qədim sivilizasiya mərkəzlərindən biri olması elmi faktlarla sübuta yetirilmişdir.

Görülən bütün bu işlər Vətən və dövlət sevgisindən yaranan gərgin əmək və misilsiz əzmkarlığın təcəssümüdür. Bu gün hər bir azərbaycanlı tariximizin canlı şahidi olan abidələrimizi ziyarət edəndə qürur hissi keçirir. Çünki abidələrimiz dövlət tərəfindən qorunaraq ölkəmizin zəngin tarixini gələcək nəsillərə ötürür.

**Ədəbiyyat siyahısı**

**Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. 2004. №2**

**Nurməhəmmədov M. N. "Girdiman abidələri". Bakı: 2014**

**Orucov A. "Orta əsrlərdə Azərbaycanda dulusçuluq". Bakı: 1989**

**Osmanov F. "Basqal-Niyal, Kürdüvan-Xankəndi ətrafında arxeoloji kəşfiyyat". (Saleh Qazıyevin anadan olmasının 100 illiyinə həsr edilmiş sessiyanın materialları). Bakı: 1994**

**Osmanov F. "İsmayıllı rayonunun arxeoloji abidələri haqqında Azərbaycanın maddi mədəniyyəti", c. VI. Bakı: 1965**



ESMİRA GÜNƏŞ

**ANA VƏTƏN –
AZƏRBAYCAN**

Azərbaycan torpağı igidlər yetişdirib,
Qarabağdan oğullar bizə müjdələr verib.
O mənfur düşmənlərdən azad olub torpaqlar,
Ən uca zirvələrdə dalğalanıb bayraqlar.

Nəhayət, Natəvanın ruhu rahatlıq tapıb,
Xudayarın təsnifi bütün dillərə hopub.
Hopub Vətən sevgisi damardan axan qana,
Biz can qurban edərik doğma Azərbaycana.

Vətən bizə anamız, balamız tək əzizdir,
Bu sevgi elə safdır, büllurtək tərtəmizdir.
Uşaqkən dil açanda "Ana Vətən" deyərik,
Biz vətəni bir ömür ölümünə sevərik.

Ən gözəl duaların içindədir Vətənim,
O mənim yurd yerimdir, odur mənim məskənim.
Hər nəfəsi gözəldir, hər dağı, hər dərəsi,
Dolaşır diyar-diyar vətənimin nəğməsi.

Qoruyarıq əbədi hər qarış torpağını,
Öpüb, əzizləyərik üçrəngli bayrağını.
Uğrunda ölüm olsa, geriyə çəkilmərik,
Bircə qarış torpağı biz düşmənə vermərik.

Üçrəngli bayrağımın mavisidir türklüyüm,
Qırmızı şəhid qanı, qırmızı özgürlüyüm.
Yaşıl islam dinimiz, müsəlmanıq, həmd olsun,
Bir də ay-ulduzu var, bayrağımız qorunsun.

Var müzəffər ordumuz, tarixə dastan yazan,
Düşmənin öz əliylə özünə qəbir qazan.
Təmizləyən torpağı mənfur ermənilərdən,
Gərək həddin bildirək o murdarlara hərdən.

Bir də ayaq basmasın, gəlməsin torpağıma,
Toxunmasın əlləri Qarabağda bağıma.
Mənim xalqım hər zaman sülh içində yaşasın,
Qarabağ tarixində gözəlliklər başlasın.

26.10.2023

**SALAM, QARABAĞ**

İti qovan kimi qovduq düşməni
Qoruduq şərəflə biz bu vətəni.
Ey mənim xalqımın gözəl məskəni,
Salam, Əziz Şuşa, salam, Qarabağ.

Döndü dastanlara qələbəmiz də,
Daima yaşadın sən qəlbimizdə.
Gəlib torpağına deyirik biz də,
Salam, əziz Şuşa, salam, Qarabağ.

Xarıbülbülünün xoş ətri gəlir,
Təbiət qoynunda ürək dincəlir.
Qəlbim bu sözləri qürurla deyir,
Salam, əziz Şuşa, salam, Qarabağ!

Ey şəhid ruhları, ey doğma kəslər,
Dolaşır yurdumda isti nəfəslər.
Könlüm xoş günlərin görməyi istər,
Salam, əziz Şuşa, salam, Qarabağ.
Sağalsın sən adlı yaram, Qarabağ.

15.10.2023

# NAMİQ ZAMAN POEZİYASI SARI AŞIĞA DOĞRU

Çağdaş şairlər sırasında bir şair var: NAMİQ ZAMAN. Özü cəhd göstərməsə də, antologiyalardan, jurnal və qəzetlərdən, saytlardan, sosial şəbəkələrdən ara-sıra boylanan şeirləri imzasının varlığını vurğulayır, "mən də varam" deyir.

Namiq Zaman oğlu Zamanov Laçın elinin Zağaltı kəndində 1971-ci ildə dünyaya göz açıb. Azərbaycan Dövlət Pedaqoji Universitetinin kimya-biologiya fakültəsini bitirməmiş ermənilər Laçını işğal edib. Namiq də həmyerliləri kimi elindən, obasından ayrı düşmək məcburiyyətində qalıb. Mehrini təyinatla göndərildiyi Ağdaş rayonuna salıb. Bu gün də orda öz ixtisası üzrə müəllim işləyir.

Yeniyetmə yaşlarından qələm işlətsə, fikirlərini nəzmə çəksə də, buna çox da cəhd göstərməyib. Təbini aldada-aldada illəri yola verib. Nəhayət, qəlbindəkiləri boğub saxlamağa daha "gücü" çatmayıb. Ara-sıra yazdıqlarını cəmləşdirib, qəlbində yığılıb qalanları tələm-tələsik ağ vərəqlər üzərinə həkk edib və bir yerə toplayıb. Beləliklə, ictimaiyyət NAMİQ ZAMAN imzalı şairin 2020-ci ildə "SƏNİ DÜŞÜNÜRƏM" adlı ilk kitabı ilə tanış olub.

Elə mən də o vaxt həmin kitabla tanış oldum. Şairi tanımaq üçün bəzən bir şeir də bəs edir. Ancaq əhatəli tanımaq üçün bir şeir yetərli olmur. İstənilən şairin yaradıcılığı çoxşaxəlidir; orda sevgi də var, nifrət də…

Namiq Zamanın kitabına toplanmış şeirlər nədənsə, ruhumu yerindən oynatmadı, vulkan püskürməsi, ildırım çaxması kimi məni həyəcanlandırmadı. Bəlkə peşə fəaliyyətimlə bağlı yüzlərlə müxtəlif şairin yaradıcılığı ilə vaxtaşırı iş apardığımdan bu mənə belə göründü? Bilmirəm! Hər halda, o vaxt mən onu tanıdığım onlarla şairdən ayıra, seçə bilmədim. Gerçəkdən, indi Azərbaycan ədəbiyyatının çiçəklənən dövrüdür. Əllidən çox imza göstərmək mümkündür ki, gözəl nəzm nümunələri ilə vaxtaşırı ədəbi dərgilərin səhifələrini bəzəyirlər.

Ancaq bunu da etiraf etməliyəm ki, Namiq Zamanın şeirlərində iki vacib cəhət diqqətimi çəkdi; sözdən qənaətlə istifadə etmək və yetkin fikir ifadə etmək, yaxud ifadə etməyə cəhd göstərmək.

Namiq Zaman yaza-yaza püxtələşdi, mükəmməlləşdi, müdrikləşdi, boy atdı, böyüdü və bu gün ikinci şeir kitabı ilə görüşümüzə gəldi.

Birinci kitabına toplanmış şeirlərində ayırd edə bilmədiyim doğmalığı mən onun ikinci kitabında tapdım, özü də kitabı açan kimi…




Namiq Zamanın ikinci kitabı "RUHUM ONU SORAQLAR" adlanır, "Azəri" nəşriyyatı tərəfindən nəfis tərtibatla nəşr olunub. Kitabın redaktoru və ön sözün müəllifi şair Elşən Əzimdir.

Dayanma, elə ki keçib-gedirsən,
Haqqı söyləyən dil kiriyə bilməz.
Sən elə bir yolu keçib gedirsən,
Bu yolu hər adam yeriyə bilməz.

El deyimlərindən istifadə etmək bütün yaradıcı insanlara xarakterikdir. Baxır onu necə işlədirsən! Min illərin sınağından çıxmış atalar sözünü təhrif edərsənsə, heç nə, yox, əgər öz deyiminə çevirib qüvvətləndirərsənsə, gözəl poetik bir mənzərə yaradarsan.

Od üçün də, su üçün də ağladım,
Heç bilmədim nə biçimdə ağladım.
Ömür boyu öz içimdə ağladım,
Gülə-gülə yaşamadım bu ömrü.

"Şairlər zamanın yükünü çiyinlərində çəkirlər", deyiblər. Eyni zamanda, dövrün hadisələrini nəzmə çəkib gələcək nəsillərə ötürmək də yaradıcı insanların missiyasıdır, mənəvi borcudur. Namiq Zamanın 20 yaşından üzübəri millətin yaşadığı məşəqqətlər göz önündə deyilmi? Elin şairi bunları görə-görə necə gülə-gülə yaşaya bilər?

Sən ey şəhid anası,
Sil gözünün yaşını!
Sən ey şəhid atası,
Sən də dik tut başını!

Yurdunun dar günündə,
Dada yetən oğulun,
Şığıyıb düşmən üstə.
Öndə gedən oğulun
Nə anası ağlayar,
Nə atası yas tutar!

Bu, bəlkə də kiməsə bir təskinlik kimi görünər. Olsun! Son otuz ildə zorən sürükləndiyimiz müharibədə ölkənin heç şəhidsiz günü oldumu? Şəhidlərə həsr olunmuş yüzlərlə şeirlər yazılıb, onların içində möhtəşəmləri, hətta dillər əzbərinə çevrilmişləri də az deyil. Məncə, Namiq Zamanın bənzətməsi yeni olmasa da özünəməxsusluğu ilə orijinal hesab edilə bilər.

Sevincə qərq edən bəşəriyyəti –
O dahi qəhrəman özüm olaram.
Qırıb əsarəti, yarıb zilləti,
Zülmət beyinlərə işıq salaram.

Nümunə üçün axtarmadan, qarşıma çıxan hər vərəqdən bir tel götürdüm. Seçmədim, incələmədim, daha yaxşısı olsun deyə dönə-dönə oxumadım. Özünüz də görürsünüz ki, şeirlər məğrur bir adamın – lirik qəhrəmanın cəmiyyətə mübariz çağırışıdır, harayıdır. Az sözlə çox fikir ifadə etmək bacarığı Namiq Zaman yaradıcılığının baş qayəsidir. Bunu mən əvvəlki şeirlərində də duymuşdum. Orda lirika ilə bərabər sarkazm, ironiya, tənbeh də var.

Yazı gördüm qapıda –
"Sakit!
İmtahan gedir!"
Mat qalıbdı qapı da:
İçəridə eşşəklər
atı imtahan edir.

Az sözlə çox fikir ifadə etmək bacarığı Namiq Zaman yaradıcılığında yüksələn xətt göstəricisidir. Burda şair yüz söz arasından üç-dördünü seçməklə təkcə tənbeh etmir, müdrik fikir ifadə etməyə çalışır.

İnsanlar görmüşəm – çiyinlərində
Dünyanın yükünü daşıyır hələ.
Bir belə şeytanın, şərin içində
Yaxşı ki, yaxşılar yaşayır hələ.

Bir ozan baxışı sərgiləyir Namiq Zaman. İnsanı bədbinliyə sürükləmir, qamçılayıb küsdürmür, əksinə, yaxşılar sırasında olmağa çağırır.

Kiçik bir yazıda şair qəlbini incələmək, onun poeziyasına ayna tutmaq mümkünsüzdür. Yuxarıdan aşağıya sadaladığım fikirlərdə, gətirdiyim nümunələrdə aydın görünür ki, Namiq Zaman yaradığılığının mənbəyi eldir, el deyimləridir. Hətta bir az da qabağa gedib deyərdim ki, onun yaradıcılığı üzərində ustad Sarı Aşığın ruhu dolaşır. Namiq Zamanın Sarı Aşıq yaradıcılığını nə qədər dərindən öyrəndiyini, ona necə bələd olduğunu deyə bilmərəm. Bəlkə də onların bir bölgədə doğulub boya-başa çatdığından, hər ikisinin eyni eldən yaradıcılıq enerjisi aldığından poeziyalarında oxşarlıq, bənzərlik müşahidə olunur? Nə bilim! Bəlkə də…

İnsanlıq yolunda can qoyanları
Daim yanan gördüm, alışan gördüm.
"Allahın evi"ndə allahsızları –
riyakar, hiyləgər dələduzları,
Allahın adından danışan gördüm.

Namiq Zamanın yeni kitabının çapdan çıxması ərəfəsində daha bir şad xəbər eşitdik. Azərbaycan Yazıçılar Birliyi onun yaradıcılığını yüksək qiymətləndirmiş və şairi üzvlüyə qəbul etmişdir. Hər iki xoş xəbər münasibətilə Namiq Zamanı səmimi qəlbdən təbrik edir, ona xoş günlər, bol-bol yaradıcılıq uğurları arzulayırıq. Ümidvarıq ki, Birliyin etimadını doğruldacaq, yeni yaradıcılıq nümunələri ilə ətrafa səs salacaq.

**Böyük hörmət və ehtiramla:**

**Əli BƏY AZƏRİ**

**"Xəzan" ədəbi-bədii jurnalın baş redaktoru**



NAMİQ ZAMAN

# GƏNCLİYİNİ AXTARAN ADAM

*hekayə*

Ətrafa yayılan səs-küy, hay-haray onu fikirlərindən ayırdı. Mənzil başına çatmışdı. Keyimiş ayaqlarını sürüyə-sürüyə avtobusdan düşdü. Dərindən nəfəs aldı. Buraları ilk dəfə görürmüş kimi, diqqətlə gözdən keçirdi. Hər şey dəyişmişdi. Adam və maşın əlindən tərpənmək mümkün deyildi, sanki qarışqa qaynaşırdı. Avtobuslar da ağzınacan adamla dolu idi; əyləşənlərin çoxu başını aynaya söykəyib, gözlərini yummuşdular. İlk baxışdan, simalarındakı ifadəyə əsasən, düşünmək olardı ki, onları buraya zorla dürtüblər və "gedər-gəlməz"ə yollayırlar. Hamının üzündə kədər, hərəkətlərində yorğunluq hiss olunurdu. Elə bil harasa tələsirdilər, kimsə qovurdu onları. Yerdəki və küləyin havada uçurduğu zir-zibil isə bu görüntüyə yeni bir rəng qatırdı. Şəhər bu vəziyyətdə – öz sakinləri və zibillərilə birlikdə əldən düşmüş, pinti, cır-cındır içində itib-batan, ömrünün son günlərini yaşayan kimsəsiz, xəstə qocaya bənzəyirdi. Maşınların tüstüsü, yanmış ət qoxusu biri-birinə qarışmış, avazı bəlli olmayan musiqinin gur səsi aləmi başına götürmüşdü. Yolun kənarındakı balaca dayanacağın hər iki tərəfində böyük aptek tikilmişdi. Vaxtilə bu dayanacağın yanında gül-çiçək mağazası və qəzet köşkü vardı. Rəngbərəng güllərə, çiçəklərə baxmaqdan doymaq olmurdu, ətirləri ətrafı bürümüşdü.

Yolun o tayında isə qəzet köşkü, ətriyyat və kitab mağazası yerləşirdi. İndi onların da yerində balaca dayanacaq, onun bir yanında böyük aptek, digər yanında isə üzərinə kömürlə kobud şəkildə "Dönər" yazılmış, görkəmi o qədər də yaxşı təsir bağışlamayan balaca bir koma görünürdü. Komaya güclə sığışan, əynindəki his və yağ ləkəli köynəyindən daha çox çirkabla işləyən fəhləyə oxşayan yekəqarın kişi əlindəki uzun, qılınca oxşayan xəncərlə önündə fırfıra kimi fırlanan ütülmüş ət topasının üzünü soyub o biri əlində tutduğu çörək parçasının arasına doldurmaqla məşğul idi. Buradakı yeniyetmə və gənclər isə heç nəyin fərqinə varmadan, verdikləri pulun müqabilində onun hazırladığı "dönər"ləri alan kimi, acgözlüklə yeməyə başlayırdılar. Komanın yan tərəfindəki yaşıllıq zolağının yerində – elə yolun qırağındaca, toza-tüstüyə bürünmüş stolların ətrafında əyləşən adamlar, sanki dünyadan xəbərsizcəsinə, öz keflərində idilər; çay içən kim, çörək yeyən kim...

Camaatın davranışında və geyim tərzində bir neçə il əvvəl mövcud olan "şəhər mədəniyyəti"ndən əsər-əlamət belə qalmamışdı. Tüstü dumanı arasından çətinliklə sezilən arxa mənzərə də ürəkaçan deyildi: doqquzmərtəbəli binanın birinci mərtəbəsindəki mağazanı indi "Tibb mərkəzi" eləmişdilər. Apteklərdə olduğu kimi, oraya da girib-çıxan çox idi (Bir anlıq ona elə gəldi ki, burdakı adamlar xəstədirlər və elə müalicə olunmaq,

şəfa tapmaq üçün buraya gəliblər). Sağ tərəfdəki növbənöv mineral sular və müxtəlif meyvə şirələri satılan balaca “köşkü” isə “puldəyişmə məntəqəsi” əvəz etmişdi. Sol tərəfdəki mədəniyyət ocağının – klubun uçulub-sökülmüş görkəmi, bir vaxtlar burdakı göz oxşayan parkın yandırılmış cəngəlliyə bənzəyən mənzərəsi uzun illərdən qalmış xarabalığı xatırladırdı.

Çox sıxıldığını hiss elədi. Dönüb, tezliklə buranı tərk etməyi qərara aldı. Pillələrlə aşağı endi. Üzbəüz binanın birinci mərtəbəsindəki böyük univermağın yerini “Mebel mağazası” tutmuşdu. Ömrünün ən bakirə çağlarında buradan dəftər-qələm aldığı vaxtlar xəyalından keçdi. Binanın tinindən dönərkən, bir qədər duruxdu. Qarşıdakı tramvay yolunun yerində yol boyu uzanıb gedən yanaşı tikilmiş mağazalar xoşagəlməz bir uyğunsuzluq, nizamsızlıq yaratmışdı. Tramvay çoxdan “başını götürüb qaçmışdı”. Təkcə ayağının altındakı səki öz görkəmində qalmışdı: bozarmış, səliqəsiz, çala-çökəyi ilə ona şirin gəldi. Şəhərin əvvəlki özünəməxsus qoxusu burnuna doldu. Bayaqkı üzüntünün yerini yenidən xatirələr aldı. O günləri düşündü... Növbəti binanın yanına çatanda qeyri-ixtiyari dayandı. Bu ikimərtəbəli yaşayış binasının o qədər də böyük olmayan həyətində həmişə sakinlərdən kimsə samovar qaynadardı. Hər dəfə burdan keçəndə, o mənzərəyə baxar, duyğulanardı. İndi o tüstülənən samovar da yox idi, həyət zibilliyə bənzəyirdi, binaların da rəngi bir qədər solmuşdu.

Hündür hasarın doğma, bir qədər qərib duyğular yaşadan divarları da əvvəlki görkəmində idi. Sadəcə, onun da rəngi solmuşdu, çox nimdaş görünürdü. Hasarboyu addımladıqca, ayaqlarının taqətsizliyini hiss elədi. Dayandı. Geri qayıtmaq istədi. Amma nə fikirləşdisə, yenidən yoluna davam etməyə başladı. Sağa burulub qapıya yaxınlaşdı. Darvazanın şəbəkələri arasından tanış mənzərəni seyr etmək istəyirdi ki, elə bu vaxt qarşısında gülərüz, son dərəcə mehriban bir oğlan – gözətçi peyda oldu. Xüsusi qayğıkeşliklə:
– Yəqin ki, siz də burda oxumusunuz? – deyə, soruşdu və cavab gözləmədən, özünün də bu məktəbi bitirdiyini söylədi, keçmiş məzunların tez-tez buraları ziyarət etməyə gəldiklərini dedi. Bayaqkı üzüntülərin fonunda bu cür isti qarşılanmağı onu ötəri də olsa, işıqlı bir məmnunluğa qərq etdi. Gülümsədi, təşəkkürünü bildirib, içəri – həyətə keçdi. Tətil vaxtı və axşamüstü olduğundan, orada başqa heç kəs yox idi. Gözətçi onu xatirələrlə baş-başa buraxdı.

Hər şey köhnə, hər şey keçmişdə olduğu kimi; həmin asfalt örtük, həmin skamyalar, həmin qoxu... Qapıdan içəri girərkən diqqəti ilk cəlb edən, üzərinə dahilərdən birinin kəlamı yazılmış böyük lövhənin yeri indi boş qalmışdı. Oradakı – qarşısında balaca hovuz olan su kranını açdı. Suyun axdığını görüb sevindi. Əyilib əl-üzünü yudu, su içdi. Ürəyinin yanğısı bir qədər azaldı. İrəli addımladı, ətrafı seyr etdi. Gəlib tanış bir skamyanın yanında dayandı. Diqqətlə oraya baxdı. Sanki bu dəqiqə həmişə burada əyləşib kitab oxuyan oğlanı – arzuları aşıb-daşan, gələcəyə həvəsli, ümidlərin ətəyindən möhkəm yapışan o inadkar, çalışqan, qaynar təbli, hamını doğma bilən, hər kəsə yaxın olan, mehriban, qayğıkeş, qara saçlı yeniyetməni görəcəkdi. Biixtiyar əyləşdi, əlini havada yellədi. Ona elə gəldi ki, indi yanında əyləşib, həmin oğlanın saçlarını tumarlayır. Hətta onun nəfəsini, ürəyinin döyüntüsünü belə eşidirdi. Dodaqları tərpənir, nəsə danışırdı – söhbət edirdi... Uzaq kəndlərin birindən buraya gəlmiş, qaynar şəhər həyatına düşən bu oğlanın çöhrəsindən bir məğrurluq, saflıq, sadəlövhlük oxunurdu. Nəfəsində kənd ətri vard, baxışlarında ayrılıb gəldiyi dağların əzəməti, vüqarı canlanırdı. Qəlbin aynası olan gözləri də daşların arasından süzülüb axan bumbuz bulaqların dumduru, saf sularını xatırladırdı. Buraya gəlmək çoxdankı arzusu olsa da, birdən-birə bu süni şəhər mühitinə düşməyi ona heç də yaxşı təsir bağışlamamışdı. İlk vaxtlar çox darıxmışdı. Qarşıya qoyduğu məqsədə çatmaq istəyi olmasaydı, çoxdan dönərdi kəndə. Amma yolun yarısından qayıtmağı özünə sığışdırmamışdı. Düşünmüşdü ki, bu çətinliklər müvəqqətidir və yavaş-yavaş hər şey öz qaydasına düşəcək. İlk dəfə burda görmüşdü insanların paxıllığını, saxtakarlığını, ikiüzlülüyünü, yaltaqlığını, burda anlamışdı həyatın “yaşamaq uğrunda mübarizə”-

dən başqa bir şey olmadığını. Ziddiyyətlərlə dolu bu yaşam tərzini çətin də olsa, qəbul edib, ona davam gətirməyə məcbur olduğunu dərk etmişdi. Canındakı qələbə ruhuydu onu yaşadan, irəli aparan. Gecə-gündüz var gücilə bu qələbəyə çalışırdı. Heç kəslə "işi olmayan", ürəyitəmiz biri olduğu üçün onunla sirdaşlıq edən yaxşı yoldaşı da az deyildi.

Hərdən, meydana çıxan mübahisələri yoluna qoymağı da bacarırdı. Onunçün insanlıq hər şeydən uca idi. "Savadın, elmin, təhsilin varsa, deməli, kiməsə gərək olacaqsan, səni axtaracaqlar, yaşamaq səninçün heç vaxt çətin olmayacaq, yalnız vətəninə, xalqına xidmət etməklə – şərəfli həyatınla başqalarına da nümunə olacaqsan", – deyə düşünmüşdü. Elə bilirdi ki, "halallıq" hamının amalıdır, hamı biri-birinə yardımçı olmaq üçün, bəşəriyyətin xilası, rifahı naminə elm oxuyur, savadlı olmağa can atır. Bu hisslər sonrakı ali məktəb illərində də onu tərk etməmişdi.

Yaxşı ki, yaxınlıqda heç kəs yox idi, onun göz yaşlarını görən olmadı. Nədənsə, çox kövrəlmişdi. Alt-üst olan həyatınamı acıdı, heçliyə qovuşan o ümidlərin puç olduğunumu düşündü, yoxsa o məsum gəncə fəlakətlərdən xəbər verdiyinəmi peşman oldu, bilmədi.

Sarsıldı. Bütün gücünün tükəndiyini hiss elədi, qəhərləndi, vücudu titrədi. Ayağa qalxdı, bir az tutuldu, ətrafa boylandı. Üz-gözündən köhnəlik yağan, şüşələri qırılıb-tökülmüş, içərisinin də əvvəlki təravəti itmiş oranjereyanın yanındakı qapıdan keçərək, bir qədər təbii meşəliyi xatırladan ağaclığı görməyə can atdı. O görkəmdən əsər-əlamət qalmamışdı. Ağacların çoxu kəsilib-götürülmüş, yerində qalanları quruyub əldən düşmüş, bağın əsas hissəsində isə üzü çöl tərəfə böyük bir bina tikilmişdi. Cadar-cadar olmuş torpaq buralara çoxdan su axmadığından, insan əli dəymədiyindən xəbər verirdi. Bir vaxtlar gəzib-dolandığı yerlərin bu hala düşməyi, xatirələrinin kökündən qazılıb itirilməyi – bu cansıxıcı mənzərə ona əzab verdi. Geriyə qayıtdı.

O gənclik təravətli, gülərüz oğlanın əyləşdiyi skamyanın qarşısından keçib, sola buruldu. Bir daha peşman halda məktəb binasının qarşısında dayanıb baxdı. Bu dəfə başqa bir duyğu onu çulğaladı: həyatında ilk dəfə gördüyü gözəlliyin, duyduğu səmimiyyətin təsirindən qəribə vəziyyətlərə düşdüyü günləri xatırladı. Sanki elə indicə doğma, gülümsəyib baxan o simanı görəcəkdi...

Heç vaxt hisslərə bu qədər qapılmamış, inanmamışdı. Bu günsə, əməllicə əsiri olmuşdu təzadlı duyğuların.

Arxaya qayıtdı. Acılı-şirinli xatirələr içərisində xüsusi yeri olan, indi xeyli sönük görünən yeməkxananın ətrafını həsrətlə dolanıb, yataqxanaya baş çəkdi. O çılğın yeniyetmə ilə bir daha "qarşılaşmamaq" üçün orada çox dayanmadı. Amma hiss olunurdu ki, hər addımda əvvəlki izlərini axtarır vaxtilə gəzdiyi, əyləndiyi yerlərdə.

Yataqxananın arxa tərəfində vəziyyət daha da qəmgin idi: əvvəllər məktəbin tibb məntəqəsi olan bu hissədə həyatı, yurdu-yuvası vəzifə, mal-mülk dəllalları tərəfindən hərraca qoyulmuş, düşmənə satılmış, zəngin keçmişi, şanlı-şöhrətli tarixi, dəyərli şəxsiyyətləri, ziyalıları ilə tanınan böyük bir elin, səfil görkəmli məktəbi yerləşirdi. Məktəbin bu miskin siması ona öz halının güzgüdəki əksi kimi göründü. Qopa bilmədi bu acı hisslərdən; illərdən bəri çəkdiyi əzab-əziyyət, didərginlik, həyatının tar-mar edilməyi düşdü yadına. Keçmişi, bu günü, gələcəyi işğal olunaraq əldə oyuncağa çevrilmiş bir məmləkətin ömrü-günü talan edilmiş günahsız adamları, onların taleyi, həyatı, kəsilən "başları", sındırılan "dizləri", gözüyaşlı körpələrin üzündəki miskin ifadə yenidən canlandı gözləri önündə.

Qəfildən çilik-çilik olub ətrafa səpələndi həmin güzgü. Parçalarının üzünə toxunduğunu, sifətini yaraladığını hiss etdi. Bir anda qırmaq, dağıtmaq istədi hər şeyi, ucadan bağırmaq, axtardığını tapmaq, görmək istədi. Amma bacarmadı. Başını əlləri arasına alaraq, divara söykəndi və dondu.

Hava qaralırdı. Əsən külək yağış yağacağından xəbər verirdi. Tozanağa qərq olmuş küçə ilə bir adam ağır-ağır addımlayırdı. O, artıq heç nə düşünə bilmirdi. Hətta haraya gedəsi olduğunu da unutmuşdu...



ƏDALƏT NƏCƏFOĞLU

# PALTAR İPLƏRİ

*yaxud, sözlə verilən dəyərli hədiyyə*

Səhər yuxudan oyanıb,
sübh yeməyini yeyib,
işə getməyə hazırlaşırdım ki,
həyətdə bir neçə qonşunun,
həyəcanla danışdığını eşitdim.
Tez həyətə çıxıb,
nə baş verdiyini soruşdum.
Əllərilə bir neçə eyvanı
göstərib, dedilər:
-Paltar iplərini yandırıblar.
Bir ipdə uşaq geyimi
olduğundan,
o ipə od vurulmayıb.
Həmin mənzilin sahibi də
tətil günlərilə əlaqədar
bağ evinə istirahətə getmişdir.
Bu məhlədə cəmi
beş ailə yaşayırdı.
Üç ailə həmyaşıd
olduğundan,
onların uşaqları
birgə məktəbə gedir.
Həyətdə bir yerdə oynayır,
və bir-birilə
məsləhətləşirdilər.
Bu qızlar təhsilə də
çox üstünlük verirdilər.
Onlar bütün fənlərdən
əla qiymətlər alırdılar.
Onlardan birinin atası
hərdən içkili olarkən
evə gələndə
qızını həyətdə
oynayan görəndə
ona evə getməyi
uca səslə deyərdi.
Qız isə
həmyaşıdları arasında
atasının ona
acıqlanmasını
qəbul edə bilmirdi.
Dəfələrlə anasına
bu barədə
şikayət edirdi.
Bir gün atası evə gələndə
qız atasının gəlişini
görüb, qaçır gizlənir.
Atası məhəlləyə çatanda
qızını rəfiqələri arasında
görməyib, soruşur.
Bəs mənim qızım hanı?
Qızlar "bilmirik" deyirlər.
Bu zaman
qızlardan birinin atası

bazardan gəlir.
Əlində paltar ipi görünür.
-Bu ipi neylirsən, qonşu?
-Paltar asmaq üçün almışam.
-Bu ipi mənə versəydin
özümü bu ipdən asardım.
Yaxşı qalın ipdir, qırılmaz.
Bu içkidəndə canım qutarardı.
-Neçə ildir deyirsən
asaram, asaram, qonşu.
Həyət iplə doludur
birini qır, özünü as.
Qızı isə
bütün bu danışıqları
eşidirdi.
Atası da qonşunun
tənbehindən ibrət götürür
və içməyi tərgitməyə fürsət axtarır.
Fikirləşir ki, yaxın günlərdə
qızının ad günüdür.
O gün qızıma söz verib,
içməyi tərgidərəm.
Qız isə bütün eşitdiklərini
anasına söyləyir.
Anası da səbrli olmağı
tövsiyə edir.
Paltar ipləri də boş olan
kimi, yandırılırdı.
Qız rəfiqələrinə bu haqda
danışmışdı.
Atası özünü paltar
ipindən asmaq istəyir.
Ona görə bu ipləri
yandırmaq lazımdır.
Hərə öz eyvanında olan
ipi yandırırdı və heç kim
şübhələnə bilmirdi ki,
bunu bu qızlar edir.
Qızın ad günü yetişir.
Onlar yenə həyətdə
bir yerdə oynayır.
Atası isə qızının
ad günü ilə əlaqədar
evə tez gəlməyi
planlaşdırır.
O, evə gələndə
marketdən
spirtli içki alır.
Məhəlləyə daxil olanda,
qızını rəfiqələrilə
oynayan görür,
yanına çağırır.
Qız isə atasının əlində
içki şüşəsini görüb
utanıdığından başını
aşağı salır.
Fikirləşir ki,
yenə məni danlayacaq.
Atası qızına söyləyir ki,
sənə bu gün belə bir
hədiyyə edirəm.
İçki şüşəsini,
zibil qutusuna ataraq.
Heç vaxt içməyəcəyini
söz verir.
Qız çox sevinir.
Atasına belə söyləyir.
-Ata söz verirsə
övladına bil!
Onun qəm-qüssəsi
dərhal silinir.
Bu söz qiymətlidir,
dəyərli həm hədiyyədir.
Kədər əvəz olundu
sevinclə, görünür.
Qız rəfiqələr içində
ucaldı qəfil.
Ad günü keçirir,
dəvət də edir.
Atasına həm də söyləyir.
Hər işin əvvəli,
həm sonu vardır.
Daha paltar ipləri
yanmayacaqdır.

03.11.2023

# ƏLƏSGƏR SEVDALI AĞ AŞIQ YUSİF SƏDƏRƏKLİ

Azərbaycan ədəbiyyatını, Azərbaycan poeziyasını aşıq şeiri olmadan dolğun təsəvvür etmək, məncə, qeyri mümkündür. Çünki aşıq şeirinin yayılma arenası daha geniş olmuşdur. Belə ki, aşıqlarımız el-el, oba-oba gəzərək xalqla daim təmasda olmuşlar. Onların saz üstündə oxuduqları şeirlər dildən-dilə, ağızdan-ağıza keçə-keçə ürəklərə hopmuş və özünə həmişəyaşar bir ömür qazanmışdır. Respublikamızın ayrı-ayrı bölgələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da, az da olsa, aşıq şeiri üslubunda yazıb-yaradan ayrı-ayrı sənətkarlar, saz sənətini yaşadanlar olmuşdur. İftixarla demək olar ki, bu gün də vardır.

Ölməz sənətkarımız Aşıq Alının ustadı Ağ Aşıq Allahverdi, sənət meydanında çox hünərlə at çaparaq mükəmməl sənətkar adı qazanmış Aşıq Nabat kimi sənət adamları məhz bu torpaqdan çıxmışlar.

O yolun, o sənətin davamçılarından biri də Ağ Aşıq Yusif Sədərəkli (1930-1995) olmuşdur. Ağ Aşıq Yusif təkcə ifaçı aşıq deyil, eyni zamanda, həm də yaradıcı aşıq olub. O, aşıq şeirinin müxtəlif janrlarında yazıb-yaratmaqla, özünəməxsus janr əlvanlığı ilə fərqlənən sənətkarlardandır. Onun yazdığı bayatıları, gəraylıları, gəraylı təcnisləri, divaniləri, dodaqdəyməz divaniləri Ağ Aşıq Yusifin sənətkarlıq gücündən soraq verir.

Ağ Aşıq Yusif  Şərur, Dərələyəz, Vedibasar mahallarını və bütövlükdə muxtar respublikanın rayon və kəndlərini qarış-qarış gəzmiş, məclislər qurub çalıb oxumuş, bununla da, böyük el məhəbbəti qazanmışdır.Elə buna görə də Şərur rayonundan Azərbaycan Aşıqlarının IV qurultayına nümayəndə seçilmişdir. Qurultayda yaradıcılığına yüksək qiymət verilmiş və şeirləri dövrü mətbuatda çap edilmişdir. Onun sənətinə xalq şairi Hüseyn Arif və ustad aşığımız Aşıq Hüseyn Saraclı mükəmməl qiymət vermişdir zamanında.



El arasında albinos olduğu üçün Ağ Aşıq deyə tanınan Aşıq Yusif Aşıq Ələsgər sənətinin vurğunu kimi tanınmışdır. Ona olan sevgisinin bariz ifadəsidir ki, Aşıq Ələsgərin ata yurdu Göyçəyə getmiş və orada ustad aşığın və onun ustadı Aşıq Alının məzarlarını ziyarət etmişdir. Hətta bu səfərini tarixiləşdirmək üçün də “Aşıq Yusifin Göyçə səfəri” adlı bir dastan bağlamış və bu dastanı ilə də Aşıq Ələsgərə olan ülvi məhəbbətini sözün-sazın dili ilə cilalanmışdır. “Ələsgər, Alıdı dilim əzbəri” deyən aşıq ustada sevgisini onun məzarı başında belə ifadə edir:

Ali ustad, dahi şair, ay aşıq,
Min şagirdlər gəlir sənin izinlə.
Elə mahal yoxdu, elə el yoxdu,
Fəxr etməyə sənətinlə, sözünlə.

... Aşıq Yusif səni bilir, Ələsgər,
O gözəl izinlə gəlir, Ələsgər.
Səninlə fəxr edir, gülür, Ələsgər,
Belə sandım, görüşürük özünlə.

və yaxud
...Çox yazanlar olub, yaradan olub,
Ələsgər səntək ad görməmişəm.

Sən əzbərsən bütün elin dilində,
Xoşhal oldum mən yüz əlli ilində.
Kamil şagirdlərin sazla əlində,
Gülüstan görmüşəm, od görməmişəm.

Başqa bir şeirində isə hər iki ustadı, yəni Aşıq Alı ilə Aşıq Ələsgəri bu cür dəyərləndirir.

Biz aşıqlar o ustadın quludu,
Ələsgərlə Alı böyük, uludu.
Elmləri dəryalardan doludu,
Şeirindən qala qurmalıyam mən.

Ağ Aşıq Yusifin xalq şairi Hüseyn Arif ilə də yaxın münasibəti, həm də çox sevindirici haldır ki, yaradıcılıq əlaqələri olub. O ustad sənətkarı bir neçə şeirində sevə-sevə vəsf edib. Onu böyük şair Səməd Vurğun və M.P. Vaqiflə müqayisə edir.

Sən gələrkən Naxçıvana, Hüseyn,
Bülbüllər sevindi, güllər sevindi.
Hamı bir-birinə müjdə eylədi,
Fərəhlə danışan dillər sevindi.

Başqa bir şeirində isə öz poetik hisslərini, könül duyğularını bu cür ifadə edir.

Yurdumun fərəhi sığmırdı göyə,
Sən gələndə bizim elə, ay şair!
Gördüm səndə Vurğun, Vaqif təbi var,
İlhamın dönmüşdü selə, ay şair!

Ağ Aşıq Yusifin şeirlərini oxuduqca, mahiyyətinə vardıqca onun sənətkarlıq üslubu diqqətimizdən yayınmır. Aşığın sənətə pərəstişi, ustadlığı gözlərimizi oxşayır.

Biqeyrət qohuma arxalanınca,
Mərd düşmən əlində ölmək yaxşıdı.
Xainin andına inanma heç vaxt,
Adını ürəkdən silmək yaxşıdı.

... Mən aşıq Yusifəm, qəm dustağıyam,
Mərdlər məclisinin mən çırağıyam...
Həm şirin badəyəm, həm də ağuyam,
Acı nə, şirin nə, bilmək yaxşıdı.

O ustadı Əli Nəcəfoğlundan aldığı dərslərin sayəsində aşıq şeirinin, saz sənətinin sirlərini, incəliklərini öyrənməklə yetinməmiş, hər an axtarışda olaraq, aşıq poeziyasının dərinliklərinə yol tapmağa çalışmışdır. Bu da onun mükəmməl yetişməsində mühüm rol oynamışdır.

Aşığındı Yusif dəli,
Yollarına salıb xəli.
Uzanıbdı sənə əli,
Çətin... çətin üzə sənnən.

və ya

İz sahibi sənin belə,
İzlərinə qurban olum.
Məzar üstə qan ağlayan
Gözlərinə qurban olum.

Formasından, janrından asılı olmayaraq hansı şeirini ələkdən keçirsən, orada aşığın çağlayan könlünün axarını görə bilərsən. “Ha düzə-düzə” təcnisində də olduğu kimi...

Bahar zirvələrdən qarı endirər,
Ağır yel yeriyər ha düzə-düzə.
Çoban tütək çalar qaya başında,
Hesablar sürünü ha düzə-düzə.

Kamil bağban gözəl bağa yaradı,
Yar dilində əzbər olar yar adı.
Mənim sinəm məhəbbətdən yaradı,
Qanan çox sözümü ha düzə-düzə.

Aşıq Yusif vaxtdı sənsiz od ala,
Çünki bülbül daha qonub o dala.
İnsan bilib sığınmışdım o dala,
Mən heç rast gəlmədim ha düzə-düzə.

Yeri gəlmişkən, lap bayatılarına belə nəzər yetirək. Onlarda da eyni epizodun şahidi olacağıq...

Yusif deyər, əmmədin,
Yar ləbini əmmədin.
Sən sözünə sadiqsən,
Sözə qoyma, əmmə, din!

Aşıq deyər adada,
Dəryada, ya adada.
Dostun vəfalı olsa,
Ləkə salmaz o ada.

Ağ Aşıq Yusifin şeirlərini bir-bir süzgəcdən

keçirdikcə, yaradıcılıq dünyasına baş vurduqca onun sənət aləminin zənginliyinə daha yaxından bələd olursan. Buna görə də onun bir dodaqdəyməz divanisinə nəzər salaq...

Halal xilqət doğru olar, çatar hər kəs həqqə qan,
İnsanların yollarında gərək qıyaq can, gəda.
Çuğul ilə yoldaş olsan işlərin şər olacaq,
Şər gədalar el dərdini çəkən deyil, qan gəda.

... Yusifin dediklərini saxlagınan yadda sən,
Dost yolunda sürüngünən, alışsan da odda sən.
Sirrin söylə əhli hala, nadanlardan adda sən,
Hərcayinin hiyləsindən gərək keçək yan, gəda.

Onun hansı mövzuda yazmasına, hansı mövzuya müraciət etməsinə baxmayaraq, şeirlərində sözün rəngarəng poetik çalarlarını görürsən. Və bu cür şeirləri oxuduqca aşığın sənətə vurğunluğu qarşısında heyrət etməyə bilmirsən.

Ay nainsaf, həsrətindən solaram,
Əylən bu dərdimi bil, Nənəxanım.
Hərdən-hərdən tifil kimi sızlaram,
Axan göz yaşımı sil, Nənəxanım.

... Sən dərmansan mən Yusifin dərdinə,
Yar qönçəni burda qoydu, dərdi nə.
Şərik ollam hər an sənin dərdinə,
Əylən, bir yanımda qal, Nənəxanım.

Aşıq Yusifin yaratdığı "Aşıq Yusifin, Şahbuza səfəri" və "Aşıq Yusifin Göyçəyə səfəri" dastanları da sənətkarlıq baxımından klassik dastanlarımızın fövqündə durmasa da, yenə də, onun çox şaxəli yaradıcılığının dolğunluğundan soraq verir. Bu da bizləri sevindirməyə bilmir.

Son olaraq isə onu demək istərdim ki, Ağ Aşıq Yusifin yaradıcılığının tədqiqatçılarımız, folklorşünaslarımız tərəfindən tədqiqinə böyük ehtiyac vardır. Çünki orada gələcək nəsillərin götürə biləcəyi, mənəvi qida ala biləcəyi çox şeylər vardır.

**Ələsgər TALIBOĞLU**
**Şair-publisist, AYB-nin üzvü,**
**M.Araz mükafatı laureatı**



**ZAUR USTAC**

## ÜÇ QARDAŞ

*(Azərbaycan, Türkiyə, Pakistan qardaşlığına)*

Bir qardaş sağında, biri solunda,
Təpəri dizində, gücü qolunda,
Qardaşlıq məşəli yanır yolunda,
Yeni çağ başladır xan Azərbaycan!
Türkiyə, Pakistan, can Azərbaycan!

Xətai amalı bu gün oyaqdır,
Nadirin əməli bu gün dayaqdır,
İlhamın təməli bu gün mayakdır!
Yeni çağ başladır xan Azərbaycan!
Türkiyə, Pakistan, can Azərbaycan!

Zamanla yaşadıq xeyli qeylü-qal,
Görməsin bir daha bu birlik zaval,
Dağlara biryolluq qayıdır Hilal,
Yeni çağ başladır xan Azərbaycan!
Türkiyə, Pakistan, can Azərbaycan!

## BU PAYIZ

Zəfər libasında sevinc göz yaşı,
Hər iki sahildə dayanıb ərlər!
Ayrılıq atəşi elə qarsıyıb,
İçərək qurudar Arazı nərlər!

Göylərdən boylanır Tomris anamız,
Əlində qan dolu o məşhur tuluq!

Xain yağıların bağrı yenə qan,
Canı əsməcədə, işləri şuluq…

Uşaqdan böyüyə hamı əmindir,
Tarix səhnəsində yetişib zaman!
Bu dəfə biryolluq bitəcək söhbət,
Nə güzəşt olacaq, nə də ki, aman!

İllərdir həsrətdən gözləri nəmli,
Mamırlı daşların gülür hər üzü!
Neçə qərinədir qalmışdı çılpaq,
Yamyaşıl çayırla gəlib bu güzü!

Al donun geyinir Günəş hər səhər,
Səmamız masmavi, göy üzü təmiz!
Duman da yox olub, itib buludlar,
Gözün aydın olsun, sevin, a Təbriz!

**ŞANLI ƏSGƏR**

Müzəffər ordunun şanlı əsgəri,
Ərənlər yurdunun ər övladıyam!
Zalımın zülmünə təhəmmülüm yox,
Babəklər yurdunun hürr övladıyam!

Ustadım Nəsimi, sözümüz sözdü,
Ədalət, həqiqət bağrımda közdü,
Ziyadar dühası bir deyil, yüzdü,
Mövlalar yurdunun nur övladıyam!

Dərvişəm, müqəddəs sayılır təkkəm,
Hülqumdan yuxarı dayanır öfkəm,
Od, ocaq diyarı tanınır ölkəm,
Alovlar yurdunun nar övladıyam!

Unutma, şah babam Xətai başdı,
Nadir şah, mətədə tərpənməz daşdı,
İlham, nə keçilməz sədləri aşdı,
İgidlər yurdunun nər övladıyam!

Tarixdə Nəbisi, Koroğlusu var,
Gen dünya yağıya daim olub dar,
Düşmən qarşımızda yenə oldu xar,
Aslanlar yurdunun şir övladıyam!

Göydən Yer üzünə ərməğan, payam,
Gündüzlər Günəşəm, gecələr Ayam,
Ən parlaq ulduzdan törəyən boyam,
Ozanlar yurdunun sirr övladıyam!

Ustacam, vətənim vətən içində,
Axıb duruluruq zaman köçündə,
Min bir anlamı var, adi “heç”in də,
Aqillər yurdunun pir övladıyam!

**PİRDİ HƏR ƏSGƏR!**

Tarix səhnəsində yetişdi zaman,
Başlanmış bu çağın mübarək, dağlar!
Hələ nə zəfərlər gözləyir bizi,
Qutlanmış novrağın mübarək, dağlar!

Dövranın gərdişi döndü, dəyişdi,
Davadan doğulan ərlər yetişdi,
Didilmiş yaralar tutdu, bitişdi,
Üç rəngli duvağın mübarək, dağlar!

Nə vaxtdır yol-iriz bağlı qalmışdı,
Qoynunda yağılar məskən salmışdı,
Canımı sağalmaz bir dərd almışdı,
Sayalı qonağın mübarək, dağlar!

Xətai qırmadı könül bağını,
Nadir unutmadı hicran dağını,
İlhamın silahı əzdi yağını,
Dəmirdən yumruğun mübarək, dağlar!

Qurtuldu yağıdan zənburun, balın,
Bir başqa görünür yamacın, yalın,
Zirvəndən boylanır şanlı hilalın,
Müqəddəs sancağın mübarək, dağlar!

Haqqa nisbət tutub ulu Ələsgər,
Andırıb, tanıdıb, bilib pərisgar,
Hər səngər məbəddi, pirdi hər əsgər,
Şuşatək ocağın mübarək, dağlar!

Ay Ustac, min şükür arzuna yetdin,
“Dədə”n gedən yolu, sən də qət etdin,

Dolandın dünyanı yurdunda bitdin,
Doqquzu zər tuğun mübarək, dağlar!

## MƏN ZƏFƏRƏ TƏŞNƏYƏM

Qutlu zəfər sancağım,
Sancılmağa yer gəzir!
Alınası öcüm çox,
Bu gün ruhumu əzir!

Dərbəndi, Borçalını
Unuduruq həmişə…
Kərkük, Mosul bağrı qan,
Boyun əyib gərdişə…

Yurdumun dörd bir yanın
Hürr görmək istəyirəm!
Şanlı zəfər tuğuma
Zər hörmək istəyirəm!

İrəvan peşkəş olub
Beş sətirlik kağızla…
Zəngəzuru naxələf
Verib quru ağızla…

Bədnam Araz illərdir
Olub qargış yiyəsi…
Top doğrayan qılıncın
O taydadır tiyəsi…

İstəyirəm bu bayraq
Dalğalansın Təbrizdə!
Urmuda üzsün balıq,
Sanki üzür dənizdə…

Xoyda, Mərənddə bir gün,
Olum qonaq üzü ağ.
Ərdəbilə, Tehrana
Qurulmasın ta duzaq…

Qarsdan, Ağrıdan baxım,
Qaşqayadək görünsün!
Qapıcıqdan, Qırxqıza
Ağ dumanlar sürünsün!

Bu arzular həyata
Keçməsə, mən heç nəyəm!
Neynim, mayam belədir,
Mən zəfərə təşnəyəm!!!

## ARAZ

Halına acıdım lap əzəl gündən,
Bu qədər qınanır bilmirəm nədən,
Arazı heç zaman qınamadım mən,
Hər iki tərəfə məhrəmdir Araz!
Yaralı torpağa məlhəmdir Araz!

Sarıyıb Yurdumun şırım yarasın,
Açmayıb, bağlayıb qardaş arasın,
İndi mən qınayım bunun harasın?
Hər iki tərəfə məhrəmdir Araz!
Yaralı torpağa məlhəmdir Araz!

Çəkib acıları, yığıb suyuna,
Sakitdir, bələddir hamı huyuna,
O da qurban gedib fitnə, oyuna,
Hər iki tərəfə məhrəmdir Araz!
Yaralı torpağa məlhəmdir Araz!

Xudafərin qucaqlayan qoludur,
Keçidləri salam deyən əlidir,
Bayatılar pöhrələyən dilidir,
Hər iki tərəfə məhrəmdir Araz!
Yaralı torpağa məlhəmdir Araz!

O tayda çifayda deyir Şəhriyar,
Bu tayda dardadır indi Bəxtiyar,
Yarını gözləyir hər gün Lütfiyar,
Hər iki tərəfə məhrəmdir Araz!
Yaralı torpağa məlhəmdir Araz!



**RÖYA TALIBLI**

**AZƏRBAYCAN RESPUBLIKASININ DÖVLƏT TURİZM AGENTLİYİ, "BASQAL" DÖVLƏT TARİX-MƏDƏNİYYƏT QORUĞU, ELMİ İŞÇİ**

# XALQ DEKORATİV TƏTBİQİ SƏNƏTİNİN İNCİSİ – XALÇALAR

**Açar sözlər: xalçaçılıq, dekorativ tətbiqi sənət, gen yaddaşı, ornament, inanc**

Qədim zamanlardan bu günədək Azərbaycan xalq dekorativ sənətində tətbiq olunan rəsm və ornamentlər, o cümlədən bir çox təsviri sənət nümunələri mövcud olmuşdur. Dekorativ xalq tətbiqi sənəti, əsasən, xalq incəsənəti və dekorativ sənətə əsaslanır. Bu iki sahənin birləşdirilməsi ilə yaranmış sənət növü əsasən əsrlərdən bəri mövcuddur ki, bu da fərqli mədəniyyətlər və coğrafiyalara əsaslanan estetik quruluşları ifadə etmək üçün istifadə olunur. Bu sənətin əsas məqsədi, gözəl və göz oxşayan incəsənət əsərləri yaratmaqdır. Dekorativ xalq tətbiqi sənəti, digər incəsənət sahələri ilə yaxından əlaqəlidir. Əsasən əl işləri və dekorasiya sahələrində fəaliyyət göstərən sənətçilər tərəfindən icra olunan bu sahədə yaradılan əsərlər estetik görünüşü, zəngin rəng tərtibatı və özünəməxsus dizaynı ilə tanınır. Bu sənət növü xalqın rəngarəng mədəniyyəti və incəsənəti ilə zənginləşir, habelə bu sahədə çalışan sənətçilər öz mədəni fəaliyyətlərini və ifadə üsullarını təbliğ etmək üçün bu sənətin vasitələrini istifadə edirlər.

Xalqın həyat tərzi və məişətində xüsusi rol oynayan bu ornament motivləri ilk zamanlar rəmzi məna kəsb etsə də günümüzdə yalnız bəzək xarakteri daşıyır. Etnik mədəniyyət tarixinin öyrənilməsində mühüm mənbə rolunu oynayan elementlərindən biri də naxışlardır. Bu naxışlar sadəcə piktoqrafiya nümunəsi deyil, həm də dünyanın ən qədim illüstrasiya nümunələridir. Naxış sənəti xalqın məişəti, ictimai şəraiti ilə sıx bağlı olmaqla yanaşı onun fəlsəfi-dini dünyagörüşünü də özündə əks etdirir. Təsvir olunmuş rəmzlərin, işarələrin semantik mənasına gəldikdə isə onlar əsasən zənginliyin, baharın, məhəbbətin, qəhrəmanlığın, qələbənin, odun-alovun, müqəddəsliyin, dini ayinlərin ifadəsidir. Türk xalqlarının naxış sənətinin sistemli tədqiqi belə bir fikir söyləməyə imkan verir ki, naxış mədəniyyətimizin kökləri neolit-eneolit dövründən başlayaraq orta əsrlərdə, xüsusilə İslam dininin yayılmasından sonra zirvəyə çatmışdır.

Qədim Türk xalqlarının soy mədəniyyətini, naxışlardakı gizli və ya aşkar formada görüntüləri, mifoloji dünyagörüşünü, törə qanunlarını öyrənmək üçün türklərin tapındığı kultların daş, qaya, xalı-xalça və s üzərində izini saxlamış işarələrin dilini açmaq, onların daşıdığı mənaları araşdırmaq mühümdür. Buna misal olaraq Qobustan ərazisində yerləşən Böyükdaş, Kiçikdaş, Cinqirdağ - Yazılıtəpə abidələrində, eləcə də Şıxqayada yüzdən artıq daşın üzərində 6 mindən

çox qədim təsvir və arxeoloji abidə aşkar edilmiş və öyrənilmişdir. Qobustanın qayaüstü rəsimlərində rast gəlinən bir çox təsvirlərin xalq tətbiqi sənəti sayılan xalçalarımıza təzahür etməsi həmin motiv və elementlərin minillər ərzində xalqımızın gen yaddaşında dəyişmədən yaşamasından xəbər verməkdədir. Xalça sənətinin nəzəriyyəsi mədəniyyətin özünüifadə sistemi olan və ifadə şəkli kimi struktur açılışa və mənimsənilməyə imkan verən təsvirçiliyin dili haqqında dolğun elmi bilikdir. Ən qədim dövrlərdən başlayaraq arxeoloji qazıntılar nəticəsində  tapılmış mücərrəd, həndəsi formalı təsvirlər zəmanəmizədək qorunub saxlanılmışdır. Məhz bu baxımdan Azərbaycan xalçalarında həndəsi formalı ornamentlər özündə gərəkli və aşkar görüntülər yaradan rəmzlər daşımaqdadır.




**Şəkil 1. Eneolit-Erkən tunc dövrü**

Xalçalarda istifadə olunan naxışlar arasında qədim inanclarla bağlı təsvirlərə və totemlərlə də rast gəlinir. Zaman keçdikcə müxtəlif allahlara, ruhlara inanan insanlar artıq müxtəlif totemlərə inanırdılar. Qədim türklərin minilliklər öncə yaranıb inkişaf edən inamlarında əsasən heyvan təsvirləri böyük simvolik əhəmiyyət daşımış, semantik mənada güc-qüdrəti ifadə etmişdir. Bu səbəbdən  Azərbaycan xalçalarında heyvan obrazlarının təsvirləri üstünlük təşkil edir. Qüdrətli, dini, himayədar kimi mifik təsəvvürlərlə əlaqədar tətbiq olunan heyvan təsvirləri, sonralar dekorativ məzmun üslubunda təsvir olunur, bəzək elementinə çevrilən müxtəlif təsvirlər stilizə edilir, daha çox təhrif olunur, mücərrədləşdirilir. Bu təsvirlərin qəbiləni, tayfanı ifadə edən kompozisiyanın mərkəzində yerləşdirilməsi astral və digər inancların keçmişdə böyük əhəmiyyətə malik olmasını bir daha sübut edir.

Azərbaycan xalçaçılıq sənətinin daha bir özəlliyi onun ornamentləri arasında səkkiz guşəli ulduzun yer almasıdır. Strukturunun əsasında Türk tenqrian xaçının durduğu bu ornament ürək çakrası sevgi mərkəzini simvolizə edir. “Şirvan” xalçasında o, medalyonların mərkəzində yerləşən səkkiz ləçəkli kiçik çiçək formasındadır. Bununla onun təsəvvüf “ürək” zikrində olduqca böyük əhəmiyyət kəsb edən müqəddəs mənasına diqqət çəkilir. Bəllidir ki, ruhi enerjinin, firavanlığın mənəvi mərkəzdən gəlməsi səkkiz ləçəkli gül, lotos şəklində ifadə edilir. Səkkizguşəli ulduz eynizamanda, “səmavi” və ya “günəş qapıları”-nın rəmzi rolunda çıxış edir ki, bu həm də səkkiz cənnət qapısına işarədir.



**Şəkil 2. Xalça bazarı**

Türk xalqlarının mifologiyasında etnoqonik motiv və süjetlərin əsasında əcdad kultu durur. Əksər türk xalqları öz soy və boylarının ulu babalarını unutmamış, onları ayrı-ayrı qəhrəmanlıq dastanlarında əbədiləşdirmişlər. Minillər boyu yeni-yeni elementlərlə zənginləşdirilərək, hər

dövrə uyğun şəkildə müasirləşdirilən dastanların əcdad kultu öz kökləri ilə ibtidai mədəniyyətin, totemistik və animistik təsəvvürlərin mövcud olduğu dövrlərə qədər uzanır. Türklər öz qılınc, dəbilqə və zirehlərini, eləcə də at nəsnələrini göstəriş xatirinə bəzəmirdilər. Bu təsvirlər öz tayfasından olanların başa düşəcəyi gizli yazı kimi qəbul olunurdu. Belə ki, naxış onun sahibinin bu və ya digər soya mənsub olduğunu bildirirdi. Buna əsaslanaraq əcdadlarımızın adətən ornamentlərin köməkliyi ilə söz və kəlmələri ifadə etdiklərini deyə bilərik.

vericilik bazasının yaradılması ilə dirçəlməyə başlayan Azərbaycan xalçaçılıq sənəti 16 noyabr 2010-cu ildə Mehriban xanım Əliyevanın dəstəyilə YUNESKO-nun Bəşəriyyətin Qeyri-maddi Mədəni irs üzrə Reprezentativ siyahısına daxil edildi ki, bununla da dünya miqyasında özünü təsdiqləmək üçün geniş imkan əldə etmiş oldu. Bu, həqiqətən böyük nailiyyət idi, çünki buna qədər Azərbaycan xalçaları dünya miqyasında yalnız Qafqaz xalçaları adı altında təqdim olunur, Azarbaycanın sənətinçiləri ümumiləşdirilməsi nəticəsində sanki milli kimliyini itirirdi.



**Şəkil 3. Xalça fabriki**

Türklərdə hətta ornamentlər standartlaşdırılırdı və bununla da soyun birliyi vurğulanmış olurdu.

Sevindirici haldır ki, əsrlər boyu dünya miqyasında zəngin keçmişimizi, inkişaf mədəniyyətimizi və milliliyimizi layiqincə təmsil edən Azərbaycan xalçaçılıq sənəti sahəsində bu gün də qürur duyacağımız nailiyyətlərimiz var. Bu nailiyyətlərin ən böyüyü isə bu sahəyə göstərilən dövlət qayğısıdır. Bəllidir ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra bir çox sahələr kimi, milli xalçaçılıq sənəti də özünün intibah dövrünə qədəm qoydu. Bu sektor üzrə qanun-

Nəticədə "Metropolitan", "Viktoriya-Albert" kimi Avropa muzeylərinin ekspozisiyasını bəzəyən Qarabağ, İrəvan, Naxçıvan, Gəncə, Bakı, Quba, Qazax-Borçalı Təbriz, Şirvan qruplarına aid Azərbaycan xalçaları və xalça məmulatları doğru adı ilə çağırılmağa başlandı. Azərbaycan xalçaları sənət sahəsi kimi həm coğrafi mövqeyinə, həm də naxış, kompozisiya, rəng həlli və texniki xüsusiyyətlərinə görə şərti olaraq 7 xalçaçılıq məktəbinə bölünür: Quba, Bakı, yaxud Abşeron, Şirvan, Gəncə, Qazax, Qarabağ, Təbriz. XVI-XVII əsrlər Azərbaycan xalçaçılıq sənətinin ən coşqun inkişaf mərhələsinin yaşan-

dığı dövr sayılır. Həmin dövrdə Şah İsmayıl Xətainin şərəfinə toxunmuş "Şeyx Səfi" xalçası bu gün də Azərbaycan xalçaçılıq sənətinin dəyərli incisi statusunu qoruyub saxlamaqdadır. Xalçaçılıq, ənənəvi və gələnəkəvi bir sənət forması olaraq qalır və həm də müasir sənət sahəsində də qiymətli və təqdir olunan bir incəsənət növü kimi qalmağa davam edir. Bu sənət forması, xalqın tarixi, mədəniyyəti və inkişafını ifadə etmək üçün zəngin və gözəl bir platform təmin edir.



**Şəkil 4. Şeyx Səfi xalçası**

Lakin təəssüf ki, o hələ də Azərbaycanın Xalça Muzeyini bəzəmir. İngilislərin İrandan apardığı bu sənət incisi Londonun "Viktoriya-Albert" muzeyində saxlanır. Əslində "Şeyx Səfi" xalçası Azarbaycan incəsənətinin xarici ölkə muzeylərində saxlanan yeganə nümunəsi deyil. XVIII-XIX əsrlərdə Qarabağda, Gəncədə, Qazaxda, Qubada, Şamaxıda və Bakıda toxunmuş bir neçə xovlu və xovsuz nadir xalça hazırda ölkəmizdə olduğu kimi xaricdə də muzey və şəxsi kolleksiyalarda saxlanmaqdadır. Gəncə tarix diyarşünaslıq muzeyində isə XIX əsrdə Qarabağda toxunmuş atlı və itli xalça muzeyin ən maraqlı eksponatlarındandır.

Keçmiş zamanlardan bu günədək insanlar arasında informasiya daşıyıcısı sayılan bu xalçalar müasir dövrdə mədəni irsimizin qoruyucusu hesab edilən muzeylərdə sərgilənir. Xalçaçılıq öz xüsusi bədiiliyi və tarixi ənənəsi ilə Azərbaycanın tarixində əhəmiyyətli rol oynayır. Ulu əcdadlarımızdan bizə yadigar qalan bu mirası daha dərindən tədqiq edərək gələcək nəsillərə çatdırmaq bizim mənəvi borcumuzdur.

**Xülasə:**

Xalçaçılıq sənəti bir xalqın mədəniyyətini, rəngarəngliyini və yaradıcı bacarığını ifadə etmək üçün güclü ifadə vasitəsidir. Azərbaycan xalça sənətinin kökü, mənbəyi çox qədimlərdən bəri bir sənət və dəyər əfsanəsinə çevrilib. Gəmiqayadan, Qobustandan, Kür-Araz mədəniyyətindən qaynaqlanan xalça sənətində sehirli simvollar aləmi yaşayır. Xalq tətbiqi dekorativ sənətində, özünəməxsus yer tutan bu incəsənət növü mədəniyyətimizin ifadəsində və tariximizin qorunub saxlanılmasnda əhəmiyyətli rol oynayır.

## ƏDƏBİYYAT SİYAHISI

"Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin Elmi əsərlərinin toplusu"

Cəfər Müciri – "Azərbaycan xalçaçılığı", Bakı, 1977

C.Müciri – "Azərbaycan xalçaçılığının texniki üsulları", Bakı, Maarif, 1987

"Azərbaycan xalçaları". Foto və Dizayn: Hüseyn Hüseynzadə. Məsləhətçilər: R.Tağıyeva, F.Məmmədova. "Minaret" Reklam şirkəti və "RABİTABANK"ın birgə nəşri

Л.М.Левин, И.С.Леошкевич, С.Е.Сариханов – "Художественные ковры", СССР. Издательство «Экономика», Москва, 1975

"Azərbaycan Dövlət Tədris-Pedoqoji ədəbiyyatı nəşriyyatı", Bakı, 1963

Н.Абдуллаева – "Ковровое исскуство Азербайджана", Баку, 1971

Azərbaycan Sovet Ensiklopediyası, T.X.Bakı, 1987



XƏLİL TAHİRBƏYLİ

**Nəvəm Rahula**

Sən dünyaya gələndə
Günəş doğdu üzümə.
Sanki, şirinlik qatdın
Söhbətimə, sözümə,
Rahulum, ay Rahulum.

Babanın gözü sənsən,
Qəlbinin közü sənsən.
Evimizin işığı,
Düzəni, düzü sənsən,
Rahulum, ay Rahulum.

Gözümün ağ-qarası,
İlkin ciyər parası
Necə də sevimlidir,
Hər dərdimin çarəsi,
Rahulum, ay Rahulum.

Qorusun Allah səni,
Həm axşam, sabah səni.
Ürəyimdən hey qopan
Bu sevincli ah səni.
Rahulum, ay Rahulum.

Hər dərdə yarıyasan,
Könlünlə sarıyasan.
Bu Vətəni, bu eli
Böyüyüb qoruyasan.
Rahulum, ay Rahulum.

**Sev məni, sevməyi bacarsan**

İlk eşqin köksümdə yuva salıbdır,
Sev məni, sevməyi bacarsan əgər.
Gözlərimdə təbəssümün qalıbdır,
Sev məni, sevməyi bacarsan əgər.

Mən vurğunam sənin kimi gözələ,
Bir üzük tax, bu barmağa, bu ələ...
Sevən könlüm, bəlkə onda düzələ,
Sev məni, sevməyi bacarsan əgər.

Atəş olub, hey yandırıb yaxırsan,
Nədən mənə gizli-gizli baxırsan.
İldırımtək ürəyimdə çaxırsan,
Sev məni, sevməyi bacarsan əgər.

Məhəbbətdən sönməz ocağ çatmışam,
Nəyim var, nəyim yoxdu satmışam.
Demə səni qəlbimdəcə satmışam,
Sev məni, sevməyi bacarsan əgər.

Ürəyimdə öz yerin var, bilirsən,
Məni görüb axı niyə dinmirsən?
Gecələri hey yuxuma girirsən,
Sev məni, sevməyi bacarsan əgər.

Könlümdə solmayan çiçəksən, gülüm,
Köksümdə şux çarpan ürəksən, gülüm,
Xəlil deyər, ülvi mələksən, gülüm,
Sev məni, sevməyi bacarsan əgər.

**ANAR İBRAHİMOV**

**Azərbaycan Respublikasının
Dövlət Turizm Agentliyi
"Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət
və Təbiət Qoruğu,
Abidə mühafizəçisi**



# SAKİT MƏMMƏDOVUN YARADICILIĞINDA HEYDƏR ƏLİYEVİN PORTRETİNİN BƏDİİ XARAKTERİSTİKASI

***Açar sözlər: Portret, obraz, kompozisiya, faktura, rəng, forma***

Müasir Azərbaycanın təsviri sənətinin başlanğıc mərhələsini XX əsrin 90-cı illərinə təsadüf etdiyi demək olar. Bu dövrdə Sovet ideologiyasının təsirindən azad olmuş incəsənətimizin yeni irəliləyiş yoluna qədəm qoyması, müstəqillik qazanmağımız ilə bilavasitə əlaqədardı. İnkişaf və irəliləyişdə rəssamlarımızın mühim rolu var. Müasirliyə və milliliyi özündə birləşdirən tablolar meydana çıxması müasir Azərbaycan incəsənətinin özəyi formalaşdırılırdı. Ümumiyyətlə, yuxarıda qeyd olunan və müasir Azərbaycan incəsənətini yeniliklərlə zənginləşdirən rəssamlarımızdan biri də Sakit Məmmədovdur. Onun yaratdığı rəsm nümunələri milli və müasir təsviri sənətimizdə xüsusi yer tutur.

Qeyd edək ki, rəssam Sakit Məmmədov 1958-ci il 5 avqust tarixində Neftçala şəhərində anadan olub. O, 20 yaşında Azərbaycanın böyük sənətkarlarının yetişdiyi Əzim Əzimzadə adını Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını fərqlənmə diplomu ilə bitirib. Əzim Əzimzadə məktəbi güclü məktəb idi. Burada nə qədər məşhur rəssamlar dərs almışdılar. Sakit də ömrünün bu məktəbin divarları arasında keçən illərində öyrəndi, rəngləri "danışdırmaq" bacarığına yiyələndi. 1978-1980-ci illərdə hərbi xitmətdə olan rəssam 1981-ci ildən 1987-ci ilə qədər İlya Repin adına Leninqrad (Sank-Peterbruq) Rəssamlıq Akademiyasının rəngkarlıq fakültəsində sənətin sirlərini öyrənməyə davam edir və orada Lenin təqaüdü ilə oxuyan ilk azərbaycanlı tələbə olur. Lelinqrad Rəssamlıq Akademiyasında sovet boyakarı olan (SSRİ xalq rəssamı (1970), SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü (1973), Lenin mükafatı laureatı (1974) professor Yevsey Yevseyeviç Moiseyenkodan dərs alıb. İ. Repin adına Rəssamlıq Akademiyası onun istedadına yeni vüsət verdi.

Əksər rəssamlar kimi Sakit Məmmədov da bir çox janrlarda əsərlər ərsəyə gətirib. Bəzi rəsmlərdə biz bir yox, bir neçə janrın qarşılıqlı vəhdətini görə bilərik. Bu da rəssamın ustalığından və fırçanı necə ram etdiyini göstərən sübutlara daxildi. Rəssamın yaradıcılığına nəzər salsaq görərik ki, Sakit Məmmədovun tarixi, portret, mənzərə, məişət janrlarda bir-birindən dəyərli və bənzərsiz əsərləri vardır. Rəssamın mənzərə janrında olan əsərlərində biz təbiətin incəliyini və gözəlliyini fırça ilə tabloda əksini görə bilərik. Mənzərələrdə Azərbaycan təbiətinin rəngarəngliyini bir daha rəssamın təsvir etdiyi əsərlərdə görüb, heyran oluruq. Sakit Məmmədovun yaradıcılığında portret janrında işlədiyi əsərlər xüsusi yerə malikdir. Rəssamın bir çox portret janrında işlədiyi əsərlərdə təsvir olunan obrazlar müəmma və xəfifliyi ilə fərqlənir. Sakit Məmmədovun istedadı məhz portretlərdə daha dolğun ifadə olunur. Onun portretlərində simalar sanki zamanın axarından qoparaq əbədiyyət üçün həkk

edilib.

Ümumiyyətlə portret janrı haqqında danışsaq deyə bilərik ki, "Portret təsviri incəsənətin əsas janrlarından biridir. Digər janrlarda olduğu kimi portret əsərləri də öz məzmununu ictimai həyatdan alır və ictimai varlığı spesifik bədii obrazlar vasitəsi ilə əks edir və ictimai həyata təsir göstərir. Ona görə də portretçi rəssam öz əsərlərində insanın yalnız zahiri oxşarlıq, poza, hərəkət və mimika kimi xarici əlamətlərini verməklə kifayətlənməyir. O, eyni zamanda portretini çəkdiyi şəxsin mənəvi dünyasını, psixoloji xüsusiyyətini və nə cür xarakterə malik olduğunu da göstərməyə çalışır." (6)

"Bədii forma və təsvir formalarına görə portret əsərləri monumental, təntənəli, rəsmi, intim, satirik və s. olur. Ancaq bu növlərdən hər biri ictimai həyatdan mövcud siyasi-iqtisadi quruluşdan asılı olaraq müxtəlif dövrlərdə müxtəlif dərəcələrdə inkişaf etmişdir". (3. s.225)

"Azərbaycan incəsənətində ilk insan təsvirlərinə XIII əsrin sonu və XIV əsrin əvvəllərində Marağa və Təbrizdə yazılmış əlyazmalarda rast gəlmək olur. Bu vaxtdan etibarən Marağa və Təbriz şəhərlərində yayılmağa başlayan miniatür sənəti XV-XVI əsrlərdə arası kəsilmədən inkişaf edir. XVI əsrdə isə Təbriz miniatür məktəbi nəinki, orta əsr Azərbaycan, eləcə də qonşu Şərq xalqları incəsənətinin inkişafında da əhəmiyyətli yer tutur. Təbriz rəssamlarının yaratdığı surətlərdə portret janrı üçün xas olan iki əsas xüsusiyyət nəzərə çarpır: İdealizə etmək və tipikləşdirmək." (6)

"İdealizə etmə yolu ilə yaradılan əsərlərdə əsasən insanın zahiri əlamətləri – geyim, zinət və s. təsvir olunaraq, demək olar ki, daha qəşəng və gözəl verilirdi. Buna görə də bu cür portretlərdə insanın daxili aləmi, fərdi psixoloji xüsusiyyətləri öz əksini tapa bilməzdi. Bu yol ilə əsasən şah, şahzadə, əyanlar və yuxarı təbəqəyə aid olan qadın surətləri yaradılırdı. Kəndli, döyüşçü, qulluqçu və aşağı təbəqəyə aid olan insanlara aid portretlər məzmununa uyğun olaraq tipikləşdirmə yolu ilə yaradılırdı". (2. s.77-89), (4., s.66-71)

"XVII əsr Azərbaycan rəssamlığının, eləcə də portret sənətinin süqut dövrü olmuşdur. XVIII əsrdə isə portret divar rəsmlərində, xalqın yaradıcı qüvvəsini nümayiş etdirən xalqın sevimli surətlərini təcəssüm etdirmişdir. Təbriz miniatür məktəbinin ənənəsinin davamını XIX əsr Cənubi Azərbaycan rəssamı Həsən Əfşarın əsərlərində və görkəmli rəssam Mirzə Qədim İrəvaninin və Mir Möhsün Nəvvabın yaradıcılığında izləmək mümkündür. Bu dövrdə portret sənətində realistik xüsusiyyətlər təzahür etsə də, bu janr tamamilə realizmə əsaslana bilməmişdir". (6)

XX əsrdə yaşayıb-yaradan Azərbaycan rəssamlarının içərisindədə portret janrında işlən rəssamlar olmuşdur. Bunlara misal kimi Oqtay Sadıqzadə, Altay Hacıyev Tahir Salahov və b adlarını çəkmək olar. Artıq XX əsrin sonu XXI əsrin əvvəllərində portret janrında yaratdığı əsərlərlə tək Azərbaycanda deyil, həm də dünyada məşhur olan Sakit Məmmədovun portretləri digərlərindən özünəməxsusluğu ilə seçilir. Rəssamın özü bu janra tamam başqa cür yanaşır və onun dəriliyinə nüfuz etməyə çalışır. "Portretdə həm psixologiyanı, həm anatomiyanı bilməli, həm də çəkdiyin insanı kəşf edib, öyrənməlisən. Hər insanın portreti çəkilə bilməz. Kiminsə portretini çəkməyi mən özüm istəməliyəm. Rembrandtın portretinə baxırsan və görürsən orda hər şey var. Min illərdir Allah insanı yaradır, amma O hələ də axtarışdadır. Heç bir insan bir-birinə bənzəmir. Portret janrı mənim üçün çox maraqlıdır. Portret iki insan arasında yaranmalıdır. Qarşı tərəf də buna kömək etməlidir. Portret çəkməkdən çox zövq alıram. İnsan hələ kəşf olıunmamış bir möcüzədir. Bir insanın içində həm savaş, həm də çox gözəl hisslər var". (5)

Onun portret janrı ilə bağlı olan fikirlərinə nəzər keçirsək görə bilərik ki, bu janr rəssam üçün tamamən bir fəlsəfi dünyadın və o bu dünyada olan və xoşuna gələni öz toblolarında əks etdirir. O bu janrın fəlsəfəsin izah edərkən belə demişdir : "rəssam portret çəkəndə çəkəcəyi adamla xeyli söhbət edir, onun bütün üz cizgiləri ilə tanışr olur, onun daxilinə nüfuz edir, xarakterini öyrənməyə çalışır və sonda bütün bunları bildikdə portreti hazırlayır. Artıq portretdə insanın bütün daxili, cizgiləri qeyd olunur. Artıq bu özünsən". (7)

Sakit Məmmədovun yaradıcılığında hər bir təsvir olunan obrazın xüsusiyyətləri və düşüncələri ümumi olaraq təsvir olunanın kimliyi tam olaraq əks olunur. Portrelərdə həm Azərbaycan xalqının tarixində mühim rol oynamış tarixi şəxsiyyətlər, həm dünyada olan tanınımış insanlar, həm də rəssamın fantaziyasının məhsulu olan gözəl gənc qızların görə bilərik. Bu əsərlərin hər birində kompazisiya qurluşu və rənglərin ahəngi tamaşaçıda təsvir olunan süjetin kimliyi haqqında maraq yaradır. Əgər təsvir olunan sürət tamaşaçıya tanışdısa bu zaman həmin maraq daha da artır. Onun bu portretləri sırasında Azərbaycanın xalqının tarixində silinməz iz salan müxtəlif şəxsiyyətlər olub.



**Heydər Əliyevin portreti**
**(280x160sm, k,y,b, 2018)**

Sakit Məmmədovun portretləri sırasına əlavə olunan hal-hazırki son əsər öz möhtəşəmliyi ilə digərlərindən seçilir. Bu əsərdə təsvir olunan obraz Azərbaycan xalqının tarixində silinməz iz buraxan şəxs Azərbaycan Respublikasının üçüncü prezidenti (1993-2003) olan Heydər Əliyevdir.

Bu əsər parad portreti xüsusiyyətlərini özündə daşıyır. Kompazisiyanın mərkəzində əyləşərək öz xalqına qayğılı baxışlarla baxan Heydər Əliyev təsvir olunub. Onun simasında olan nikbinlik və müdriklik Heydər Əliyevin daxili dünyasının zənginliyindən xəbər verir. Kompazisiyanın yuxarı sağ hissəsində miniatür nümunəsi təsvir olunmuş və bu da rəssamın milli ənənələrə olan sadiqliyi bildirir. Eyni zamanda tabloda biz müqəddəs kitab olan "Qurani-Kərim"i görə bilərik. Yuxarı sol hissədə Azərbaycan Respublikasının ərazisinin içərisində dünyanın təsvir olunduğu xəritəni görə bilərik ki, bu da Heydər Əliyevin yüksək əməyi nəticəsində ölkəmizin dünyaya tanıdılmasını əks etdirir. Əsərin aşağı hissəsində Azərbaycan xalqının ən qədim maddi-mədəniyyət nümunəsi olan xalça təsvir olunub. Quruluş etibari ilə bu xalça xovlu xalçaya daxildir. Bu xalça qırmızı yerliklidi və mərkəzdə iri medalyon təsvir olunur. Tarixi mahiyyət etibarı ilə Heydər Əliyevin hakimiyyətə gəlməsi Azərbaycan üçün çox mühim bir tarixi hadisə idi. Heydər Əliyevin sayəsində yaddaşlardan silinmək üzrə olan milli kimliyimiz və tarixi ənənələrimizə sahib çıxmağa başladıq. Bunun göstəricisi kimi divarda olan miniatüra nümunəsi və yerdə təsvir olunan xalçanı qeyd etmək olar. Eyni zamanda Heydər Əliyevin hakimiyyəti zamanından başlayaraq Azərbaycanın bütün dünyaya inteqrasiyası və buna isə divarda təsvir oluna xətitə bir göstəricidi.

Əsərin rəng həllinə gəlincə parlaq və isti tonların harmoniyası əsasında qurulan kompazisiyanı daha gözəlləşdirir. Qırmız rəngin üstünlüyü əsərə olan diqqəti daha da artırır.

Onun yaradıcılığında olan portret janrında işlənən əsərləri ümumiləşdirib müxtəlif fikirlər yürütmək mümkündür. O portretləri ilə insan qəlbinin dərinliklərinə nüfuz edərək çəkir və bu rəssamın fərqli xüsusiyyətlərindəndir. Lakin rəssamın yaradıcılığının ana xəttini qadın portretləri təşkil edir. S.Məmmədov zərifliyi, saflığı, nəcib ləyaqəti və ruhun gözəlliyini çatdıran xeyli sayda qadın simasını kətan üzərində canlandırıb". (1. s.86-87)

Rəssamın təsvir etdiyi portretlərdə olan sürətlərin kimliyi və xaraqteri haqqında nəticə çıxarmaq üçün təsvirdə istifadə olunan rəng həlli xüsusi yerə malikdir. Rəsmlərin hər birində müəyyən qədər bir fəlsəfilik gizlənir. Sakit Məmmədov hər bir təsvir etdiyi obrazla müəyyin bir problemi qarşıya qoyaraq onun bacardığı qədər həll etməyə çalışır. Bu problemlərin hər biri həyat fəlsəfəsi ilə bağlıdır. Ümumi olaraq demək olar ki, təsvir olunan obrazların hər biri bir nəfəri yox müəyyən bir sinfin xüsusiyyətlərini özündə cəmləyir. Məhz budur obraz axtarışı. Bir obrazın timasılnda minlərlə obrazı cəmləmək. Ancaq, bununla belə rəssam fərdiliyi və özünəməxsusluğu da qoruyur. Portretlərdə olan hər bir obraz həm ümumi, həm də xüsusi olaraq çıxış etmə bacarığına malikdir. Buna misal kimi rəssamın bir çox portetini göstərmək olar. Bu xüsusiyyətlərin hamısı rəssam ustalığından və portret janrının fəlsəfəshinə vaqif olmasından xəbər verir.

**Ədəbiyyat siyahısı:**

**Ümumtəhsil məktəblərinin 9-cu sinifi üçün "Təsviri incəsənət" fənni üzrə dərslik. Bakı. 2016. (s.86-87)**
**Azərbaycan incəsənəti. Bakı: Maarif, 1977, (213 s., s.77-89)**
**Azərbaycan incəsənəti: 10 cilddə, VI c., Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1959, (320s., s.225)**
**Əfəndi R. Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 2007, (282 s., s.66-71)**



YUSİF BAĞIROV

# Gənc oğlu intihar etmiş atanın qəlbindən qopan hayqırtılar

**Sənmişşən demək**

Sən gedən o gündən qaralıb dünyam,
Sanki boş-boşuna çırpınır ürək.
Ev də ayaqlanıb üstümə gəlir,
Evimin şənliyi sənmişşən demək.

Nağara səs salmır, tıqqıltı yoxdu,
Gitara sızlamır, cınqıltı yoxdu.
Piano lallaşıb, dınqıltı yoxdu,
Evimin şənliyi sənmişşən demək.

Qəlbimi bələdim kədərə, qəmə,
Könlüm gəlməyir ki... gəlməyir dəmə,
Ürəyim dönübdü qırıq bir simə.
Evimin şənliyi sənmişşən demək.

Bu evdə nə varsa, alıb apardın,
Nəşəni, sevinci çalıb apardın.
Yusifi atəşə salıb apardın,
Evimin şənliyi sənmişşən demək.

**Çağır məni yanına**

Daha yoxsan, üzüm gülmür, neyləyim?
Çağır məni, susqun ruhum, yanına.
Ürək dözmür, susmur gözüm, neyləyim?
Çağır məni, ay Raufum, yanına.

Dərdim çoxdu, deyəmmirəm, neyləyim,
Dərdi dərdlə döyəmmirəm, neyləyim.
Bir kimsəni söyəmmirəm, neyləyim,
Çağır məni, ay Raufum, yanına.

Həsrət qaldım gül üzünə, neyləyim,
Xoş gecənə, gündüzünə, neyləyim.
Yusif yanır şux közünə, neyləyim,
Çağır məni, ay Raufum, yanına.

**Dözmür ürək**

Dərdim köz-köz, gecə-gündüz çağlayır,
Bir an susmaq bilməyir ki, ananda.
Çəkdiyin dağ, bax, köksümü dağlayır.
Dözmür ürək səni sənsiz ananda.

Üzülübdü səni sevən ürəklər,
Hicranını axşam-sabah körüklər.
Dil açmır ki, daha arzu-diləklər,
Dözmür ürək səni sənsiz ananda.

Yusif, Tanrı verən dərddi bu dərdin,
Bunu çəkmək görəvidir hər mərdin,
Oğul, dərdin olub mənim qəm dərdim,
Dözmür ürək səni sənsiz ananda.



AYAZ İMRANOĞLU

# SEVGİLİMİN OĞLU QARDAŞIMDIR

***romandan bir parça – son, əvvəli jurnalın 50, 52 və 53-cü saylarında***

-İçimdəki enerjini çıxatmaq üçün falçılıq etməyi öyrətdi mənə. İnsanlar talelərinə, dərdlərinə baxdırmaq üçün yanıma gələndə mən ilk olaraq içimdəki enerjini qarşımdakı insana ötürür, ondakı müsbət auranı özümə çəkirəm. Ona görə də sizin kimi normal yaşam tərzinə malikəm. Yoxsa... Dünyanı sürətli inkişaf məhv edər. Yavaş yaşam tərzi təbii inkişafdır. Bəşəriyyət bu fəlsəfə ilə inkişaf etsə, dünyanın boyuna boy qatmış olar.

-Mənə maraqlıdır danışdıqların. Amma bir sual hələ də mənə sirr olaraq qalır. Sən hardan bilirsən mən sənin qardaşınam? Yoxsa onu da qaraçılar padşahının yanındakı baş kahin deyir? - Sərxan gülümsədi.

-Şəkk eləmə məndəki ilahi vergiyə, - falçı xanım Sərxana xəbərdarlıq edirmiş kimi barmağı ilə onu hədələmə işarəsini göstərdi. - Demək bayaqdan danışdıqlarıma inanmırmışsan. Belə çıxır ki, səninlə etdiyim bu söhbətləri boş yerə danışmışam, - sonra Sərxanın gözlərinin içinə baxıb, - Bizim qardaş-bacı olmağımız şübhə oyatmasın səndə. Onda qulaq as, mən danışım, sən dəqiqliyini bil, -yuxu başını gicəlləndirdiyindən, göz qapaqları mürgü döydüyündən halsız halda astadan pıçıldadı. - Bəlkə qalsın sabah axşama, səhər açılır...

-Olsun, bacı, amma bircə sualıma cavab ver, adın nədir?..

-Adım "Min bir gecə" dastanında olan Şəhrizaddır, - deyib o da gülümsədi.

Bayaqdan fikir verməmişdi. Özünü Sərxanın bacısı sanan bu xanım güləndə yanağının sol tərəfində batıq əmələ gəlirdi, eyniylə ondakı kimi.

-Belə getsə sənin danışdığın bu uzun hekayətlər də min bir gecə nağılına dönəcək. Orda da nağılçı Şəhrizad, burda da falçı Şəhrizad…

-Biz doğulan gündən taleyin sərt oyunlarına tuş gəlmişik. Ona görə də başımıza gələnləri ha danışsaq da qurtarmır ki, içimiz yüngülləşsin, - deyib Şəhrizad dərindən köks ötürdü.

…Sərxan Şəhrizadın otağından çıxanda dan yeri sökülür, həyətdəki tək tut ağacındakı sərçələr elə bil yeni günün başlamasını "bayram" edirdilər.

Sahibə xanım erkəndən yuxudan durmuşdu, həyətdə var-gəl edirdi. Sərxan qaldığı otağa keçmədən su kranın yanında Sahibə xanımı gördü:

-Sabahınız xeyir olsun.

-Aqibətin xeyir olsun, dədəm balası, - cavab verdi.

Daha başqa bir kəlmə kəsmədilər. Sərxan həyət qapısından çıxıb işə getdi. Bütün günü fasiləsiz işləsə də yorğunluq nə olduğunu bilmədi. Heç bütün gecə yuxusuz qaldığı da hiss olunmadı. İşləyə-işləyə fikirində Şəhrizadın danışdığı hadisələr oldu. Bayaqdan dilinin ucunda bir söz bitmişdi. Şipşirin gəlirdi ona bacı sözü. Düşünürdü ki, Şəhrizad həqiqətən onun bacısıdırmı?..

İlk dəfə qaraçılar hotelinə müştəri olduğu gecədə qaldığı otağın pəncərəsindən Şəhrizadı görmüş qəlbindən başqa şeylər keçmiş, hətta bu gözəl xanıma ilk baxışdan aşiq də olmuşdu. İndi isə bacısı kimi sevməyə başlamışdı.

…Qaraçılar hotelinin ala qapısından içəri girəndə Şəhrizad tut ağacının altında Sərxanı qarşıladı:

-Axşamın xeyir olsun, qardaşım...

-Hər vaxtın xeyir olsun, bacım, – deyən Sərxan ona yaxınlaşıb gül buketini Şəhrizada təqdim etdi.

Gül buketini alıb qoxlayıb məmnunluğunu ifadə etdi. İlk dəfə idi ona gül hədiyyə olunurdu. Ona görə də gül buketini sinəsinə sıxıb qardaşına baxdı. Dili yox gözləri

ilə qardaşına deyirdi: “Ətri adamı bihuş edir, qardaş…”

-Otağıma keç, zəhmət olmasa…

-Xeyirdimi, bacı?

-Çox sual vermə.

-Oldu. Gözlə...

Sərxan əl-üzünü yuyub Şəhrizadın otağının qapısını döyüb açdı. Bacısı gül buketini gül qabına qoyurdu.

Süfrəyə aş gələndə bir anlıq Sərxan bacısına baxdı. Ətri onu məst etmişdi. Hisslərini boğa bilməyib soruşdu:

-Bunu bişirmək hardan ağlına gəldi, bacı? Hardan bilirsən ki, neçə ildir aş tamarzısıyam?

-Bacı qardaşın qəlbini oxuya bilmirsə, hisslərini duya bilmirsə, ondan bacı olmaz.

-Hə, qanımız bir, ruhumuz doğma...

Qardaşının qabına xeyli aş çəkib üstünə də hinduşka ətinin döşündən qoyub, özünə də yemək çəkdikdən sonra stol çəkib oturdu. Hər ikisi dinib-danışmadan iştahla yedilər.

Yemək süfrəsini yığışdıran kimi çay gətirdi. Şəhrizad qardaşının qayğılı olduğunu görüb dilləndi:

-Gəmilərin dəryada batıb? Elə qəmli dayanma. Onsuz da biz qəm şərabından doyunca içmişik…

-Deyirəm səni bu qaraçı arvadın əlindən qurtara bilsəydim, - demişdi ki, Şəhrizad tez əlini qardaşının ağzına tutub, o biri əlinin barmağını dodaqlarına tutdu. Gözlərini Sərxanın gözlərinə dikdi. Gözlər gileylə deyirdi: “Sus!.. Danışma!..”

Sərxan bacısının həyəcanını başa düşüb başı ilə “oldu, danışmaram…” işarəsini verdi.

Şəhrizad durub pəncərənin tül pərdəsini azca aralayıb çölə baxdıqdan sonra yenidən stola əyləşib:

-Mən anamdan ayrılanda üç yaşın içində olmuşam. Heç düz-əməlli bilmirdim ki, mən hansı şəhərdə yaşayıram, o şəhər harada yerləşir. Anamın üz cizgiləri çoxdan yadımdan çıxmışdı. Zaman-zaman səsi eləcə qırıq-qırıq qulaqlarımda cingildəyirdi. Qarşıma çıxsaydı, tanımazdım. Əgər o hadisə olmasaydı...

-Hansı hadisə? – Sərxan tez sual etdi.

-Səbirli ol, qardaşım. Danışdıqlarıma diqqətlə qulaq as. Qaraçı dəstəmiz Bakıya “sezon”a gələndə kimisi rəqs etməklə pul qazanır, kimisi şəbədə çıxmaqla, kəndirbazlıq etməklə, tütək çalmaqla; belə pul qazananlar da var. Dilənçiliklə pul qazanmaq ən asanıdır. Mənim də işim falçılıqdı. Ölkənin məhşur iş adamları, vəzifə sahibləri, müğənniləri mənim baxıcılığımla karyeralarını qurub yaxşı pul qazanırlar. Bu illər ərzində müştərilərim o qədər olub ki, saya-hesaba gəlməz.

-Tanınmışların bəxt yolunu açmısansa yəqin sənin də çoxlu pulun olar? – Sərxan zarafatla dedi.

-Naşükür deyiləm. Qurban olum allaha, verdiyinə şükür edirəm, - sonra sözünə ara verib yenidən davam etdi, - fikrimi qarışdırma. Günlərin birində yanıma orta yaşlı bir qadın gəldi. Boynubükük halda yazıq-yazıq danışırdı. Deyirdi “yerazam”. Oğlunun falına baxdırmaq istəyirdi. Şəklini istədim. Qoynundan dəsmala bükülü şəkili çıxardıb mənə uzatdı. Şəkildən atəşli gözləri olan bir gənc oğlan baxırdı. Mən oğlana heyranlıqla baxanda, o da qəhərlənirdi. Birdən hönkürtü çəkib ağladı:

-Xaraba qalmış Ermənistandan qaçqın düşəndə top-dağıtmaz evimizdən əli boş çıxdıq. Onda oğlum rusetdə əsgərlikdə idi. Əsgərlik etdiyi yerin ünvanını həmişə konvertin üstünə yazardı. Ondan gələn bütün məktubları, şəkilləri səliqə ilə sandıqda saxlayırdım. Qaçhaqaçda şəklini götürsəm də konvertlərdən götürmək ağlıma gəlmədi. Ona görə də oğlumla əlaqəmiz kəsildi.

Mən şəkilə bir xeyli diqqətlə baxıb, qadına əminliklə dedim:

-Yol görünür. Amma gələsi yolda qarşısını kəsən manelər var. Onları dəf edib gələcək...

Sözümü kəsib:

-Ay qızım, nə vaxt gələcək? – soruşdu.

-Bir müddət gözləməli olacaqsınız.

-Gözəl qızım, altı ildi yolunu gözləyirik. Axı yazıq balam tutaq ki, Bakıya gəldi yerimizi-yurdumuzu bilmir ki, tapsın. Bakı da ki, maşallah, böyük şəhərdi. Deyirlər 3 milyon insan yaşayır burada...

-Ən çoxu da ona görə gecikir. Ünvanınızı ona verən olacaq. Ondan sonra gələcək. Ancaq... - deyib qadına baxıb başımı astaca buladım. Ürəyimdə eləcə “yazıq ana, oğlunu görmək sənə qismət olmayacaq”, - dedim.

Qadın əlləri əsə-əsə bir “məmmədəmin” (pul) verib dua edə-edə getdi. İki aydan sonra yenə gəldi. Bu dəfə məni doğması kimi qucaqlayıb öpdü:

-Gözümüzün kökü saraldı axı, qızım. Oğlum gəlmədi, - deyib ümidsiz halda məni süzdü.

-Dedim axı, gözləyin, gələcək, - qadına ümid verdim.

O dərindən köks ötürüb:

-A bala, mənimki heç əvvəldən övlad sarıdan düz gətirmədi. İki övlad dünyaya gətirdim, ikisini də allah baba müxtəlif üsullarla əlimdən aldı. Bu nə cəzadı çəkirəm, - sonra günah işlətmiş adamlar kimi üzünü göyə tutdu. - qurban olduğum, sənə qarşı üsyan etmirəm e... özün vermişdin, özün də...

-Xanım, digər övladın ölübmü? – soruşdum.

Qadın bulud kimi doldu:

-Hə, qızım vardı 3 yaşında. Öldüsünü, qaldısını nə mən, nə də kimsə görməyib. Həyətdə oyuncaqları ilə oynayırdı. Yuduğum paltarları sərməyim heç beş dəqiqə çəkmədi. Baxdım ki, uşaq yoxdur. Uşaq yağlı əppək olub qeybə çəkildi. Gəzmədiyimiz, axtarmadığımız yer

qalmadı. Üstündən illər keçib. Hələ də gözlərim onu axtarır.

Mən qadına üz tutdum:

-Dedin üç yaşı olardı?

-Bala, üç yaşın içindəydi, gül parçası olan qızım, - deyib qadın içindən sızladı.

-Şəkli varsa, verin baxım.

-Yox, bala, anam mömin qadın olduğundan qoymadı şəkilini çəkdirim, deyirdi düşər-düşməzi olar.

Qadının sağalmaz dərdinin qaysağını qoparmışdım. Gedəndə öz-özünə danışırdı. Özünü qınayır, özünü qarğıyırdı. Ala qapıdan çıxana kimi niyəsə onu müşahidə etdim. Heç belə şey olmamışdı ki, gələn müştərini özüm yola salım. Onu yola salıb otağıma qayıtmışdım ki, birdən elə bil kimsə mənim böyrümü dümsəklədi: "O qadının səsi yaddaşını oyatmalıydı axı… özü də ikinci dəfə onu sənin yanına göndərirəm ki, o səsi eşidib özünə gələsən…" Çaşqınlıqla qeybdən gələn səsi otaqda axtardım. Qeybdən gələn səs daha eşidilmədi. Yaddaşım isə kitab kimi varaqlanırdı: "Hə, odur, o səsdir. Uşaqlığımdan tamarzı qaldığım dogma səs, anamın səsiydi…" Tez həyətə atıldım. Alaqapını açıb küçə boyu yüyürdüm. Qadını tapa bilmədim. Hansı istiqamətə getdiyini dəqiq bilsəydim, bəlkə də ona yetə bilərdim. Axı onu yola saldığım heç beş dəqiqə olmazdı. Kor-peşiman otağa qayıtdım. Oğlunun şəkili yadından çıxıb stolun üstündə qalmışdı. İnandım ki, o yenidən qayıdacaq. Amma o gəlmədi.

-Hanı o şəkil, baxmaq olarmı? – Sərxan həyəcanla soruşdu.

-Gözlə, indi gedib o biri otaqdan gətirərəm.

Şəkili gətirib Sərxana verəndən bir neçə an sonra yer-göy Sərxanın başına fırlandı. Nəfəsi darıxdı. Handan-hana özünə gəlib:

-Bəs o qadın sonradan şəkilin dalınca gəlmədimi? – soruşdu.

Şəhrizad ərkyana qardaşına söyləndi:

-Dedim axı, səbrin olsun. O qadının yaşadığı yeri bilsəydim, onlara gedərdim. Təəssüf ki, bilmirdim. İki dəfə yanıma gəlsə də adını belə öyrənə bilməmişdim. Eləcə onun yenidən gələcəyinin ümidi ilə yaşayırdım. Bir gün isə...

...Bir gün gözəl-göyçək bir qız qaraçılar hotelinə gəlib mənimlə görüşmək istədiyini deyir. Təbii ki, gəlsin dedim.

İçəri girən kimi salamsız-kəlamsız:

-Nişanlımın şəkili sizdə qalıb, gəlmişəm onu aparam, - dedi.

-Nə şəkil? Sənin nişanlının şəkili məndə niyə qalsın ki? Səni birinci dəfədir görürəm, – qıza təəccüblə sual verdim.

-Üzürlü sayın, gərək tanışlıq verəydim. Qaynanam oğlundan ötrü iki dəfə yanınıza gəlib. Sonuncu dəfə yadından çıxıb oğlunun şəkili burada qalıb. O şəkil oğlundan qalan yeganə şəkildir. Bir şəkili vardı, onu da rusetə gedən bir nəfərə vermişik. İkinci şəkili olsaydı, bəlkə də sizi narahat etməzdim.

-Hə, hə, başa düşdüm. Bəs özü hanı? O qadın mənə çox gərəkdir.

-Yəqin falına baxdığınız üçün pulunuzu verməyib, yoxsa oğlundan xəbər var? - soruşdu.

-Yox, siz nə danışırsınız, hər dəfə pul verib. O mənə hava, su kimi gərəkdir. Gözlədim bir daha gəlmədi. Sizi isə allah mənə yetirib.

-Nişanlımdan xəbər varsa, mənə deyin, - təkrar soruşdu.

Qadının özü şəkil dalınca gəlməməsi məni narahat etdi. Düşündüm ki, yaşlı qadındı, yəqin xəstələnib, ya da başında bir qəza var ki, gəlməyib. Gedib bu xanımla ona baş çəkərəm, özlüyümdə düşündüm.

-Nişanlının yolu görsənir, inşallah gələr, - deyib ona təskinlik verdikdən sonar əlavə etdim, - Mənə qadının özü gərəkdir. Gedib onu görə bilərəmmi?

Qızın bir anda üzünə, gözünə qəm yağışı çökdü:

-Onun qırx mərasimi dünən idi...

Qəflətən deyilən bu xəbərdən elə bil başıma bir qazan qaynar su tökdülər, yanıb cızdağım çıxdı.

-Necə?.. Bu ola bilməz.. ola bilməz... axı sapsağlam xanım idi. O mənə çox gərək idi, - deyib qəzəbimi soyutmaq üçün yumruğumu düyünləyib divara çırpdım

Elə bil qisas hissimi kimdənsə alırdım. Diz çöküb hönkürtü ilə ağladım. Mənim hərəkətlərimdən yazıq qız heç nə anlamayıb eləcə gözlərini döyə-döyə qalmışdı. Nəhayət, özümü ələ ala bildim:

-İtirdim... Özü öz ayağıyla yanıma gəlmişdi. Allahım, günahım nədir?.. Bəs onu mənə niyə qovuşdurmuşdun, yenidən ayırmaq üçünmü? Mən onun kim olduğunu bilsəm də o övladını tapdığını bilmədi. İlahi, belə zülümmü olar, ona yaşatdın, - deyib ah çəkdim.

Səsimə analığım Zita və hotelin sahibəsi gəlmişdilər. Onlar da heç nə başa düşməsələr də su içirdib, sakitləşdiyimi gördükdən sonra getdilər. Yazıq qız hələ də baş verənlərin şokunu yaşayırdı.

-Get, sonra görüşərik. Şəkil qalsın burada. Nişanlını özüm gətirəcəm yanına, - deyib qızı ala qapıya kimi yola saldım.

Anam iki dəfə mənimlə görüşdü. Fikir verirdim yazıq arvad övladlarının dərdini çəkməkdn ürəyi param-parça olmuşdu. O yanımda göz yaşı tökmür, qan ağlayırdı. Danışanda üzündəki batıq ona yaraşırdı.

Sərxan kədərli halda danışdı:

-Mən də ana arzusuyla ailəmi rusetdə qoyub bura

gəldim. Yaşadığı qəsəbəyə kimi getdim. Bir yaşlı kişidən evlərinin yerini soruşanda anamın öldüyünü dedi. Yarıyoldan geri qayıtdım.

-Bəs nişanlın necə olacaq? Axı o neçə ildir sizinkilərlə qalır. İndi də Ariflə...

Sərxan birdən-birə söhbətin mövzusunu dəyişdi:

-Bacı, sənə bir sualım var. Bəs nə bilirdin mən qaraçılar hotelinə gələcəm?

-Mən bilmirdim. Uca Tanrı sənin bura gəlişini buyurmuşdu. Bunlar mənə əyan olurdu. Sən bura gələn gecənin səhərisi səni pəncərədən görəndə sevindim. Tez şəklinə baxdım. Sən idin…

***

Zita arvad ara-sıra Şəhrizadla başqa dildə danışırdılar. Həmişə Sərxana maraqlı gəlirdi ki, bu necə qaraçı dilidir iki nəfərdən başqa kimsə bu dildə danışmır. Bir gün Şəhrizada dedi:

-Mən də istəyirəm qaraçı dilini öyrənəm.

-Çox dil bilmək yaxşı əlamətdir. Qaraçı dilini isə deyərəm öyrədərlər. Mən o dili başa düşsəm də danışa bilmirəm. Bilirəm elə zənn edirsən ki, analığımla qaraçı dilində danışıram. Əsla, elə deyil.

-Bəs Zita arvadla hansı dildə danışırsınız?

-O dil bizim tayfaya məxsus olan dildir. Çox qədim dildi. O dilin yaranmasının maraqlı tarixçəsi var. Min ildən çox yaşı olsa da, az bir qism adam o dildə danışır. O da ki, yaşlı adamlar. Zita arvad istəyir cavanlar da o dili öyrənsin, amma indiki cavanlar çox tənbəldirlər.

-Yəqin bu dil də qaraçı dilinin bir qoludur?

-Onu bilmirəm. Gizli bir şey olanda bir-birimizlə o dildə danışırıq, - dedi Şəhrizad.

-Bəs dilinizin adı nədir?

-Dilimizin adı baba dilidir. Analığım Zitanın ulu babası yaradıb. Təxminən min il öncə ərəb şahı əmr verir ki, ölkədə olan bütün qaraçılar öldürülsün. Ona görə də hər yanda qaraçılar təqib olunurdu. Qaraçı görən kimi tutub qazamata basır, ya da öldürürdülər. Ölkə sərhədləri boyu qaraçılara çıxmaq yasaq olunduğundan heç yana gedə bilmirlər. Həm də qaraçı dilini bilən ərəblər onları tez tanıyırdılar. Bu haldan bezar olan bir qrup qaraçı qaçıb yaxınlıqda yerləşən o dağın mağarasında gizlənirlər. Gündüzlər mağarada gizlənir, gecələr şəhərə çıxıb özlərinə azuqə axtarır və bir də qarşılarına keçən qaraçıları mağaraya gətirirmişlər.

Bir neçə dəfə ərəblər onların danışıqlarının izinə düşüb mağaraya hücum çəkib ələ keçənləri öldürmüşlər. Hər dəfə ərəblər onların yerini biləndə başqa mağara axtarıb tapırmışlar. Artıq bu ərəb ölkəsində yaşamağın mümkün olmadığını görüb özlərinə xilas yolları axtarırlar. Bir nəfər onlara deyir ki, Türk soylu atəşlər yurdu olan bir ölkə var. O ölkəyə gedə bilsəniz, əmin-amanlıq tapacaqsınız.

Mağarada bir ağsaqqal varmış ki, onun öyüd-nəsihəti həmişə onlara xeyir gətirmişdi. Ona görə də ağsaqqala hamı hörmət qoyurdu. Adını bilməsələr də hamı ona baba deyirmiş. Hikmət sahibi olan babanı hamı dinləyir, dediyi sözə baş əyirmişlər. Baba heç kimin ağlına gəlməyən bir iş görür. Özündən bir neçə söz icad edir və bu sözlərin anlamını qaraçılara başa salır. Məqsəd oymuş ki, onların danışdıqlarını ərəblər başa düşməsin... Beləcə, baba dili yaranır. Elə tayfanın sağ-salamat Azərbaycana pənah gətirməsində də baba dilinin köməkliyi olub. Zita ana ilə danışdığım dil baba dilidir.

-Bəs baba dili hansı dil qrupuna daxildir. Özünə qohum dil saydığı hansı xalqın dilidir?

-Onu gərək alimlər, dilçilər müəyyən etsin. Zita ana deyir ki, baba dili yaradan o müdrik insan demişdi ki, buradakı sözlərin çoxu türk mənşəli sözlərdir.

-Əladır ki...

-Zita arvad babasının yolunu gedib dilin əlifbasını da yaradıb, - deyən Şəhrizad şagird dəftərinə yazılmış qəribə işarəli yazıları göstərdi.

-Gözəl təşəbbüsdü. Qaraçı uşaqlar öz dillərində yazıb-oxuyar, təhsil alarlar. Dünyaya elmi töhfələri olar.

-Min ildi bu xalq sərgərdan ömür sürür. Gah şərqi Hindistanı, gah da Misiri vətən deyib özlərini vətənli saysalar da tarixi araşdırmalar bunu təsdiq etmir... Gerçək vətənlərinin hara olduğunu bilməyən bu binəvalar ona görə də dünyanın hər yerini evləri sanırlar.

-Bacı, bəlkə gələcəkdə elmi araşdırmalar onların dəqiq yerini-yurdunu müəyyən edəcək?

-Kimisi deyir onların ölkəsi batıb, hansısa okeanın altında qalıb. Kimisi də deyir Vulkan püskürüb qaraçılar ölkəsinin şəhər, kəndlərini, bütün canlılarını külə çevirib. Bu qaraçılar tayfaları var ha, onlar orda-burda qalmış qaraçıların törəmələridir.

-Bacı, mən Dərbənd dəmiryol stansyasında qalanda bir nəfər qaraçı ilə həmsöhbət oldum. O mənə qaraçılar haqqında ağılagəlməz hadisə danışdı.

-O nə hadisədir? – Şəhrizad maraqla soruşdu.

-Ordan, burdan dedi.

-De görək nə deyib o qaraçı...

-O deyirdi ki, dünyanı daşqın bürüyəndə qaraçı xalqı yaşayan ərazi torpaqla birlikdə göyə uçub. Biz indi ona ay planeti deyirik. Əslində ay planeti qaraçıların ölkəsi olub. Daşqın dövrü başa çatandan sonra yer kurəsində quru torpaqlar görünəndə onlar da istəyib yerə ensinlər. Amma Allah onların yerə enməsinə icazə verməyib. O vaxtdan ay yer kurəsinin başına fırlanır.

Şəhrizad təəccüblə qardaşını dinləyirdi. Sərxan söhbətini bitirəndə o soruşdu:

-Daha nə dedi həmin qaraçı qadın?

-Bir gecə səhərə kimi danışdı. Yadıma düşdükcə deyərəm, - deyib Sərxan söhbətdən yayınmaq istədi.

-Bəs o qadın demədi Dərbəndin harasında olur?

-Yox, o səhər açılanda, qapını açıb gedəndə mənə dedi, subaşına (tualet) dəyib qayıdıram. Getdi. Ha gözlədim, gəlmədi. Durub pəncərədən tualet olan tərəfə baxdım. Gözlərim dəhşətli mənzərənin şahidi oldu.

-Nə gördün?

-Üç nəfər kişi qaraçı qadını tualetin deşiyinə salıb çıxarırdılar, üst-başı nəcis içindəydi. Yazıq qadın and-aman edib deyirdi ki, o oğlanın bəxtini bağlayacam artıb-törəməsin. Başı özünə qarışsın, dediklərimi yadına salmağa macalı olmasın...

-Sonra nə oldu?

-Qaraçı qadını buraxdılar. Özləri göydən enən nur selinin içinə girib yox oldular. Onlar gedəndən sonra qaraçı arvadı ha səslədim, gəlmədi... Havalanmış halda danışa-danışa qaçıb yox oldu. Sonra Bakıda onu gördüm. Bilirsən harda?

-Qaraçı hotelinə gələn torpaq yolda oturub dilənirdi. Məni görcək durub qaçdı...

-Bəs sonralar rast gəlmədin ona?

-Bir də dünən gecə sənlə danışanda pəncərədən qaraltısını gördüm. Mənim baxdığımı görən kimi yox oldu...

Şəhrizad qardaşının ona danışdıqlarını bir daha kimsəyə danışmamasını xahiş etdi... Sərxan öz otağına keçəndə gecədən xeyli keçmişdi.

***

Səhəri günü Sərxan işdən gələndən sonra yenə bacısı onu yeməyə dəvət etdi. Bu dəfə düşbərə bişirmişdi. Yeməyi yedikdən sonra çay süfrəsi açıldı. Dünənki söhbətin davamını dinləmək üçün Sərxan söhbətə körpü salmaq istədi. Şəhrizada üz tutdu:

-Deyirlər qaraçı qızlar ailə quranda ərlərinə sədaqət, vəfa andı içirlər. Ərlərinə söz verirlər ki, işləyib ailəni saxlayacaqlar, - Sərxan eşitdiyini Şəhrizada dedi.

-Hə, elədir. Namus qaraçı qadının baş tacıdır. Qaraçılarda boşanma çox nadir hallarda olur. Ciddi səbəb olmadan qadın ərindən boşanarsa, o tayfadan qovulur, - Şəhrizad əlavə etdi.

Sərxan Şəhrizadı tanıdıqdan sonra dəfələrlə onun qaldığı otaqda olmuşdu. Hər dəfə divardakı bayraq onun diqqətini cəlb etmişdi. Bayrağın hansı xalqa məxsus olduğunu istəmişdi soruşsun, amma hər dəfə nədənsə bu fikrindən vaz keçmişdi. Bu dəfə isə maraq onu üstələdi. Xüsusən bayrağın üstündəki araba təkərinin şəkili olması Sərxanda sual doğurmuşdu. Nəhayət, dilə gəldi.

-Bacı, bu bayraq hansı xalqa, millətə məxsusdur? – soruşdu.

-Qaraçı xalqına. Bu yaxınlarda Avropa ölkələrinin birində dünyada yaşayan qaraçı tayfalarından yüzdən çox ağsaqqal yığışıb birinci vətən qurultayı keçirdilər. Orada bir sıra məsələlər müzakirə olunub. Dünyada yaşayan qaraçıların təxmini sayı müəyyən olunub.

-Nə qədər olar, bacı? – Sərxan tez soruşdu.

-Dünyada on iki milyon qaraçının yaşadığı qeyd olunub. Ağsaqqallar şurası yaradıblar. Bu bayraq da o qurultayda təsdiq olunub. Qərara gəliblər ki, qaraçı bayrağı bütün tayfalarda olsun.

-Bəs niyə bayrağın üstündə araba təkərinin şəkili var? – Sərxan sualın davamını verdi.

-Qaraçıların ömrü araba təkərlərinin üstündə keçir. Xalq bir yerdə cəm olmasa da, dünyanın çox yerində tayfalar şəklində yaşasaq da bir bayrağımız var. Bu bayraq qaraçıları bir yerə yığıb vətən edəcək. Qaraçılar dünyada vətən təşnəsi ilə yaşayan iki-üç xalqdan biridir.

-Yəni, deyirsən qaraçılar kimi vətənsiz, ölkəsiz olan xalqlar var?

-Bəli, var. Deyirlər o xalqlar allah tərəfindən lənətlənmiş xalqlardı. Yəqin latın əlifbası eşitmisən. Az qala dünyanın yarısı o xalqın əlifbasından istifadə edir. Bəs bu əlifbanı yaradan xalqın özü hanı? Latın xalqının dünyanın harasında yaşadığı bu gün də sirr olaraq qalır. İkincisi yahudilər idi. İki min beş yüz il öncə onların ölkəsi, vətəni olsa da sonralar vətənsiz qaldılar. Amma hər zaman mübarizə apardılar. Yalnız 1947-ci ildə dövlətlərini qura bildilər... Qaraçıları da ki, dedim. Dünyada daha neçə xalq allah tərəfindən lənətlənib? Bu sualın cavabı açıq qalır.

-Sənin bilgilərin məni heyran elədi, bacı. Məktəbdə oxumayasan, bu qədər elmi zənginliyin ola. Demək olar ki, bütün elmlərdən məlumatlısan. Görünür, sənin üçün xüsusi müəllim tutublar. Yoxsa bu da allah vergisidir?

-Bütün bunları mənə Zita ana öyrədib, - Şəhrizad cavab verdi.

***

Sərxanın işi çox olduğundan səhər erkəndən gəlmişdi sexə. Bayaqdan bir detalın üstündə ha əlləşsə də düzəlmirdi. Ona görə də əsəbləri tarıma çəkilmişdi. Elə bu vaxt yaxınlıqdan gələn kişi səsi onu diksindirdi. “Oğlun Ruslan yolunu gözləyir” – deməsi onu tamam dilxor etdi. İstədi əsəblərini onun üstünə töksün. Amma bu sözləri deyən adamın səsi tanış gəldiyindən susdu.

-Xoş gördük usta, - deyən adam sexin girəcəyində qoyulmuş köhnə divanda oturub təsbeh çevirirdi. O adam qara eynək taxdığından Sərxan onun üzünü, gözlərini görə bilmirdi. Səsindən tanısa da hələ də çaş-baş qalmışdı. Ürəyində “bu odurmu, o deyilmi?” Sualını özünə neçə dəfə verdi.

Sərxan bir xeyli qara eynəkli adama baxsa da zənnində səhv edə biləcəyini düşünüb yaxın getmədi.

Adam işin nə yerdə olduğunu anlayıb eynəyini qaşının üstünə qaldırdı. Alnındakı çoxsaylı qırışlar qoymurdu ki, eynək sürüşüb düşsün. Bundan sonra Sərxan gilimsəyib salam verdi

-Hə, nəhayət ki, tanıdın. Gərək yerazlar bir-birini uzaqdan tanısın. Sənsə nə tez unutdun məni... – yeraz Vidadi durub əl uzatdı.

Sərxanda mazutlu əlini yağlı əski ilə silib əlini yox, biləyini Vidadiyə uzatdı:

-Nə xoş təsadüf. Demək ruset maşını sənindir? Matorun rezinini təmizləyəndə hiss etdim ki, bu maşına keçmiş qaynatam əl gəzdirib.

-Hə, mənimdir. Yoşkar-Oladan yenicə gəlmişəm. Vanya maşına əl gəzdirmişdi. Amma bura gələn kimi mator səs elədi.

-Demək qaynatamı görürsən?

-Hə, görürəm. Evinə də aparmışdı. Oğlun Ruslanı da gördüm. Maşallah, ağıllı gözləri var, dərrəkalı insan olacaq.

Sərxan bir anlıq nə düşündüsə əlavə etdi:

-Axşam vaxtın olsa, görüşərik.

-Olar, axşam saat səkkizdə “Xan bağı” restoranında.

-Oldu, - deyib Sərxan işinin dalınca getdi.

Yeraz Vidadi də eynəyini gözünə endirib fit çala-çala getdi…

Bakının 8-ci kilometr qəsəbəsi deyilən ərazidə çoxsaylı şadlıq evləri, restoranlar şəbəkəsi yerləşir. Onlardan ən xod gedənlərdən biridir ”Xan bağı” restoranı. Ev heyvanlarının kabablar ilə yanaşı vəhşi heyvanların da kababları verilir… Restoran bağlı-bağatlı ərazidə yerləşir. Burada gül-gülü, bulbul-bülbülü çağırır. Süni arxlardan axan suların şırhaşır səsi yay axşamlarına sərinlik qatır, kənd ab-havası yaradır. Nağıllar aləminə düşmüş kimi olursan. Milli geyimlərdə olan ofisantlar elə bil hansısa şah sarayının xidmətçiləridirlər.

Şərq musiqisi altında Sərxan və yeraz Vidadi bağın xudmani guşəsində oturub kabab yeyirlər. Pilə kimi olmuş qaban kababının tikələrindən yedikcə barmaqları arasından axan kababın yağı süzülürdü. Yeraz Vidadi zoğal arağının təsirindən barmaqlarını dili ilə yaladıqca “bəh… bəh” deyirdi.

Aliminium vedrənin içindəki bumbuz sudakı araq butulkası yarı olmuşdu. Həm ac olmaları, həm də kabab o qədər dadlı idi ki, gücü yeməyə vermişdilər. Motal pendiri, müxtəlif salatlar da adamın iştahına iştah qatırdı. Növbəti dəfə araq süzən yeraz Vidadi birdən-birə dayanıb dilxor halda ofisant oğlanı çağırdı:

-Qadan alım, qaqaş. Mənə çappa stəkan gətir. Bu əlli qramlıq rumkalar mənə ləzzət vermir.

Ofisant oğlan çaşqınlıqla soruşdu:

-Çappa stəkan nə deməkdir?

-Müdirinə de, biləcək, - deyib Vidadi bic-bic qımışdı.

Ofisant oğlan gedib bir neçə dəqiqədən sonra sini qabda çay stəkanı (çappa) gəldi. Yeraz Vidadi:

-Gördünmü, müdirin çappa stəkan nə olduğunu bilirmiş. Biz yerazlar çappa stəkanda araq içməsək, o ləzzət vermir. Bu çappa stəkan məsələsi bizə məxsusdur. Deyirəm indi o yerlədə olasan. Özü də qayalıqlar arasından damcı-damcı süzülüb gələn şırhaşır bulağa çevrilən yerdə süfrə açıb bardaş qurub oturub çappa ilə araq içəsən. Vallah-billah, o yerlərin ləzzəti bir başqa idi, - sonra sözünə ara verib sağ, sol tərəfdə oturanları süzdükdən sonra asta səslə dedi. - ayə, bu şəhərlilər bizim yeraz ləhcəmizi çox vaxt çətin başa düşürlər e…

-Səhərdən yeraz-yeraz deyirsən. Bu sözün mənası nə deməkdir? – Sərxan maraqla soruşdu.

-Yeraz sözü Ermənistanlı azərbaycanlıların qısaldılmış adıdır. İlk dəfə bu sözü bizə akademik, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadov deyib. O gündən bu söz dilimizə əlavə olunub. Əvvəllər qısqanclıqla yanaşardıq. İndi kimsə bizə yeraz deyəndə sevinib deyirik ki, “bəli, yerazam, özü də öz matoruyla”. Yəni nəsil-nəcabətli Ermənistan azərbaycanlısı… Hə, onu deyirdim axı, bir gün kəndçimiz qara Mədət Bakıya gəlir. Səhər-səhər qatardan düşən kimi yemək üçün kafe, yeməkxana gəzir. Səhər erkəndən olduğundan çox yer bağlı olur. Soraqlaya-soraqlaya bir restorana gəlib çıxır. Oturan kimi ofisant xanım ona yaxınlaşır. “Xoş gəlmisiniz” – deyib menyunu qarşısına qoyur. Qara Mədət menyüdə yazılanları baxıb oxusa da ordakı yeməklərin adı dilinə yatmır, eləcə “salma” deyir. Ofisant xanım ha istəyir ki, qara Mədətin dediklərini başa düşsün, təəssüf ki, “salma”nın nə olduğunu anlamır. Naəlac qalıb müdirinin yanına gəlir:

-Bir qara adam gəlib, nə dediyini başa düşmürəm. Deyəsən, zəncidir, xarici dildə danışır.

Müdir biz tərəflərin adamı olduğundan durub gəlir qara Mədətin yanına:

-Salam, - deyir.

-Salam, - deyib qara Mədət cavab verir.

-Nə sifariş vermək istəyirsiniz?

-Ay bala, səhər-səhər araq içmiyəcəyəm ki, salma istəyirəm.

Restoran mudiri kəmhövsələnin biri olur. Qara Mədətin dediyini eşidən kimi cin vurur başına:

-Avara köpəkoğlu, restoran sənin üçün şirin çay içmək yeridir. Dur, rədd ol buradan, - deyib qara Mədəti restorandan çıxarır...

Yeraz Vidadi çappa stəkanı araqla doldurub ayağa durdu. Hamı eşidəcək tərzdə sağlıq deməyə başladı:

-Bu badəni də içək yerazlığımızın şərəfinə. O bizi Azərbaycanda hörmət-izzətli edib. Əlimiz çatmayan

yer, sözümüz keçməyən kreslo sahibi yoxdur ki, bir sözümüzü iki etsin, - deyib yeraz Vidadi çappa dolu arağı boğazına gillətdi.

Kababın yağlı tikələrindən birini də yeyib, şiş qarnına əli ilə sığal çəkib:

-Allah-təala biz yerazları həm də yeyib-içmək üçün yaradıb, - deyib ofisiant oğlanı hayladı, - qardaşoğlu, ciyər sifariş vermişdik, noldu?

Ofisant oğlan həmin andaca kababçının yanından isti çiyərləri şiş qarışıq götürüb stola yaxınlaşdı. Vidadi şişlərdən birini əlinə alıb şişdəcə tikələrdən birini dişi ilə dişləyib “bəh-bəh, əsl rahat hulqum...” deyib çiyəri uddu… Səhərdən içkinin təsirindən idi, ya nədən, Sərxan yeraz Vidadi ilə elə doğmalaşmışdı ki, sanki əkiz qardaşlardı.

-Svetanı necə, görə bildinmi? – soruşdu.

Yeraz Vidadi ciyər tikəsini udub, araq süzə-süzə:

-O sonranın söhbətidir. Bu gün yemək yeyirik, kefimizə soğan doğramayaq, - deyib arağı yenə xəşə qarnına gillətdi.

İsti ciyər kababından yeyə-yeyə bir xeyli söhbət edib, mırt vurdular. Restorandan çıxanda yenidən görüşmək arzusuyla öpüşüb ayrıldılar.

Sərxan qaraçılar hotelinə gəlib çıxanda gecədən xeyli keçmişdi. Şəhrizad tut ağacının altında oturub qardaşının yolunu gözləyirdi. Zita arvad Şəhrizadı içəri çağırsa da getməyib dedi:

-Mama, qardaşım işdən gec gəlməyi sevməzdi. Buna nə oldu?..

-Narahat olma, kişidi, harda olsa gələcək. Kim bilir, hansı gözəlçənin...

-Qardaşıma elə biədəb işləri yaraşdırmaram...

Söhbətə sahibə xanım qarışdı:

-Bala, bura Bakıdı. Abırlı, həyalı adamın gözünü beşcə gündə açır. O ki, qaldı rusetdə nataşaları görüb gəlmiş ola.

Üçü də bir-birinə qoşulub güldülər. Gülüşləri başa çatmamış həyət qapısı cırıltı ilə açıldı, Sərxan səndələyə-səndələyə içəri daxil oldu. Spirt iyi kənardan xəbər verirdi ki, Sərxan sərxoşdu.

-Harda idin?.. Bayaqdan tikan üstə oturmuşam. Şəhərə nabələd adamsan… Bu araq içmək hardan çıxdı?.. – Şəhrizad onun qoluna girib tut ağacının altındakı oturacaqda oturtdu.

Səbinə xanım dilləndi:

-Dedim də, bu şəhər adamları düz getdiyi yoldan çaşdırıb pis işlərə meyilləndirir.

Sərxan üzünü bacısına tutub:

-Narahat olma, bacı. Yeraz tanışım qarşıma çıxdı, onunla kababxanaya gedib boğazımızı bir az yaşladıq, - deyib boğazına çırtma vurdu...

***

Bir neçə gün sonra yeraz Vidadi yenə Sərxanın iş yerinə gəldi.

-Keçən dəfə başımız yemək-içməyə necə qarışdısa, düz-əməlli söhbət edə bilmədik. Gəldim ki, bəlkə məndən nəsə soruşacağın, nəsə deyəcəyin oldu?

-Hə, elədir. Keçən dəfə soruşacaqlarım vardı. İndi bir az bekar vaxtım var. Gedək çayxanaya, çay içə-içə söhbət edək.

-Bu günlər maşın bazarında işlər axsayır. İkinci də bacım oğluna tapşırmışam, lazım olsa, zəng edəcək. Getdik çayxanaya…

Sərxan mazutlu iş paltarını dəyişib, özünü səliqəyə saldı, getdilər çayxanaya. Çay hələ süfrəyə gəlməmiş yeraz Vidadi cibindən hərbi bilet çıxarıb ona uzatdı.

-Sənin itmiş hərbi biletindi. Svetanın atası Vanya kişi verdi ki, sənə çatdırım. Sveta ərə gedib başqa şəhərə köçüb. Oğlunu nənəsi ilə babası saxlayır.

Sərxan təəccüb və bir o qədər də çaşqınlıqla soruşdu:

-Ərə gedib deyirsən. Belə tezliklə?..

-Onlar sən yoxa çıxanda polisə müraciət etdilər. Sonra mən sənin Bakıya, ailənin yanına getdiyini deyəndən sonra Sveta usagı istədi yetimxanaya versin, amma Vanya kişi qoymadı, dedi nə qədər ömrümüz var, böyüdəcəyik. Sveta isə acığa düşüb ərə getdi.

-Hə, belə de… Demək yenə qıcıqlandıran sən oldun, - deyib Sərxan gülümsədi.

Vidadi isə söhbətin mövzusunu dəyişmək istədi:

-Sən mənə de görüm, Turacın yanına niyə getmədin?.. Bir də sənin qalacaq yerin varmı? Əgər qalmağa yerin yoxdursa, qaçqınlar komitəsinə müraciət edə bilərsən. Axı biz yerazlar qaçqın kimi qeydiyyatdayıq.

-Qaldığım yer kirayədi. Turac söhbətində qaranlıq məqamlar olduğundan hələlik hər şeyi kənardan izləyirəm. Demək atam…

Vidadi Sərxanın dediyi sözlərdən şok hala düşmüş kimi oldu. Üz cizgiləri tarıma çəkildi. Rəngi də dəyişdi. Handan-hana özünə gəlib dilləndi:

-Yəni, deyirsən anan öləndən sonra atan eşidir ki, oğlu rusetdə evlənib, özü də uşağı var, tam əmin olub gələn deyilsən “dərə xəlvət, tülkü bəy” deyib nişanlına tamah salır.

-Bu söhbətə hələlik nöqtə qoyaq. De görüm, Ruslanı Bakıya necə gətirmək olar? – Sərxan sual etdi.

-Özün bilirsən ki, ildə neçə kərə yolum oralara düşür. Vanya, Tanya ilə danışaram. Əgər razılıq versələr, gətirmək üçün bir şey fikirləşərik.

-Burada olsa, özüm tərbiyəsi ilə məşğul olaram. Dilimizi, adət-ənənəmizi öyrədərəm. Sünnət etdirərəm ki, müsəlman olduğunu anlasın.

Beləcə, söhbət edə-edə yenidən keçmiş günlərə qa-

yıtdılar.

-Sərxan, nə vaxta kimi mazutun içində olacaqsan? Fəhləçiliyi heç sənə yaraşdırmıram. Turac deyirdi Sərxan tarix müəllimi olmaq istəyirdi.

-Hə, bir çox arzum kimi müəllim olmaq istəyim də ürəyimdə qaldı, - deyən Sərxan dərindən köks ötürdü.

-Mən sənin bu arzunu gerçəkləşdirə bilərəm, - yeraz Vidadi əminliklə dedi.

-Axı necə?

-Əgər sən mənim dediklərimə əməl etsən...

-Nə deyirsən, edim. Təki ali məktəbə girməyimə kömək et. Deyirlər rüşvətlə azərbaycanda ali təhsil almaq olar. Hətta dərsə getməsən belə diplom əldə edə bilərsən. Bu yolla alimlik dərəcələri də alanlar var.

-Hə, onu düz deyirlər. Sənin ali məktəbə girməyin sonranın işidir. İndi əsas məsələ orta məktəbdə müəllim düzəltmək, sonra lazım olsa, qiyabi ali təhsil alarsan.

-Axı, bu necə ola bilər?

-Sabah şəhərin mərkəzindəki orta məktəblərin birinə get. Direktorun qəbuluna gir, de ki, ermənistanlıyam, müəllim işləməyə gəlmişəm. Diplom istəsə, de canımı güclə götürüb çıxmışam. Həmin vaxt heç diplom yada düşərdi ki...

***

Orta məktəbdə dərs saatı yenicə başlamışdı ki, direktorun qəbul otağına cavan kişi gəlib katibəyə:

-Direktorla görüşə bilərəmmi? – yavaş səslə sual etdi.

Katibə xanım cavan kişini süzgün baxışlarla süzüb:

-Valideynsiniz?..

Cavan kişinin üz-gözündən yazıqlıq, yorğunluq yağsa da çalışırdı ki, özünü toplayıb katibə xanımın dediklərinə diribaş cavab versin:

-Yox... Şəxsi işimlə bağlı görüşmək istəyirəm.

-Bir dəqiqə... - deyən katibə direktorun kabinetinə keçib tezcə də geri qayıtdı, - buyurun, keçə bilərsiniz.

Katibə xanımın dediklərini eşitmirmiş kimi eləcə oturduğu stolda başını aşağı salıb qəmli-qüssəli halda nə barədəsə düşünürdü. Cavan kişinin bu halı əndamlı katibə xanımın ürəyinə acı tikan kimi batıb sızlatdı: “yazığın, görəsən, dərdi nədir?.. Gülnaz müəllimənin yanına adi bir şeydən ötrü gələnə oxşamır…”

-Vətəndaş, Gülnaz müəllimə sizi gözləyir, keçin içəri, - təkrar deyib cavan kişini fikir quyusundan dartıb çıxartdı.

Cavan kişi katibə xanımı indi eşidirmiş kimi özünü diksinəntəki göstərdi: “oldu!..oldu!..” deyib kepkasını başından çıxarıb qoltuğuna vurub direktorun kabineti önünə gəlib qapını asdaca döydü. İçəridən zərif qadın səsinin “buyurun” sözündən sonra qapını azca aralayıb, başı içəridə, bədəni çöldə soruşdu:

-Gəlmək olarmı, müəllimə xanım?..

-Gəlin?

İçəri keçib arxasınca da qapını örtüb boynubükük halda durdu. Cavan kişinin utancaqlığını görən Gülnaz müəllimə dedi:

-Ayaq üstə durmayın, keçin, bəyəndiyiniz yerdə oturun.

İçəri girəndən ətir qoxusu onu az qala bihuş edəcəkdi. Kabinetdə əsl qadın səliqə-səhmanı hiss olunurdu. Bir anlığa Gülnaz xanıma baxdı. Gözəl xanımdı. Özündən asılı olmayaraq asta addımlarla cərgə ilə düzülmüş stullardan birində oturdu. Gülnaz müəllimə cavan kişini mənalı tərzdə bir daha süzdü. Gözləyirdi ki, ilk olaraq o danışsın. Onun isə hələ də utancaqlığı uzanırdı. Gülnaz müəllimə ürəyində: “abir-həya kənddə, kəsəkdə qalıb. Kişi olasan, bu qədər abırlı olasan…” Cavan kişi hələ də oturduğu stolda başını aşağı salıb barmaqları ilə oynayırdı.

-Xeyir ola bizim məktəbə gəlməyiniz. Gözətçimiz Aydın kişi deyir ki, səhər erkəndən məktəbin giriş qapısının ağzını kəsdirib məni gözlədiyinizi demisiniz. Katibə isə deyir şagirdlərimizin valideynlərindən deyilsiniz.

-Müəllimə xanım, iş üçün gəlmişəm, - deyib kişi başını azca qaldırıb sonra yenə əydi.

-Nə işi?

-Xaraba qalmış Ermənistandan gələn qaçqınlardanam. Orada müəllim işləyirdim.

-İxtisasınız nədir?

-Tarix müəllimi.

Gülnaz müəllimə cavan kişi ilə söhbət etsə də fikrində neçə il öncə Ermənistandan qovulan soydaşlarını gözünün önünə gətirdi. Onların başlarına gələn müsibətləri televiziyadan görmüş, radiodan eşitmiş, qəzetlərdən oxumuşdu. Həm də o hadisələri canlı yaşamış neçəsinin danışdıqlarını dinləmişdi… Daşnakların törətdikləri bu faciələr xalqa qarşı soyqırımdır. Azərbaycanlı uşaqları iri dəmir boruların içinə yığıb hər tərəfdən qaynaq edib sonra təpədən üzü aşağı dığırladıb, içində olanların fəryad səslərini eşidib ermənilər qəhqəh çəkirmişlər… İndi onlardan biri ondan işləmək üçün kömək diləyir. Özü də ilk baxışdan fağır, saf insan təəssüratı yaratdı.

-Sənədləriniz üstünüzdədirmi?

-Yox…

-Sabah diplomunuzu, pasportunuzu gətirin. Sizi işlə təmin etmək üçün bir şey fikirləşərik.

-Müəllimə, oradan elə çıxdıq ki, dolu evimiz, malımız-mülkümüzdən bir çöp də götürə bilmədik. Sənədlərimiz də orada qaldı.

Gülnaz müəllimə problem yarandığını görüb bir anlıq fikrə getdikdən sonra qayğıkeşliklə üzünü ona tutub dedi:

-Gələrsiniz. Bir çarə qılarıq.

Cavan kişinin sevincək hala düşdüyü gözlərindən oxunurdu.

-Təşəkkür edirəm, müəllimə. Böyük bir yaxşılıq etmiş olarsınız, - deyib ayağa durub təzim etdi.

-Gedin, sabah görüşərik. Onacan da əlaqədar təşkilatlarla əlaqə saxlayaram... Bağışlayın, heç soruşmadım, adınız, familyanızı deyin, qeyd edim, - deyib müəllimə əlinə qələm alıb kişidən cavab gözlədi.

-Sərxan Abışov Arif oğlu.

***

Sərxanı yola saldıqdan sonra Gülnaz müəllimə bir xeyli kabinetində tək qaldı. Katibənin gətirdiyi çay içilmədiyindən soyumuşdu. Müəllimə dəryada gəmisi qərq olmuş insan kimi dərin fikirlərə dalmışdı. Düşünürdü ki, gənc kişinin yurd-yuvasından didərgin düşməsi, gün-güzarının çətin olmasına baxmayaraq hələ də saflığını qoruyur. Görəsən ailəlidirmi?.. Uşaqları varmı?.. Nə tapıb yeyirlər?.. Bəlkə elə uşaqları gecəni ac yatırlar… İnsanlıq hissi içində fəryad qoparır: “Ona kömək et, ona kömək et!..” – deyirdi.

Gülnaz müəllimə öz həyatını gözləri qarşısına gətirdi. Amansız həyatın sərt sınaqları onu da çopur sərt qayalara çırpmış, neçə yol büdrəyib, yıxılsa da ayağa dura bilmişdi. İndi bu kişinin ağrı-acısını düşündükcə öz keçmişi gözləri qarşısından kino lenti kimi kadr-kadr ötüb keçirdi.

…Bakının Buzovna kəndində neftçi ailəsində doğulub. Evin tək usagı olub. Beş yaşından kitabxanaçı anası ona hərfləri, yazıb, oxumağı öyrətmişdi.

Yadına gəlir. Beş yaşı olardı… Sentyabrın biri qonum-qonşuların uşaqları məktəbli çantaları ilə məktəbə gedəndə o da anasının əl çantasını götürüb məktəblilərin arxasınca kənd məktəbinə üz tutmuşdu. Məktəblə evləri arasını bir çəpər ayırırdı. Çəpəri adladınmı, məktəbin həyətində olurdun. Gülnaz qaçıb siniflərin birində oturmuşdu. Anası onu xoşalladıb evə gətirir, o isə məktəbə qaçırdı. Direktor anasına deyirdi ki, qoy birincilərin sinifində oxusun, adını sinif jurnalına yazmarıq. Beləcə, Gülnaz dərsə getməyə başladı. Yaxşı da oxuyurdu. Rayon rəhsil şöbəsindən məktəbə gələn yoxlama heyəti beş yaşlı qız uşağını görüb təəccüblənmişdi. Biləndə ki, sinifin əlaçı uşağıdı, adını jurnala yazmağa qərar verirlər. Özündən iki-üç yaş böyük uşaqlarla bir sinifdə oxuyurdu…

Partada oturanda ancaq çənəsi çatırdı, qolunu qoya bilmirdi partanın üstünə. Anası döşəkcə düzəltmişdi, onu qoyub oturanda boyu partanın arxasından görünürdü. Hamı məktəbə əlində çanta ilə gedəndə onun kürəyində çantası, qucağında döşəkçəsi olurdu. Atası onun dərsləri ilə heç vaxt maraqlanmazdı.

Əla qiymətlərlə orta məktəbi bitirdi. Ali məktəbə daxil oldu. Məhəllələrində ilk ali təhsil alan qızlardan birincisi oldu. Ali məktəbi bitirib müəllim kimi məktəblərində dərs deməyə başladı…

Bir gün eşidir ki, atası evlərini Gəncə qumarbazına uduzub. İki gün ərzində evləri boşaldılır. Bütün əşyaları Nabat arvadın gorgahına daşınıb yığılır…

Evsiz-eşiksiz qalan ailə elə Nabat arvadın evində qalır. Belə bir vaxtda dükançı Hətəm onun saqqızını oğurlayır. Yaxşı xasiyyəti olduğundan qısa vaxtda bir könüldən min könülə Hətəmə vurulur. Ailə qururlar. Xoşbəxt ailə həyatı yaşayırdılar ki, bir gün Hətəmin nəşə çəkdiyini görür. Elə həmin günü də son qərarını verir. Bu o vaxt idi ki, bir aydan sonra qızı doğulacaqdı. Boşanırlar. Qızını da götürüb ata-anasının sığındığı Nabat arvadın görgahına gəlir.

Elə bil onun xoşbəxt olmağının qarşısına qara pərdə çəkilmişdi. Hara üz tuturdu o qara pərdə kabus kimi qarşısında peyda olur, düzələn işini düzəlməz edirdi. Bir gün o qara pərdənin bir küncünə işıldaböcək qondu. Elə o gündən onun həyatı yüz səksən dərəcə dəyişib işıq, nur selinə qərq oldu.

Məktəb illərində, univerisitet həyatında təşkilatçı kimi həmişə öndə olmuşdu. Orta məktəbdə dərs deyəndə də eləydi. Məktəbin bütün mədəni-kütləvi tədbirlərinin keçirilməsi ona həvalə edilirdi. Bilirdilər ki, qüsursuz, yüksək səviyyədə baş tutacaq. Məktəb direktoru Həsənxan müəllim bunu nəzərə alıb Gülnaz müəlliməni direktorun müavini təyin etmişdi.

Universitetdə tələbə yoldaşı olmuş, əslən ermənistanlı olan Əhmədzadə şəhər təhsil şöbəsinin müdiri təyin olunduqdan bir müddət sonra Gülnaz müəllimənin razılığını alıb onu şəhərin mərkəzindəki orta məktəblərin birinə direktor təyin etdi...

Ömür kitabının səhifələrini vərəqləyirdi ki, əli qeyri-ixtiyari olaraq telefon dəstəyinə uzandı. Əhmədzadəyə zəng etmişdi. Hal-əhval tutduqdan sonra Əhmədzadə Gülnaz müəlliməni dinləyib:

-Cavan oğlana nə düşüb ki, sizi aldatsın. Özü də deyir ki, kəndlərində dərs deyib. Demək diplomu orada qalıb ki, elə deyir də... İkincisi də biz ermənistanlılar savadsız olmuruq. Görmürsən az qala bütün dövlət strukturlarında ermənistanlılardı. Demək dövləti bizə həvalə ediblər.

-İşə götürmək üçün hansısa sənəd olmalıdır axı?..

-Orada qalıb. İndi neyləsin o bədbəxt insan? İzahatını al, bəs edər.

-İşə götürümmü?..

-Əlbəttə. Qoy ixtisası üzrə işləsin. Mən sənə necə dayaq durmuşamsa, sən də ona elə dayaq dur. Diplomu haqda bir şey fikirləşərik. Çünki onun kimi qaçqın müəllimlərimiz xeyli var. Keçmişdə bu cür problemləri

dədə-baba qaydası ilə həll edərdilər.

-Necə, Müxtar müəllim? – Gülnaz müəllimə maraqla soruşdu.

-Kişi sözü ilə...

***

Sərxan axşam işdən qayıdanda hotelin sahibəsi Sahibə xanım onun qarşısına çıxıb dedi:

-Oğlum, bu gün bura bir qız gəlib səni soruşdu.

Sərxan çiyinlərini çəkdi:

-Kim ola bilərdi? Axı mənim burada qalmağımı heç kim bilmir.

-Deyirdi adım Turacdı. Şəhrizad istədi onu evə dəvət etsin, amma o sənin evdə olmadığını bildikdən sonra bir söz demədən getdi.

-Turac? – Sərxan təəccüblə soruşdu.

-Həə…

Sərxan Turac adını eşidən andan qəribə hala düşdü. Elə bil kimsə onun qolundan tutub çox-çox uzaq illərə aparmışdı. Keçmişlə bağlı olan xoş xatirələrin təsiri altında kövrəlmişdi. Kəndlərində Turacla birgə quzu otardıqları uşaqlıq illəri, birgə dərs hazırlamaları və bir-birini dəlicəsinə sevdiklərinin etirafı… O uzaq illərdə qalan xatirə yağışının arxasınca Turac bu gün bura gəlib çıxmışdı. Naümid halda da qayıdıb gedib…

-Oğlum, nə çox fikirə getdin. Yoxsa o qızla aranızda hansısa problem yaşanır? De, biz də işdən hali olaq. Özü də sən Sahibə xalanı elə də əfəl bilmə. Düzəlməz işlərə açar salıb həllini tapıram, - nə düşündüsə əlavə etdi. - Amma öz aramızdı ağıllı qız təsiri bağışlayırdı.

Sərxan sual dolu gözlərini Sahibə xanıma dikdi:

-Görəsən, o necə bilib mən burada yaşayıram?

-Mən nə bilim, - Sahibə xanım dodaq büzüb, - demək o qızı tanıyırsan?

-Hə, kəndçimdi, həm də…

-Şəhrizad deyir qızın gözləri eşq badəsi tək dolmuşdu. Adə, qırışmal, olmaya sevgilindi?

-…

-Oğlum, bura kasıbyana mehmanxanadır. Sən gördüyün beş ulduz, üç ulduz hotellərdən deyil ki, günaşırı birini yanına salıb gətirib kef çəkəsiniz, biz də soruşanda deyəsən sevgilimdi. Sonra da məlum ola ki, haranınsa küçə qəhbəsidir. Qulağında sırğa edib yaxçı-yaxçı dinlə məni, elə şeyləri burada qadağan etmişəm. Görürsən halal qazancımla bu balaca həyətə iyirmi iki otaq yerləşdirmişəm. Həmişə də müştərilərim olub. Yəni, o otaqlar boş qalmayıb. Özün burada nə vaxtdan bəridir yaşayırsan və bilirsən ki, çox şeylər burada ümumidir. Su, hamam, tualet, mətbəx… Təkcə namus hər bir qadının ismətini qoruyur. Yadına gəlirsə sən ilk dəfə burada gecələyəndə, dedim sən ilk müştərimsən ki, qaraçı deyilsən.

-Bağışlayın, mən elə tərbiyəsiz işlərlə məşğul olmuram, - Sərxan cavab verib sonrakı fikrini davam etdirdi, - Qaldı o qıza, əgər o gerçəkdən Turacdırsa, demək məni izləyənlər var. Çox güman ki, yerimi dəyişəcəm.

-Düzün de, o qız əzizdirmi sənə?

Sərxan bir söz deməyib eləcə başını aşağı saldı. Hal əhli olan Sahibə xanım Sərxanı tam anladıqdan sonra bildirdi:

-Oğlum, suçlu adamlar kimi hərəkət etmə. Mən görürəm ki, halal qazancınla dolanırsan. Bəs niyə doğmalarından qaçırsan? Bəlkə elə bir günah iş tutmusan ki, onların yanında başın aşağıdır? - Sahibə xanım qayğıkeşliklə soruşdu.

-Yox, elə bir qələt işim yoxdur. Amma onun rusetə arxamca göndərdiyi adamın dediklərinin əksini burada görüb qaçaq düşmüşəm.

Sahibə xanım Sərxanın son sözlərindən belə nəticəyə gəldi ki: ”axı, deyəsən, bu kəndirin düyünləri çox oldu, doğanağından keçmək olacaqmı…”

Sərxan Sahibə xanımla söhbəti yekunlaşdırmaq istədi:

-Gecəniz xeyirə qalsın.

-Şirin yuxular, - dedi Sahibə xanım.

Otağına keçən Sərxan paltarlı halda çarpayıya uzandı. Yorğunluğu ona güc gəldiyindən uzanan kimi də yatdı.

***

Neçə gün vardı Şəhrizad qardaşı ilə görüşüb, söhbət etmək, onu düşündürən bir çox məsələlərə aydınlıq gətirmək istəsə də, bu ona müyəssər olmurdu. Bu ağıllı xanım son günlər hansı arzusunu gerçəkləşdirmək istəyirdisə, mütləq qardaşı ilə məsləhətləşirdi. İndi isə bir yerə cəm ola bilmirdilər ki, düşündüklərini qardaşına deyə bilsin. Belə ki, Sərxanda görmədiyi vərdişlər əmələ gəlmişdi. Bir gün içkili vəziyyətdə gəlir, bir gün deyir yorğunam, digər gün isə hansısa problemi olduğunu bəhanə gətirib söhbətdən yayınırdı.

Turacın bura qəfil gəlib-getməsi Şəhrizadın qəlbində şübhə toxumu cücərtməyə başlamışdı. Çünki Turac bura yoldan ötürmüş kimi gəlməmiş, gəlişinin mütləq gizli məqamları vardı. Hətta ağzını sözlə doldurmuşdu, nəyisə deyəcəkdi, demədi. Şəhrizad onunla yenidən görüşmək imkanına cəhd etsə də, o bundan imtina etdi.

Bir də Şəhrizadın qardaşından digər bir umacağı vardı. Analarının qəbrini birgə ziyarət etmək. Təəssüf ki, ikisi də onları dünyaya gətirən qadının qəbrinin harda olduğunu bilmirdilər.

Səhər qardaşı işə gedəndə qarşısını kəsib dedi:

-Mənim yaralı könlümü tez-tez incidirsən.

-Elə demə, bacı. Nə günah etmişəm ki?

-Bir də səni içkili görməyim. And olsun anamızın qəbrinə, bir də səni o vəziyyətdə görsəm, üzümü çevirib bir daha sənə baxmaram.

-Bağışla, bacı. Bir də olmaz, - deyən Sərxan suçunu boynuna almış adamlar kimi bacısının qarşısında başını aşağı əydi.

-İstirahət günün nə vaxtdır? – Şəhrizad sərt şəkildə soruşdu.

-Sənə hansı gün lazımdırsa, o gün də mənim istirahət günüm olacaq, - Sərxan cavab verdi.

-Cümə axşamı olsa, yaxşı olar, gedəsi yerimiz var, - sonra qardaşını gözaltı süzdü. - Anam son günlər bir neçə dəfə yuxuma girib. Görürəm qəbir daşı sökülüb, qəbirdən bir ilan çıxıb anamın mərmər daşındakı yaraşıqlı şəkilinin ağzından çalır. Anam da başdaşından hönkür-hönkür ağlayır, qəbiristanlığa gələn adamlardan imdad diləyir, həm də ilana deyir ki: ”oğlum, qızım gəlib cəzanı verəcəklər, nə günah söz demişəm ki, məni ağzımdan çaldın…”

-Qəribə yuxudur. Falçı bacım bəlkə yuxunun yozumunu da deyəsən.

-Hələ elm yuxunun nə olduğunu tam araşdıra bilməyib. Bir də deyirlər ki, hər kəs ağlına, şüuruna görə yuxu görür.

-Axı deyirlər yuxu vasitəsi ilə allah baş verəcək hadisələrin mesajını verir, - Sərxan soruşdu.

-Onu indi səndən eşidirəm, mənim ağıllı qardaşım. Sənə istirahət günü təklif etməyimin səbəbi odur ki, istəyirəm anamızın qəbrini ziyarət edək. Molla olsa, yasin surəsini oxutdurarıq. Sonra da anamızın adına ehsan süfrəsi açarıq. Heç soruşmadım, görəsən, anamız hansı qəbiristanlıqda dəfn olunub?

-Binəqədidəki evlərinin qonşusu olan kişi deyirdi ki, vulkan dağının arxasındakı qaçqınlar qəbiristanlığında dəfn olunub. Manana azərbaycan dilində kələ-kötür danışdığından elə bilirmişlər erməniymiş. Hətta kilsəyə gedəndə də görüblər. Ona görə də qonşuları salam vermirlər. Belə çox davam edə bilməyəcəyini düşünən qadın müsəlmanlığı qəbul etmiş, hicab taxıb, namaz qılırmış. Adını da dəyişib müsəlman adı qoydurur. Müsəlman peyğəmbəri Məhəmməd peyğəmbərin zövcəsi Xədicə xanımın adını daşıyırmış.

-Çox şey bilməli oldum.

Bayaqdan qardaş-bacı həyətdəki tut ağacının altında söhbət edirdilər ki, Zita ana Şəhrizada öz dillərində nəsə dedi. Şəhrizad başı ilə analığının dediklərini təsdiq edib, qardaşına dedi:

-Hə, get işinə. Axşam mənə bir cavab ver.

-Oldu, bacı, - deyən Sərxan ala qapıdan çıxdı.

...Cümə günü Şəhrizad bir qazan aş bişirib, Naxçıvan lavaşından da xeyli isladıb gözlədi ki, təpsin. Lavaş ipək kimi yumşaldıqdan sonra dəsmala bükdü. Qardaşı da taksi tutub qəbiristanlığa getdilər. Bakı ətrafı qəbiristanlıqların əksəriyyəti düzəngahda yerləşsə də burada qəbirlər xırda-xırda təpəciklərdə salınmışdı. Bir xeyli analarının qəbrini axtarsalar da tapa bilmədilər. Qaravolçu, qəbir qazan, molla da onlara qoşulub xeyli axtardılar.

Gün günortanı keçsə də onlar hələ də analarının qəbrini tapmamışdılar. Düşündülər ki, qəbiristanlığı düz gəlməyiblər. Dilxor olmuşdular. Üstəgəl gün istisi taqətlərini kəsmişdi.

Şəhrizad xanım qəbiristanlığa gələndə yolda aldığı “Badamlı” suyunu içib qurtarmışdı. Susuzluğu isə davam edirdi.

-Burada su içməyə yer yoxdurmu, krantdan, filandan? – soruşdu.

-Var. Burada elə təmiz, dadlı su var ki, şəhərin o başından gəlib aparırlar.

-Nə yaxşı oldu. Bəs hardadı?

-Odey ordadı, - deyib molla vulkanın yerin dərinliyindən çıxartdığı palçıq təpəsinin yanındakı yeri nişan verdi, - Bir gün qəbir qazan Əkrəm həyəcanla mən oturan otağa qaça-qaça gəlib dedi ki, molla əmi, qəbirin baş daşından su qaynayır. Düzü, əvvəl elə bildim Əkrəm səyləyir, gözlərinə nəsə tərs görünür, sonra da ayıq başla düşündüm ki, bəlkə oradan su borusu keçir, turba çürüyüb partlamış olar. Ona görə dedim:

-Santexnik çağıraq, gəlib təmir etsin.

-Yox e... boru partlamayıb, möcüzəli bir şeydi, - deyib israr etdi ki, dur gedək bax.

Gəlib baxdıq. Dupduru göz yaşı kimi qaynayan su başdaşından süzülüb qəbirdən kənardakı çalaya tökülürdü. Özünə cığır açıb dərə aşağı axırdı. Allahın yaratdığı möcüzəyə heyrət edib dua etdik. Suyundan içdik. Şipşirin dadı vardı. Sonradan onun şəfaverici olduğu da məlum oldu. Başdaşı şəklinin gözlərindən axdığı üçün adına ”Göz yaşı” bulağı adını verdik.

Qardaş-bacı maraqla mollanın danışdıqlarına qulaq asırdılar. Şəhrizad səbirsizlik edib:

-O, necə ola bilər axı? Özü də başdaşının gözlərindən? Gedək həm baxaq, həm də su içək, - dedi.

-Görürəm, dediklərim sizə şübhəli gəldi. O qəbrin yiyəsi qadındır. Özü də xristian olub. Sonradan müsəlmançılığı qəbul edib. Müsəlman adı Xədicə.

Sərxan da Şəhrizad da bir-birinin üzünə baxdılar. Söz tapmırdılar danışsınlar. Molla isə:

-Adı Manana olub. Əri öldükdən sonra bir dəfə ayağı sürüşkənlik edib. Onun bu hərəkətlərini görənlər adına fahişə deyiblər. O isə əlaqədə olduğu adamla ailə qursa da, hər dəfə fahişə sözünü ona deyəndə qaçıb gizlənmək istəyirmiş. O həddə gəlir ki, əri olduğu kişidən də iyrənib əl açır göyə: ”Ey bakirə Məryama oğul bəxş edən ulu tanrı, məni məsum et. Ölüm qəbir evim dupduru bulağa çevrilsin…”.

Molla danışsa da Sərxan yenə bacısına baxdı. Şəhrizad da qardaşına baxıb hər ikisi çiyinlərini çəkdilər. Eləcə dinib-danışmadan gözləri bir-birinə deyirdi: "odurmu?.. o deyilmi?.."

-Gedək o bulaqdan su içək, əl-üzümüzü yuyub sərinləyək, - deyən Sərxan qabağa düşdü.

Mollanın dediyi təpəyə yaxınlaşdıqca bacı-qardaşı həyəcan bürüyürdü. Bu qədər yolu necə gəldilər, özləri də bilmədilər. İndi qəbirlə qabaq-qənşər durmuşdular. Başdaşından analarının şəkili onlara baxırdı. Sərxan nə düşündüsə, bir anasının şəkilinə, bir də bacısına baxıb: "İlahi, bacım anama necə oxşayırmış. Elə bil bir almanın iki üzüdürlər". Sərxan düşündüklərini elə açıq-aydın dedi ki, Şəhrizad eşitsə də susdu. Sanki ana övladlarının bir yerdə olduqlarını görüb qəbir daşındakı şəkildə sevincək olmuşdu. Şəhrizad, onun ardınca da Sərxan analarının şəkilindən öpdülər.

Molla soruşdu:

-Səhərdən axtardığınız qəbir budurmu?..

-Bəli, bu qadın bizim anamızdır. Biz illərdi ondan ayrı düşmüşük, - dedi Şəhrizad.

-Görünür ananızın müqəddəslərlə bağlılığı var ki, bu gözəl nemət onun məzarından süzülür, insanlar içsin.. Çox xəstələr buradan şəfa tapıblar. Hətta eşitmişəm ki, onun qəbrinin ayaq tərəfində yatanlar da olub. Xalq bu bulağa həm də "Xədicənin dirilik suyu" adını da verib. Yəqin sizlərdə də vəcdə gəlmək məqamı olur. Sizdə insanların ağrı-acılarına çarə qıla bilirsiniz?

Sərxan yenə bacısına baxdı. Mollaya cavab vermək əvəzinə mövzunun istiqamətini dəyişmək üçün Sərxan dedi:

-Anamızın qəbrini tapmaq bizə elə də asan olmadı. Demək sənin yuxuda anamızın qəbrinin uçuq-sökük görmən, qəbirdən ilan çıxmanı görmək səbəbsiz deyilmiş. İlan su kimi soyuq olur. Su həm də müdriklik rəmzidir, ilan da...

-Məhrumə xanımın qəbri illərdi doğmaları tərəfindən ziyarət olunmasa da, onun qəbrinə hər gün dua oxuyanlar olur. Bir dəfə bura bir topa insan gəlmişdi. Deyirdilər yerlilərinizdi. Onlar isə bu qəbrə yetim qəbir deyirdilər, - molla yenə fasilə verib nəyisə yadına salıb yenidən əlavə etdi. - hə yadıma düşdü, bir kişi də gəlirdi. O da neçə illərdi yoxa çıxıb.

Şəhrizad xanım anasının qəbri ilə üzbəüz kiçik sahədə süfrə açdı. Molla, qəbir qazan, qoruqçu, Sərxan süfrə ətrafında bardaş qurub oturdular. "Göz yaşı" bulağından da bir dolça su qoyuldu süfrəyə. İki qadın da bulaqdan su götürmək üçün gəlmişdilər. Onlar da ehsan aşından nuş etdilər.

Qardaş-bacı analarının qəbrindən ayrılanda günəş "Vulkan dağ"ından qüruba əyilirdi.

***

Sərxan emalatxanada bayaqdan bekar qalmışdı. Ona aid olan işin ehriyat hissələri hələlik gəlməmişdi. Ona görə də icazə alıb məktəbə gəldi. Axı bir həftə sonra yeni dərs ili başlayacaq. Onun da əmri verilsə, o da müəllim kimi dərs deyəcək. Bunun üçün tarixə aid dərs kitabları da almışdı.

Direktor Gülnaz müəllimə onu çox səmimi qarşıladı. Dərs deyəcəyi siniflərin dərs saatlarını təqdim etdi. Sərxan dərs cədvəlini də götürüb sevincək halda Vidadinin maşın salonuna gəldi. Görüşdülər. Hal-əhval tutduqdan sonra yaxınlıqdakı çayxanaya gəlib çay içə-içə söhbət edirdilər.

-Müəllim olmaya-olmaya məni müəllim etdin, - dedi Sərxan.

-Əla oldu də... Müəllim oldun, alim olmadın ki?!..

-Deyirsən oxumamış alim də ola bilərəm?

-Əlbəttə. Sovet hökuməti dağılandan sonra kimdi kimin kitabını oxuyan... Kiçik torpaq klanının nəzarətində elə nazirliklər var ki, bir kənddən on dörd nəfərə general paqonu taxdırırlar.

-Baayyyötənnə, o qədərmi nazirliyi özəlləşdiriblər? – Sərxan heyrətini bildirdi.

-Bir az işlə. Sonra yadıma salarsan "xaç ata"sına zəng edərəm, səni akedemiyada elmi işçi götürərlər.

-"Xaç ata"sı kimdir?

-Bütün yerazların bir "xaç ata"sı var, Adamov.

-Hələ imkan ver, bir az dərs deyim. Diplom məsələsini də həll edək. Sonra sən dediyin mərhələyə keçərik. Babam deyirdi pilləkanı bir-bir qalxarlar, - sonra sözünə azca ara verib davam etdi. - de görüm rusetə gedib-gəlirsənmi?

-Üç gündü gəlmişəm. Oğlunla maraqlanırsansa, yaxşıdır. Vanya kişi ilə söhbət etdim ki, uşağı atası istəyir, razı olsa apararam. Razı olmadı. Göndərdiyin pulu da, paltarları da çatdırdım.

-Sağ ol.

-Vanya kişi sənə əl boyda kağız göndərib, - deyib Vidadi pencəyinin qoltuq cibini qurdalayıb dama-dama şagird dəftərinin vərəqinə yazılmışı Sərxana uzatdı, - oxu, cavab yazsan, gələn həftə yenə gedəcəm, aparıb verərəm.

-Ruseti su yoluna döndərmisən? – Sərxan deyib qımışdı.

-Kimin ki, bir tərəfi onlara bağlıdır, o adam üçün rusetin qapıları açıqdır, - Vidadi cavab verdi.

Rusca yazılmış məktub qısa idi. Vanya kişi salamdan, xoş-beşdən sonra: "…Ruslanın salamı var. Qızım Sveta usagı sənə verməyə qadağa qoyub. Ona görə də xahiş edirəm üz vurma. Böyüdüb cəmiyyətə yararlı insan edəcəm. Yolun buralara düşsə, ümidvaram ki, oğ-

luna baş çəkəcəksən. Bir təvəqqəm var, sovetlər dağılandan bəri "Ağdam" çaxırına tamarzı qalmışıq. İmkan olsa, alıb göndər. Sağ ol".

Sərxan məktubu oxuyub başa çatdıqdan sonra bir xeyli fikirə getdi.

Yeraz Vidadi düşünürdü ki, Sərxan oğlunun xiffətini edir. Çünki Vanyanın yazdıqlarını oxuduqdan sonra ümidsiz hala düşmüş, elə bil sonsuz arzularının biri də puç olmuşdu: "Allah heç kəsin ailəsini dağıtmasın. Heç bir övlad yetimçiliklə böyüməsin. Hamının ata-anası yanında olsun", – özlüyündə danışan Vidadi üzünü yenidən Sərxana tutdu:

-Fikir eləmə. Ruslan böyüyüb özü gəlib səni tapacaq. Axı onun damarlarından sənin qanın axır. Biz türklər dünyanın hər hansı millətinin qadınının bətnindən doğulsaq da, özümüzə, ilkinliyimizə qayıtmağı bacarırıq.

-Hə, onda da gəlib deyəcək, ay ata, anamı körpə uşaqla qoyub niyə vətənə qaçdın? Bax, onda cavabım nə olacaq, onu bilmirəm. Desəm ki, vətən üçün darıxmışdım, onda da deyəcək ki, bizi niyə rusetdə qoydun, özünlə aparmadın…

-O vaxta hələ xeyli var. İndi vaxtlı-vaxtında pulunu göndər ki, korluq çəkməsin.

-Orta məktəbi qurtarana kimi, əli iş tutanacan gözüm üstündə olacaq.

Vidadi çaydan bir neçə qurtum içib, sonra üzünü Sərxana tutdu:

-Sənə bir söz də demək istəyirəm. Təxminən bilirəm reaksiyan necə olacaq. Amma deməliyəm ki, hadisədən hali olasan.

-Baxır, deyəcəyin söz nədir?

-Turac!..

Sərxan Turacın adını eşidəcək təşvişlə soruşdu:

-Turaca nə olub ki?..

-Uşağı olub…

-Necə?.. Ola bilməz?.. - Sərxan hiddətlə sual etdi.

-Səbirli ol. Hirsli başda ağıl olmaz. Soyuq başla bir düşün ki, bu nə hadisədir baş verdi?

-Bir müddət öncə o qaldığım yerə gəlib məni soruşurmuş. Yəqin!.. - Sərxan hirslə əlini yumruqlayıb stola qəzəblə necə çırpdısa stəkanlar, nəlbəkilər, qənd qabı hərəsi bir yana dağıldı. Qonşu stollarda oturanlar eyni vaxtda çevrilib Sərxangilin stoluna baxdılar.

Ofisant xanım əlində əski tez yaxınlaşıb dağılmış çayları stoldan silib, hər şeyi qaydasına salıb bir söz demədən getdi. Vidadi:

-Dedim axı səbirli ol, təmkinlə dinlə, - deyib Sərxana yenidən çay süzdü, - Hardan bilirsən nə məqsədlə axtarırmış. Bəlkə elə soruşub deyəcəkdi gecikdin. Çünki o sənin adını çəkməkdən başqa heç nə deməyib. Bir də bilirsən qonşular uşağın atasının kim olduğunu deyirlər?

-Kim?..

-Atan Arif!..

-Nə bildin?..

-O gün uşağı həyətdə uşaq arabasında gəzdirəndə "oğlum…, oğlum…" – deyirmiş.

Sərxan əlacı kəsilmiş adamlar kimi eləcə key-key Vidadiyə baxırdı. Ürəyindən nələr keçirdi bir özü, bir də allahı bilirdi. Özünə gələn kimi:

-Nə deyim ona. Uşaq deyil ki, qarşımda əyləşdirib başa salım. Oğlunun əmanətinə ata xəyanətini də gördüm, - deyən Sərxan hirsindən dodaqlarını o qədər gəmirmişdi ki, qan damcılayırdı, - mən bilirəm neyləyəcəm. O qız mənim namusumdur. Ona görə ailəmi rusetdə tərgidib gəlmişəm. Bu da burada…

-Cavan oğlansan, qocalmamısan ki?.. Turacdan da yaxşısını tapıb evlənərsən. Bir də çalış yolun onlar yaşayan tərəfə düşməsin. Üz-üzə gələndə də yolunu dəyiş. Başından çıxar olmuşları. İnan, hər şey ötüb keçəcək. Yenə deyirəm, tanrı sənin qarşına halal süd əmmişin birini çıxaracaq. Həyatda çoxsaylı imtahanlar keçirməli olur insan. Çalış, bu imtahandan da üzüağ çıxasan…

Sərxan Vidadinin dediklərini axıracan dinləməyib ayağa durub sağ ol demədən çayxananı tərk etdi. Vidadi arxadan bir neçə dəfə onu səsləsə də, cavab verməyib uzaqlaşdı.

Başını aşağı salıb gedirdi. Bir az da getmişdi ki, iki yol ayrıcında dayandı. Bir istədi Qaraçılar hotelinə gedib həm fiziki, həm də mənəvi yorğunluğunu çıxarmaq üçün dincəlsin. Amma tezcə də bu fikrini başından çıxartdı. Düşündü ki, hotelə gedən kimi gərək bacısına baş çəksin. O da Sərxanı bu halda görüb dilxorçuluğunun səbəbini bilməyincə əl çəkməyəcək. Sərxan da bacısına yalan deməyəcək ki?..

Şəhrizad bilsə ki, Turac Arifdən uşaq doğub, əsəbləşəcək. Ona görə də sakitləşmək üçün üz tutdu dəniz tərəfə.

Bu şəhərə gələndən ilk dəfə idi Xəzərin sahilində olurdu. İlk dəfə idi dəniz səsi eşidir, dəniz havası udurdu. Şıxov çimərliyi deyirdilər bura. Çimərlik dövrünün qızğın çağı idi. Özü də bazar günü olduğundan az qala şəhərin yarısı dənizin sahilinə axışmışdı. Çimərlik insan dənizinə çevrilmişdi. Bu tünlükdən az qaldı başı gicəllənsin. Ona görə də çimərlikdən uzaqlaşıb, insanların çimmədiyi yerə gəldi. "Qadağan zona"sı yazılmış iri lövhə olan yerəcən gəldi. Burada köhnə neft quyularının xarabalıqları qalmışdı. Quyu olan dəmir borunun ağzı betonlanmış, avadanlıqların çoxusu sökülmşüdü. İndi bura ağacları kəsilmiş kötükləri qalmış keçmiş meşəni xatırladırdı. Orda-burda tək-tək borular dikəlirdi ki, o da kəsilmiş ağacların pöhrələri kimi…

Şalvarının balağını qatlayıb ayaqlarını suya basdı.

Sərin dəniz suyu isti canına yayıldıqca daxilən dincəlir, əsəbləri sakitləşirdi.

Sonra düşündü ki, buralarda dəmir qırıntıları ayağların yaralaya bilər, ona görə də köhnə quyu betonunun üstünə çıxıb ayaqlarını suya salladı.

Dənizi seyr etdikcə gözləri də dincəlirdi. Çox-çox uzaqlarda neft quyuları qaralır, gəmilər görünürdü. Bir ada da vardı. Tez yadına düşdü ki, o ada haqda nə vaxtsa oxuyub. Adına Nargin adası deyirlər.

Niyəsə birdən-birə ağlına yadplanetlilər düşdü.

Eşitmişdi ki, yadplanetlilərin dünyanın bir çox yerlərində bazaları var. Onlardan biri də Xəzər dənizinin dibidir. Onu da söyləyirlər ki, Xəzər dənizinin çökəkliyində bir kanal var ki, o kanal vasitəsi ilə yadplanetlilərın başqa dəniz, okenalara çıxır, ordan da digər bazalara daxil olurlar. Həmin çökəklikdəki kanal haqqında elə şeylər danışırlar ki, adam o cür hadisələri Hömerin "İlliada" əsərindəki mifologiyalarda rast gələ bilər.

Sadə həqiqət isə ondan ibarət idi ki, Bakı sakinləri tez-tez dənizin üstündə gur işıq seli görmüşdülər. Bunun uçan boşqablar, yəni yadplanetlilər olduğunu iddia edirlər. Elm adamları düşünürlər ki, Xəzərin dibində onların bazaları var. Bir neçə il öncə Xəzərdə uçan boşqablardan birinin xarab olduğunu müşahidə ediblər. Xarab olmuş uçan boşqab dəniz sularının üstündə qalmış, sonra ona kömək üçün başqa uçan boşqab yaxınlaşıbmış. Təmir olunduqdan sonra uçub getmişdilər.

Maşın təmir sexinə bir kişi gəlmişdi. İşinə fasilə verən vaxtı o kişi təmir ustası Vəliyə elə şeylər danışırdı ki, Sərxan heyrətlənmişdi. Eləcə adını soruşdu, Saleh dedi. Yadplanetlilərin bazaları haqqında Saleh elə ağılagəlməz fərziyyələr danışırdı ki, adam çaş-baş qalırdı. Onun dediklərindən belə başa düşür ki, yadplanetlilər yer kürəsini özlərinin bostanları, burada yaşayanları isə məhsulları sanırlar. Salehə yadplanetlilər danışırmış ki, on milyon il öncə yer kurəsində üçüncü sivilzasiya başlayır. Belə ki, buzlaşma dövrü başa çatır, torpaq sahələri görünməyə başlayır. Planetlərarası əlaqələr Mərkəzinin ruhani varlıqları olan ali şüurlular bir yerə cəm olub toplantı keçirirlər ki, aşağı şüurlular olan insanları yer kurəsinə göndərsinlər. Hər planetdən bir qrup yığıb uçan gəmi ilə yer kurəsinə çatdırırlar. Planetlərin hər birindəki insanlar müxtəlif formalarda olduğundan Afrika tərəfə zəncilıəri, Asya tərəfə gözüqıyıqlar, Amerikaya qırmızı dərililəri, Avropaya isə sarı dərililəri yerləşdirirlər. Beləcə, aşağı şüurlu olan insanların yer kurəsində yaşayışı başlayır. Ruhani varlıq olan ali şüurlular vaxtaşırı yer kurəsinə gəlib aşağı şüurluların ağıllarında təcürbə aparırlar.

Saleh kişi söyləyirdi ki, yadplanetlilər dəfələrlə onu oğurlayıb əvvəl burdakı bazalarına, sonradan isə öz planetlərinə aparıb təcrübələrini keçib yenidən qaytarıblar. Onlar istəyir ki, başqa planetlərdə olduğu kimi yer kurəsində də inkişaf olsun. Biz onlardan çox geri qalırıq. Onlarda texnologiya o qədər sürətlə inkişaf edib ki, yerdə bir ilə hansısa planetə göndərilən aparatı onlar on dəqiqəyə həmin məsafəni qət edirlər. Orada insan ömrü bitib tükənmir. Ölüm-itim onlara yaddır. Bunun üçün insan beyni gücləndirilməlidir.

Yadplanetlilər son dəfə Saleh kişinin insan ağlını altı faizdən on faizə çatdırıblar. Bu da yer kurəsində yaşayan insanların şüurundan dörd faiz çoxdur. Saleh kişinin beynini gücləndirən ali şüurlu deyib ki, Lenin, Eynişteyn, Lütfüzadə kimi dahilərin beyinlərini də o gücləndirib. Həmin ali şüurlu deyirmiş ki, son təcrübəsi rus qadının bətninə qoyduğu uşaqdır. Həmin qadının doğduğu oğlan uşağı səkkiz aylığında sərbəst danışmış, mars planetindən gəldiyini, orada onun boyunun yeddi metr olduğunu deyirmiş...

…O bayaq bura gələndə dənizdə azca meh vardı. İndi isə külək əsirdi. Bayaq dəniz güzgülənmişdi. İndi qırçın dalğalar güzgü dənizi çilik-çilik edirdi. Bu gözəlliyi seyr edə-edə birdən-birə darıxdı. Özünü tək-tənha hiss etdi. Elə bildi bu dünyada daha heç kimə gərək deyil. Hətta bu təklikdən bezar olub özünü dənizə atıb balıqlara yem olacağını da ağlından keçirtdi...

Gözlərinə bir qız göründü. Balıq dərisindən paltarı olan, uzun saçları gərdəninə çatan bu qız sudan indi çıxdığından bədənindən hələ də su damcıları süzülürdü. O, Sərxanla üzbəüz durub dedi:

-Bəni-insanam. Məni insan övladı görməz…, sən məni niyə gördün?..

-İnsan deyilsənsə, insan dilində necə danışırsan?.. – Sərxan sual etdi.

-Bütün dillərdə danışıram. Özü də, Sərxan, oğlum, açıb danışmıram. Görmürsən, deyəcəyim sözü sənin beyninə köçürdürəm.

-Sən kimsən?

-Mənim nəsil-nəcabətim yer kurəsinə bundan öncəki sivilizasiyada, yəni yer kurəsi su olanda planetlərarası ruhsal varlığın qərarı ilə göndərilmişdi. Bizim yaşayış yerimiz sudur. Milyon illərdi belə yaşayırıq.

-Elə arxayın danışırsan, elə bil milyon il öncə dünən olub?..

Su pərisi gülümsədi:

-Bizdə zaman, vaxt məvhumu yoxdur. Sizin kimi an, saniyə, dəqiqə, saat, gün, il saymırıq.

Sərxan su pərisinin sözünə inanmırmış kimi dodaqını büzdü:

-Nə bilim, vallah. Adamı heyrətləndirməyi bacarırsansa, demək möcüzələr aləmindən gəlmisən.

-Onu deyirdim axı, bir gün suyun içindən od-alov

püskürüb lavalar çay kimi yerin təkindən çıxıb çay kimi su üzərindən axıb bütün su canlılarını məhv etdi. İndi o xöşbəxt, bəxtəvər dünyamızdan bir neçəmiz qalıb.

-Demək istəyirsən sən o biri sivilizasiyanın varlıqlarındansan? - Sərxan hələ də təəccübünü gizlədə bilməyib maraqla soruşdu.

-Yox, yox... Məni düz başa düş. Mənim sahiblərim, doğmalarımın hamısı böyük fəlakət zamanı məhv olublar. Onlardan salamat qalan hüceyrələrdən mən və bir neçə də başqa varlıq əmələ gəlib.

-Bəs o birilər nədir?

-Sibir çöllərində insanların gözlərinə görünən “ağ adam” bizlərdəndir. Quba dağlarında ovçuların danışdığı biheybət adam da bizlərdəndir…

-Demək sən klonsan?

-Planetlərarası ruhsal varlıq üçün bu adi işdir. Əslində siz insanlar bir-birinizin klonusunuz.

-Biz insanlar üçün ruh həmişə mücərrəd bir mövzu olub. Hətta müqəddəs kitablarda da bu haqda az bilgi verilir. Bəlkə ruhun nə olduğunu deyəsən? Tez-tez ruhsal varlıq deyirsən.

-Ruh Ata bu haqda sizə tövsiyyə etmir, buna görə də insanlar bu haqda bilgiyə malik deyillər. Bir onu deyə bilərəm ki, Şüurun nə olduğunu insanlar biləndə ruh elmini də biləcəklər.

-Təssəvür et ki, sən dediklərinin hamısına mən inandım. Fikirləşirəm ki, səndə bu qədər yaşamaq eşqi hardandır? Iyirmi altı ildir bu dünyadayam, artıq yaşamaqdan bezar olmuşam. İstəyirəm özümü dənizə atıb intihar edəm...

Su mələyi Sərxana narazı baxışlarla baxdı:

-Niyə? Axı deyirsiniz insan bütün canlıların alisi, dözümlüsüdür. Sənsə dözümsüzlük edib özünü öldürmək istəyirsən. Belə olmaz, dostum..

-Hardan bildin nəyə görə intihar edirəm?

-Bu, bizim üçün bir qurtum su içmək kimi bir şeydir. İkincisi də biz insan elmini o qədər dəqiqliklə öyrənmişik ki, ruh və cismani quruluşunuzu tam anlamışıq. Ona görə də insan övladına bir dəfə baxmaqla, bütün taleyini əzbər deyə bilirik.

-Zita arvad da sizlərdəndir?

-Zita arvad bu günlərdə cismani dünyasını dəyişəcək. Bacın sahibsiz qalacaq, qayıt onun yanına. Başına gələnlər səni üzsə də, döz, səbirli ol. Sənin qismətin olacaq qadın qaranlıq gecələrindən keçib gələcək. İndi dur bacının yanına get… Tut ağacının altında yolunu gözləyir…

Sərxan gözünü yumub açınca su mələyi qeybə çəkildi. Bilmədi o yadplanetlilərin Xəzərdəki bazasından gəlmiş varlıqlardandı, yoxsa həqiqi su mələyi idi. Bir də Sərxan fikirləşdi ki, bəlkə bu görüb, eşitdikləri elə şirin yuxudur. Axı gör neçə saat olacaq beton dirək üstündə oturub. Axşam düşüb, ay doğub, ulduzlar bərq vururdu...

***

Sabah sentyabr ayının on beşi olacaq. Yeni dərs ili başlayır. Bir neçə gün öncə Gülnaz müəllimə yeni dərs ili ilə bağlı olaraq müəllim kollektivinin iclasını keçirdi. İclasdan sonra Gülnaz müəllimə Sərxana dərs deyəcəyi siniflərin cədvəlini verəndə dedi:

-Məktəbimizin öz geyim forması var. Bu formanı geymək şagirdlərə, həm də müəllimlərə aiddir.

-Məmnuniyyətlə geyinərəm. Məktəbimizin nizam-intizamına əməl etmək hamı kimi mənim də borcumdur. Bəs geyim formasını hardan, necə əldə edim? – Gülnaz müəllimədən soruşdu.

-Tünd göy rəngli kostyum, o rəngdə qalstuk, ağ köynək, qara ayaqqabı, - deyən Gülnaz müəllimə nümunə üçün şəkil də göstərdi.

-Oldu, müəllimə. Bu gün həll edəcəm, - deyən Sərxan Gülnaz müəllimə ilə sağollaşıb məktəbdən çıxdı.

“Gənclik” metrosunun yaxınlığındakı ticarət mərkəzinə gəldi. Gülnaz müəllimənin dediklərinin hamısını alıb elə ticarət mərkəzində də əyin-başını dəyişdi. Səliqə-səhmanla müəllim görkəmində idi. Güzgüdə özünə baxıb tanımadı. İndiyə kimi geyim fərqinə varmamışdı. Paltar insanı necə də dəyişirmiş. Bir atalar misalında düz deyildiyi kimi: “Gözəllik ondur, doqquzu dondur…”

Ticarət mərkəzindən çıxırdı ki, atası Arifi, Turacı və uşaq arabasında bir uşaqla Sərxanın yanından ötüb keçdilər. Turac sevincli idi. Atası nə deyirdisə şən cavab verirdi... Sərxanın qəlbi sızladı. İnsan selinin əhatəsində olmasaydı elə buradaca diz çöküb hönkür-hönkür ağlayardı. İlk eşqinin ağısı olardı ağlamağı... Abır-həya hissi kişiliyinə güc gəldiyindən eləcə sükutla qarşıladı. Arxadan bir xeyli onlara baxdı. Üzünü çevirib getmək istəyirdi. Elə bil kimsə ona dedi ki, izlə, gör hara gedirlər...

Qarabaqara onları izləyirdi. Yaxınlıqdakı parka gəlib buradakı ekzotik ağaclara heyranlıqla bir xeyli baxdılar. Oradan keçən qızdan xahiş edib üçü bir yerdə şəkil çəkdirdilər. Deyəsən, çox gəzmişdilər, oturcaqda oturdular. Dondurma satandan dondurma alıb yedilər. Arada bir Arif uşaqla Turacın şəkilini telefona çəkirdi. Bayaqdan arabada oyuncaqları ilə oynayan uşaq yorulub mışıl-mışıl yatırdı.

Sərxan kənardan hələ də onları izləyirdi. Ariflə, Turac elə bil illərin həsrətliləridirlər. Bir-birinə xoş sözlər deməkdən doymurdular. Sərxanın nənəsi belələrini görəndə atmacasından qalmazdı. Biədəb sözlər deməklə yanaşı ən yaxşı sözü bu olardı: “Bala, ikinci arvad çox dadlı olur”, deyərdi.

Sərxan dodaqaltı mızıldandı: “Sevgilimin oğlu qardaşımdır. Burdakılar yəqin Turacı Arifin qızı zənn edir-

lər. Usagı da Arifin nəvəsi. Düz də fikirləşirlər. Amma Arifin Turacın hər bir nazına baş üstə deməsini görənlər "qocalıqda yorğalıq" deyib gülürlər. Arif də ürəyində: "qoca at arpa yemir?" deyib gülər…"

Parkdan çıxıb yaxınlıqdakı dayanacağa gəlib Binəqədiyə gedən avtobusa minib getdilər.

Onları yola salandan sonra Sərxan fikirləşə-fikirləşə gedirdi. Hara, niyə gedirdi, heç özü də bilmirdi. Başını qaldırıb ətrafa baxanda yenidən parka gəldiyini gördü. Bir az bundan əvvəl atası, sevgilisi oturduğu oturacağın qarşısında durmuşdu. Nə fikirləşdisə, yanını oturacağa qoydu. Özü də Turac oturan yerdə oturdu. Qoltuq cibindən Turacın şəkilini çıxarıb bir xeyli həsrətlə, tamarzı-tamarzı baxıb köks ötürüb yenidən mızıldandı: "Sən neylədin? Illərlə qoruyub saxladığımız, ləkə götürməyən güzgümüzü bir kişinin ehtirasına qurban verib hər şeyi çilik-çilik elədin. Yadında qalsın o güzgü min yerə çiliklənsə də sən, mən güzgü yaddaşında əks olunmuşuq. Lap bu şəkil kimi. Sən bu şəkili yeraz Vidadidən rusetə göndərdin ki, şəkilin cazibəsi məni sənə çəkib gətirə. Gəldim. Kaş, gəlməyəydim. Bugünkü mənzərə mənə dağ çəkdi… Bayaqdan neçə dəfə istəmişəm bu şəkili cırıb atam, niyəsə bu fikrimdən vaz keçmişəm. Yəqin ömrümün sonuna kimi bu şəkillə "ailəçilik" edəcəm…"

Bayaq atasının, Turacın son dəbdə olan telefonlarını görüb qəribə hal yaşadı. Demək yaxşı yaşayırlar ki, ayfon işlədirlər. Cavan xanımların elə telefonların işlətməsi adi hala çevrilsə də, yaşlı kişilər sadə telefonlara üstünlük verirlər. Özləri demişkən: "Zəng gəlib, getsin, bəsdir…"

Rusetdə olanda mobil telefona ehtiyac olmurdu. Başını aşağı salıb işində olardı. Svetaya bir şey lazım olsa, axşam deyərdi, Sərxan sabahı günü alıb gətirərdi… Bakıda isə hərənin əlində bir telefon mütləq olur. İnsanlar əksər işlərini telefonla həll edirlər. Bir neçə dəfə istəmişdi o da telefon alsın, niyəsə fikrindən vaz keçmişdi. İndi isə…

Gülnaz müəllimə yenidən telefon məsələsini yadına saldı. Belə ki, o gün Gülnaz müəllimə Sərxana şəxsi kart dolduranda telefon nömrəsini soruşmuşdu. Sərxansa Gülnaz müəlliməyə yenə yalan danışmalı olmuşdu:

-Avtobusla bura gələndə cibgirlər telefonumu oğurlayıblar. Yenisini alan kimi nömrəsini verərəm.

***

Çox təsadüf hallarda Sərxan qaldığı qaraçılar hotelinə gəlməzdi. O da olsa, olsa bir gecə, uzağı bir sutka çəkərdi. Bu o halda olurdu ki, yeraz Vidadi ilə yeyib-içdıkdən sonra içkili vəziyyətdə bacısının gözünə görünməmək üçün gedib Vidadigildə qalırdı. Bu dəfə isə üç gündür gəlmirdi. Bu üç gündə Şəhrizadın gözləri həyət qapısına dikilib qalmışdı.

Şəhrizadın nigarançılığına Sahibə xanım da qoşulmuşdu. Əlləri çatan yerlərdən soruşsalar da bir nəticə hasil olmamışdı.

Belə bir vaxtda gözləmədikləri başqa bir hadisə baş verdi. Hər səhər hamıdan tez durub qaraçıları işə yola salan Zita ana bu səhər hələ həyətə tut ağacının altına gəlməmişdi. Sarı avtobus qaraçıları yığıb aparandan sonra onun yataq otağına gedən Şəhrizad Zita ananın hələ də yatdığını görüb onu səsləmişdi. Səsinə cavab almadığından yaxınlaşmaq istəyəndə dəhşətə gəlmişdi. Zita arvadın gözləri açıq halda qapıya dikilmişdi. Əlini ona toxunduranda bədəninin bumbuz olduğunu görüb qışqırıb: "Zita ana ölüb" deyib haray çəkdi. Həyətdə duran bir neçə nəfər tez otağa doluşdular...

Zita ananı öz vəsiyyətinə uyğun olaraq məscidə aparıb yuyub, kəfənləyib, üstündə "Quran" oxutdurduqdan sonra "Qazel" maşını tutub dəfn üçün Ağdaşa yola düşdülər.

Zita ananın yası ilə bağlı olaraq bir neçə gün Ağdaşda qalan Şəhrizadgil Bakıya qayıtdılar. Hələ də Sərxandan xəbər-ətər yox idi. Şəhrizad Sahibə xanıma yalvar-yaxar etməyə başladı:

-Polis dostlarına de. Bəlkə içkili halda kimləsə dava etdiyi üçün polislər onu tutublar.

-Yaxçı, bu gün gedib bir xəbər öyrənərəm, - deyib Şəhrizada söz verdi.

***

Gün günortadan keçmiş, yəni saat on altı rədələrində evin qapısının zəngi çalındı. Gülnaz müəllimə gözlüyə baxmadan qapını açdı. Qarşısında bir zabit, iki polis nəfərini görüb təəccüblənmiş halda onlara baxdı. Axı adətən bu vədələr qızı Vüsalə təhsil aldığı Pedoqoji universitetdən dərsdən gəlirdi. Ona görə də dinib-danışmadan polislərə baxır, bilmirdi birinci o dillənsin, yoxsa onlar. Sükutu arıq, uzun boylu leytenant rütbəli polis pozdu. Belə ki, o salam verdikdən sonra əlində tutduğu polis şöbəsinə çağırış vərəqəsini Gülnaz müəlliməyə uzadıb:

-Vətəndaş Abdullazadə Gülnaz xanım, hazırlaşın, bizimlə polis şöbəsinə gedəcəksiniz.

Gülnaz müəllimə çağrılmamış qonaqların təklifini eşidib həyacanlandı. Amma həyacanını büruzə verməmək üçün özünü toxtaq tutmaq istədi. Çağırış vərəqini oxuyub, çiyinlərini çəkdi. Sakit tərzdə üzünü leytenanta tutdu:

-Bilmək olarmı nəyə görə?

-Gedərik, orada bilərsiniz.

-Sizin qarşınıza düşüb getmək qadınlığıma, müəllimliyimə yaraşmaz. Siz gedin, oğlumun maşını ilə arxanızca gələrəm.

Leytenant arif adam idi. Bilirdi ki, qadın utanır. Ona görə də:

-Olsun xanım, - deyən leytenant polislərə "getdik" işarəsi verib çönüb getdilər.

Onlar gedən kimi Gülnaz müəllimə ev paltarını də-

yişib, həyətdə dostları ilə mırt vuran oğlunun telefonuna zəng etdi:

-Adəm, maşını qarajdan çıxar, gedəsi yerimiz var, - deyib şəxsiyyət vəsiqəsini də sənədlər saxlanan seyfdən götürüb həyətə düşdü.

Onlar polis şöbəsinə gəlib çatanda iş gününün sonuna az qalırdı. Gülnaz müəllimə çağırış vəsiqəsini növbətçi polisə görtərən kimi onu istiqamətləndirdilər. Otağın qapısına müstəntiq Vəliyev yazılmışdı. Otaq boş idi. Növbətçi demişdi ki, keçib oturun, indi gəlir müstəntiq. Ona görə də Gülnaz müəllimə meşin stullardan birində oturdu. Otaq işıqlı, səliqəli olsa da müəllimə sıxıldığını hiss etdi. Düşünəndə ki, burada onu sual-cavab edəcəklər... "Müstəntiq otağı" bu sözün özü adamda vahimə yaradırdı... İçəri ortaboylu, yaraşıqlı ağbəniz kişi daxil oldu. Salam verib cavab almadan keçib kabinetin yuxarı başındakı kresloda əyləşmişdi ki, bir cavan qız da içəri keçdi. O bir söz demədən komputer qarşısında oturdu. "Yəqin bu da katibədir" – Gülnaz xanım düşündü. Kresloda oturan qıza müraciət etdi:

-Başlaya bilərikmi?

-Bəli, müəllim.

Kişi üzünü Gülnaz müəlliməyə tutdu:

-Mən müstəntiq Vəliyev. Siz də Abdullazadə Gülnaz xanım, eləmi?

-Bəli, elədir.

Quru danışmağından sərt adam təsiri bağışlayırdı.

-Siz Turac Məmmədovanı tanıyırdınızm?

-O kimdir elə?

-Ermənistandan gələn qaçqınlardandır. Binəqədi qəsəbəsində yaşayırdı.

-Xeyir. Elə bir adda nə birisini tanıyır, nə də ki, ermənistanlı qohum-əqrabam, dost-tanışım var.

Vəliyev Gülnaz xanımın üzünə diqqətlə baxıb, sonra qarşısındakı vərəqləri çevirib bir vərəqin üstündəki yazıya barmağını qoyub mobil nömrəsini dedi:

-Belə bir nömrəniz olubmu?

-Olmayıb.

-Axı bu nömrə sizin adınıza qeydiyyatdan keçib.

-Ola bilməz.

-Olur müəllimə. Həmin nömrəyə üç gün öncə Turac Məmmədova yaşayan evdə bir manatlıq kontur yükləmisiniz.

Gülnaz müəllimə əsəbindən bilmirdi neyləsin. Acı-acı gülümsədi:

-Özü də bir manatlıq aa!.. Cənab Vəliyev, mən telefonuma nə vaxt kontur yüklədiyim yadımdan çıxıb, çünki aylıq abunəyəm. Dediyiniz ünvanda da heç vaxt olmamışam. Bir həftə öncə göz əməliyyatı keçirmişəm. Əməliyyatdan bir saat sonra evə gətiriblər. O gündən bu günə kimi evdən bayıra çıxmamışam.

-Axı siz məktəb direktorusunuz. Bəs işə gedib-gəlmirsiniz?

-İki həftəlik xəstəlik kağızı açılıb. Vəzifəmi müavinim icra edir. Bunun üçün rayon təhsil şöbəsinin əmri var.

-Bəlkə şəxsiyyət vəsiqənizi itirib, sonradan tapıbsınız.

-Yox, elə iş olmayıb. Bizim ailənin sənədləri xüsusi yerdə saxlanılır. Oranı açmaq üçün də xüsusi kodu var. Həmişə də məndə olur.

-Bəs fikirləşib deyə bilərsinizmi şəxsiyyət vəsiqənizlə kim nömrə alıb, yaxud siz kiməsə telefon nömrəsi alıb vermisiniz?

Gülnaz xanım fikrə getdi. O fikirləşincə Vəliyev ayağa durub bağa açılan pəncərə önünə gəldi. Bağdakı cürbəcür qızılgül köllarına baxırdı. Birdən çevrilib Gülnaz xanımla üzbəüz olan stulda oturub, - yoxsa siz ölüm hadisəsində şübhəli şəxs kimi…

Vəliyevin bayaqdan verdiyi suallara oxşamadı bu sözləri. İttaham oluna bilərdi. Bu fikir beynində necə dolaşdısa şoka düşmüş kimi olmuşdu. Dinib-danışmağa boğazı qurudu. Handan-hana özünə gəlib soruşdu:

-Olarmı bir stəkan su?!..

Vəliyev soyuducudan mineral su çıxarıb stəkana süzüb xanımın qarşısına qoydu. Gülnaz xanım stəkanı götürəndə əli titrədi… O suyu birnəfəsə içib:

-Olar bir stəkan da içim? – dedi.

-Buyurun.

Bu dəfə Gülnaz xanım imkan vermədi Vəliyev süzsün. Özü butulkadan süzüb bu dəfə asta-asta içdi.

-Cənab müstəntiq, elə sıxma-boğmaya salmısınız ki, həyəcandan boğazım da qurudu... Ölənlərinizin ehsanı olsun. Su toxtatdı məni. Su qədər ömrünüz olsun.

-Özünüzü rahat hiss edirsinizsə, bir də fikirləşin, görün kim sizin şəxsiyyət vəsiqənizlə nömrə alıb, ya da siz kimə nömrə hədiyyə etmisiniz...

-Buranın mühiti elədir ki, adam olan-qalan ağlını da itirir. İzn verin gedib evdə arxayınca özümü təftiş edim. Görüm harda belə bir iş tutmuşam. Bilirsiniz çox humanist insanam. Bir də ki, son günlər çox gərgin iş rejimim olub. Yeni dərs ilinə hazırlıq, filan...

-Olsun. Sabah bu vaxt sizi gözləyirəm.

Gülnaz xanım polis şöbəsindən çıxıb maşın dayanan yerə çatana kimi ağlına cürbəcür fikirlər gəldi. İndi oğlu soruşsa ki, niyə çağırıblar, nə cavab verəcək?.. Yoxsa deyəcək ki, ölüm hadisəsində suçlanıram?.. Onda evdə hamı bir-birinə qarışacaq. Gərək elə edəm ki, bu yükün altından özüm çıxam… Bircə bu şəxsiyyət vəsiqəsi məsələsi olmasaydı…

Gülnaz xanım düşündüyü kimi oldu. Maşına əyləşən kimi oğlu soruşdu:

-Mamulya, nöş çağırmışdılar?

-Elə-belə. Xırda bir iş üçün. Məktəbdəki xadimələr dava edib… Sür getdik. Özü də evdə polisə getdiyimizi demə.

-Oldu, mamulya. Axşam bara getməyə bir göy yüzlükdən.

-Yaxşı…

Onlar evə gəlib çatanda artıq axşam düşmüşdü. Əri, qızı da evdə idilər.

Bütün gecəni fikir içində keçirdi. Baş verən hadisəni ha çözələsə də ağlına bir şey gəlmirdi. Səhəri demək olar ki, dirigöz acdı.

Qızını, həyat yoldaşını yola salsa da oğlu hələ də yatırdı. Gecədən xeyli keçmiş evə gəlmişdi… Uşaqlıq rəfiqəsi Səmayəyə zəng etdi. Hardansa gözünün əməliyyat olunduğunu eşitmişdi. Xoş-beşdən sonra Səmayə söhbəti telefon üstünə çıxartdı.

-Bilirsən də bizim başı batmış kişini kirayəşin qadınlar bəlaya salıb.

-Necə, ağez?

-Sən demə, onlar Türkiyənin yolunu su yoluna çeviriblər. Ayda bir neçə dəfə Türkiyəyə gedir.

-Alverəmi?

-Yox, ağez, elə olsaydı nə vardı. Bunlar insan alveri ilə məşgul olurmuş.

-Necə?

-Rayonlardan, Bakıdan qızlar aparırmışlar. Orada qadınların sənədləri əlindən alınıb hotellərdə fahişəliklə məşğul olurmuşlar...

-Bəs ərinin suçu nə?

-Sən demə, onların işlətdikləri telefon nömrələri bizim kişinin sənədi ilə alınıbmış.

-Telefon nömrəsi?..

-Hərü…

Daha Gülnaz xanımda rəfiqəsini dinləməyə taqət qalmadı. “Sağ ol” demədən telefonu söndürdü. Dilinin altında bir neçə dəfə Sərxan!.. Sərxan!.. Yeraz... dedi...

O telefon almışdı. Nömrə almağa isə problem yaranmışdı. Satıcı qız şəxsiyyət vəsiqəsiz yeni nömrə yükləməyəcəyini deyirdi. Mübahisəyə çevrilən söhbətin üstünə Gülnaz xanım gəlib çıxır. Və...

Tez pəncərədən həyətə boylandı. Oğlu dostları ilə “bisetka da” oturub çəpgöz Oqtayı ortaya salıb lağ edir, deyib-gülürdülər.

Özünü qaydaya salıb tez həyətə düşdü. Oğlunu kənardan səslədi. Adəmin dostları Gülnaz müəllimənin səsini eşidən kimi səslərini xırp kəsdilər. Elə bil qurbağa gölünə daş atdılar. Adəm dostlarına “bir dəqiqə” deyib onlardan aralanıb anasının yanına gəldi. Anası dedi:

-Adəm, tez ol, maşını işə sal.

-Mamulya, hara?.. – anasının gözlərindəki təlaşı görüb, - Dünən getdiyimiz yerəmi?..

-Hərü!.. işimiz müsbət rəylə başa çatsa bir göy yüzlük bəxşiş edəcəm sənə.

Adəm əllərini qoşalayıb göyə sarı tutdu:

-Qurban olduğum mən cavana rəhmin gəlsin. O yüzlüyü məndən əsirgəmə, - deyib maşına tərəf cumdu.

Maşınlarla dolu idi polis şöbəsinin həyəti. Ona görə də gen həyətin o başında Adəm maşını saxladı. Gülnaz müəllimə tez düşüb qaz kimi yanlarını basa-basa içəri daxil olanda təngənəfəs olmuşdu. O vəziyyətdə də Vəliyevin kabinetini döymədən açdı. Müstəntiq kreslosunda oturub bir top kağızı stolun üstünə töküb eşələnirdi. Gülnaz müəllimə təlaş içində dedi:

-Cənab Vəliyev, siz düz deyirmişsiniz, elə bir şey olub.

Vəliyev cavab vermədən qarşısındakı butulkadan stəkana su süzüb ona uzatdı:

-Ayaq üstə qalmayın, su için. Özünüzə gəldikdən sonra rahatlıqla danışarsınız, - deyən Vəliyev işini davam etdirdi.

Beş dəqiqə keçmişdi. Vəliyev baxdı ki, xanım onu gözləyir, ona görə də astaca başını qaldırıb dedi:

-Hə, indi danışın, görək nə demək istəyirdiniz?

-Sərxan!.. Sərxan!..

-Sərxan kimdir?.. Nəçidir?.. Harada yaşayır?.. Dedim axı ətraflı danışın.

-On gün öncə mobil telefonlar satılan mağazaya girdim ki, telefonumun qoruyucusu olan üz qabığını dəyişəm. O da orada idi. Şəxsiyyət vəsiqəsi olmadığından satıcı qız onun təzə telefonuna möbil nömrə yükləmirdi. Satıcı qız məni tanıdığından dedim ki, bizim müəllimdir, mənim şəxsiyyət vəsiqəmlə verin nömrəni. Qız narazı baxışlarla məni süzsə də etiraz etməyib nömrə yüklədi… Yaşadığı yeri bilmirəm. Bu ildən bizdə işləyəcək. Ermənistandan qaçqın gələnlərdəndir.

-Aha…, demək hədəfin ucu əlimizə keçdi. Bizim sizi bura çağırmağımız haqqında ona zəng etməmisiniz?

-Yox, etməmişəm. Zənnimcə, bu gün bu saatlarda onunculara dərsi olacaq.

Vəliyev Gülnaz müəlliməyə təşəkkür edib dedi ki, lazım olsa onu bir dəfə də dəvət edəcəklər. Harasa zəng etdi. Bir azdan operativ qrupla birgə Gülnaz müəllimənin direktoru olduğu məktəbə yollandılar...

***

İlk dindirmədən Turacı öldürdüyünü etiraf etdi. “Niyə öldürdün” sualına qısqanclıq zəminində baş verdiyini desə də o qısqanclığın nə olduğunu soruşanda susurdu.

Müstəntiq Vəliyev cinayət işini yekunlaşdırıb məhkəməyə göndərdi. Qısa vaxtda məhkəmə işə başladı. Məhkəmə iclaslarına iki əlin barmaqları sayda insan-

lar gəlirdi. Onlardan biri də Sərxanın atası Arif kişi idi. Maraqlı tərəf o idi ki, Arif kişi məhkəmədə həm də zərərçəkmiş qismində iştirak edirdi. Özü də hər dəfə məhkəməyə qucağında uşaqla gəlirdi. Sərxan atasının bu hərəkətindən hiddətlənirdi. Hətta bir-iki dəfə ağzını doldurub istəmişdi hakimə desin ki, atası məhkəməyə niyə oğlu ilə gəlir?.. Ancaq deməmişdi...Məhkəmələrin birində hakim Sərxana gözləmədiyi sualı verdi:

-Atanın qucağındakı uşaq bilirsənmi kimdir?

-O uşağın anası Turac, atası atamdır. Mənim ögey qardaşım sayılır.

-Axı Turac sənin…

-Təəssüf ki, sevgilimin oğlu qardaşımdır.

Arif çaşqınlıqla oğluna baxıb köks ötürdü. Uşağı möhkəm-möhkəm sinəsinə sıxıb dodaqaltı mızıldandı: "Demişdim axı, o nəyisə səhv salıb ki, Turacı öldürüb!.." Ona görə də əlini qaldırıb söz istədi. Hakim dedi:

-Buyurun, vətəndaş Abışov.

Uşağı qucağından yaındakı boş oturacağa qoyub ayağa durmuşdu ki, uşaq əllərini ona uzadıb ağlamağa başladı. Ona görə də usagı yenidən qucağına alıb sözə başladı:

-Yoldaş hakim, ailəmin başına gələn bu faciədən hələ də özümə gəlməmişəm. Biz illərlə oğlumuzun yolunu gözləmişik. Anasının gözləri yol çəkməkdən əvvəlcə kor oldu, sonra da nisgillə dünyadan köçdü. Oğlumun əmanəti kimi qoruduğumuz gələcək gəlinimiz olacaq Turac balamı da!.. – deyib hönkürtü ilə ağladı. Uşaq da ona qoşulub ağlamağa başladı.

-Səbirli olun, vətəndaş Abışov. Uşağı sakitləşdirib sözünüzə davam edin.

-Oldu, - deyib uşağı qucağına alıb sözünə davam etdi, - Uzun ayrılıqdan sonra oğlumla ilk görüşümüz gör harda baş tutur. Göz-gözə baxmaqla. Fikir verirdinizsə hər dəfə mən zala daxil olanda Sərxan orada – dəmir barmaqlıqlar arasında oturduğu stuldan ayağa qalxır...

Hamı maraqla Arifə, həm də Sərxana baxırdı. Hakim təsdiqlədi:

-Düz deyirsən, a kişi. Mənə də qəribə gəlirdi ki, bu qədər həngamədən sonra oğul…

-Ona elə tərbiyə vermişdi anası. Atan gələn yerdə varsansa ayağa dur. Oğlum böyük-kiçiyin yerini bilən, əxlaqı, tərbiyəsi ilə həmyaşıdlarına nümunə olan övlad olub. Onu xoş gələcək gözlədiyinə elə inanmışdıq... Uzun illərin ayrılığından sonra onu dəmir barmaqlıqlar arasında tapdım. Neyləmək olar, bu da alın yazısıdır. Dözməliyəm. Onu da deyim ki, oğlumun qısqanclıqdan öldürdüyü sevgilisinə səbəb olan bu uşaqdı...

Hakim onun sözünü kəsib soruşdu:

-Arif kişi, bu uşaq kimdir?

-Onu bizə allah-təala övlad göndərib. Tapmışıq.

-Necə? – Sərxan heyrətlə qışdırdı.

Hakim ədalət çəkicini bir neçə dəfə stola döyəclədi:

-Sakit ol. Atan danışır hələ... Təkcə onu deyə bilərəm ki, o uşaq sənin qardaşın deyil, anası da Turac deyil. Adı isə Sərxandı.

Sərxan eşitdiklərindən dəhşətə gəldi. Əllərini yumruqlayıb bir neçə dəfə başına çırpdı.

-Məni gülləléyin, yaşamaq mənə haramdır.

-Hansı cəza verilsə bil ki, ədalətli olacaq... Hələlik isə atanın danışdıqlarına qulaq as, - dedi hakim.

Arif kişinin qucağında uşaq yuxulayıb yatmışdı. Uşağın yatdığını görən hicablı qadın onu Arif kişidən alıb oturduğu stula gətirdi. Sinəsinə sıxıb öz balası kimi oxşadı... Arif kişi boğazını arıtlayıb sözünə davam etdi:

-Bekarçılıqdan təngə gəlib dədə-baba peşəmlə məşğul olmaq üçün Ağcabədi bazarına gedib 4 qoyun, bir keçi aldım. Onlar da iki ildə artıb-törəyib 12 qoyun-quzu, üç keçi olublar. Südümüzü təmin edirdik... Hər səhər saat altı rədələrində onları tikdiyim tövlədən çıxarıb vulkan dağı tərəflərdə otarmağa aparıram... Noyabr ayının ortaları idi. Səhər gec işıqlandığından həmişəki qaydada yuxudan durub Turacın hazırladığı çaydan bir stəkan içib davarlarımı qarşıma qatıb həyətdən çıxdım. Pirin yanına çatmışdım ki, boz keçi qoyunlardan aralanıb mələyə-mələyə pirə tərəf getdi. Ha hayladımsa, geri dönmədi. Ona görə də arxasınca getdim ki, geri qaytarım. Pirin xırda qapısından içəri giriş vardı. Keçi ora çatıb dayandı. Körpə səsi gəlirdi. Bir anlığa yerimdə donub qaldım. Eşitdiyimə inanmaq istəməsəm də içimdə qəribə bir hiss deyirdi ki, sakitcə qulaq as. Çünki keçinin ilanı əmizdirməsi rəvayəti yadıma düşdü. Bunu kəndimizdə olanda Əsgər əmi danışmışdı. Deyirdi ki, sürünün bircə buynuzu sınıq keçisi vardı. Bu keçi hər gün günün eyni vaxtında qayalıqdakı mağaraya girib yox olurmuş. Bir gün Əsgər əmiyə maraqlı gəlir ki, görsün bu keçi niyə mağaraya girir. Ona görə də günün həmin vaxtı keçini izləyir. Keçi sürüdən ayrılıb mağaranın ağzına gəlib bir neçə dəfə mələdikdən sonra içəri keçir. Əsgər əmi də sakitcə onun ardınca mağaraya girir. Qaranlıq mağarada bir xeyli gedir. Baxır ki, qarşıda işartı var. İşartıya yaxınlaşanda görür ki, mağaranın yuxarısından işıq düşür. Ağ sal daşın üstündə keçi durub. Bir ilan da onu əmir. Dəhşətə gəlir. Qorxusundan yavaş-yavaş geri çəkilib mağaradan çıxıb sürünün yanına qayıdır. Bir azdan keçi də heç nə olmamış kimi mağaradan çıxıb sürüyə qarışır. İstəyir keçini satsın. Amma qorxur ki, ilan onun ailəsinə ziyanlıq vurar. Ona görə də keçi ölənə kimi ilanı əmizdirməsi davam etmişdi. Keçi mağarada ölüb qaldı... İndi də bu keçi mənə o hadisəni yada salmışdı. Qeyri-ixtiyarı xoflanmağa başlamışdım. Sakitcə dayanıb qulaqlarımı şəkləyib səs gələn tərəfdən

yenidən səs gələcəyini gözləyirdim. Keçi bir də mələdi. Onun səsinə “inqə-inqə” səsi eşidildi. Elə şirin, dogma gəlirdi ki, özümdən asılı olmayaraq irəli yeriməyə başladım… Gözlərimə inanmadım. Uşaq beşiyin içində idi. Beşik qarışıq qucağıma alıb körpəyə baxırdım. Uşaq da mənə baxır, gözləri ilə sevinirdi... Yanında butulka dolu süd vardı, əmziyi də ağzında. Butulkaya əlimi vurdum, ılıq idi. Demək indilərdə bura atılıb. Ətrafa göz gəzdirdim ki, bəlkə kimsəni gördüm. Heç kim gözə dəymirdi... Keçi də yanımda durmuşdu. Öz-özümə keçiyə: “nə ağıllı heyvansan” deyib qoyunları geri – evə qaytardım.

Heyvanları həyətə buraxıb, aynabəndə qalxdım. Turacın otağının qapısını döydüm. O içəridən: ”Papa, xeyirdimi geri qayıtmaqda?” – deyib qapını acdı. Qucağımda beşik qarışıq usagı görüb bir söz demədən çaşqınlıqla bir mənə, bir də uşağa baxırdı.

-Nə gözünü döyürsən? Bu səhərin bizə göndərilmiş şirin payıdı. Südü də yanında. Əmizdir.

Tez beşiyi qucağına alıb bir də uşağa baxdı. Nə fikirləşdisə:

-Papa oğlandır, yoxsa qız? – deyə soruşdu.

-Qıza oxşayır…

Uşağı öz otağına apardı. Heç iki dəqiqə keçməmiş içəridən səsləndi:

-Papa oğlandır. Soruşmadım heç, hardan tapıb gətirmisən?

-Qızım, pirə qoymuşdular. Görünür, indilərdə qoyublar. Çünki butulkadakı süd istidir. Bəlkə də kənardan göz qoyurmuşlar ki, görsünlər kim götürəcək.

-Hə, papa, paltarları da istidir. Hələ yerini batırmayıb.

Bir azdan Turac uşaq qucağında aynabəndə gəldi.

-Papa, yaxşı ki, keçimiz sağılır. Ona hər gün keçi südü verəcəm. Deyirlər keçi südü ana südünü əvəz edir.

-Sonra başımız ağrıyar. Onu polisə təhvil vermək lazımdır.

-Nə danışırsan, papa, bu bizim qismətimizdir. Özü də ziyarətgah payıdır.

-Sonra problem yaranar ha...

-Heç nə olmaz. İndicə ad da qoydum.

-Nə adı?

-Sərxan.

Beləcə körpə bizim övladımıza çevrildi. Qısa vaxtda ona çox bağlandıq. Balaca Sərxan evimizə xoşbəxtlik bəxş etmişdi. Əzizləyə-əzizləyə rusetdəki Sərxanın yolunu gözləyirdik. Gəldi. Kaş, gəlməz olaydı, - deyib ağlayıb barmaqlıqlar arasında ona məzlum-məzlum baxan oğlunun göz yaşlarını gördü.

Arif kişinin çıxışı başa çatsa da hələ də zalda sükut hökm sürürdü. Handan-hana hakim dilləndi:

-Sabah müttəhimə son söz veriləcək, - deyib bu günki iclası bağlı elan etdi.

***

Səhəri günü erkəndən Arif kişi uşaqla məhkəmə binasının qarşısında durmuşdu. Dünən uşağı ondan alıb saxlayan qara çadralı qadın da kənarda durmuşdu. Arifdə sual yarandı. Bütün məhkəmə boyu bu qadın gəlir, dinib-danışmırdı. Bəlkə məhkəməni işıqlandıran jurnalistlərdəndir.

Kamvoylar Sərxanı içəri salanda o çönüb atasına “salam, ata” dedi.

Bu dəfə axırıncı cərgədə, özü də küncdə oturdu. Son iclas olduğu üçün xeyli jurnalistlər də vardı.

Hakim məhkəmənin gedişatı haqqında zalda oturan jurnalistlərə məlumat verib dedi:

-Bu gün müttəhim son sözünü deyəcək. Vaxt çatsa bu gün, çatmasa, sabah hökm oxunacaq.

Sərxan yerindən əsəbiliklə səsləndi:

-Bu qədər məhkəməni uzatmaq nəyə gərək axı. A kişi, neçə il verəcəksənsə ver, çıxıb gedək də…

Hakim onu susdurmaq istədi:

-Məhkəmənin gedişatına mane törətməyin, - sonra üzünü zala tutdu. - Son sözünü demək üçün söz müttəhim Abışob Sərxan Arif oğluna verilir.

Sərxan ağır yükün altındaymış kimi ləngər vura-vura ayağa qalxdı. Üzünü hakim kürsüsündə oturanlara tutdu. Ardınca zalda oturanları süzüb qara çadralı qadında gözləri dikilib qaldı. Qara çadralı qadın da ona baxırdı. Uzaqdan-uzağa gözləri ilə danışdılar. Hətta bir-birinə azca da olsa gülümsədilər. Sonra atasına, onun qucağında olan balaca Sərxana baxıb kövrək səslə dilləndi:

-Bağışla, körpə Sərxan, səni anasız qoydum!.. Bağışla!.. Bağışla!.. Min yol bağışla... Nakam taleyli bir gözəl sənə analıq edirdi. O məsum, günahsız idi. Mənim günahlarım isə yuyulası deyil, qəbir evinə kimi özümlə daşıyacağam... Bir neçə ay əvvəl məni tutub polis şöbəsinə gətirib dindirəndə ilk andaca etdiyim cinayəti boynuma aldım. O cinayəti törətməkdə qısqanclıq hissim səbəb olsa da o qısqanclığın səbəbini deməmişdim. Atam hamısını dedi... Mən rusetdən min bir əziyyətlə Bakıya gəlmişdim ki, yarıma qovuşam. Düşünmüşdüm ki, valdeynlərim illərlə sevgilimi qoruyublar. Sanırdım ki, Turacıma qovuşmağa saatlar qalıb. Amma bu belə olmadı...

Atamgil yaşayan evi axtarıb tapdım. Həmin vaxt qarşıma bir nəfər çıxdı. Atamgilin qonşusu idi. Onun bir sözü ilə arzularım çilik-çilik oldu. Ümidsiz halda geri döndüm. Yaxşı ki, bacım Şəhrizad vardı. O, mənə yaşamaq eşqi verdi, - deyib qara hicablı qadını göstərdi, - Bu günə kimi Sərxanın bütün məhkəmə iclaslarında iştirak edən bu qadının kimi olduğu ilə kimsə maraqlanmamışdı. Qadının yalnız gözləri görünürdü, - Bacım hər

gecə bir hekayət danışmaqla çalışırdı məni bu cinayətdən çəkindirsin. Amma olmadı. Bu dəfə yeraz Vidadi elə söz dedi ki, daha içimdən nifrət püskürürdü. Turaca olan məhəbbətimin yerini artıq nifrət əvəz edirdi. Hazır idim onu öldürməyə... Bir gün möhkəm içib Turacı öldürmək üçün Binəqədi qəsəbəsinə getdim. Sanırdım ki, atam qoyunları otarmağa aparıb. Sən demə, evdəymiş. Ona görə istəyim baş tutmadı. İkinci gün yenə içib getdim. Bu dəfə günorta olsa da Turac uşaqla birgə yatmışdı. Qıymadım onların yuxusuna haram qatam. Dedim qoy körpəsinin quxusunu doyunca dadsın. Üçüncü gün körpə otaqda oyuncaqları ilə oynayırdı... Aynəbənddə üz-üzə gəldik. O məni görcək əvvəlcə gözlərinə inanmadı. Karıxıb qalmışdı. Bunun yuxu yox, gerçəklik olduğunu anladıqdan sonra üstümə atıldı. Qucaqladı məni. Mən də onu qucaqlamışdım. İllərin həsrətlisi kimi sinəmdə məst olmuşdu. Pencəyimin sol qolunun içində qəməni yerləşdirmişdim. O vəziyyətdə qəməni çıxarıb kürəyinə -arxadan ürəyinə sapladım. “Off!.. Off!.. Günahım nə idi sevgilim!..” Əlimlə ağzını, burnunu qapadım ki, nəfəsi tez kəsilsin. Bir iki dəfə çabaladı ki, əlimdən çıxa… Nəfəsi kəsildiyini görəndən sonra qucağıma alıb “Laylay, Turacım, laylay!..” deyib aynəbənddəki divana uzatdım. Pəncərənin pərdəsini qoparıb üstünə sərdim…

Divanın yanına stul çəkib oturdum. Qorxurdum ki, ayılar… Bir siqaret çıxarıb yandırdım. Siqareti çəkib qurtardıqdan sonra kötüyünü aynabənddən çölə tulladım… Bu vəziyyətdə məktəbə gedə bilməzdim. İcazə alacaqdım. Gülnaz müəlliməyə zəng etmək istədim… Əlim əsə-əsə telefonu çıxartdım. Gülnaz müəllimənin nömrəsini yığdım. “Balansınızda kifayət qədər kontur yoxdur” cavabını eşidib təəssüfləndim. Birdən yadıma düşdü ki, dünən bir manatlıq kontur almışdım. Tez çıxarıb şifrə yerini silib nömrələri yığdım. Gülnaz müəllimə zəng etsəm də cavab vermədi. Sonradan yadıma düşdü ki, o gözdən əməliyyat olunub…

Həmin gün necə dərs keçdim özümdən xəbərim olmadı. Fikrim öldürdüyüm meyitin yanında idi. Bir də uşağın ağlayıb qonşuları onun səsinə gələcəklərini düşünürdüm…

Mən qısqanclıqdan bu əməli törətdim. Səbir etsəydim… Bu gün burda olmazdım… Son sözüm bura qədər. Verəcəyiniz hökmə hazıram…

Məhkəmə heyəti ayağa durub hökm çıxarmaq üçün məşvərət otağına keçdi.

**SON**

***21.05.2023, Bakı, Buzovna qəsəbəsi***
***21.11.2023, Bakı (Atakənd), Gözətçi odası***



## KÖNÜL TOVUZLU

Şair Damət Salmanoğlu redaksiya heyətinin fəal üzvüdür. Hər dəfə gözdən, könüldən kənarda qalmış kimisə tapıb üzə çıxardır, onun yaradıcılığından nümunələr götürür, bəzən heç əl gəzdirmədən redaksiyaya təqdim edir ki, çap olunsun. Bu dəfə təqdim etdiyi Könül Tovuzlu lal-kardır, poeziya məclislərindən, ədəbiyyatşünaslıqdan, ədəbi tənqiddən tamam kənar bir adamdır. Sadəcə, ulu Yaradanın bəxş etdiyi şəkildə hiss və duyğularını nəzmə çəkir. Onlardan bəzilərini olduğu kimi diqqətinizə çatdırırıq. Andımıza sadiq qalırıq. “Xəzan” jurnalında çap olunmaq hər kəsin haqqıdır.

### BAXMAYACAĞAM

Gəlbimdə yasadın bir güzgü kimi,
Sınmısan eşqimin saf məhəbbəti.
Bir ömür agladım, yandım sam kimi,
Əriyib yenidən yanmayacagam.

Mən sənin əlindən bilmirəm hara,
Köcub gedəcəyəm, sən görəcəksən.
Bir zaman duşsəm də sənin yadına
Peşiman olsan da, dönməyəcəyəm.

Bilirəm sən məni axtaracagsan,
Nə qədər gəzsən də tapmayacagsan.
Gələcək yolumuz düşsə də yaxın,
Yoluna, rizinə gəlməyəcəyəm.

Qarşımda diz çöküb yalvarsan belə,
Çönüb sən tərəfə baxmayacagam.
Bəlkə də üzülüb kövrələcəksən,
Eşqimi eşqinlə bölməyəcəyəm.

Sən adda ömrümə gəlsə bir bahar,
Adını bahar yox qış qoyacağam.
Yeni bir həyata qoşsan min həyat,
Bir də həyatına baxmayacağam!

**HƏLƏ DƏ ƏZABA DÖZÜB QALMIŞAM**

Sən mənə nə gədər əzab vermisən,
Mən yazıq əzaba dözə bilmirəm.
Elə bil ömrümə zəhər gatmısan,
Zəhərdən gəlbimə yara salmışam.

Gecələr yatmayıb göz yası tökdüm,
Verdiyin əzaba cox cətin dözdüm.
Bu fani dunyada nə fayda gördüm?
Sən mənə bu gədər əzab vermisən.

Mən səni cox sevib, sənsiz agladım,
Bu boyda göz yası töküb cağladım.
Sənə urəyimdə könül bagladım,
Hələ də, əzaba dözüb galmışam...

**MƏNİM DEYİLSƏN**

Səsin gulagımda hər an səslənir,
Kövrək duyğularım, sənsiz qəmlənir.
Yanaqdan göz yaşım axıb nəmlənir,
Mən bunu bilirəm, mənim deyilsən!

Baxsa da gözümə qara gözlərin,
Duysa da könlümü sevən ürəyin.
Dəysə də əlimə sənin əllərin,
Bilirəm həyatda mənim deyilsən!

Yadıma dusəndə qəlbim aglayır,
Hicran ürəyimi dəlib dağlayır.
Sevgilim, gözlərin kədər paylayır,
Doyunca baxıram mənim deyilsən!

Gecələr Tanrıdan səni istədim,
Mələklər gətirər, xəbər gözlədim.
Ayrılıq anına nifrət elədim,
Alın yazısında mənim deyilsən!.

**NİYƏ?**

Urəyimdə dünya boyda dərdim var,
Allah, bəxtim niyə belə qaradı?
Gecə-gündüz, qəmgin-qəmgin ağlaram,
Allah, bəxtim niyə belə qaradı?

Heç ürəkdən deyıb gulə bılmədim,
Hec kımsəyə dərdı deyə bılmədim.
Yasamaqdan bezdim, ölə bilmədim,
Allah, bəxtim niyə belə qaradı?

Könül, ömrün hədər getdi, zay oldu,
Yar gedəni günlər ötdü, ay oldu.
Yanağından yaş süzülüb çay oldu,
Allah, bəxtim niyə belə qaradı?

# XAQANİ HÜCRƏSİNDƏ GÖRÜŞ

*Üstündən neçə gün keçib, hələ indi o xoş auralı məkanın sehrli cazibəsindən ayrılıb olanlara nəzər salmağa başlayıram.*

Fikrim asimanın ənginliklərində keçmişin, klassiklərin ruhlarının sorağında olsa da gözlərim yola baxırdı. Bakı-Xaçmaz yolundan sağa çıxıb köməkçi yolla irəliləyirdik. Birdən:

-Çatdıq! – taksist astadan səsləndə xəyallardan ayrıldım.

-Hara? – qeyri-ixtiyari soruşdum.

-“Sara” şadlıq sarayına. – Taksist tərs-tərs məni süzdü. – Bakıdan çıxanda belə deməmişdiniz?

Fikrimi cəmləşdirməyə çalışdım. “Mən “Sara” şadlıq sarayına nəyə gəlmişəm?” “Hə, yadıma düşdü, indi adamlar daha çox dadlı yeməklər bişirilən yerləri, pal-paltar satılan mağazaları yadda saxlayırlar. İndi kimdir kitabxanaların, kitab mağazalarının, klassiklərin ruhunu oxşayan hücrələrin yerini soraqlayan?” Bəli. Mənə elə beləcə də deyilmişdi. Birdən taksi sürücüsü oranı tanımaz, onda belə nişan verin.

Taksidən düşən kimi şadlıq sarayının əks istiqamətinə baxdım. Dərhal hücrəni gördüm. Elə bil bu hücrəni min ildir tanıyırdım. Əfzələddin Xaqani bu hücrədə yaşayıb yaratmışdı. Ömrünü burda xalqa, ədəbiyyata fəda etmişdi. Yaradanın haqqı – ölüm xəbəri gələndə də burdan heç hara getməmişdi. Daşa dönüb heykəlləşmiş və hücrənin qarşısında ucalmışdı, gələnlərə, gedənlərə düzgün yol göstərirdi.

Əvvəlcə heykələ yaxınlaşıb salam verdim. Qələm əhli olduğumdan imtahan öncəsi sıxılan tələbə kimi sıxıla-sıxıla böyük ustada səcdə etdim, ehtiramımı bildirdim. Sonra hücrəyə tərəf döndüm. Qapının üstündə yazını oxuyub hücrənin başına dolandım və arxa tərəfdəki qapını açıb içəri daxil oldum. Klassiklərin ruhu dolaşan hücrənin ədəbi ab-havası məni vurdu. İlk qarşıma çıxan bir ay əvvəl tanış olduğum, tanış olduğum andan da zəkasına vurulduğum Daşqın Məmmədovla qarşılaşdım. İçəridə beş-altı adam olardı. Düz gəldiyimi anladım. Təzəcə salamlaşmışdım ki, hücrənin mücaviri hesab etdiyim AY Bəniz xanım Əliyar da gəldi. Görüşdük, hal-əhval tutduq. İlk andan ruhən böyük cüssəli bu xanımın çiyinlərində klassiklərin mistik varlığının uyuduğunu hiss elədim.

Yola həyat yoldaşım Xuraman xanımla çıxmışdım. Onunla Dədə Qorqud diyarı Dəmirqapı Dərbəndə - ədəbi görüşlərə də bir getmişdim, Gürcüstan, Rusiya səfərlərinə də. Müharibə illərində də arxa-dayağım olmuşdu. Hücrədən çıxdım. Həyətdə məni gözləyən bir qutu jurnal-kitabları götürüb Xuramanla birlikdə hücrəyə qayıtdım. Yoldaşımı təqdim etdim. Birlikdə gəldiyimizə çox xoşhal oldular. Qısa tanışlıqdan sonra görüşümüz başladı. Bütün bu müddət ərzində Əfzələddin Xəqaninin ruhunu başım üzərində hiss edirdim.

AY Bəniz Əliyar görüşə gələnləri salamladı və haqqımda danışmağa başladı. Xanım-şairə xeyli məlumat toplamışdı – uşaqlığımdan bəhs edirdi. İlahi, mən axı Xəqanini orta məktəbdə yetərincə öyrənməmişdim. O vaxt Xəqanini yetərincə öyrədirdilərmi? Deyəsən, yox. Elə Həsənoğlu kimi bir qəzəli ilə kifayətlənirdilər. Soyuq tər məni bassa da ustadın ruhunun sakitliyi məndə rahatlıq yaradırdı. AY Bəniz xanım isə danışırdı. Mənim orta məktəbdə oxuduğum illərdən, o vaxt yazdığım kiçik həcmli mətnlərdən, onların hansı jurnal-qəzetlərdə

dərc olunmasından bəhs edirdi. Bir aləm xatirə gətirmişdim o illərdən. Hansını danışım. Bir saat, beş saat bəs edərdimi? Əlbəttə yox. Yaşadığım hər an, hər gün bir xatirəydi. Dəyərli vaxtlarını ayırıb görüşümə gəlmiş adamların daha çox vaxtını almağa haqqım vardımı? Niyə mənə bu qədər dəyər verirdilər? Bilmirəm. İnsanların sifətindən səmimiyyət yağırdı. Bölgə adamları öz saflığını necə də qoruyub saxlayıblar.

AY Bəniz Əliyar danışırdı. Başımın üstündə yeni ruhların uçuşunu hiss elədim. Bu, Mehdi Ağalarovun ruhuydu. Orta məktəbdə ədəbiyyat müəllimim olmuşdu. Bütün şair və yazıçıları onun sayəsində sevmişdim. Sevə-sevə oxumuşdum. İlahi, necə də zəngin dünya imiş ədəbiyyat. İnsan ədəbiyyatdan aldığı zövqü başqa hardan ala bilər? Hər şair, yazıçının həyat və yaradıcılığını bizə tədris edəndən sonra elə bilirdik ki, doğmamızdır; əmimizdir, dayımızdır, ya da atamızın yaxın qohumlarındandır. Mehdi Ağalarov onları bizə belə sevdirmişdi. İndi də yuxarıdan pıçıldayırdı: “Mən sənə boş-boşuna “beşdə-beş” yazmamışam!”

Nəsə bir başqa ruh xəyallarımı çəkdi. Bu, niyə gəlib? Bu ki, bizim riyaziyyat müəllimimiz olub. Ölkə səviyyəli tanınmış Şəhrid İsmayılovun ruhuydu. Hər il Ali məktəblərə qəbul vaxtı mübahisəli misal-məsələlərin həllində teleqramla onu ya Naxçıvana, ya Bakıya çağırardılar. “Ən böyük şair Nəsrəddin Tusidir” deyirdi. Poeziya da dəqiq elmdir, hecasını, qafiyəsini tuta bilməsən, nazını çəkməsən, qayğısına qalmasan, ondan poeziya olmaz. Özü də ara-sıra şeirlər yazırdı, sandığa yığırdı. İndə hardan bilim onların taleyi necə oldu? Birdən pıçıldadı: “Mən sənə ona görə “dörd” yazırdım ki, ali məktəbə imtahan verəndə “beş” ala bilməyib təəssüflənməyəsən. “Dörd” sənin halal qiymətin idi...” Pıçıldayan kimi də vızıldayıb uçub getdi.

İndi hücrədə qarışıqlıq idi. Yerdəkilər də danışırdılar, göydəkilər də. AY Bəniz xanım görüşə gələnləri bir-bir təqdim edib danışmaq üçün söz verirdi. Onlar internet üzərindən yaradıcılığımın bir hissəsi ilə tanışlıqdan danışır, şagirdlər suallar verir, mən də imkan tapan kimi cavablandırmağa çalışırdım. Arada fürsət yaranan kimi xatirələrimi danışırdım. Göydəkilər isə hər şeydən məlumatlı idilər. “Klassiklərin bostanına daş atmaqdan da qalmırsan...” deyə atmaca da atırdılar. Bu nədi? “Hal arvad”dan yazırsan, köhnə kişilərin paxırlarını açırsan? Ayırd edə bilmədim kimin ruhunun pıçıltısıydı; ya Yusif Vəzir Çəmənzəminliydi, ya Əbdürəhman bəy Haqverdiyev. “Qurd ağzı”n da pis alınmayıb! İlahi, bəs bu kimin səsiydi? Süleyman Sani Axundov, yoxsa Abdulla Şaiq? Şagirdlərdən kimsə sual verirdi, nəsə “Şər” adlı hekayəmdən danışırdı. Mirzə Cəlil qarşıdakı pəncərədən mənə əl eləyirdi. Dəxli olmasa da onu nümunə göstərdim.

Sevinirdim ki, müasirlərim mənim haqqımda danışır, onların arasında yaşıdlarım da vardı, gənc qələm sahibləri də. Gənclər daha fəallıq göstərirdilər. Bunlar hamısı AY Bəniz xanımın xidmətləriydi. O, deməsəydi, istiqamətləndirməsəydi, mənimlə, yaradıcılığımla necə maraqlanacaqdılar?

Aybəniz xanımın nə vaxt və necə AY Bəniz olduğu fikri çulğalandı beynimdə. Özündən, yaxud başqalarından soruşmağı özümə rəva bilmədim. İlk görüşdə bu xanım-şairə gözümdə klassiklərin ruhunu şad edən, hücrənin əsl sahibəsi kimi püxtələşmişdi, böyümüşdü. İndi buna daha da əmin olurdum. Xəqani burda daşa çevrilib heykəlləşmiş, qərinəyə çevrilib hücrəsini tərk etməmişdisə, onun və ətrafına toplaşmış bütün klassiklərin ruhunu oxşayacaq bir hücrəni canlandırmaq çətin olsa da müqəddəsdi. Ruhlar üçün zaman yoxdu, onlar hər zaman yaradır, müzakirə aparırlar. Onların işığı heç vaxt əskik olmamalıdır. Günəş görünməyəndə göylərə qalxıb günəşin işığını əks etdirən AY Yerə necə işıq salırsa, AYBƏNİZ xanım da daima müqəddəslərin toplaşdığı bu hücrəyə qəlbən necə bağlanıbsa, eləcə də AY Bənizə çevrilib. Məncə, soruşmağıma heç ehtiyac da yox imiş.

Bir qələm adamı kimi klassiklərə görə rahatlıq tapdım. Əfzələddin Xəqaninin də ruhu çox rahat görünürdü mənə. Hücrəsinə daima işıq saçan, oranı canlandıran bir insanın əvəzsiz xidmətlərindən necə razı qalmayıb rahatlıq tapmayasan?

Görəsən, Azərbaycanda belə hücrələr neçədir?

**Əli BƏY AZƏRİ**



# XƏZAN – 2023

## “Xəzan” ədəbi-bədii jurnalında 2023-cü ildə dərc olunmuş materiallar

### Nəsr

### Roman
1.**Əli BƏY AZƏRİ** – ““General”ın “yefreytor” vəkili” N1(46)
2.**Ayaz İMRANOĞLU** – “Sevgilimin oğlu qardaşımdır” N5(50), N7(52), N8(53), N9(54)

### Povest
1.**Daşqın MƏMMƏDOV** – “Ata Şuşa” N9(54)

### Ssenari
1.**Əli BƏY AZƏRİ, Şəfaqət CAVANŞİRZADƏ** – “Şən dullar” N3(48)

### Hekayə
1.**Əzizağa ELSEVƏR** – “Sevgi ölmür, yaşayır...” N2(47), “Yeddinci otağın sirri” N5(50)
2.**Fərhad ƏSGƏROV** – “Mənə kütbeyin deyirdilər”, “Çıxış yolu həmişə var” N2(47), “Axşamkı məclisin davamı” N7(52), “Qulaq yoldaşı”, “Beləsinə nə deyəsən?” N8(53), “Rüşvət necə gizlədilirdi?” N9(54)
3.**Sabir ETİBARLI** – “Öncədəngörmə” N2(47), “Cəsarət” N4(49)
4.**Ayaz İMRANOĞLU** – “Bələdçi” N2(47), “Dəbilqə”, “Ana məktubları”, “Şöhrət” N4(49)
5.**Pərviz YƏHYALI** – “Kəpənəklərin rəqsi”, “Bir gün verdiyin sözü də itirərsən” N2(47)
6.**Kamil Faruxşinoviç ZİQANŞİN** – “Bosman” (tərcümə Vaqif Əjdəroğlunundur) N2(47)
7.**Rəşad MƏHƏMMƏDOĞLU** – “İsti ata qucağı” N2(47)
8.**Xuraman ZAKİRQIZI** – “Gərəksiz pullar” N2(47), “Zəfər ətri” N8(53)
9.**Nəzakət EMİNQIZI** – “Gecikmiş çiçəklər” N2(47), “Nakam sevgi nağılı”N4(49)
10.**Əli BƏY AZƏRİ** – “Ağbaş” N2(47), “Yurda qayıdış anketi” N6(51)
11.**Şəfahət ŞƏFİ HƏSƏNOV** – “Aygünün fincanı”, “Mənim robot anam” (Uşaqlar üçün hekayələr)N4(49)
12.**Təranə DƏMİR** – “Yerə dağılan arzular”, “Çörək ətri” N4(49), “İşığa sarı”, “Qaranlıqla işığın arasında”, “Quyu” N5(50)
13.**Xaliq AZADİ** – “Kosagöl” N4(49), “Taran” N7(52)
14.**Vaqif İSAQOĞLU** – “Qaratikan” N4(49)
15.**Nizami KOLANILI** – “Bağlı qapı” N4(49)
16.**Mətanət DUYĞULU** – “Buz bağlamış arzular” N5(50)
17.**Seyid AYNUR** – “Naxış” N5(50)
18.**Sevinc RZA** – “Bazar səhəri” N6(51)
19.**Hümbət HƏSƏNOĞLU** – “Ən ləziz yemək” N6(51)
20.**Tutu ƏSGƏRQIZI** – “Yazılı daş” N6(51)
21.**Əli RZAZADƏ** – “Gecə gələn əsgər” N6(51)
22.**Xaləddin SIRAVİ** – “Qalan təsəllilərdi” (esse) N6(51)
23.**Firavan MAHİR** – “Yadigar sırqalar” N7(52)
24.**Zaur USTAC** – “Doğum günü hədiyyəsi” N7(52)
25.**Kübra MUSAYEVA** - “Murov qartalı” N7(52)
26.**Vüqar ƏHMƏD** – “Niqab” N8(53)
27.**Damət SALMANOĞLU** – “Mən səni unutmadım” N8(53)
28.**Çərkəz NƏSİRLİ** – “Qırx pilləkən” N8(53)
29.**Adəm ASNİ** – “Məzən olsun”, “Vida” N9(54)
30.**Rüstəm MUĞANLI** – “Dayanacaq”, “Yuxu” N9(54)
31.**Naibə YUSİF** – “Astana” N9(54)
32.**Əvəz KÜSKÜN** – “Samovar əhvalatı” N9(54)
33.**Namiq ZAMAN** – “Gəncliyini axtaran adam N9(54)

## Poeziya

### Poema

1.**Şərqiyyə BALACANOVA** – "Ölməzlər" N2(47)
2.**Budaq TƏHMƏZ** – "Qönçəbəyim" N2(47)
3.**Xuraman ZAKİRQIZI** – "Əsrlərin bəlası" N5(50)
4.**Fərhad ƏSGƏROV (RAMİZOĞLU)** – "Filin dərdi böyükdü" (alleqorik) N7(52)

### Şeirlər

1.**Məhəmməd ƏLİ** – "Qar yağır", "Ruhum bətnimdə dustaq" N2(47), "Bu söz", "Dərdim", "Ömür yolu" N7(52), Nə ömürdür yaşayıram?" N9(54)
2.**Ramiz İSMAYIL** – "Ay Səxavət", "Axtarırıq", "Ramiz adlı bir şair var", "Çək görüm", "Ayrı imiş", "Qalacaq", "Qardaş" N2(47), "Sevgi sözü", "Çəkirəm", "Darğalıqdır", "Sevirəm səni", "Şair Budaq Təhməzlə deyişmə - 1", "Şair Budaq Təhməzlə deyişmə - 2" N5(50), "Budaq Təhməz", "Var", "Sənin", "O mənəm", "Yerdən", "Biridir", "Düşməz" N7(52), "Dünya gözəl dünyadır", "İndi nədən yazırsan?", "Yazıram", "Ay qoca dünya", "Yaşa hələ" N9(54)
3.**Xaliq AZADİ** – "Dodaqdəyməz təcnis", "Şəkil önündə", "Meşədə vəhşilər yaşamır", "Salamlar gətirmişəm mən", "İnciməzdim", "Dillənmir", "Qalmayıb", "Qazax yolunda" N2(47)
4.Gülnarə CƏMALƏDDİN – Poeziya çələngi N2(47)
5.**Aysel NƏSİRZADƏ** – "Dünyaya şəfəq saçan Azərbaycanımız var", "Susqunlaşan ağrılar", "Gözün aydın olsun, Azərbaycanım", "Şəhidə anası ağladı", "Şəhid övladları", "Şəhid atası", "Həsrət ilmə-ilmə hörər payızı", "Nə tez unutdun məni", "Lövbər salmaz gəmilər", "Apardı", "Bayrağım", "Ömrümə şeir boylanır", "Qurudulmuş çiçəklər", "Körpələr evi" N2(47)
6.**Aygün SADİQ** – "Günahkarlar cəzasızdır", "Bayrağa dönənlər", "Ölüm oyatmaz səni", "Qardaş", "Oğul", "Olmur" N2(47)
7.**Təranə DƏMİR** – "Gəzdim səni", "Uzun gecə", "Hara gəlmisən?", "Sən gəldin", "Nöqtələr", "Darıxıram", "Zülmət", "İlahi", "Qarlı gün" N2(47), Təranə DƏMİR – "Poeziyanın payız çələngi" N8(53)
8.**Əbülfəz ƏHMƏD** – "Şükür", "Yaxşı", "Nə deyim, vallah", "Ramiz İsmayıl-75", "Dayazlıq", "Sənəmi", "Söz gəlişi", "Bizimki", "Kişi", "Gəlsin", "Qayıdır" N2(47), "Bekarçılıq", "Gəzişmələr", "Nisgillərimin sonu", "İbrahim İlyaslı – 60", "Veysəlli rübaisi", "Sevgi gəzişmələri", "Qoşalar" N5(50)
9.**Seymur SÖNMƏZ PAŞAYEV** – "Ay şıltaq qız, nazlı qız", "Xoşum gəlir", "Zənn etməyin dəliyəm mən", "Qorxuram", "Qadanı alım", "Gəl yeni ildə", "Xatırlamasan da unutma, yetər", "Mən bildim səni", "Sevginin", "Gəlir", "Bir şair şəkili çək mənə, rəssam", "Darıxır" N2(47), "Səni necə sevim ki?", "Dərdini içində çəkir bu gözəl", "Qocalıram", "Şairlər", "Heç vaxt gözlərini çəkmə gözümdən", "Yaxşını yamandan seçən yaşdayam", "Sev onu", "Bir gözəl qismətim ola, olmaya", "Öldürəcək nazın məni", "Dilim", "Xəbərin varmı?", "Ya sən dəlisən, ya mən", "Sən eləsən, mən belə", "Danış" N7(52), "Bəd nəzərlər çapdı bizi", "Mən səni bu qədər sevməməliydim", "Sənin", "Nolar, qocalmasın anam, ay Allah", "Gedirsən", "Neynirəm ucuz ad-sanı", "Məni bağışla", "Getmisən", "Sən hardan biləsən", "Gördüm" N8(53), "Qız qəhət deyilmiş ulu Gəncədə", "Səni misralara köçürmüşəm mən", "İndi", "Gəlib, gedirsən", "Sonra", "Şairlər", "Gecələr darıxır adam", "Məhəbbətimsən", "Sənin de, qürbətdə nə itin azıb?", "Mən belə adamam", "Sənə deyiləsi ayrı sözüm yox", "Ağlımdan", "Zəfərin mübarək, Azərbaycan", "Elini sevdim sənin", "Olsun, olmasın", "Üzün məndən döndümü?" N9(54)
10.**Gülbəniz ABBASOVA** – "Qarabağ faciəsinin xəzan olmuş sevgisi" N2(47)
11.**Cəbrayıl HÜSEYN** – "Avtoportret", "Dünya payız köçündə", "Ömrümün saatları", "Qurtarar", "Çıxım aradan", "Gəzmərəm", "Bu gələn payızdan özünü qoru", "Duyğulu çağlarıma", "Kəndimiz", "Baxa bilərəmsə", "İcazə ver", "İsmayıllı dağları", "Ana", "Sənin məhəbbətin", "Öndəymiş demə" N2(47)
12.**Budaq TƏHMƏZ** – "Həsrət" N2(47), "Ölməyib, yaşayır Heydər əbədi", "Döyüş vaxtıdı", "Anamın ətrini nənəmdən aldım", "Gözlə, gələcəyəm", "Sən söz sərrafısan", "Mənim xəyal dünyam" N4(49), "Qızlara açıq məktub", "Şəhid məzarları and yerimizdi", "Küsmə məndən, ay ilhamım", "Səni kim unudar?" N7(52)
13.**Firavan MAHİR** – Poeziya çələngi.... N2(47)
14.**Səma KUBRA** – "Səhvlərimlə sev məni", "Özüm öz içimdə itmək istərəm", "Məsum deyilik heç birimiz", "Ömürlük yaddaşımdasan, mətin qadın" N2(47)
15.**İntizar TURAN** – "Uşaqlıq illəri", "Bir bayrağın altında", "Elin mərd oğluna", "Bilməz", "Bu vətənin özü boyda yarası var", "Mənim xalqım", "Bacıqızı", "Termometr haqqında düşüncələr", "İstəyirəm şeir yazım", "Həyat dərsliyi", "Xocalım" N2(47)
16.**Nizami KOLANILI** – "Gedirəm savaşa, saxlama məni", "A dünya", "Yalan hökm eylədi, düz öldü, Allah", "Qırx bir yaşda elə qaldım", "Dünya, sənin nə vecinə", "Gözəl, məndən küsmə barı", "Belə dövran mən də gördüm", "Yaxşını çox tapdım, pisi itirdim", "Ağlayar", "Bu il də kəndimə gedə bilmədim", "Düzü kaman təki əyir bu dünya" N2(47)
17.**Malik NƏZƏROV** – "Lənkəran-Muğanlı", "Lənkəran", "Şovu adlı kəndim var", "Yalançılar dünyası", "Şəhidlər", "Xocalı", "Yaz gəlir" N2(47)

18.**Bəhram ŞƏMS** – “Səni elə sevdim ki”, “Anama”, “Səni görən dağlara qar yağdı”, “Düşmədi”, “Kirpiklərin dar ağacı”, “Uşaq şeirləri” N2(47)
19.**Səhrab MÜRŞÜDOĞLU** – “Sən mənim Azadımsan” N4(49)
20.**Hafiz ƏLİMƏRDANLI** – “Qəzəllər”, “Rübailər” N4(49), “Qəzəllər”, “Rübailər” N5(50), “Qəzəllər”, “Rübailər” N7(52), “Müxəmməslər, qəzəllər, rübai və dübeytlər” N8(53), “Rübailər”, “Qəzəllər” N9(54)
21.**Şükür QAFAR** – “Payızın rənginə bürünən qadın”, “Sənin saçlarında sevdim payızı”, “Yaman soyuq keçir eşqin baharı”, “Gözümdə ağla”, “Sənin baxışında sevdim dünyanı”, “Bir ay idin”, “Ütülə alnımın qırışlarını”, “Sevgi çilənibdir xəyallarıma”, “Aşiqlər əzabı sevir”, “Məndən yay fəslində şeir istəmə” N4(49)
22.**Şahlar HACIYEV** – “Mən həqiqəti deyirəm”, “Dünyanın”, “Dərd qalası”, “İncimək olmaz”, “Ağzıgöyçəkdir, aman”, “Qəzəl”, “Bərəkallah”, “Bir qıza”, “Ümid var”, “İşıq nəğməsi”, “Var”, “Gəl baharım”, “Belə dırmanma yuxarı”, “Ürək söhbəti”, “Təcnis 1”, “Təcnis 2”, “Mənim dan ulduzum”, “Deyirlər Yəcis ilə Məcis qarpışacaqlar”, “İtin sevimli adəti”, “Tülkünün aktyorluğu”, “Seçim” N4(49)
23.**Rəhman BAYRAM** – “Anaların yaşı olmur”, “Baş sarıtel çalınanda”, “Qorx”, “Olur”, “Bəhanədir”, “Ay Nigar”, “Daha”, “Öyrət”, “Olmur”, “Valideyn ağacdır, övladlar barı”, “Salar, gedər”, “Keçibdir”, “Öldürəcək”, “İnsan var”, “Zaman pula bənzər”, “Vəfalı dost”, “Halallıq harama oxdu dünyada”, “Könül”, “Qəşəngdi” N4(49)
24.**Şahməmməd DAĞLAROĞLU** – “Zaman irəli gedir”, “Ver mənə”, “Mənəm”, “Gün keçər, il təzələnər”, “Bəlkə bir də gəlmədim”, “Demirəm”, “Kor etdim dünyanı”, “Anlayıb yaşamaq”, “Götürmərəm”, “Dərk elə”, “Xatirələr dinmir”, “Bu, nə xəyal”, “Məni özünlə apar”, “Səni görmədiyim gün”, “Qəlbimdəsən hələ sən”, “Mənə verdiyin şəkil”, “Ürəyim”, “Özbəkistan” N4(49), “Şirin arzularla”, “İlk bahardır”, “Məni sevənlər anlayar”, “Bir şəkillə üz-üzə”, “Bilmədin”, “Bilmirəm”, “Nə biləcək” N5(50), “Var olaq, yar olaq”, “Mən özüməm”, “Nə yaxşı ki”, “Axı, hardan biləsən”, “Sən indi anlamazsan” N7(52), “Bir soyuq baxış”, “Bəlkə də utanardım”, “Ortaya”, “Səhvlərim”, “Sevgi şeiri yazsam”, “Yeridi” N8(53)
25.**Damət SALMANOĞLU** – “Ümid yollarımı tutan olmasın”, “Bir oldun”, “Arzular”, “Ürəyi imanla dolu olmuşam”, “Şeh saçlarına”, “Kainatı sirr doludur”, “Mən sevgi fənninin əlaçısıyam”, “Özümüz dünyanın günah yeriyik”, “Özümün sınağıyam”, “Zaman tez keçir”, “Savablarla günahları pozan var”, “İsrafil surunu alıb əlinə” N4(49), “Qələbə müjdəsi sənə yaraşır”, “Qardaş”, “Necəsən?”, “Özümün sınağıyam”, “Bir müdrik tanıdım”, “Tanrı türk elinə yar olacaqdır”, “İlahi, sən özün əlini uzat”, “Duyasan gərək”, “Yazı, yayı var”, “Kim bahar verəcək, kim yay verəcək”, “Ələsgərin”, “Ürək alova bürünər” N9(54)
26.**Gülzirə ŞƏRİFOVA** – “Sən gəlsən”, “Sevə bilərsənmi sən də mənimtək?”, “Ayrılıq”, “Məktubumu göyərçinin qanadına bağladım”, “Sən məni dan üzü yoxla, əzizim”, “Sayxanın sahilində”, “Səni sevirəm”, “Əsdi sübh çağının yeli qəflətən”, “Səni candan sevirəm mən”, “Anamın xatirəsinə”, “Kəpənək”, “Məhəbbət”, “Vüsalına təşnə könül”, “Gəncliyi adım”, “Azərbaycanlı dostlarıma”, “Mənimtək olmayacaq”, “Zülmət geridə qaldı”, “Gül fəslinin zamanı ötdü” (Özbəkcədən tərcümə Şahməmməd Dağlaroğlunundur)N4(49)
27.**Səbuhi RƏHİMLİ** – “Bilmədim”, “Bir də bu dünyaya gəlməyəcəyəm”, “Giley”, “Bu gecə vaxtı”, “İmdad”, “Görmüşəm”, “Qapı”, “Şair ömrü sürməmişəm”, “Yuxumu yozan nənəm”, “Əhval” N5(50), “Gileyli deyiləm”, “Özünlə apardın”, “Tənha bülbül”, “Yağan yağış”, “İtirdik”, “Şəhərə gedən yol”, “Darıxıram”, “Özümdən ağır”, “Torpaq” N8(53)
28.**Leylam LEYLAM** – “Sonra sənə tapılmaz”, “Nədən dünya”, “Təkbeyt”, “Diqqət elə”, “Ustadım Əli Ələmliyə” N5(50), “Qəzəl”, “Müzare”, “Dürdanə” (şeirin müəllifi Şahin Tağıyevdir, Leylam Leylamın “Ata evimdəyəm” şeirindən təsirlənərək yazıb), “Gedir”, “Antalya”, “Anlaya bilmirəm” N7(52)
29.**Bəxtiyar ABBAS İNTİZAR** – “Divani”, “Hardadı”, “Qurbanlıq şeir”, “Qul Abbasa”, “Varsa”, “Deyil ki”, “Məndə”, “İkiqat qoşma”, “Səhər-səhər”, “Qurtarsın”, “Deyil”, “Axtarır”, “Fəryad günü”, “Yoxuş” N5(50), “Salavat”, “Şəkildə”, “Çətindi”, “Amannamə”, “Deyir”, “Sinəm”, “Aşağı”, “Edərdim”, “Söyüdlü”, “Qalıbdı”, “Eləmi?”, “Gəlmişəm”, “Olam”, “Gedirəm”, “Çıxır”, “Qan şeiri” N9(54)
30.**Zahid YUSİFOV** – “Yoxsa nə”, “Qaraçı”, “Gedirəm”, “Köçüb”, “Həsrət şeiri”, “Yaddaş dinir”, “Yaddaş qapısı”, “Zaman qaçır” N5(50)
31.**Əhməd HAQSEVƏR** – “Vətən nədir?”, “Oğurluğun nəticəsi”, “Hamıdan əvvəl”, “Leyla və Amin”, “Azadın konfetləri”, “Arzu xala”, “Qüdrətin başı”, “Səbinənin kəşfi”, “Zebr”, “Nə qədər pul qalıbdır?”, “Otaqda neçə nəfərik?”, “Nənə kimindir?”, “Bəhri-təvillər (nəsihət, zəmanət)” N5(50)
32.**Həvva NAZİM** – “Əsgərəm”, “Bənövşəni”, “Qalıb”, “Gecənin sirri”, “Demişdim axı”, “Bir “Ruhani” çal”, “Biri var”, “Qələbələr çala ha”, “Nənə dürməyi”, “A dağlar”, “Qadın” N5(50)
33.**Gülnarə İSRAFİL** – “O dam yox”, “Təpəgözün nağılı”, “Göy qurşağı çəkildi”, “Sehr açа səhər”, “Məktublar”, “Kəpənək uçuşu”, “Keçdim”, “Gəlin”, “Sis tamğalı ötənək”, “Mantra” N5(50)
34.**Şərqiyyə BALACANLI** – “Unudulan deyilsən”, “Torpaq çağırır”, “Müharibə olmasın”, “Nihadla Nilay üçün”, “Şəhidlər 1”, “Şəhidlər 2”, “Şəhidlik zirvəsi”, “Tələsdin, nədən”, “Düşmənə”, “Xatirələr”, “Balalarım”, “Qələbə qapıları”, “İlqarım”, “Razıyam”, “Ata”, “Xocalı”, “Vətən düşünəndə”, “Xoşbəxt böyüsün balam”, “Əli bəy”, “Zarat”, “Qələbə sevinci”, “Ay Sənəm”, “Lənət olsun” N5(50), Sevimli rəhbər”, “Hamı əzizimdir”, “Mənim İbrahim balam”, “Təvazökar adam”, “Bilmirəm”, “Zəfər qazanan şəhidlərə”, “Dünyanın”, “Tələbəlik illəri”, “Vətən”, “Sərkərdə oldun”, “Nəvələrimə”, “Məhəbbə-

tim", "Qələbə sevinci", "Azərbaycan şəhidləri" N8(53)
35.**Bəxtiyar KAVANLI** – "Duyğularım", "Dostlar sevindi", "Gözəldi", "Dağların qış yuxusu", "İnsanlar da bir şeirdi", "Könlümün sözü var", "Sevinc-kədər həyatımdı", "Payız lövhələri", "İstehkamçılar", "Ərşdən gələn sovqatlar", "Haqqımız var", "Sevgiyə bax", "Xəbər ver", "Bu sahildə", "Laçından", "Vaxtıdır", "Peşman eləyər səni", "O mənəm", "Xəbərin olmadı", "Mümkün deyil" N5(50)
36.**Firəngiz ÜMİD** – "Gedirsən", "Analar", "Qıyma", "İntihar edən şəhid anasını qınayanlara", "Çingiz", "Bir güllə başlar", "Əsgərim", "Qoy var olsun dilimiz", Tapmacalar N5(50)
37.**Süleyman RZAZADƏ** – "Azərbaycan bayrağı", "Vətənim", "Baba", "Zəlimxan gedən gündən", "Şahbuzum", "Xoş gəlir", "Bizdədi", "Yaza bilmirəm", "Ceyranı", "Qayıt gəl" N5(50)
38.**Vasif SÜLEYMAN** - "Səyyah", "Solandı yanağın yaş olan yeri", "Bəlkə", "Beləcə", "Yaxşı unutdun", "Balaca adaşıma", "Nadir Azayoğluna" N6(51)
39.**Fərqanə SƏFƏRLİ** - "Buğda", "Həsrət yükü", "Soyuqsan", "Var", "Vüsal həsrəti", "Bahar qız", "Dua çərpələngi", "Yalan baxışlı", "Sən" xəstəliyi", "Ruhumun pərvanəsi", "Yasəmən itkisi", "Tənhalıq qulu" N6(51)
40.**Mirzəcan AĞABALAYEV**- "Darıxdırır adamı", "Sevgi yaşım", "Bu payız", "Vida əvəzi", "Elə bir yer-gün ola", "Görünmür" N6(51)
41.**Zöhrab MEHDİ** - "Göy dərdim", "Olmasın", "Ovuda bilmirəm", "Yuvarlağam", "Sən bir az fərqliydin", "Addım atdım", "Getmişəm" N6(51)
42.**Zülfü GƏNDƏBİLLİ** - "Ayrılıqlar", "Günəşin son şəfəqləri" N6(51)
43.**Polad MƏMMƏDOV** - "Torpağı", "Qalmadı", "Üstə", "Olsun" N6(51)
44.**Süleyman SƏRRAF** - "Məni görmədi", "Eşq bağı", "Növbə sənindi" N6(51)
45.**Sənan ASLAN** - "Sonra get", "Xəzərim", "Yağışım" N6(51)
46.**Mövlud AĞAMMƏD** - Qəzəllər N6(51)
47.**Saqi HƏSƏN** - "Sevgilim", "Bilmirəm", "Nə vaxtsa", "Nəzər dəysin dərdimə", "Ayrılıq", "Getdi", "Axı" N6(51)
48.**Günel AĞAZADƏ** - "Çətirsiz qadın", "Ədalətsiz dünya", "Özüməm də", "Yoxluq", "Xəyalımın rəngləri", "Düşünən məzar" N6(51)
49.**Sahibə YUSİF** - "Tənhalıq", "Çatmışıqqocalığa", "Darıxdırır bir azda" N6(51)
50.**Rəşad AZƏRİ** - "Cənnətdən gələn şəhid məktubu", "Mən onun şeiriyəm", "Fədakar qadın", "Özümdən üzr istəyirəm", "Zərif xanım", "Yalan", "Dünya", "Şair ürəyi", "Qədr gecəsi" N6(51)
51.**Xəyalə YAĞIŞLI** - "Qəlbi gözəl adamlar", "Qış olmasaydın" N6(51)
52.**Əlövsət HƏKƏRİLİ** - "Qızıma yazdığım II şeir", "Köçdün bu dünyadan", "Özbəkistan gözəli", "Şair Ramiz Rövşənə", "Qağa", "Sevmək istədim", "Atam balası", "Ruhdan düşmədim", "Ümid qaldı payıza", "Dünyanın sevinci" N6(51)
53.**Arif QARAMANLI** - Qəzəllər N6(51)
54.**Sevda İBRAHİM** - "Bayramın münbarək olsun", "Dünya" "Ruh kimi gəzən insanam" N6(51)
55.**Elgün İNCƏLİ** - "Allah bilir", "Haqqıdır", "Desinlər" N6(51)
56.**Şəlalə ŞƏFƏQ** - "Könlüm", "Məni boş ver", "Yaz məni", "Birlikdə darıxaq", "Dünya", "Niyə gördüm axı səni?", "O gün" N6(51)
57.**Elvin ELXANOĞLU** - "Əziz Şuşa", "Zəfər günü", "Anamızın qədrini bilək", "Atadı" N6(51)
58.**Şəfəq ÜFÜQ** - "Qəlb", "Bəxtəvər", "Al, gətir", "Bacım olaydı", "İstədim", "Ay", "Mən də istədim", "Qəlbimə dəymə" N6(51)
59.**Nəhayət MUSABƏYOVA** - "Qoca Çinar", "İydə çiçəkləri", "Vicdanın səsi", "Qədrimi bilmədi", "Xatirələrdə", "Qaytar məhəbbətimi", "Dönüb getdin", "Bir kəlmə" N6(51)
60.**Asif ŞAHİNOĞLU** - "Şəhid anası", "Sevgisiz şəhər", "Vaxtsız qocaldım", "Ana fəryadı", "Yaşayan ölüyəm" N6(51)
61.**Füzuli ABDULLAYEV** - "Keçən günlər", "Acı xəbər", "Möcüzəvi səhər", "Sevgi yolu" N6(51)
62.**Gülsənəm MAQSUDOVNA** - "Vətən əzizdi", "Gecəgözəlliyi" N6(51)
63.**Həsrət BƏHRAMOĞLU** - "Baxış o baxış deyil", "Ayırıb əllərimizi", "Bilənlər kimi", "Qarşılaşarıq" N6(51)
64.**Murad ZİYA** - "Sevgidən küsdüm", "Ömür yolu", "Mələk qadın", "Başqasını sevə bilmərəm", "Dünyanı necə sevim?", "Həyata vəfa yox", "Hardasan sən?", "Sən fərqli qadınsan", "Şeir qadın" N6(51)
65.**Mir ASLAN** - "Xatırlayın", "Əlvida", "Tapardın məni", "Olsun", "Unutmadıq", "Etiraf" N6(51)
66.**Kamran RZAYEV** - Adsız şeirlər N6(51)
67.**Anar ƏHMƏDOV** – "Azərbaycan-Özbəkistan" N7(52)
68.**Murad MƏHƏRRƏM** – "Vətən", "Baş Komandanım", "Baxıram qaranlıq pəncərələrdən", "Hələ də gözümdən tökülür bu yaz", "Göyərtdi", "Yaxşılıq", "Qum saatıdır", "Azərbaycanım", "Dağlar məni sevir", "Yazdı, ay Allah", "Gedirəm", "Ağlıma batmır", "Oxuyur ustad Alim", "Üstünə", "Ağlama şəhid anası", "Qayıdaram", "Bu payız mənə oxşayır", "İki daşın arasında", "Bunu hardan biləcəksən?", "Tanıdım" N7(52)
69.**Qənirə ƏSGƏROVA** – "Hörmət", "Heç səndən gözləməzdim", "Namus" N7(52)
70.**Aynur QAFARLI** – "Azərbaycan", "Qumardı dünya", "İstəmirəm bu yuxudan oyanım", "Gəlmədin", "Bu dünyadan

hara çıxıb gedək ki...", "Mən səni başqa cür sevə bilmədim", "Bəlkə yaxındadır, bəlkə uzaqda", "Mənim ehtiyacım tək elə sənsən", "Hardan girdin gecə-gecə yuxuma", "Duraram sən gələn yolların üstdə", "Sənə bir məktub yazdım", "Hər səni düşünəndə", "Olar bir sual verim?", "Ehh, nə isə...", "Bundan o yana da var" N7(52)

71.**Kirman RÜSTƏMLİ** – "Ay şəhid bulağı", "Yazıram", "Gəncliyim, qayıt", "Mən Nərgizəm", "Xarı bülbülüm", "Arazım", "Anasız günlər", "İtirilmiş güman", "Bir ömür yaşadız", "Əlincə duyğuları", "Nəsimi tövhəsi", "Vətənsiz qalma", "Bu daş üstdə oturmuşam", "Bir sərdar tanıyıram", "Bu qızım baldı", "Tükənən ümid", "Sabahınız xeyir", "Qəlbin səsi", "Vətən bölünərmi?", "Sovur, xırman olaram", "Şeir" N7(52), "Batabatda bir gün", "Atalar", "Dar ağacı", "Sənə qalib gələcəyəm", "Adsız şeir", "Deyiləm", "Torpağın", "Qurban olum", "Ölməyi öyrətmədin, ana", "Salam söylə", "Haydı, hey" N9(54)

72.**Ələsgər TALIBOĞLU** – "Təbrizə gəldim", "Bəslədim", "Mənim yolum Təbrizə", "Təbriz bayatıları", "Biz bir idik", "O sahildə, bu sahildə", "Uol ver, Araz, yol ver mənə", "Vətən – o tay, Vətən – bu tay", "Təbriz qalxıb ayağa" N7(52)

73.**Könül HƏSƏNOVA** – "Mənim Aforizmlərim", "Axirətə saxla məni", "Hərdən xatırla məni", "Sevgim", "Sevgi bir az mən kimidir", "Sev məni", "Gedirəm", "Unudaq" N7(52)

74.**Qumru QÜDRƏT** – "Ayrılmışam ağır eldən", "Bülbül kimiyəm", "Ərəstə", "Al-qırmızı qərənfilsən", "Əlini ver əlimə", "İlahi sevgi", "Kaş yanımda olaydı", "Yenidən doğ, günəş", "Yaradıb Allah", "Ölərəm yazmayanda" N7(52)

75.**Fərhad ƏSGƏROV (RAMİZOĞLU)** – "Müəllim adını şərəfləndirdin" N8(53)

76.**Ay Bəniz ƏLİYAR** – "43 yaşıma gecikmiş məktub", "O dam", "Qızıma gecikmiş ad günü təbriki", "Yoxluq", "Hardan bilim", "Qapısı", "Qapının", "Gəzərsən", "Ölçüsü boyda", "Ana olmaq" N8(53)

77.**Mahir CAVADLI** – "Payız", "Qayıdarıq, inşallah", "Salam, od-ocağım", "Sənin axı nə yaşın ki...", "Çəkilir", "Qəhrəman Sivas", "İsti bir yay günü" N8(53)

78.**Zaur USTAC** –"Ustacam", "Araz", "Bayraq, bizim bayrağımız", "Nadanlıq", "Mən zəfərə təşnəyəm", "Bu payız", "Tuncaya", "Dağlar" N8(53), "Üç qardaş", "Bu payız", "Şanlı əsgər", "Pirdi hər əsgər", "Mən zəfərə təşnəyəm", "Araz" N9(54)

79.**Nəcməddin MÜRVƏTOV** – "Şuşada", "Çaşıb Nikol", "Nə olub axı", "Səslə", "Dözər yəni", "Səni anlamayan", "Günahı nə dünyanın?", "Heykəllərin günahı nə?", "Necə inandırım?", "Tələs" N8(53)

80.**Səyavuş VƏTƏNDAĞLI** – "Orda bir kənd var", "İndi sən hardasan, indi mən harda?", "Bu qatar", "Zəngilana" N8(53)

81.**Cahangir MİRZƏ** – "Dünya rəngləri", "Eşq", "Vətən şəkli", "Çəpik", "Bircə şeirim" (şeirlər – özbəkcədən tərcümə Şahməmməd Dağlaroğlunundur) N8(53)

82.**Vahid ÇƏMƏNLİ** – "Ata yurduna", "Bayraq", "Gedəsən", "Günlərin", "Mənim", "Olmur", "Yaşadın", "Bu eşqi", "Gələcəm", "Öyrən", "Əzizim", "Birgünlük qonağam" N9(54)

83.**Arzu ƏYYARQIZI** – "Ağlatma məni", "Haqq möhürün əlbət vurar", "Kəpənək sevgimiz", "Mən", "Dünya", "Qısılmağa gəlmişəm", "Təkcə sənsən gərəyim", "Yazıq", "Deyil", "Bax, bax" N9(54)

84.**İldırım ƏLİŞOĞLU** – "Gecikmiş peşmançılıq", "Xəzri", "Xəzərsahili parkda gördüklərim", "Giley", "Məni görmədin", "Çətin yaz", "Qalıb", "Nəsə", "Sevgidən yazma", "Qoşma" N9(54)

85.**Xatirə SƏFƏR** – "Yenidən doğulmaq", "Atacan", "Nakam sevgi", "Xocalı", "Duam", "Səni sevirəm", "Ümidsiz sevgi", "Huzur köşəm" N9(54)

86.**Esmira GÜNƏŞ** – "Ana vətən - AZƏRBAYCAN", "Salam, Qarabağ" N9(54)

87.**Ədalət NƏCƏFOĞLU** – "Paltar ipləri" N9(54)

88.**Xəlil TAHİRBƏYLİ** – "Nəvəm Rahula", "Sev məni, sevməyi bacarsan" N9(54)

89.**Yusif BAĞIROV** – "Sənmişsən demək", "Çağır məni yanına", "Dözmür ürək" N9(54)

90.**Könül TOVUZLU** – "Baxmayacağam", "Hələ də əzaba dözüb qalmışam", "Mənim deyilsən", "Niyə?" N9(54)

## Publisistika

1.**Əli BƏY AZƏRİ** – "Azərbaycan Yazıçılar Birliyi dilimizin müdafiəsinə qalxdı", Cənubi Azərbaycanda Qaçaq hərəkatı (Nizami Kolanılının "Qaçaq Ərşad" povestinə söz önü) N2(47), "İgidi öldürən şəhid", "Tankçı-döyüşçü zabit" (Baş leytenant Hümbətovun əziz xatirəsinə ehtiramla), "Baş redaktorun qeydləri" N4(49), "Günəş həmişə Şərqdən çıxıb, Qərbdə batıb", "Məhəmməd Füzuli əslində harada anadan olub?", "Arzular buz bağlayanda" (Mətanət Duyğulunun həyat hekayələri), "İntiqam Qasımzadə nağılı" N5(50), "Ədəbiyyatın mətbuatla vəhdəti" N6(51), "Dəllallar fürsət gözlər", "Ədəbiyyatın dil problemi", "Qax – Azərbaycanın Gürcüstanıdır!" N7(52), "Azərbaycan ədəbiyyatının rusdillilәri", "Kapitan Surxay Noçiyevin son əmri: "Ölmək olmaz!"", "Cəfərqulu babamın ulu babası" (oçerk)N8(53), -"Qalmışıq "ZƏND" ilə "ZƏNN" arasında", "Namiq Zaman poeziyasında Sarı Aşığa doğru", "Xəqani hücrəsində görüş" N9(54)

2.**Zaur USTAC** – "Yetmiş beşin mübarək, Ramiz İsmayıl", "Qarabağ sinəmdə açılan şıram" (Şair Budaq Təhməz yaradıcılığı haqqında) N2(47), "Sənətin seşdiyi adam – şəhid Həmdəm Ağayev", "İlham Qazaxlı ümumbəşəri şairdir" N7(52), "Tərəfsiz ədəbiyyat tarixdir" N8(53)

3.**Elnarə AKİMOVA** – "Əyyub Türkayın uşaq şeirləri – sadəliyin poeziyası" N2(47), Çağdaş dövr Azərbaycan ədəbiyyatında Azər Turan imzası" N9(54)

4.**Ramiz İSMAYIL** – "Haqlı sual" (Əbülfəz Əhmədin "dünya kimin evidir ki" kitabı ilə baş-başa qalanda), Həyatdan götü-

rülmüş ibrət dərsi (Xuraman Zakirqızının “Bağışlanmayan günah” povestində qadın dəyanəti) N2(47), “Xəzan” jurnalının baş redaktoruna” N4(49)
5.**Hacıməmməd MƏMMƏDOV** – “Yazıb-yaratmaq eşqilə yaşayan, öz dəsti-xətti olan şair Cəbrayıl Hüseyn” N2(47), “Onun sənət dünyası” (Murad Məhərrəmin 70 yaşına) N7(52)
6.**Kərim ŞÜKÜRLÜ** – “İntəhasızlıqdan doğan işıq” (Ayaz İmranoğlunun “Yad imza” romanı haqqında) N2(47), “Ayaz İmranoğlunun “Gizli qapı”sı” N5(50)
7.**Əyyub TÜRKAY** – “Müasir uşaq nəsrində Şəfahət Şəfi imzası” N4(49)
8.**Alı RƏHİMOĞLU** – “Tapındığın ədəbi işıq” (Ayaz İmranoğlu yaradıcılığına, xüsusən də “Gözəllik suyu” hekayələr kitabına bir nəzəri baxış) N4(49)
9.**Ələsgər TALIBOĞLU** – “Nəğməm pərvazlanıb uçandan bəri” (Şair Əhməd Sədərəkli yaradıcılığında poetik pöhrələr) N4(49), “Belə ucalasan ucalanda da”(Qurban Musayev yaradıcılığı barədə) N5(50), “İlhamı sinəsində çağlayan şair” (Budaq Təhməz – 85), “Qumru Qüdrətin könül çırpıntıları” N7(52), “Ələsgər sevdalı Ağ Aşıq Yusif Sədərəkli” N9(54)
10.**Kirman RÜSTƏMLİ** – “Keçmişdən bu günə boylanan əsər” (Nəzakət Cavadovanın “London saatı. Uzaq keçmişdə bir dəfə” romanının təqdimatı) N4(49)
11.**Tamara SADİQ** – “Sevgi həyatı mənalandırır” (Nəzakət Cavadovanın romanına oxucu münasibəti) N4(49)
12.**Vüsal AĞA** – “Məhəmməd Füzuli yaradıcılığı” N5(50)
13.**Damət SALMANOĞLU** – “Boğulan arzular” (oçerk – bir həyat hekayəsi) N5(50)
14.**Xatirə FƏRƏCLİ** – “Dağıstan Günəşi” (esse) N5(50)
15.**Düzgün ATALI** – “Ağır seyidlər qurultayı” (reportajsayağı) N5(50)
16.**Rüstəm KAMAL** – “Molla Pənah Vaqifin güzgüsü” N6(51)
17.**Vaqif YUSİFLİ** – “Həkim, şair, bəstəçi - bu Şahin Musaoğludur” N6(51)
18.**Aslan BAYRAMOV** – “Deportasiya, yurd həsrəti və şəhidlik mövzularının bayatılarımızda psixoloji layı” N6(51)
19.**Aygün YAŞAR** – “Şair qizilgül əkir sözün bitdiyi yerə” N6(51)
20.**Kənan HACI** – “Bir daha şairlər güllələnməsin” N6(51)
21.**Xaqani ABBASƏLİ** – “Halallığın poeziyası” N6(51)
22.**Nadir AZAYOĞLU** – ““İzm”siz şair” N6(51)
23.**Həsən HÜSEYNLİ** – “Polad Məmmədovla üz-üzə” N6(51)
24.**Şahnaz ŞAHİN** – “Zöhrab Mehdinin söz dünyası” N6(51)
25.**Leyla SƏFƏROVA** – “Şəhriyarin dilinin Naxçıvan şivələrində təzahürü” N6(51)
26.**Xəyalə HƏMZƏLİYEVA** – “Baqilik və bəqa aşiqləri” N6(51)
N6(51)
27.**Səkinə NAĞIZADƏ** – “Aşıq Murad Çobanoğlu və türk dastançılıq ənənəsi” N6(51)
28.**Vüqar ƏHMƏD** – “Bədii publisistika ədəbi mətbuatda” N7(52)
29.**Ələddin ALLAHVERDİYEV** – “Daim axtarışda olan yaradıcı, nəcib insan” (Araz Yaquboğlunun 50 yaşına) N7(52)
30.**Əhməd HAQSEVƏR** – “Aynur Qafarlının poeziya dünyası” N7(52), “Şeirdən yoğrulan xanım” (Lilpar Cəmşidqızının yaradıcılığından N9(54)
31.**Xuraman ZAKİRQIZI** – “Dəyanət simvolu” (oçerk) N7(52)
32.**Vüsal AĞA** – “”Haqqın sədası”nda bir “Ömür qatarı” gedir” (Minarə Sığnaqın yaradıcılığı haqqında) N7(52)
33.**Əbülfət HƏSƏNOĞLU** – “Məhəbbət və ehtiyac” N7(52)
34.**Nəzakət CAVADOVA** – “Əlimdə bir cüt qərənfil”, “Mən eşqi bitirmişəm” N8(53), “Sən mənim şəhidimsən, mən isə on milyonam”, “Məxfilik qrifi” N9(54)
35.**Dilbər RZAYEVA** – “Satirik “Məşəl” jurnalı” N8(53)
36.**Röya TALIBLI** – “Azərbaycan mədəniyyətinin keşikçisi” N8(53), “Xalq dekorativ tətbiqi sənətinin incisi – xalçalar” N9(54)
37.**Kifayət MƏMMƏDOVA** – “Azərbaycan çağdaş xanım şairəsi” (Həmidə Rəiszadə - “Səhər”) N8(53)
38.**Ruqiyə İSMAİLOVA** – “Azərbaycan gəncliyinin xilaskarı” N8(53), “Basqalda aparılan elmi-arxeoloji qazıntılar” N9(54)
39.**Sədaqət ƏLİYEVA** – “Ağamir Cavad: “Dəniz adam”” N9(54)
40.**Ümbülbanu MUSAYEVA** – “Kirman Rüstəmli yaradıcılığından bir yaşıl yarpaq” N9(54)
41.**Elvin İNTİQAMOĞLU** – “Onun verdikləri” (Rüstəm Muğanlının yaradıcılığına bir baxış) N9(54)
42.**İbrahim YUSİFOĞLU** – “Adəm Asninin hekayə yaradıcılığı” N9(54)
43.**Anar İBRAHİMOV** – “Sakit Məmmədovun yaradıcılığında Heydər Əliyevin portretinin bədii xarakteristikası” N9(54)

## YAZI DÜZÜMÜ

1.Redaktor guşəsi
-"Qalmışıq "ZƏND" ilə "ZƏNN" arasında"....1
-"Rüstəm Muğanlı – 55"....58
-""Xəzan" – 2023"....138

2.Publisistika
-Elnarə AKİMOVA – "Çağdaş dövr Azərbaycan ədəbiyyatında Azər Turan imzası"....2
-Sədaqət ƏLİYEVA – "Ağamir Cavad: "Dəniz adam""....19
-Ümbülbanu MUSAYEVA – "Kirman Rüstəmli yaradıcılığından bir yaşıl yarpaq"....28
-Elvin İNTİQAMOĞLU – "Onun verdikləri" (Rüstəm Muğanlının yaradıcılığına bir baxış)....36
-İbrahim YUSİFOĞLU – "Adəm Asninin hekayə yaradıcılığı"....40
-Nəzakət CAVADOVA – "Sən mənim şahidimsən, mən isə on milyonam", "Məxfilik qrifi" (esselər)....70
-Əhməd HAQSEVƏR – "Şeirdən yoğrulan xanım" (Lilpar Cəmşidqızının yaradıcılığından)....78
-Ruqiyə İSMAİLOVA – "Basqalda aparılan elmi-arxeoloji qazıntılar"....90
-Əli BƏY AZƏRİ – "Namiq Zaman poeziyasında Sarı Aşığa doğru"....94
-Ələsgər TALIBOĞLU – "Ələsgər sevdalı Ağ Aşıq Yusif Sədərəkli"....101
-Röya TALIBLI – "Xalq dekorativ tətbiqi sənətinin incisi – xalçalar"....106
-Anar İBRAHİMOV – "Sakit Məmmədovun yaradıcılığında Heydər Əliyevin portretinin bədii xarakteristikası"....111
-Əli BƏY AZƏRİ – "Xəqani hücrəsində görüş"....136

3.Poeziya
-Vahid ÇƏMƏNLİ – "Ata yurduna", "Bayraq", "Gedəsən", "Günlərin", "Mənim", "Olmur", "Yaşadın", "Bu eşqi", "Gələcəm", "Öyrən", "Əzizim", "Birgünlük qonağam" (şeirlər)....6
-Arzu ƏYYARQIZI – "Ağlatma məni", "Haqq möhürün əlbət vurar", "Kəpənək sevgimiz", "Mən", "Dünya", "Qısılmağa gəlmişəm", "Təkcə sənsən gərəyim", "Yazıq", "Deyil", "Bax, bax" (şeirlər)....16
-Hafiz ƏLİMƏRDANLI – "Rübailər", "Qəzəllər" (şeirlər)....25
-Kirman RÜSTƏMLİ – "Batabatda bir gün", "Atalar", "Dar ağacı", "Sənə qalib gələcəyəm", "Adsız şeir", "Deyiləm", "Torpağın", "Qurban olum", "Ölməyi öyrətmədin, ana", "Salam söylə", "Haydı, hey" (şeirlər)....31
-Damət SALMANOĞLU – "Qələbə müjdəsi sənə yaraşır", "Qardaş", "Necəsən?", "Özümün sınağıyam", "Bir müdrik tanıdım", "Tanrı türk elinə yar olacaqdır", "İlahi, sən özün əlini uzat", "Duyasan gərək", "Yazı, yayı var", "Kim bahar verəcək, kim yay verəcək", "Ələsgərin", "Ürək alova bürünər" (şeirlər)....37
-Seynur SÖNMƏZ PAŞAYEV – "Qız qəhət deyilmiş ulu Gəncədə", "Səni misralara köçürmüşəm mən", "İndi", "Gəlib, gedirsən", "Sonra", "Şairlər", "Gecələr darıxır adam", "Məhəbbətimsən", "Sənin de, qürbətdə nə itin azıb?", "Mən belə adamam", "Sənə deyiləsi ayrı sözüm yox", "Ağlımdan", "Zəfərin mübarək, Azərbaycan", "Elini sevdim sənin", "Olsun, olmasın", "Üzün məndən döndümü?" (şeirlər)....51
-İldırım ƏLİŞOĞLU – "Gecikmiş peşmançılıq", "Xəzri", "Xəzərsahili parkda gördüklərim", "Giley", "Məni görmədin", "Çətin yaz", "Qalıb", "Nəsə", "Sevgidən yazma", "Qoşma" (şeirlər)....67
-Məhəmməd ƏLİ – "Nə ömürdür yaşayıram?" (şeir)....73
-Ramiz İSMAYIL – "Dünya gözəl dünyadır", "İndi nədən yazırsan?", "Yazıram", "Ay qoca dünya", "Yaşa hələ" (şeirlər)....76
-Bəxtiyar ABBAS İNTİZAR – "Salavat", "Şəkildə", "Çətindi", "Amannamə", "Deyir", "Sinəm", "Aşağı", "Edərdim", "Söyüdlü", "Qalıbdı", "Eləmi?", "Gəlmişəm", "Olam", "Gedirəm", "Çıxır", "Qan şeiri" (şeirlər)....80
-Xatirə SƏFƏR – "Yenidən doğulmaq", "Atacan", "Nakam sevgi", "Xocalı", "Duam", "Səni sevirəm", "Ümidsiz sevgi", "Huzur köşəm" (şeirlər)....88
-Esmira GÜNƏŞ – "Ana vətən - AZƏRBAYCAN", "Salam, Qarabağ" (şeirlər)....93
-Ədalət NƏCƏFOĞLU – "Paltar ipləri" (şeir)....99
-Zaur USTAC – "Üç qardaş", "Bu payız", "Şanlı əsgər", "Pirdi hər əsgər", "Mən zəfərə təşnəyəm", "Araz" (şeirlər)....103
-Xəlil TAHİRBƏYLİ – "Nəvəm Rahula", "Sev məni, sevməyi bacarsan" (şeirlər)....110
-Yusif BAĞIROV – "Sənmişsən demək", "Çağır məni yanına", "Dözmür ürək" (şeirlər)....114
-Könül TOVUZLU – "Baxmayacağam", "Hələ də əzaba dözüb qalmışam", "Mənim deyilsən", "Niyə?" (şeirlər)....135

4.Nəsr
-Daşqın MƏMMƏDOV – "Ata Şuşa" (povest)....9
-Fərhad ƏSGƏROV (RAMİZOĞLU) – "Rüşvət necə gizlədilirdi?" (hekayə)....35
-Adəm ASNİ – "Məzən olsun", "Vida" (hekayələr)....46
-Rüstəm MUĞANLI – "Dayanacaq", "Yuxu" (hekayələr)....59
-Naibə YUSİF – "Astana" (hekayə)....73
-Əvəz KÜSKÜN – "Samovar əhvalatı" (hekayə)....84
-Namiq ZAMAN – "Gəncliyini axtaran adam" (hekayə)....96
-Ayaz İMRANOĞLU – "Sevgilimin oğlu qardaşımdı (romandan bir parça – son, əvvəli jurnalın 50, 52 və 53-cü saylarında)....115